

# 5

MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

# Ədəbiyyat





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT HİMNİ

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhmməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

# 5

**Soltan Əliyev, Bilal Həsənov,**
**Əminə Səfərova, Əsgər Quliyev**

# Ədəbiyyat

Umumtəhsil məktəblərinin 5-ci sinfi ucun "Ədəbiyyat" fənni uzrə
müəllim üçün metodik vəsait

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 24.05.2016-cı il tarixli
354 №-li əmri ilə təsdiq olunmuşdur.

B A K I N Ə Ş R

Bakı – 2016

B.Həsənov, S.Əliyev, Ə.Səfərova, Ə.Quliyev
Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün “Ədəbiyyat” fənni üzrə müəllim üçün metodik vəsait.
Bakı, “Bakınəşr”– 2016, 208 səh.

Müəllim üçün metodik vəsaitlə bağlı rəy, irad və təkliflərin bn@bakineshr.az və derslik@edu.gov.az elektron ünvanlara göndərilməsi xahiş olunur. Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

©-Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2016

**BAŞLIQLAR**

Giriş ....... 5

Fənn kurikulumu tələblərinin "Ədəbiyyat" dərslik komplektində reallaşdırılması mexanizmlərinin şərhi ....... 5

Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarının tətbiqi ....... 10

Layihələr üzrə işin təşkili ....... 17

V sinif ədəbiyyat fənninin kurikulumu ....... 18

Fənn üzrə məzmun standartlarının reallaşdırılması cədvəli ....... 20

Mövzular üzrə məzmun standartlarının reallaşdırılması, təlim məqsədləri və fənlərarası inteqrasiya ....... 23

V sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi ....... 24

Fəndaxili inteqrasiya ....... 33

Fənlərarası inteqrasiya ....... 36

Ədəbiyyat fənni üzrə yeni məktəbdaxili qiymətləndirmə ....... 36

**Mövzular üzrə təlim materialları ilə iş texnologiyasının şərhi ....... 41**

Bədii ədəbiyyat söz sənətidir ....... 41

**Şifahi xalq ədəbiyyatı inciləri**

Ana maral (əfsanə) ....... 44

İnşa yazmağı öyrənirik ....... 52

Xalq öz vətənini necə tapdı (Şimali Amerika əfsanəsi) ....... 58

Yetim İbrahimin nağılı ....... 62

Üç qardaş (özbək nağılı) ....... 68

Kiçik summativ qiymətləndirmə vasitələri ....... 73

**Yurd sevgisi, ana məhəbbəti**

Əhməd Cavad. Azərbaycan! Azərbaycan! ....... 77

Əli Tudə. Yaşayanlar görəcəkdir ....... 82

Hüseyn Arif. Analar ....... 88

Kiçik summativ qiymətləndirmə vasitələri ....... 93

**Mənəvi dəyərlər, həmişəyaşar hikmətlər**

Ənvər Əlibəyli. İlan və Qurbağa ....... 97

Cek London. Kiş haqqında hekayət ....... 103

Kiçik summativ qiymətləndirmə vasitələri ....... 110

**Müharibə və insan haqqı**

Xəlil Rza Ulutürk. Oğul həsrəti ....... 114

Maqsud İbrahimbəyov. Püstə ağacı ....... 119

Elçin Hüseynbəyli. Firuzə qaşlı xəncər ....... 126

Kiçik summativ qiymətləndirmə vasitələri ....... 134

**Uşaq dünyası, uşaq taleyi**
Əhməd Cəmil. Can nənə, bir nağıl de! .... 137
Mark Tven. Fərasətli oğlan .... 142

**Əməyə məhəbbət, zəhmətə çağırış**
Nizami Gəncəvi. Kərpickəsən kişinin dastanı .... 147
Süleyman Rəhimov. Qara torpaq və sarı qızıl .... 152
Kiçik summativ qiymətləndirmə vasitələri .... 157

**Təbiətin gözəlliyi, təbiətə qayğı**
Abdulla Şaiq. Köç .... 161
Səməd Vurğun. Çinarın şikayəti .... 169
Fikrət Qoca. Şuşa .... 174
Kiçik summativ qiymətləndirmə vasitələri .... 179

Gündəlik planlaşdırmaya aid nümunələr .... 182

Layihələr .... 203

Mənbələr .... 207

# GİRİŞ

## FƏNN KURİKULUMU TƏLƏBLƏRİNİN "ƏDƏBİYYAT" DƏRSLİK KOMPLEKTİNDƏ REALLAŞDIRILMASI MEXANİZMLƏRİNİN ŞƏRHİ

*Hörmətli müəllimlər!*

V siniflərdə ümumi təhsilin kurikulumuna müvafiq olaraq, ədəbiyyat müstəqil fənn kimi tədris olunmağa başlayır. Bu fənn üzrə dərslik komplektinə iki kitab daxildir:

*1. "Ədəbiyyat" dərsliyi.*
*2. Müəllim üçün metodik vəsait.*

Dərslik komplektində qarşıya qoyulan başlıca **məqsəd** V sinfin ədəbiyyat kurikulumundakı **məzmun standartlarının** reallaşdırılmasını və **təlim nəticələrinə** nail olunmasını təmin etməkdir.

Dərslik komplektində Təhsil Nazirliyinin milli dəyərlərimizə söykənən, şəxsiyyətin formalaşmasına təsir edən fənlərlə bağlı müsahibədə öz əksini tapmış belə bir haqlı mövqeyi nəzərə alınmışdır ki, "biz azərbaycanlı uşaqlara Oksford dərslikləri əsasında tarixi, ədəbiyyatı və hətta coğrafiyanı tədris edə bilmərik". (Azərbaycan Respublikasının təhsil naziri M.Cabbarov: Müəllimlik bir missiyadır. "Azərbaycan müəllimi" qəzeti, 15 avqust 2014-cü il).

Təhsil nazirinin "Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə" əmrində (№1279. 16 dekabr 2014-cü il) göstərilir ki, qloballaşmanın qarşısıalınmaz prosesə çevrildiyi hazırkı dövrdə milli dəyərlərin, xalqımızın mənəvi simasını əks etdirən mədəni irsin və adət-ənənələrin qorunub saxlanılaraq nəsildən-nəslə ötürülməsində və onların digər mədəniyyətlərlə müqayisə olunub müvafiq nəticələr çıxarılmasında mütaliə əvəzsiz təsir gücünə malikdir.

Bununla belə, aparılan pedaqoji müşahidələr və təhlillər göstərir ki, son zamanlar ümumtəhsil məktəblərində şagirdlərin mütaliəyə istiqamətləndirilməsi, onlarda mütaliə mədəniyyətinin formalaşdırılması üzrə zəruri tədbirlərin həyata keçirilməsi əvvəlki dövrlərlə müqayisədə zəifləmişdir. Bununla əlaqədar, şagirdlərin mütaliəsi işinin təşkilindəki təcrübədə sınaqdan çıxmış ənənələri bərpa etmək, onların mütaliəyə həvəsini daha da gücləndirmək və mütaliə vərdişlərini inkişaf etdirmək təhsil sahəsində prioritet vəzifələrdən biridir (http://edu.gov.az/az/page/81/9763).

Milli səciyyə daşıyan, eyni zamanda müasir pedaqoji-psixoloji, metodik nailiyyətləri özündə ehtiva edən dərslik komplektində hər iki metodoloji istiqamət əsas götürülərək başlıca olaraq, aşağıdakı vəzifələrin yerinə yetirilməsi ön plana çəkilir:

- milli və ümumbəşəri mənəvi dəyərlərə yiyələnmiş, müasir dünyagörüşlü, cəmiyyət hadisələrinə çevik, həssas və obyektiv münasibət bəsləyən, geniş bilik dairəsinə, bədii təxəyyülə, obrazlı və məntiqi təfəkkürə, idraki bacarıqlara malik şəxsiyyətin formalaşdırılması;
- ədəbiyyat dərslərində müəllim-şagird fəaliyyətinin tam təsəvvür olunması və üzvi şəkildə əlaqələndirilməsi;
- müəllimin planlaşdırmadan qiymətləndirməyədək bütün fəaliyyətinin istiqamətləndirilməsi;
- təlim prosesində şagirdlərdə fəallıq və müstəqilliyin, həyati bacarıqların formalaşdırılması.

**"Ədəbiyyat" dərsliyini səciyyələndirən başlıca cəhətlər:**

- şagirdlərin bədii ədəbiyyata, mütaliəyə marağını gücləndirir, onlara milli və ümumbəşəri mənəvi dəyərlərin aşılanmasını təmin edir;
- məktəbliləri axtarışa, tədqiqatçılıq fəaliyyətinə, fərqli mənbələrdən biliklər əldə etməyə sövq edir;
- məntiqi, tənqidi, yaradıcı (bədii) təfəkkürü inkişaf etdirir;
- həyati bacarıqların formalaşmasını təmin edir;
- fəndaxili və fənlərarası inteqrasiya imkanlarını reallaşdırmağa zəmin yaradır;
- fəal/interaktiv təlim şəraitinin yaradılmasını təmin edir;
- şagirdlərin fərqli idraki imkanlarının nəzərə alınmasına imkan yaradır.

**Dərsliyə aşağıdakı materiallar daxil edilmişdir:**

- dərslikdən istifadə qaydalarına aid tövsiyələr;
- Azərbaycan və xarici ölkələrin şifahi və yazılı ədəbiyyat nümunələri;
- əsərin məzmununun mənimsənilməsi və təhlili üzrə sual və tapşırıqlar;
- şifahi və yazılı nitqin inkişafı üçün sual və tapşırıqlar;
- araşdırmaya, yaradıcı işlərin təşkilinə istiqamətləndirən sual və tapşırıqlar;
- ədəbiyyat nəzəriyyəsinə aid materiallar;
- elektron resurslardan istifadə üçün tapşırıqlar;
- sinifdənxaric oxu materialları əsasında qrup və fərdi layihə nümunələri;
- özünüqiymətləndirmə, formativ və summativ qiymətləndirmə materialları;
- yaradıcı tətbiqetmə, müxtəlif mənbələrdən istifadə ilə bağlı sual və tapşırıqlar;
- ifadəli oxuda istifadə edilən şərti işarələr;
- bədii mətnlərdə şagirdlərə tanış olmayan sözlərin izahlı lüğəti;
- qısa ədəbiyyatşünaslıq terminləri lüğəti (dərslikdə istifadə olunan bəzi terminlərin izahı).

Dərsliyə daxil edilmiş bədii əsərlər aşağıdakı **meyarlar** əsasında seçilmişdir:
- yüksək ideya-bədii dəyərə malik olması;
- mövzu, janr müxtəlifliyi, aktual mənəvi-estetik problemləri əks etdirməsi;
- dünya ədəbiyyatının dəyərli nümunələri;
- humanist istiqaməti, şagird şəxsiyyətinə müsbət təsiri;
- şagirdlərin əqli və mənəvi inkişafı məqsədlərinə, maraq dairəsinə, yaş və qavrama səviyyələrinə uyğun olması.

Bədii əsərlər seçilərkən tarixi-mədəni ənənələrimiz, ədəbi təhsil sisteminin zəngin təcrübəsi nəzərə alınmışdır. Seçilmiş bədii nümunələr vasitəsilə milli və ümumbəşəri mənəvi dəyərlər, vətənpərvərlik, soykökünə bağlılıq, təbiətə qayğıkeş münasibət, insan hüquq və azadlıqlarına hörmət hissi aşılanması imkanları diqqət mərkəzində saxlanılmışdır.

Məktəblərimizdə uzun illər tədris olunmuş uğurlu əsərləri hər nəsil özü üçün "kəşf edir", əvəzlənən nəsillər üçün həmin əsərlər həmişə qiymətli və yenidir. Bu, bütün dünyada belədir: M.Ridin, C.Londonun, A.Puşkinin, M.Lermontovun və digər görkəmli sənətkarların əsərləri yüz illərdir ki, məktəb proqramında öz yerini qoruyub saxlayır. Bizdə də N.Gəncəvinin, M.Füzulinin, C.Məmmədquluzadənin, A.Şaiqin, Mir Cəlalın, S.Vurğunun, M.Hüseynin və bir sıra digər klassiklərimizin əsərləri ədəbiyyat təlimində layiqli yerini tutmuşdur. Bu baxımdan bədii əsərlər şəxsiyyətin formalaşmasında bir vasitədir və əslində, təlimdə yenilik texnologiyaların, yanaşmanın mahiyyətində, kurikulumun tələblərindədir.

Xalqımızın taleyində, vətənimizin son dövrlərdəki tarixində özünü göstərmiş mühüm hadisələri əks etdirən əsərlərin dərsliyə daxil edilməsi isə vacibdir və bu, diqqət mərkəzində saxlanılmışdır.

Ədəbiyyat nəzəriyyəsi üzrə biliklərin (nağıl, təmsil, hekayə, epitet, bənzətmə və s. haqqında) bədii əsərlərin öyrənilməsi prosesində tətbiqi məqsədilə sual və tapşırıqlar sistemi işlənilmişdir.

"Ədəbiyyat" dərsliyi aşağıdakı **pedaqoji prinsiplər** əsasında tərtib edilmişdir:

- *düzgünlük*;
- *əyanilik;*
- *müasirlik;*
- *tamlıq;*
- *ardıcıllıq;*
- *yaş səviyyəsinə uyğunluq;*
- *təlim vaxtına uyğunluq;*
- *oxunaqlılıq;*
- *inklüzivlik;*
- *inteqrativlik .*

***Müəllim üçün metodik vəsaitə aşağıdakılar daxildir:***

- *dərslərin müasir tələblər əsasında keçilməsinə dair metodik tövsiyələr;*
- *dərsliyin tərtibi prinsipləri;*
- *dərslikdə verilmiş təlim materiallarının illik və gündəlik planlaşdırma nümunələri;*
- *mövzular üzrə məzmun standartlarının reallaşdırılması, təlim məqsədləri və fənlərarası inteqrasiya cədvəli;*
- *fəndaxili inteqrasiya imkanları;*
- *dərslərin fəal/interaktiv metodların tətbiqi ilə təşkili texnologiyası;*
- *formativ, summativ və özünüqiymətləndirmə materialları;*
- *təlimin təşkilində çoxvariantlılığın təmin edilməsi məqsədilə əlavə məlumat, sual və tapşırıqlar;*
- *sinifdənxaric oxu materialları əsasında layihə üzrə işin təşkilinə dair tövsiyələr;*

– *şagird üçün əlavə oxu mənbələri və materialları;*
– *istifadə olunmuş materialların (resursların) siyahısı.*

**Metodik vəsaitdə** kurikulum üzrə dərslərin səmərəli təşkili ilə əlaqədar, müəllimin fəaliyyətinin başlıca istiqamətləri, onun yaradıcılıq və təşəbbüskarlığına imkan yaradan vasitələr öz əksini tapmışdır. Vəsaitdə təqdim edilən yeni tipli dərs nümunələrində fəal/interaktiv təlimin imkanlarının, şagird-şagird, şagird-müəllim əməkdaşlığının reallaşdırılması diqqət mərkəzində saxlanılmışdır. Bu və ya digər mövzunun tədrisi üçün daha əhəmiyyətli olan fəal/interaktiv təlim metodlarına geniş yer verilmişdir. Dərs nümunələrində təlim metodlarının və tapşırıqların çoxvariantlılığı təmin edilmiş, konkret şəraitə uyğun olaraq, müəllim üçün seçim imkanı yaradılmışdır.

*Şübhəsiz, müəllim dərs nümunələrinə ehkam kimi yanaşmamalı, metodik tövsiyələrdən yaradıcılıqla bəhrələnməlidir.* Metodik tövsiyələr işlənərkən belə bir cəhət əsas götürülmüşdür ki, hər bir müəllim təqdim olunmuş yeni tipli dərsin məzmunundan və quruluşundan çıxış edərək orijinal dərs qura bilsin. Bu, dərslikdəki materiallara fərqli yanaşmanı da nəzərdə tutur. *Məsələn, dərslikdə təklif olunmuş tapşırıqlara müəllimin əlavələr etməsi, yaxud onlarda ixtisarlar aparması təbiidir. Həmin tapşırıqların bir çoxunun sinifdə, yaxud evdə yerinə yetirilməsini qarşıya qoyduğu məqsəddən asılı olaraq, müəllim təyin edir.*

Fənn üzrə iş dəftəri olmasa da, dərslikdəki sual və tapşırıqlar hər bir mövzu üzrə əhatəli, sistemli işin aparılmasına imkan verir. Onların səmərəli icrası üçün, bir sıra hallarda qabaqlayıcı tapşırıqların verilməsi faydalıdır. Məsələn, "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş işləri sinifdə icra etdirməyi planlaşdıran müəllimin qabaqlayıcı tapşırıqdan istifadə etməsi məqsədəuyğundur. Belə olanda şagirdlər müxtəlif mənbələrdən məlumat toplamaq üçün vaxt baxımından daha geniş imkan qazanmış olurlar.

Bir sıra hallarda dərslikdəki müəyyən tapşırıq digərinin tələblərini öz üzərinə götürə bilər. Deməli, hər iki tapşırığın tətbiqinə ehtiyac qalmır. Məsələn, əsərin bütövlükdə oxusundan sonra məzmunla bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq məqsədilə dərslikdəki suallardan da istifadə etməklə müsahibənin aparılması tövsiyə olunur. Müsahibədə əsərin məzmununun əhatəli qavranıldığı aşkara çıxarsa, şifahi nitqlə bağlı tapşırığa sinifdə müraciət olunmaya bilər. Bu məsələdə ən mühüm olan budur ki, müəllim konkret mövzu (dərs) üçün müəyyənləşdirdiyi məqsədlərdən asılı olaraq, bu və digər tapşırığın icrasını təşkil edir. Yəni *hər bir mövzu ilə əlaqədar verilmiş tapşırıqların hamısının icra etdirilməsi zəruri deyil.* Deməli, müəllim dərsdə reallaşdıracağı məzmun standartlarına (və ondan irəli gələn təlim məqsədlərinə) xidmət edən tapşırıqların üzərində dayanmalıdır. Məsələn, şagirdlərdə süjetli bədii əsəri hissələrə ayırmaq, plan tərtib etmək bacarığını formalaşdıran müəllimin bu işi hər dərsdə icra etdirməsi vacib deyil. Yaxud dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqların böyük bir qismi şagirdlərin müstəqil fəaliyyətinə istiqamət vermək məqsədini güdür. Deməli, bu qəbildən olan tapşırıqların icrasına hər dərsdə vaxt ayrılmasına ehtiyac yoxdur. Şagirdlərin çıxardıqları nəticələri isə yığcam müsahibə, yaxud təqdimatlar, çıxışlar vasitəsilə müzakirə etmək mümkündür.

Məzmun standartlarının reallaşdırılması baxımından təlim məqsədlərinin düzgün müəyyənləşdirilməsi zəruridir. Bu baxımdan bütün mövzularda müvafiq alt standartlara uyğun təlim məqsədlərinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılmışdır. Təlim məqsədlərinin yerinə yetirilməsi məzmun standartlarının addım-addım reallaşdırılmasını, ilin sonunda isə gözlənilən təlim nəticələrinin əldə olunmasını təmin edir.

Təlim prosesində **inklüzivliyin** təmin olunması üçün müxtəlif tip – bərpaedici və

yaradıcı, qapalı, açıq, yarımaçıq suallardan istifadə olunmuş, bunlardan konkret təlim şəraitinə uyğun istifadə ilə bağlı tövsiyələr verilmişdir.

Gündəlik planlaşdırmaya dair dərs nümunələri tədris materiallarının illik planlaşdırılmasına uyğun olaraq işlənilib. Bu zaman metodik ənənələrlə yanaşı, metodika elminin son nailiyyətləri, kurikulum sənədlərinin tələbləri əsas götürülmüşdür. Dərs nümunələrinin məktəb təcrübəsində uğurlu tətbiqini təmin etmək üçün respublikamızın qabaqcıl müəllimlərinin, o cümlədən "İlin müəllimi" müsabiqəsinin iştirakçıları və qaliblərinin iş təcrübəsi diqqətlə öyrənilmiş, Bakı şəhərindəki bir sıra məktəblərdə sınaq dərsləri keçirilmişdir. Eyni zamanda ibtidai təhsil pilləsində (I–IV siniflər) Azərbaycan dili fənni üzrə kurikulumun tətbiqi təcrübəsi də öyrənilmiş, nəticələr çıxarılmışdır.

Məlumdur ki, ədəbiyyat təliminin əsasında bədii əsərlərin oxusu və təhlili dayanır. Bədii əsərlərin ədəbiyyat dərslərində müzakirəsi şagirdlərdə oxuya maraq və oxucu üçün vacib olan bacarıqlar formalaşdırmalı, bu, nəticə etibarilə yüksək ideya-bədii dəyərə malik söz sənəti nümunələrinin müstəqil mütaliəsinə gətirib çıxarmalıdır. Şagirdlərin müstəqil oxusunu istiqamətləndirmək məqsədilə oxunması məsləhət görülən əsərlərin siyahısı dərsliyə daxil edilmişdir. Bu oxuya nəzarət və nəticələrin yoxlanılmasını **sinifdənxaric oxu əsasında layihələr üzrə işlər vasitəsilə** reallaşdırmaq məqsədəuyğundur. Ədəbiyyat müəllimi şagirdlərin mütaliə marağını nəzərə alaraq tövsiyə edilən əsərləri dəyişə bilər.

Dərs tipləri ədəbiyyat fənninin səciyyəsinə uyğun olaraq müəyyənləşdirilmişdir: induktiv (yeni biliyin mənimsənilməsi), deduktiv (təkrar və ümumiləşdirmə), bədii əsərin öyrənilməsi, nitq inkişafı (inşa yazı). Bununla yanaşı, nəzərə almaq lazımdır ki, müasir ədəbiyyat dərsləri çox vaxt müxtəlif dərs tiplərinin qovuşuğunda yaranır. Kurikulum üzrə hər bir ədəbiyyat dərsində, əslində, yeni bilik müvafiq mövzu üzrə əvvəl qazanılmış bilik və bacarıqlara istinad etməklə mənimsədilir, təkrar və ümumiləşdirmə aparılır. Hər bir ədəbiyyat dərsində fənnin təbiətinə uyğun olaraq, şagirdlərin nitq inkişafı üzrə ardıcıl və sistemli iş aparılır və s.

İllik planlaşdırmada inşa yazı dərslərinə I yarımildə 3 saat, II yarımildə isə 4 saat olmaqla cəmi 7 saat nəzərdə tutulmuşdur. Şagirdlər bədii əsərlərin öyrənilməsinə həsr olunan dərslərdə də yazılı nitqin inkişafı üzrə tapşırıqlar (inşa, esse və s.) icra edirlər. Bütün dərs nümunələrində elektron resurslardan, əyani vasitələrdən (şəkillər, illüstrasiyalar və s.) istifadəni nəzərdə tutan sual və tapşırıqlar işlənilmiş, metodik tövsiyələr verilmişdir.

"Kitabxanadan və internetdən bəhrələnin" başlıqlı tapşırıqlar məktəb kitabxanası ilə yanaşı, internetdən istifadə etmək imkanı və arzusu olan şagirdlərin könüllü olaraq yerinə yetirməsi üçün nəzərdə tutulmuşdur. Bu tapşırıqların nəticəsi şagird portfoliosuna qoyula bilər.

Kurikulum üzrə dərslərdə qazanılmış bilik və bacarıqların yaradıcı tətbiqinin mühüm yollarından biri olan **ev tapşırıqları** yeni yanaşma tələb edir. Ənənəvi dərslərdən fərqli olaraq, fəal/interaktiv dərsdə ev tapşırıqlarının yoxlanılmasını məqsədə çevirmək doğru deyildir. Müəllim vaxt itkisinə yol verməmək üçün tapşırıqların icra (mənimsənilmə) səviyyəsini seçmə yolla, qısa vaxt ərzində müsahibə, təqdimat, müzakirə və s. istifadə etməklə aşkara çıxara bilər. Bu məqamda müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur. O, ev tapşırığının hansı məzmunda və formada verilməsini təlim məqsədlərindən çıxış edərək müstəqil də müəyyənləşdirə bilər. Bəzi yaradıcı tapşırıqların nəticələrinin şagird portfoliosuna toplanması məqsədəuyğundur.

## Ədəbiyyat dərslərində yeni təlim texnologiyalarının tətbiqi

Yeni təlim texnologiyalarından məqsədyönlü istifadə, fəal/interaktiv metodların düzgün seçilməsi və tətbiqi kurikulum üzrə dərslərdə mühüm tələb kimi qarşıya qoyulur. Fəal/interaktiv təlim şagirdlərin biliyi hazır şəkildə deyil, müstəqil, yaradıcı, tədqiqatçılıq fəaliyyəti nəticəsində əldə etməsinə əsaslanır. Bu təlim şagirdlərin fəal idrak fəaliyyəti zəminində və təhsil prosesinin digər iştirakçıları ilə əməkdaşlıq şəraitində həyata keçirilir. Fəal/interaktiv təlimə məxsus metodların seçilməsi fənnin mahiyyətinin, özünəməxsusluğunun nəzərə alınması zəminində reallaşdırılır. Metodların tətbiqi o vaxt uğurlu olur ki, təlim materialının xüsusiyyətləri (həcmi, mürəkkəbliyi, çətinlik səviyyəsi), şagirdlərin onlarla tanışlığı və s. nəzərə alınmış olsun. Deməli, bu gün pedaqoji araşdırmalarda adı çəkilən metodların hamısından ədəbiyyat dərslərində istifadə etməyin mümkün olduğunu düşünənlər səhv edirlər.

Fəal/interaktiv təlimdə şagirdlərin idrak fəallığının təmin edilməsi diqqət mərkəzində saxlanılır. Bu məsələdə iki cəhətə önəm verilir. Birincisi idrak fəallığının yaradılması, ikincisi onun davamlılığına nail olunmasıdır. Şagirddə idrak fəallığının yaradılması hələ işin bir tərəfidir. Yaradılmış fəallığın şagirdin təlimi fəaliyyətinin (və dərsin) bütün mərhələlərində, məqamlarında saxlanması, davamlı olması da zəruridir. Buna nail olmaq üçün aşağıdakı tələblərin (onlara "mexanizmlər" də deyilir) gözlənilməsi vacibdir.

### Problemli vəziyyətin yaradılması

Fəal/interaktiv təlim şagirdlərdə idraki maraq, problemin həlli üçün daxili tələbat yaradır. Bunun üçün problemli vəziyyətin (motivasiyanın) yaradılması, öz həllini gözləyən problemin qoyuluşu, tədqiqat sualının müəyyənləşdirilməsi zəruri olur. Birmənalı cavabı olmayan, müxtəlif fərziyyələr, fikirlər yaradan, şagirdi bir növ yolayrıcında qoyan düşündürücü suallardan istifadə edilir. Tədqiqat sualı şagirdlər üçün həll edilən səviyyədə olmalı, araşdırma aparmağa, bilik və bacarıqları yeni situasiyada tətbiq etməyə imkan verməlidir.

### Dialoq və əməkdaşlığın zəruriliyi

Fəal/interaktiv təlimi bəzən "problem-dialoji" də adlandırırlar. Bu, həmin təlimdə dialoqa, əməkdaşlığa üstünlük verildiyini təsdiq edir. Məsələ burasındadır ki, fəal dərsin bütün mərhələlərində dialoq və müxtəlifyönümlü ("müəllim-şagird", "şagird-şagird"...) əməkdaşlıq özünü qabarıq göstərir. Dərsdə araşdırılan problemin səmərəli həlli ilk növbədə şagirdlərin özlərinin dialoqu, əməkdaşlığı şəraitində mümkündür. Bu isə fəallığın təmin edilməsində əhəmiyyətli rol oynayır.

### Şagird-tədqiqatçı, müəllim-bələdçi

Fəal/interaktiv dərsdə şagird təlim prosesinin obyektinə yox, subyektinə, bərabərhüquqlu iştirakçısına çevrilir, bilikləri kəşf edən tədqiqatçı kimi çıxış edir. Onun yeni bilik və bacarıqlara yiyələnməsi tədqiqatın aparılması qanunlarına əsaslanmaqla reallaşır. Bu dərslərdə şagirdlərin tədqiqatçılıq, müzakirə olunan məsələdə əsas və ikinci dərəcəli cəhətləri fərqləndirmək, başlıca fikri müəyyənləşdirmək, təhlil aparmaq, qruplaşdırmaq, müqayisə etmək, nəticə çıxarmaq, təqdim etmək bacarıqları inkişaf etdirilir. Məktəblilər yeni bilik və bacarıqlarını irəlicədən qazanılmış bilik və bacarıqlarla əlaqələndirir və təcrübədə tətbiq edirlər.

Müəllimin mövqeyi də ənənəvi təlimdəkindən fərqlənir. O, indi "bələdçi, istiqamət

verən" mövqeyində olur. Müəllimin dərsdəki, ümumən təlimdəki işi, fəaliyyəti fərqli məzmun qazanır. O, dərsin bütün mərhələlərində şagirdlərlə əməkdaşlıq edir, onlara biliklərin əldə edilməsi, mənimsənilməsi yollarını öyrədir.

### Psixoloji dəstək: hörmət və etibar

Şagirdin idrak fəallığının təmin edilməsi dərsdəki mühitdən, qarşılıqlı münasibətdən – inam, etibar, hörmət, dəstəkdən çox asılıdır. Şagirdlərin bəziləri çevik, digərləri ləng olur. Biri sürətlə düşünür, digərinin fikirləşməsində lənglik müşahidə edilir. Müəllim isə onların hər birinə xeyirxah, hörmətcil münasibət bəsləməlidir. Heç birindən nəvazişini əsirgəməməlidir. Şagirdin çalışmaq cəhdi, göstərdiyi (dərəcəsindən asılı olmayaraq) hər bir səy müəllim tərəfindən hörmətlə qarşılanmalı və dəyərləndirilməlidir. Müəllimdən bu cür isti münasibəti, mehribanlığı, diqqəti hiss edən şagirddə həm özünə inam, həm də müəllimə etibar hissi möhkəmlənir. Beləliklə, etimad hissi formalaşır, uğursuzluq qorxusu şagirdin canından çıxır. Bütün bunlar şagirdin idrak fəallığının yaranmasında və davamlılığında əhəmiyyətli rol oynayır.

### Fəal/interaktiv təlimin iş formaları

Fəal təlimin iş formaları aşağıdakılardır:

– *fərdi iş;*

– *kiçik qruplarda iş;*

– *cütlük şəklində iş;*

– *bütün siniflə birgə iş.*

Təcrübə göstərir ki, interaktiv təlim şəraitində müxtəlif iş formalarının – fərdi iş, cütlük şəklində iş, kiçik qruplarda iş, bütün siniflə birgə işin uzlaşdırılması daha səmərəlidir.

**Fərdi iş** verilən tapşırığın bir şagird tərəfindən yerinə yetirilməsidir. Fərdi iş zamanı şagird müstəqil işləyir, əldə etdiyi nəticəni tələb olunan məqamda digərləri ilə müzakirə edir.

**Cütlük şəklində iş** zamanı məktəblilər tapşırıqlar üzərində cütlərə ayrılaraq (adətən, öz parta yoldaşı ilə və ya yerini dəyişərək digər şagirdlə birlikdə) işləyirlər. Bu zaman məktəblilər qarşıya qoyulan suala cavab tapmaq üçün bir-birinə kömək edir, öz işlərinin nəticəsi barədə fikir mübadiləsi aparır, bir-birinin cavabını qiymətləndirirlər.

**Kiçik qruplarda iş** şagirdlərin 3–6 nəfərdən ibarət qrupda qarşıya qoyulmuş problemi həll etmək üçün birgə, uzlaşdırılmış fəaliyyətidir. Aparıcı (nümayəndə) qrupun işini təşkil edir, bütün üzvlərin müzakirə prosesində fəal iştirakına çalışır, mövzudan yayınmağa yol vermir, bütün əhəmiyyətli fikirlərin qeydə alınmasına nəzarət edir. Qrup daxilində vəzifə bölgüsünün aparılması faydalıdır.

### Qruplara bölmənin üsulları:

– rəqəmləri saymaqla (3–6-ya qədər sayma);
– meyvə adları saymaqla (alma, armud, nar, banan və s.);
– həndəsi fiqurları paylamaqla (düzbucaqlı, kvadrat, kub, çevrə, romb və s.);
– rəngli fiqurları paylamaqla (qırmızı, sarı, göy, ağ və s.).

Kiçik qrup üzrə tapşırığın yerinə yetirilməsinə vaxt ayrılır və elan edilir. Qrupun üzvləri əlbir fəaliyyət zamanı bir-birinin işinə nəzarət edir, yardım göstərir. Müəllim bütün qruplara eyni münasibət bəsləməli, zərurət yaranarsa, məsləhətlər verməlidir. Qruplara eyni və ya müxtəlif tapşırıqlar verilir.

**Bütün siniflə birgə iş** (buna "böyük qrupda iş" də deyilir) formasından da geniş istifadə

edilir. Bu iş formasında sinfin bütün şagirdlərinin sual və tapşırıqlar üzrə işə cəlb edilməsi, cavabların, söylənilən fikirlərin geniş müzakirəsi nəzərdə tutulur. Beyin həmləsi, diskussiya, debat metodlarının tətbiqində daha çox bu iş formasına müraciət olunur.

## Fəal/interaktiv təlimin metodları

Pedaqoji ədəbiyyatda fəal/interaktiv təlimə məxsus metodlarla bağlı mübahisələr bu gün də davam edir. Onları "texnikalar", ("priyom" anlamında), "iş üsulları", "şagirdlərin müstəqil işinin növləri" və s. adlandıranlar da var. Təəssüf ki, bu metodların hələ mükəmməl təsnifatı da işlənməmişdir. Bu istiqamətdə tədqiqatlar davam edir. Məktəblərimizdə onlardan yaradıcılıqla istifadə edilir. Bu, həmin metodların təkmilləşdirilməsi baxımından faydalıdır.

Ədəbiyyat təlimi üçün daha səciyyəvi və tətbiq imkanları geniş olan metodlar aşağıdakılardır.

## Fasilələrlə oxu

Əsərin mətni əvvəlcədən hissələrə bölünür. Bir hissə oxunduqdan sonra fasilə edilir və müəllim oxunmuş hissənin məzmununa dair suallar verir. Cavablar dinlənilir və növbəti hissə oxunmağa başlanır. Üçüncü, dördüncü hissələr də bu şəkildə oxunur və fasilələrdə məzmun üzrə müsahibə aparılır.

Sonuncu hissənin oxusundan sonrakı fasilədə şagirdlərə aşağıdakı məzmunda da suallar verilə bilər:

- Hadisələrin belə bitəcəyini düşünürdünüzmü?
- Qəhrəmanın hərəkətləri, başına gələn hadisə sizə necə təsir etdi?
- Sizcə, qəhrəmanı nə gözləyir?

## Proqnozlaşdırılmış oxu

Bədii əsərlərin məzmununun öyrənilməsinə həsr olunan dərsdə əsərdən bir hissə oxunduqdan sonra fasilə edilir. Şagirdlər hadisələrin sonrakı inkişafı barədə ehtimallarını söyləyir və cədvəldə qeyd edirlər. Cədvəldə, həmçinin ehtimallarında nəyə əsaslandıqlarını da qeyd edirlər. Yeni parça oxunduqdan sonra əvvəlki ehtimallarının üzərinə qayıdır, baş verən hadisələrlə nə dərəcədə səsləşdiyini aydınlaşdırırlar. Bu qayda sona kimi davam edir.

| Əsərin hissələri | Sizcə, nə baş verəcək? | Nə üçün belə düşünürsünüz? | Nə baş verdi? Hadisələr necə davam etdi? |
|---|---|---|---|
| I hissə | | | |
| II hissə | | | |

## İkihissəli gündəlik

Bunun pedaqoji ədəbiyyatda bəzən "sitat" və onun "şərhi" (yəni mətndən sitat seçilir və nə üçün seçilməsinin səbəbi şərh olunur) kimi qələmə verilməsi doğru sayıla bilməz. Bu, onun imkanlarının məhdudlaşdırılması deməkdir. Şagirdlər bu gündəlikdə ("şərh" bölməsində), yeri gəldikcə, müstəqil aydınlaşdıra bilmədikləri sualları da yazırlar. Eləcə də mətndən seçilərək yazılan qeydlər şagirdlərdə hansı hiss və düşüncə oyadıbsa, həyat

təcrübəsi ilə səsləşibsə, yadına müəyyən əhvalat salıbsa və s. gündəliyin şərh bölməsində yazıla bilər. Məhz buna görə də "sitat" və "şərh" sözləri gündəliyin məzmununa uyğun gəlmir.

Təcrübə göstərir ki, cədvəlin birinci tərəfində "əsərdə diqqətimi daha çox cəlb edənlər", ikinci tərəfdə "bunun səbəbi" yazılması məqsədəuyğundur. "İkihissəli gündəlik" müxtəlif formalarda tətbiq oluna bilər. Şagirdlər mətni oxuya-oxuya gündəlikdə müvafiq qeydlər aparırlar. Əsərin oxusu, qeydlərin aparılması başa çatdıqdan sonra şagirdlər yenidən mətnə müraciət edir, qeydlərini zənginləşdirirlər.

Məsələn, F.Qocanın "Şuşa" şeirinin tədrisində "İkihissəli gündəlik"dən aşağıdakı şəkildə istifadə etmək mümkündür:

| | **Əsərdə diqqətimi daha çox cəlb edənlər** | **Bunun səbəbi** |
|---|---|---|
| 1. | Burda cəm olubdur əzəmət, vüqar,<br>Duman çəkiləndə hər səhər-səhər.<br>Dumandan tökülüb qalır qayalar,<br>Dumandan səpilir çölə çiçəklər. | Gözəl mənzərədir...<br>Şuşanın gözəlliyi çox yaxşı ifadə edilib. |
| 2. | Şuşa, ucalmısan boz buludlara,<br>Vətən torpağının heykəlisən sən. | Şair Şuşanın əzəmətindən söz açır. |
| 3 | "Dağ öz ətəyini", "hər dağ daşa dönmüş", "dağ düyüb alnını dərdi var kimi" | Şair "dağ" sözünü niyə, hansı məqsədlə tez-tez işlədir? |

## Müzakirə

Müzakirə mövzu üzrə ideya, məlumat, təəssürat, təhlil və təkliflərin qarşılıqlı mübadiləsidir. Onun əsas vəzifəsi problemi təhlil edərək həlli yolunu tapmaq, düzgün qərar qəbul etmək üçün imkan yaratmaqdır. Müzakirə debat üçün hazırlıq mərhələsi kimi aparıla və ya debatla müşayiət oluna bilər. Müzakirə dinləmək, təqdim etmək, sual vermək mədəniyyətini formalaşdırır, şagirdlərin məntiqi və tənqidi təfəkkürünü, şifahi nitqini inkişaf etdirir.

Müzakirədən əvvəl şagirdlərə müzakirə qaydaları xatırladılır. Müzakirə üçün ziddiyyətli yanaşmalara imkan verən mövzu, problem müəyyənləşdirilir. Problem aktual, şagirdlərin həll etməsinə imkan verən səviyyədə olmalıdır. Şagirdlər problem üzrə tədqiqat aparır, mənbələrlə işləyir, öz mövqelərini dəqiqləşdirir, mülahizələrini əsaslandırmaq üçün dəlillər, faktlar seçir, fikirlərini müzakirə üçün təqdim edirlər.

Müzakirə prosesini inkişaf etdirən suallar vermək və şagirdlərin cavablarını nəzərdən keçirməklə müəllim müzakirəni tənzimləyir. Bu zaman cavabı "bəli" və ya "xeyr" olan qapalı suallar vermək məqsədəuyğun hesab edilmir.

Müzakirədə mövzuya aid: *Nə baş verdi? Nə üçün baş verdi? Bu başqa cür ola bilərdimi və necə? Siz bu vəziyyətdə nə edərdiniz? Sizin fikrinizcə, həmin qəhrəman nə hiss etdi? Sizcə, kim haqlıdır? Nə üçün?* kimi suallardan istifadə olunur.

## Əqli hücum

Bu, pedaqoji ədəbiyyatda "*beyin həmləsi*" də adlandırılır. Problemin həlli yolları üzrə müxtəlif ideyaların irəli sürülməsi vasitəsi kimi istifadə olunur. Əqli hücum tətbiq edilərkən sual lövhəyə yazılır və ya şifahi şəkildə verilir. Şagirdlər vaxt itirmədən problemlə bağlı yığcam şəkildə müxtəlif ideyalar, təkliflər irəli sürürlər. Söylənilən bütün mülahizələr

heç bir şərh verilmədən, tənqidi münasibət bildirilmədən lövhədə qeyd olunur. Sonra təhlil, müzakirə təşkil edilir. Müxtəlif ideyalar qiymətləndirilir, lehinə və əleyhinə fikirlər söylənilir. Nəticədə şagirdlər müzakirə olunan problemin həlli üçün faydalı hesab etdikləri ideyaları seçirlər.

### Söz assosiasiyaları

Söz assosiasiyaları dərsin əvvəlində, sonunda, şifahi və yazılı formada tətbiq edilə bilər. Mövzunun öyrənilməsinin əvvəlində söz assosiasiyalarının tətbiqi məktəblilərin bu məsələ barədə biliklərini müəyyənləşdirmək məqsədi izləyir. Dərsin sonunda isə söz assosiasiyaları vasitəsilə şagirdlərin artıq mənimsəmiş olduğu yeni biliklər üzə çıxarılır.

Bu məqsədlə mövzu ilə bağlı əsas söz (sözlər) lövhəyə yazılır. Şagirdlərə tapşırılır ki, həmin sözün onlarda yaratdığı assosiasiyaları (bu sözü eşitdikdə, gördükdə ağıllarına gələn digər sözləri) desinlər və ya dəftərlərində yazsınlar.

Şagirdlərin 1–2 dəqiqə ərzində mövzu üzrə əsas sözlə bağlı söylədikləri və ya dəftərlərində qeyd etdikləri sözlər lövhəyə yazılır. Bu sözləri əlaqələndirmək və ümumiləşdirməklə yeni mövzunun əsas məqsədləri ilə bağlı fikir, ideya formalaşdırılır. Həmin ideya, fikir əsasında yeni materialın öyrənilməsinə başlanılır.

### İNSERT (interaktiv qeydetmə sistemi)

Bu, mövzunu, problemi fəal şəkildə dərketməyə sövq edir. Belə ki, mətn şagirdlərə paylanılır və işarələr sistemindən istifadə etməklə onun üzərində qeydlər aparılır.

Şagirdlər müəllimin tapşırığı ilə mətni oxuyur, səhifənin kənarında bu və ya digər cümlə, fikir, abzas, hissə ilə bağlı müvafiq şərti işarələr qoyurlar:

“√” – bilirəm; “—“ – ziddiyyətli informasiya;

“+” – yeni informasiya; “?” – aydın deyil.

Beləliklə, həmin işarələrin köməyi ilə mətnin necə qavranıldığı, anlaşılan, qəbul edilən, yeni, maraqlı sayılan və ya başa düşülməyən, ziddiyyətli informasiya müəyyənləşdirilir. Təkrar oxu, müzakirə zamanı müvafiq işarələrə istinad etməklə şagird məsələyə münasibət bildirir, uğurlu və ya ziddiyyətli məqamları qeyd edir, öz mülahizələrini əsaslandırır.

Mətn üzrə iş zamanı aparılmış qeydlər toplanaraq cədvəl şəklində də əks etdirilə bilər. Məsələn:

| √ | — | + | ? |
|---|---|---|---|
| 4 | 6 | 5 | 3 |

### Müqayisə cədvəli

Müqayisə üçün bir-birinə oxşar, mahiyyət etibarilə yaxın obyektlər (obrazlar, əsərlər, janrlar və s.) götürülür. Müqayisənin tətbiqi zamanı vahid əsas (məsələn, müqayisə olunan obrazların vətənə, əməyə, insanlara və s. münasibəti) gözlənilməli, obyektlərin xüsusiyyətləri bu əsaslar üzrə aşkara çıxarılmalıdır.

Obyektlər arasındakı oxşar, yaxud fərqli cəhətlərin (eləcə də eyni vaxtda hər iki cəhətin) aşkara çıxarılması ilə yanaşı, oxşarlıq və fərqlərin izahı, aralarındakı əlaqələrin səbəbi aydınlaşdırılmalı, nəticə çıxarılmalıdır.

Məsələn, S.Rəhimovun "Qara torpaq və sarı qızıl" hekayəsindəki qardaşların təhlilində müqayisə cədvəlindən istifadə faydalıdır.

| | **Qardaşların** | **Şahməmməd** | **Xanməmməd** | **Bəyməmməd** |
|---|---|---|---|---|
| 1. | Əməyə münasibəti | 1. Əməyə xor baxır, heç bir işlə məşğul olmur. | 1. Tənbəldir, iş görmək onun üçün ən ağır cəzadır. | 1. Zəhməti sevmir, faydalı bir iş görmür, ortada yeyib qıraqda gəzir. |
| 2. | Atalarına münasibəti | 2. Atasının nəsihətlərini dinləmir, sözlərinə əhəmiyyət vermir. | 2. Atasının zəhmətini qiymətləndirmir, de-diklərinə əməl etmir. | 2. Ağır zəhmətə qatlaşan atasını saymır. Xeyli sonralar – atası öləndən sonra onun ləyaqətli adam olduğunu anlayır. |

### Venn diaqramı

Venn diaqramından bədii əsərləri, ədəbi qəhrəmanları, nəzəri anlayışları və s. müqayisə etmək məqsədilə istifadə olunur. Müqayisə aparmaq üçün kəsişən dairələr çəkilir, nəyin müqayisə olunacağı və dairələrdə oxşar və fərqli cəhətlərin necə qeyd ediləcəyi izah olunur. Fərqli cəhətlər sağ və sol tərəfdə, oxşar cəhətlər kəsişmə dairəsində qeyd edilir.

### BİBÖ

BİBÖ (bilirik, bilmək istəyirik, öyrəndik) şagirdlərin əvvəlki biliyi, təcrübəsi ilə yeni biliklər arasında əlaqə yaratmağa imkan verir, mövzu, problem barədə düşünməsini stimullaşdırır. Şagirdlərə BİBÖ-nün mahiyyəti və məzmunu haqqında məlumat verilir, hansı mövzular üzrə əlaqə yaradılacağı müəyyənləşdirilir.

Müəllim lövhədə üç sütundan ibarət cədvəl qurur və aşağıdakı bölmələri qeyd edir: "bilirik", " bilmək istəyirik", "öyrəndik".




Cütlər və ya qruplar mövzu barəsində əvvəlki biliklərinə dair qeydlər aparırlar. Təqdim olunmuş materiallar oxunduqdan sonra müəllim ikinci sütundakı suallara qayıdır, əgər mətndə sualların cavabları verilibsə, onları üçüncü sütunda qeyd etməyi tapşırır.

Şagirdlər əvvəlki biliklərini (I sütunda qeyd edilənləri) yeni öyrəndikləri biliklərlə (yeni öyrənilənlər sütunundakı məlumatla) müqayisə edir, nəticə çıxarırlar.

### Debat

Debat zamanı müzakirə aparan tərəflər bir-birini deyil, üçüncü tərəfi (dinləyiciləri) inandırmağa, onlara təsir göstərməyə çalışır. Debatda çıxış edən hər iki tərəfin qarşısında

duran başlıca vəzifə öz mövqeyini əsaslandırmaq, haqlı olduğunu sübut etməkdir. Bunun üçün, ilk növbədə, inandırıcı dəlillər tapılması, əks tərəfin irəli sürdüyü dəlillərə tənqidi yanaşılması, onların əsaslandırılmış şəkildə təkzib edilməsi zəruridir.

Bu zaman üçüncü tərəf – dinləyicilər onları daha çox inandıran tərəfin mövqeyini qəbul edir, öz seçimlərində onlara üstünlük verir və bunun səbəbini açıqlayırlar. Debat üçün seçilən mövzu aktual, maraqlı olmalı, çıxış edənlər fakt və sübutlarla danışmalı, müxtəlif səciyyəli suallardan istifadə etməli, dinləyiciləri inandırmağı bacarmalıdırlar.

### Şaxələndirmə (klaster)

Şaxələndirmə **ş**agirdləri mövzu haqqında düşünməyə, əsas anlayışa aid əlavə məlumat, məna əlaqələri tapmağa sövq edir. Bu, şagirdlərin mövzu ilə bağlı əvvəlki biliklərini nəzərdən keçirməyə, sistemə salmağa, söz ehtiyatlarını zənginləşdirməyə şərait yaradır.

Bu məqsədlə şagirdlərə tanış olan mövzu ilə bağlı əsas söz və ya ifadələr lövhəyə yazılır. Şagirdlər bu anlayışla əlaqədar söz və ya ifadələri söyləyirlər. Əsas sözdən başlayaraq hər növbəti söz əlaqəli olan digər sözlə xətlərlə birləşdirilir. Vaxt bitəndən sonra nəticə müzakirə edilir, ümumiləşdirmə aparılır.

Şaxələndirmədən mövzunun öyrənilməsinin əvvəlində şagirdlərin bu barədə nə bildiklərini aydınlaşdırmaq, həm də dərsin sonunda yeni nə öyrəndiklərini aşkara çıxarmaq məqsədi ilə istifadə edilə bilər. Məsələn, S.Vurğunun "Ceyran" şeirinin tədrisinə həsr olunan birinci dərs saatında problemli vəziyyət yaratmaq məqsədilə şaxələndirmədən istifadə etmək mümkündür.

### Rollu oyun

Rollu oyunun mahiyyəti hər hansı bir problemə fərqli mövqedən yanaşmalardan ibarətdir. Şagirdlər (qruplar) müxtəlif rolları öz üzərlərinə götürür və hər hansı bir hadisəni bu mövqedən qiymətləndirirlər. Bu, şagirdlərə hadisələrin iştirakçısı olmaq və mövcud vəziyyətə başqalarının gözü ilə baxmaq imkanı verir. Məsələn, şagirdlər müəllimin tapşırığı ilə əsərin qəhrəmanının hərəkətlərinə hakim, vəkil, zərərçəkmiş, şahid, valideyn kimi fərqli münasibət bildirə bilərlər.

Rollu oyun şagirdlərin fərqli düşüncə tərzinə malik həmyaşıdlarını başa düşmələri üçün faydalı vasitələrdən biridir. O, problemə digər adamın gözü ilə baxmağa, vərdiş halını almış stereotiplərdən uzaqlaşmağa və yeni davranış modellərinə yiyələnməyə imkan verir.

### Ziqzaq

Metodik ədəbiyyatda "ziqzaq" əvəzinə, "zəncirvarı oxu" termininin işlədilməsi münasib sayılır. Bu, mətnin məzmununu qısa müddət ərzində daha çox şagirdin mənimsəməsinə imkan yaradır. Şagirdlər dörd nəfərlik əsas qruplara bölünür. Qruplardakı şagirdlər yenidən 1-dən 4-dək sayırlar. Hər qrupdakı eyni rəqəmli şagirdlərdən yeni qrup (ekspert qrupu) yaradılır. Əsərin mətni qrupların sayı qədər hissələrə bölünür və ekspert qruplarına verilir. Ekspert qrupları onlara verilən hissəni oxuyur, "Mən əsas qrupa başlıca olaraq nəyi çatdıracağam?" sualına cavab verir. Qrupların daxilində müzakirə aparılır, onun hər bir üzvünün mətnin məzmununu tam qavradığı dəqiqləşdirilir.

Ayrı-ayrı ekspert qruplarında müxtəlif iş növlərindən (oxunmuş hissə üzrə təəssüratların yazılması, plan tutulması, məzmunun müxtəlif formalarda – yığcam, geniş, nağıl edilməsi) istifadə oluna bilər. Ekspert qruplarında iş başa çatdıqdan sonra şagirdlər əvvəlki qruplarına – əsas qrupa qayıdır və öyrəndiklərini digərlərinə çatdırırlar. Müəllim məzmunun dəqiq çatdırıldığını yoxlamaq üçün suallar verə bilər.

## Təqdimat

İnteraktiv təlim zamanı təqdimat mühüm əhəmiyyət kəsb edir. Məktəblilər tədqiq etdikləri məsələ barədə əldə olunan nəticələri sinif qarşısında müxtəlif formalarda (çıxış, yazı işi, cədvəl, sxem və s.) təqdim edirlər.

Təqdimat zamanı şagird problemin mahiyyəti ilə bağlı fikirlərini aydın, ardıcıl şəkildə çatdırmalıdır. Mövzu, problem dəqiq şərh edilməli, informasiya-kommunikasiya vasitələri, illüstrasiyalar, fotoşəkillərdən istifadə olunmalıdır.

Bununla yanaşı, ədəbiyyat təlimində özünü doğrultmuş, uzun illərin sınağından uğurla çıxmış ənənəvi metodlardan da yeri gəldikcə istifadə oluna bilər. Məsələn, müasir ədəbiyyat dərslərini ənənəvi yaradıcı oxu metodunun tərkib hissəsi olan, kurikulumda alt standart kimi qeyd edilən ifadəli oxusuz təsəvvür etmək qeyri-mümkündür.

Yaxud izahlı oxudan istifadə həmişə faydalı olacaqdır. Şagirdlərin müstəqil izah etməkdə çətinlik çəkdikləri mətləblərin, mətnaltı mənaların izahlı oxu ilə aydınlaşdırılmasına ədəbiyyat dərslərində tez-tez ehtiyac yaranır.

## Layihələr üzrə işin təşkili

İllik planlaşdırmada layihələr üzrə işə I yarımildə 2 saat, II yarımildə 3 saat olmaqla il ərzində cəmi 5 saat ayrılmışdır. Birinci saatda layihələrin təqdimatı, ikinci saatda isə onların müzakirəsinin keçirilməsi məqsədəuyğundur. Müəllim dərsliyin sonunda verilmiş layihə nümunələrindən başqa, məqsədəuyğun hesab etdiyi və şagirdlərin maraq və qabiliyyətlərinə uyğun digər layihələr üzərində də iş təşkil edə bilər. Layihələrin nəticəsi şagird portfoliosuna yığıla bilər. Müəllim üçün vəsaitin sonunda 1-ci və 2-ci yarımil üçün tövsiyə olunan layihə materialları verilmişdir.

Layihələr məktəblilərin müəyyən mövzu üzrə müstəqil tədqiqat aparmalarını nəzərdə tutur. Layihə üzərində işin vaxtı dəqiqləşdirilir, şagirdlərə tövsiyələr, məsləhətlər verilir.

Problem konkret olmalıdır. Müəllim və şagirdlər birlikdə layihə üzərində işin icra müddətini, istifadə olunacaq vasitələri (ədəbiyyat, mənbə, təsvir vasitələri və s.), bunları əldə etmək yollarını, iş formalarını müəyyən edirlər. İş prosesində müəllim şagirdlərə istiqamət verə bilər. İşin icrasına isə şagirdlər cavabdehdir. Tədqiqatın nəticəsi təqdimat, illüstrasiya, fotoşəkillər, videomaterial, albom, toplu, səhnələşdirmə formasında ifadə oluna bilər.

Layihə şagirdlərin mövzunun, bölmənin öyrənilməsinə yönəlmiş, müəllimin tövsiyəsi ilə hazırlanan və həyata keçirilən yaradıcı müstəqil işidir.

Bu metod təlimin fəal zəmində, şagirdlərin məqsədyönlü fəaliyyəti əsasında təşkilini nəzərdə tutur. Şagirdlər layihə üzrə iş zamanı ədəbiyyat dərslərində əldə etdikləri bilik və bacarıqların həyatda onlar üçün nə dərəcədə gərəkli olduğunu başa düşürlər. Layihə üzrə fəaliyyət üçün şagirdlərdə maraq oyadan, onları fəaliyyətə, o cümlədən mövzu, problem üzrə sinifdənxaric oxuya sövq edən problem seçilir. Layihə üzrə fəaliyyətin məqsədi həmin problemin həlli yollarını tapmaqdan ibarətdir. Müəllim bu məqsədlə şagirdlərə yeni informasiya mənbələri, müstəqil axtarışların hansı istiqamətdə aparılması ilə bağlı tövsiyələr verir.

Layihə üzrə işi şagirdlər kiçik qruplarda və müstəqil həyata keçirə bilərlər. Maraqlı problemin həllinə yönəlmiş belə fəaliyyət məktəbliləri təlim məqsədlərinə, eləcə də maraqlarına uyğun sinifdənxaric oxuya cəlb etməklə öz imkanlarını üzə çıxarmağa, bacarıqlarını sınamağa, təqdim etməyə şərait yaradır. Məsələn, V sinifdə təbiət mövzusunda əsərlər öyrənildikdən sonra şagirdlərə "Azərbaycan şairlərinin şeirlərində təbiətin tərənnümü" mövzusunda təqdimat hazırlamaq təklif oluna bilər. Məqsəd şagirdlərdə doğma yurdun təbiətinə məhəbbət hissinin dərinləşdirilməsi, yaradıcılıq qabiliyyətlərinin, estetik duyumun, idraki fəallığın inkişaf etdirilməsidir. Bu metod üzrə iş aşağıdakı mərhələlərdə həyata keçirilir:

1. **Hazırlıq** (layihənin mövzusu və məqsədi aydınlaşdırılır). Şagirdlərə təbiət mövzusunda əsər yazmış sənətkarlar haqqında albom hazırlamaq təklif olunur. Onlar tapşırığı yerinə yetirərkən sənətkarlar haqqında məlumat toplayır, əsərlərinə illüstrasiyalar çəkir, albomun bədii tərtibatı ilə məşğul olurlar. Layihə üzrə fəaliyyət prosesində toplanmış materialın albomda necə yerləşdirilməsi, başlıqlar, mətnlərin əlaqələndirilməsi və s. məsələlər öz həllini tapır.
2. **Planlaşdırma.** Şagirdlər qarşıya qoyulan məqsədə uyğun olaraq, qruplara ayrılırlar. Hər qrup ilin bir fəsli üzrə əsərlər toplayır. Layihə ilə bağlı müxtəlif ideyaların, təşəbbüslərin, təkliflərin üzə çıxarılması məqsədilə müzakirə aparılır, ayrı-ayrı qruplara verilən tapşırıqlar dəqiqləşdirilir.
3. **Fəaliyyət.** Qruplar fəaliyyətə başlayır, əsərlərlə tanış olur, seçim aparır, bədii tərtibat işləri ilə məşğul olur, təqdimata hazırlaşırlar.
4. **Təqdimat.** Qruplar öz fəaliyyətlərinin nəticələrini təqdim edir. Bir qrup musiqili ədəbi-bədii kompozisiya ilə çıxış edir. Digər qrup hazırlanmış albomu nümayiş etdirir, ayrı-ayrı sənətkarların əsərlərini ifadəli şəkildə söyləyir. Üçüncü qrup albomun tərtibatı, məzmunu ilə əlaqədar məlumat verir, illüstrasiyaları nümayiş etdirir. Dördüncü qrup mövzu ilə bağlı videosüjet təqdim edir. Beşinci qrup ayrı-ayrı əsərlər, sənətkarların yaradıcılığı barədə öz fikirlərini çatdırır. Təqdimatlar müzakirə olunur. Layihənin iştirakçıları suallara cavab verir, fikir mübadiləsi aparır, öz fəaliyyətlərini dəyərləndirirlər.

Müəllim qrupların fəaliyyəti, mənbələrdən, sinifdənxaric oxu materiallarından istifadə, bədii tərtibat və s. məsələlərlə bağlı formativ qiymətləndirmə aparır.

Metodik vəsaitin girişində şifahi nitqlə bağlı verilmiş müvafiq qiymətləndirmə cədvəlindən istifadə etməklə təlim məqsədlərinin nə dərəcədə reallaşdığını müəyyənləşdirmək məqsədəuyğundur.

## V sinif ədəbiyyat fənninin kurikulumu

**V sinfin sonunda şagird:**

- bədii nümunələri məzmununa uyğun ifadəli oxuyur, hissələrə ayırır, plan tərtib edir;
- bədii nümunələrin məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir;
- şifahi və yazılı ədəbiyyat nümunələrini janrlarına görə fərqləndirir, bədii təsvir vasitələrini müəyyənləşdirir;
- bədii nümunələrin mövzusunu, ideyasını aydınlaşdırır, baş qəhrəmanları səciyyələndirir;
- öyrəndiyi yeni sözlərdən, obrazlı ifadələrdən istifadə etməklə bədii əsərlərlə bağlı fikirlərini şərh edir, müzakirələrdə dinlədiklərinə münasibətini bildirir;
- müxtəlif səciyyəli yazılarda mövzuya münasibətini ardıcıl şərh edir.

## Məzmun xətləri üzrə əsas və alt standartlar

### 1. Ədəbiyyat və həyat həqiqətləri

**1.1. Bədii nümunələrin məzmununu mənimsədiyini nümayiş etdirir.**

1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır.

1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur.

1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir.

1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir.

1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir.

**1.2. Bədii nümunələrin təhlili üzrə bacarıqlarını nümayiş etdirir.**

1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir.

1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir.

1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır.

1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir.

### 2. Şifahi nitq

**2.1. Şifahi nitq bacarıqlarını nümayiş etdirir.**

2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.

2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.

**2.2. Ədəbi nümunələrin müzakirəsində ünsiyyət mədəniyyəti nümayiş etdirir.**

2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir.

### 3. Yazılı nitq

**3.1. Yazılı nitq bacarıqlarını nümayiş etdirir.**

3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir.

3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.

3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır.

## FƏNN ÜZRƏ MƏZMUN STANDARTLARININ REALLAŞDIRILMASI CƏDVƏLİ

Ədəbiyyat təlimində qarşıya qoyulan təlim nəticələrinə nail olmaq üçün ilboyu keçilən dərslərdə məzmun standartlarının reallaşdırılması zəruridir. Standartların təlim prosesində addım-addım reallaşdırılması dərsə hazırlıq zamanı və dərs prosesində müəllimin diqqət mərkəzində olmalıdır. Bədii əsərin öyrənilməsi üzrə işin məqsəd və metodikasına uyğun olaraq, hər dərsdə müvafiq məzmun xətləri və standartlar üzrə iş aparılmalıdır. Bədii əsərlərin öyrənilməsinə 2–3 saat ayrıldığı nəzərə alınmalı, 1.1 məzmun standartının əsas etibarilə əsərin məzmununun öyrədilməsi, 1.2 məzmun standartının əsərin təhlili zamanı reallaşdırılması təmin edilməlidir. 2.1, 2.2, 3.1 məzmun standartları üzrə iş isə həm əsərin məzmununun öyrənilməsinə həsr olunan dərslərdə, həm də mətnin təhlili zamanı reallaşdırılır. Aşağıdakı cədvəldə məzmun standartlarının hər bir mövzu üzrə reallaşdırılması imkanları göstərilmişdir.

Məzmun standartlarını təlim prosesində reallaşdırmağın ən mühüm cəhəti hər alt standarta uyğun təlim məqsədlərinin müəyyənləşdirilməsidir. Məzmun standartlarından doğan təlim məqsədləri fərqli formalarda müəyyənləşdirilə bilər. Metodiki vəsaitdə verilmiş nümunələr təlim məqsədlərinin müəyyənləşdirilməsi imkanlarının geniş olduğunu nümayiş etdirir.

| **BÖLMƏ VƏ MÖVZULAR** | | **Məzmun xətti 1** | | | | | | | | | **Məzmun xətti 2** | | | **Məzmun xətti 3** | | | Saatlar |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | **M.st. 1.1** | | | | | **M.st. 1.2.** | | | | **M.st. 2.1.** | | **M. st 2.2.** | **M.st. 3.1.** | | | |
| | | 1.1.1 | 1.1.2 | 1.1.3 | 1.1.4 | 1.1.5 | 1.2.1 | 1.2.2 | 1.2.3 | 1.2.4 | 2.1.1 | 2.1.2 | 2.2.1 | 3.1.1 | 3.1.2 | 3.1.3 | |
| | 1. Bədii ədəbiyyat söz sənətidir. | | | | | | | | | | | + | + | | | | 1 |
| 1. Şifahi xalq ədəbiyyatı inciləri | 2.“Ana maral” əfsanəsi. Məzmun üzrə iş | + | | + | | | | | | | | + | | | | | 1 |
| | 3.“Ana maral” əfsanəsi. Təhlili | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 4.“Ana maral” əfsanəsi. İfadəli oxusu | | + | | | | | | | | | | + | | | | 1 |
| | 5.İnşa yazmağı öyrənirik | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 6.“Xalq öz vətənini necə tapdı” (Şimali Amerika əfsanəsi). Məzmun üzrə iş | + | | + | | | | | | | + | | | | | | 1 |
| | 7.“Xalq öz vətənini necə tapdı” (Şimali Amerika əfsanəsi). Təhlili | | | | | | | + | | + | | | + | | | | 1 |
| | 8.“Yetim İbrahimin nağılı”. Məzmun üzrə iş | + | | | | | | | | | + | + | | | | | 1 |
| | 9.“Yetim İbrahimin nağılı”. Məzmun üzrə iş | + | | + | | | | | | | + | | | | | | 1 |
| | 10.“Yetim İbrahimin nağılı”. Təhlili | | + | | | | | + | | + | | | + | | | | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 11.“Üç qardaş” (özbək nağılı). Məzmun üzrə iş | + | | + | | | | | | | + | + | | | | | 1 |
| | 12.“Üç qardaş” (özbək nağılı). Təhlili | | | | | | | + | + | + | | | + | | | | 1 |
| | *13. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| 2. Yurd sevgisi, ana məhəbbəti | 14.Ə.Cavad. “Azərbaycan! Azərbaycan!” Məzmun üzrə iş | + | | | | + | | | | | + | | | | | | 1 |
| | 15.Ə.Cavad. “Azərbaycan! Azərbaycan!” Təhlili | | | | | | | | + | + | | | + | | | | 1 |
| | 16.Ə.Cavad. “Azərbaycan! Azərbaycan!” İfadəli oxusu | | + | | | | | | | | | | + | | | | 1 |
| | 17.Ə.Tudə. “Yaşayanlar görəcəkdir”. Məzmun üzrə iş | + | | | | + | | | | | + | | | | | | 1 |
| | 18.Ə.Tudə. “Yaşayanlar görəcəkdir”. Təhlili | | | | | | | | + | + | | | + | | + | | 1 |
| | 19.Ə.Tudə. “Yaşayanlar görəcəkdir”. İfadəli oxusu | | + | | | | | | | | | | + | | | | 1 |
| | 20.H.Arif. “Analar”. Məzmun üzrə iş | + | | | | + | | | | | + | | | | | | 1 |
| | 21.H.Arif. “Analar”. Təhlili | | | | | | | | + | + | | + | | | | + | 1 |
| | 22.İnşa yazı | | | | | | | | | | | | | + | + | + | 1 |
| | 23.İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | | | | | | | | | | | | + | | + | | 1 |
| | *24.Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| 3. Mənəvi dəyərlər, həmişəyaşar hikmətlər | 25.Ə.Əlibəyli. “İlan və Qurbağa”. Məzmun üzrə iş | + | | | + | | | | | | + | | | | | | 1 |
| | 26.Ə.Əlibəyli. “İlan və Qurbağa”. Təhlili | | | | | | | | | + | | | + | | | + | 1 |
| | 27.Ə.Əlibəyli. “İlan və Qurbağa”. İfadəli oxusu | | + | | | | | | | | | | + | | | | 1 |
| | 28.C.London. “Kiş haqqında hekayət”. Məzmun üzrə iş | + | | + | | | | | | | | | + | | | | 1 |
| | 29.C.London. “Kiş haqqında hekayət”. Məzmun üzrə iş | + | | + | | | | | | | + | | | | | | 1 |
| | 30.C.London. “Kiş haqqında hekayət”. Təhlili | | | | | | + | + | | + | | | + | | | | 1 |
| | 31. Layihələr üzrə təqdimatlar | | | | | | | | | | + | | + | | | | 1 |
| | 32. Layihələr üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | + | + | | | | | 1 |
| | *33. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| | *34. Böyük summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 4. Müharibə və insan haqqı | 35.X.R.Ulutürk. “Oğul həsrəti”. Məzmun üzrə iş | + | | | | + | | | | | + | + | | | | 1 |
| | 36.X.R.Ulutürk. “Oğul həsrəti”. Təhlili | | + | | | | | | + | + | | + | + | | | 1 |
| | 37. M.İbrahimbəyov. “Püstə ağacı”. Məzmun üzrə iş | + | | + | | | | | | | + | | | | | 1 |
| | 38. M.İbrahimbəyov. “Püstə ağacı”. Məzmun üzrə iş | + | | | + | | | | | | | + | + | | | 1 |
| | 39. M.İbrahimbəyov. “Püstə ağacı”. Təhlili | | | | | | + | + | | + | | | | + | + | + | 1 |
| | 40.E.Hüseynbəyli. “Firuzə qaşlı xəncər”. Məzmun üzrə iş | + | | + | | | | | | | | + | | | | | 1 |
| | 41.E.Hüseynbəyli. “Firuzə qaşlı xəncər.” Məzmun üzrə iş | + | | + | + | + | | | | | + | | | | | | 1 |
| | 42.E.Hüseynbəyli. “Firuzə qaşlı xəncər”. Təhlili | | | | | | + | + | + | + | | | | + | + | + | 1 |
| | 43.İnşa yazı | | | | | | | | | | | | | + | + | + | |
| | 44.İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | | | | | | | | | | | | + | + | + | | 1 |
| 45.*Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |
| 5. Uşaq dünyası, uşaq taleyi | 46.Ə.Cəmil. “Can nənə, bir nağıl de!” Məzmun üzrə iş | + | | | | + | | | | | | + | | | | | 1 |
| | 47.Ə.Cəmil. “Can nənə, bir nağıl de!” Təhlili | | | | | | | + | + | + | | | | + | + | + | 1 |
| | 48.M.Tven. “Fərasətli oğlan”. Məzmun üzrə iş | + | | + | | | | | | | | + | | | | | 1 |
| | 49.M.Tven. “Fərasətli oğlan”. Təhlili | | | | | | | + | | + | + | | + | | | | 1 |
| 6. Əməyə məhəbbət, zəhmətə çağırış | 50.N.Gəncəvi. “Kərpickəsən kişinin dastanı”. Məzmun üzrə iş | + | | | | | | | | | + | + | | | | | 1 |
| | 51.N.Gəncəvi. “Kərpickəsən kişinin dastanı”. Təhlili | | | | | | | + | | + | + | | + | | | | 1 |
| | 52.S.Rəhimov. “Qara torpaq və sarı qızıl”. Məzmun üzrə iş | + | | + | | + | | | | | + | | | | | | 1 |
| | 53.S.Rəhimov. “Qara torpaq və sarı qızıl”. Təhlili | | | | | | + | + | + | + | | | + | | | | 1 |
| | 54. İnşa yazı | | | | | | | | | | | | | | | + | 1 |
| | 55.İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | | | | | | | | | | | | + | | + | | 1 |
| *56. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | 1 |

| | | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 7. Təbiətin gözəlliyi, təbiətə qayğı | 57.A.Şaiq. “Köç”. Məzmun üzrə iş | + | | + | | + | | | | | + | | | | | | 1 |
| | 58.A.Şaiq. “Köç”. Məzmun üzrə iş | + | | + | | | | | | | + | | | | | | 1 |
| | 59.A.Şaiq. “Köç”. Təhlili | | + | | | | + | + | + | + | | | + | | | | 1 |
| | 60.S.Vurğun. “Çinarın şikayəti”. Məzmun üzrə iş | + | | | | + | | | | | | + | + | | | | 1 |
| | 61.S.Vurğun.” Çinarın şikayəti”. Təhlili | | | | | | | | + | + | | + | + | | + | + | 1 |
| | 62.F.Qoca. “Şuşa”. Məzmun üzrə iş | + | | | | + | | | | | + | | | | | | 1 |
| | 63.F.Qoca. “Şuşa”. Təhlili | | | | | | | | + | + | | | | + | + | + | 1 |
| | 64. Layihələr üzrə təqdimatlar | | + | | | | | | | | + | + | | | | | 1 |
| | 65.Layihələr üzrə təqdimatların müzakirəsi | | | | | | | | | | | + | + | | | | 1 |
| | 66.Yekunlaşdırıcı dərs (“Ədəbiyyat dərsləri bizə nə verdi” layihəsi üzrə) | | + | | | | | | | | + | + | + | | | | 1 |
| *67. Kiçik summativ qiymətləndirmə* | | | | | | | | | | | | | | | | | 1 |
| ***68. Böyük summativ qiymətləndirmə*** | | | | | | | | | | | | | | | | | 1 |

**V sinifdə ədəbiyyat dərslərinin illik planlaşdırılması nümunəsi**

Aşağıda tövsiyə xarakterli illik iş planı verilmişdir. İş planı həftədə 2 saat olmaqla, ildə 34 həftə və ya 68 saat üçün nəzərdə tutulmuşdur. Müəllim mövzuların tədrisi zamanı qarşıya qoyduğu təlim məqsədlərindən və şəraitdən asılı olaraq, tövsiyə olunan illik planlaşdırma nümunəsində dəyişiklik edə bilər.

| Həftələr | Mövzular | Reallaşdırılan standartlar | Fənlərarası inteqrasiya | Strategiyalar: metodlar, iş formaları | Resurslar | Qiymətləndirmə üsul və vasitələri |
|---|---|---|---|---|---|---|
| 1 | Bədii ədəbiyyat söz sənətidir. | 2.1.2.<br>2.2.1. | Az.d.<br>2.2.3.<br>X.d.<br>3.1.4 | Müsahibə, müzakirə, bütün siniflə birgə iş. | Dərslik, iş vərəqləri, ədəbiyyat haqqında fikirlər yazılmış plakat, görkəmli sənətkarların portreti. | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tap-şırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **1. ŞİFAHİ XALQ ƏDƏBİYYATI İNCİLƏRİ** | | | | | | |
| 1 | “Ana maral” əfsanəsi. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Əqli hücum, fa-silələrlə oxu, müsahibə, təqdimat, cütlük şəklində iş, kiçik qrup-larda iş | Dərslik, əfsanənin məzmununa uyğun şəkillər, lüğətlər, http:// az.wikipedia.org/wiki/Azərbaycan_folkloru | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 2 | “Ana maral” əfsanəsi. Təhlili | 1.2.2.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2. | Əqli hücum, müsahibə, , müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarda iş | Dərslik, lüğətlər, http:// az.wikipedia.org/wiki/Azərbay-can_folkloru | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | “Ana maral” əfsanəsi. İfadəli oxusu | 1.1.2.<br>2.2.1. | Az.d.<br>2.2.1<br>X.d.<br>3.1.. | Müsahibə, təqdimat, problemin həlli, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, iş vərəq-ləri, http:// az. wikipedia. org/wiki/ Azərbaycan_ folkloru | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 3 | İnşa və esse yazmağı öyrənirik. | 3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>X.d.<br>4.1.1. | Müsahibə, təqdi-mat, fərdi iş, bütün siniflə birgə iş | Dərslik, lüğətlər, inşa yazı ilə bağlı tövsiyələr yazılmış plakat | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), yazı işi (inşa) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 3 | "Xalq öz vətənini necə tapdı "(Şimali Amerika əfsanəsi). Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 2.1.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Müsahibə, fasilələrlə oxu, təqdimat, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, əfsanənin məzmununa uyğun şəkillər, lüğətlər, https://az.wikipedia .org/wiki/Əfsanə | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 4 | "Xalq öz vətənini necə tapdı "(Şimali Amerika əfsanəsi). Təhlili | 1.2.2. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müzakirə, tədqiqat, təqdimat, Venn diaqramı, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, lüğətlər, https://az.wikipedia .org/wiki/Əfsanə | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | "Yetim İbrahimin nağılı." Məzmun üzrə iş | 1.1.1. 2.1.1. 2.1.2. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3.. | Müsahibə, fasilələrlə oxu, müzakirə, tədqiqat, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, nağılın məzmununa uyğun şəkillər, lüğətlər, https://az.wikipedia .org/wiki/Nağıl | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 5 | "Yetim İbrahimin nağılı." Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 2.1.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3.. | Müsahibə, fasilələrlə oxu, müzakirə, tədqiqat, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, nağılın məzmununa uyğun şəkillər,iş vərəqləri, lüğətlər, https://az.wikipedia .org/wiki/Nağıl | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | "Yetim İbrahimin nağılı". Təhlili | 1.1.2. 1.2.2. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müsahibə, təqdimat, müzakirə, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia .org/wiki/Nağıl | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 6 | "Üç qardaş" (özbək nağılı). Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 2.1.1. 2.1.2. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Fasilələrlə oxu, müzakirə, cütlük şəklində iş, kiçik qruplarla iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, iş vərəqləri, lüğətlər, https://az.wikipedia .org/wiki/Nağıl | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| | "Üç qardaş" (özbək nağılı). Təhlili | 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müsahibə, təqdimat, müzakirə, fərdi iş, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia .org/wiki/Nağıl | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 7 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

| 2. YURD SEVGİSİ, ANA MƏHƏBBƏTİ | | | | | | |
|---|---|---|---|---|---|---|
| 7 | Ə.Cavad. "Azərbaycan! Azərbaycan!" Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 2.1.1. | Müsahibə, əqli hücum, təqdimatlar, ikihissəli gündəlik, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, iş vərəqləri, şeirin məzmununa uyğun şəkillər. https://az.wikipedia.org/wiki/Əhməd_Cavad https://www.youtube.com/watch?v=oPXXYs1ZNeE | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 8 | Ə.Cavad. "Azərbaycan! Azərbaycan!" Təhlili | 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. Az.t. 2.1.2. 3.1.1. | Müsahibə, təqdimatlar, ikihissəli gündəlik, kiçik qruplarla iş, bütün siniflə birgə iş. | Dərslik, iş vərəqləri, lüğətlər. https://az.wikipedia.org/wiki/Əhməd_Cavad | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Ə.Cavad. "Azərbaycan! Azərbaycan!" İfadəli oxusu | 1.1.2. 2.2.1. | Az.d. 2.2.1. X.d. 3.1.2. | Müsahibə, problemin həlli, təqdimatlar, fərdi iş | Dərslik, iş vərəqləri, http://edebiyyat.ucoz.com/index/0-10 | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi, tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 9 | Ə.Tudə. "Yaşayanlar görəcəkdir". Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 2.1.1. Az.t. 2.1.2. | Müsahibə, təqdimat, problemin həlli, fərdi iş, cütlük şəklində iş, kiçik qruplarla iş. | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://www.youtube.com/watch?v=TpeC_qK2DEM | Müsahibə, oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Ə.Tudə. "Yaşayanlar görəcəkdir". Təhlili | 1.2.3. 1.2.4. 2.2.1. 3.1.2. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. Az.t. 2.1.2. 3.1.1. | Müsahibə, təqdimat, müzakirə, müsahibə, cütlük şəklində və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Əli_Tudə | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq)) |
| 10 | Ə.Tudə. "Yaşayanlar görəcəkdir". İfadəli oxusu | 1.1.2. 2.2.1. | Az.d. 2.2.1. X.d. 3.1.2. | Müsahibə, problemin həlli, təqdimatlar, fərdi iş | Dərslik, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Əli_Tudə | Şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi, tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | H.Arif. "Analar". Məzmun üzrə iş | 1.1.1 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 2.1.1. | Müsahibə, ikihissəli gündəlik, problemin həlli, təqdimat, müzakirə, cütlüklə iş, kiçik qruplarda iş. | Dərslik, şeirin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Hüseyn_Arif | Oxu(mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 11 | H.Arif. “Analar”. Təhlili | 1.2.3. 1.2.4. 2.1.2. 3.1.3. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müsahibə, problemin həlli, təqdimat, müzakirə, cütlüklə iş, kiçik qruplarda iş. | Dərslik, iş vərəqləri, lüğətlər, huseynarif.blogspot.com/2011/11/ana.htm | Şagirdlərin təqdimatı və müəllim tərəfindən müəyyən olunmuş meyar cədvəli, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq)) |
| | İnşa yazı | 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3. 3.1.4. X.d. 4.1.3. | Müsahibə, mü-zakirə, fərdi iş | Dərslik, inşa yazıya dair tövsiyələr | Tapşırıqvermə (tapşırıq). Yazı işi (inşa) |
| 12 | İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3. X.d. 4.1.3. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, fərdi iş, bütün siniflə iş | İnşa yazının qiymətləndirilməsi meyarları əks olunmuş cədvəl | Oxu, şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), yazı işi (inşa) |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **3. MƏNƏVİ DƏYƏRLƏR, HƏMİŞƏYAŞAR HİKMƏTLƏR** | | | | | | |
| 13 | Ə.Əlibəyli. “İlan və Qurbağa”. Məzmun üzrə iş | 1.1.1. 1.1.4. 2.1.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 2.1.1. 2.1.2. | Müsahibə, ikihissəli gündəlik, problemin həlli, təqdimat, mü-zakirə, cütlük və kiçik qruplarla iş | Dərslik, təmsilin məzmununa uyğun şəkillər, lüğətlər, https://az.wikipedia.org/wiki/Təmsil https://az.wikipedia.org/wiki/Ənvər_Əlibəyli | Oxu(mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşı-rıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Ə.Əlibəyli. “İlan və Qurbağa”. Təhlili | 1.2.4. 2.2.1. 3.1.3. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müsahibə, problemin həlli, müzakirə, təq-dimat, cütlük və kiçik qruplarla iş | Dərslik, iş vərəq-ləri, https://az.wikipedia.org/wiki/Ənvər_Əlibəyli https://az.wikipedia.org/wiki/Təmsil | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təq-dimatı |
| 14 | Ə.Əlibəyli. “İlan və Qurbağa”. İfadəli oxusu | 1.1.2. 2.2.1. | Az.d. 2.2.1. X.d. 3.1.2. | Müsahibə, prob-lemin həlli, təq-dimatlar, fərdi iş | Dərslik, ifadəli oxuda tətbiq olunan şərti işarələr cədvəli | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab, tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | C.London. “Kiş haqqında hekayət”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. Az.t. 2.1.1. | Əqli hücum, təqdimat, müzakirə, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Cek_London | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tap-şırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 15 | C.London. “Kiş haqqında hekayət”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>2.1.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3.<br>Az.t.<br>2.1.1. | Təqdimat, müzakirə, cütlük və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Cek_London | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı |
| | C.London. “Kiş haqqında hekayət”. Təhlili | 1.2.1.<br>1.2.2.<br>1.2.4.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>Az.t.<br>2.1.1. | Müsahibə, problemin həlli, müzakirə, təq-dimat, cütlük və kiçik qruplarla iş | Dərslik, iş vərəq-ləri, https://az.wikipedia.org/wiki/Cek_London | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təq-dimatı |
| 16 | Layihələr üzrə təqdimatlar | 2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.1.<br>1.2.2.<br>X.d.<br>2.1.2.<br>3.1.4. | Təqdimat, kiçik qruplarla iş | Dərslik, layihə materialları | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tap-şırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Layihələr üzrə təqdimatların müzakirəsi | 2.1.1.<br>2.1.2. | Az.d.<br>1.2.1.<br>1.2.2.<br>X.d.<br>2.1.2.<br>3.1.4 | Müsahibə, müzakirə, bütün siniflə iş | Dərslik, layihə materialları. | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| 17 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | *Böyük summativ qiymətləndirmə* | | | | | |

**4. MÜHARİBƏ VƏ İNSAN HAQQI**

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 18 | X. R. Ulutürk. “Oğul həsrəti”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5.<br>2.1.1.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.1.2.<br>X.d.<br>1.1.2.<br>2.1.1. | Əqli hücum, müsahibə, müzakirə, problemin həlli, təqdimat, Venn diaqramı, fərdi iş, cütlüklə iş, kiçik qruplarla iş | Dərslik, şeirin məzmununa uyğun şəkillər, lüğətlər, http://edebiyyat.ucoz.com/index/0-10 https://www.youtube.com/watch?v=Fv4jizBK5cU | Müsahibə (müəllimin diaqnostik qeydiyyat vərəqi), oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tap-şırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | X.R.Ulutürk. “Oğul həsrəti”. Təhlili | 1.1.2.<br>1.2.3.<br>1.2.4.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>Az.t.<br>5.1.2. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat, cütlüklə iş, kiçik qruplarla iş | Dərslik, iş vərəq-ləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Xəlil_Rza_Ulutürk | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 19 | M.İbrahimbə-yov. “Püstə ağacı”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>2.1.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3.<br>H.b.<br>1.2.1.<br>3.2.1. | Əqli hücum, müzakirə, problemin həlli, fərdi və kiçik qruplarla iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəq-ləri,https://az.wikipedia.org/.../Maqsud_İbrahimbəyov | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq baca-rıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 19 | M.İbrahimbəyov. "Püstə ağacı". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.4.<br>2.1.2.<br>2.2.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3.<br>H.b.<br>1.2.1.<br>3.2.1 | İkihissəli gündəlik, müzakirə, , tədqiqat, fərdi iş, kiçik qruplarla iş | Dərslik, iş vərəqləri, lüğətlər, "Dünya mənim, dünya sənin" dərs vəsaiti, https://az.wikipedia.org/.../Maqsud_İbrahimbəyov | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 20 | M.İbrahimbəyov. "Püstə ağacı". Təhlili | 1.2.1.<br>1.2.2.<br>1.2.4.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>H.b.<br>1.2.1.<br>3.2.1 | Müsahibə, müzakirə, təqdimat, cütlük və kiçik qruplarla iş | Dərslik, iş vərəqləri, "Dünya mənim, dünya sənin" dərs vəsaiti, https://az.wikipedia.org/.../Maqsud_İbrahimbəyov | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | E.Hüseynbəyli "Firuzə qaşlı xəncər". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3.<br>Az.t.<br>5.1.2. | Əqli hücum, müsahibə, tədqiqat, müzakirə, cütlüklə iş, kiçik qruplarla iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Elçin_Hüseynbəyli http://www.azadliq.org/content/article/24896657.html | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), oxu, tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 21 | E.Hüseynbəyli "Firuzə qaşlı xəncər". Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>1.1.4.<br>1.1.5.<br>2.1.1. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3.<br>Az.t.<br>5.1.2. | İkihissəli gündəlik, müsahibə, tədqiqat, müzakirə, fərdi iş, cütlüklə iş, kiçik qruplarla iş | Dərslik, lüğətlər, mövzuya uyğun şəkillər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Elçin_Hüseynbəyli http://www.azadliq.org/content/article/24896657.html | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | E.Hüseynbəyli "Firuzə qaşlı xəncər". Təhlili | 1.2.1.<br>1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>Az.t.<br>5.1.2. | Müsahibə, tədqiqat, müzakirə, Venn diaqramı, cütlük, kiçik qruplarla və bütün siniflə iş | Dərslik, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Elçin_Hüseynbəyli http://www.azadliq.org/content/article/24896657.html | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 22 | İnşa yazı | 3.1.1. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>3.1.4.<br>X.d.<br>4.1.3. | Müsahibə, fərdi iş | Dərslik, inşa yazı ilə bağlı tövsiyələr. | Tapşırıqvermə (tapşırıq), inşa |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 22 | İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | 2.2.1.<br>3.1.1.<br>3.1.2. | Az.d.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3.<br>X.d.<br>4.1.3. | Müsahibə, müzakirə, problemin həlli, təqdimat. | Dərslik, inşa yazının qiymətləndirilməsi meyarları cədvəli | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı |
| 23 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **5. UŞAQ DÜNYASI, UŞAQ TALEYİ** | | | | | | |
| 23 | Ə.Cəmil. “Can nənə, bir nağıl de!” Məzmun üzrə iş | 1.1.1.<br>1.1.5.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.1.2.<br>X.d.<br>1.1.2.<br>2.1.1.<br>H.b.<br>3.1.1. | Müsahibə, əqli hücum, təqdimatlar, fərdi iş, cütlük və kiçik qruplarla iş | Dərslik, iş vərəqləri, şeirin məzmununa uyğun şəkillər, lüğətlər, http://edebiyyat.ucoz.com/index/0-10 edebiyyat.ucoz.com/index/0-8 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 24 | Ə.Cəmil. “Can nənə, bir nağıl de!”. Təhlili | 1.2.2.<br>1.2.3.<br>1.2.4.<br>3.1.1.<br>3.1.2.<br>3.1.3. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2.<br>H.b.<br>3.1.1.<br>3.1.2. | Əqli hücum, müsahibə, təqdimatlar, fərdi iş, cütlük şəklində iş, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, şeirin məzmununa uyğun şəkillər, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Əhməd_Cəmil | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | M.Tven. “Fərasətli oğlan”. Məzmun üzrə iş | 1.1.1.<br>1.1.3.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Əqli hücum, müsahibə, problemin həlli, təqdimatlar, fərdi iş, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Mark_Tven | Oxu(mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 25 | M.Tven. “Fərasətli oğlan”. Təhlili | 1.2.2.<br>1.2.4.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2. | Müsahibə, müzakirə, təqdimat, fərdi iş, cütlüklə iş, kiçik qruplarda iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, www.clb.az/files/mv/Mark_Tven.pdf | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **6. ƏMƏYƏ MƏHƏBBƏT, ZƏHMƏTƏ ÇAĞIRIŞ** | | | | | | |
| 25 | N.Gəncəvi. “Kərpickəsən kişinin dastanı”. Məzmun üzrə iş | 1.1.1.<br>2.1.1.<br>2.1.2. | Az.d.<br>2.1.1.<br>2.2.2.<br>X.d.<br>2.1.3. | Müsahibə, müzakirə, təqdimat, cütlük və, kiçik qruplarla iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Nizami_Gəncəvi | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 26 | N.Gəncəvi. “Kərpickəsən kişinin dastanı”. Təhlili | 1.2.2.<br>1.2.4.<br>2.1.1.<br>2.2.1. | Az.d.<br>1.2.4.<br>2.2.3.<br>X.d.<br>2.1.2. | Müsahibə, müzakirə, cütlük və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, https://www.youtube.com/watch?v=BrDNKvfkSSg | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı (şagirdin təqdimatı) |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | S.Rəhimov. “Qara torpaq və sarı qızıl”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.1.1, | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. | Əqli hüvum, müsahibə, müzakirə, cütlüklə və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://az.wikipedia.org/wiki/Süleyman_Rəhimov | Oxu(mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), |
| 27 | S.Rəhimov. “Qara torpaq və sarı qızıl”. Təhlili | 1.2.1. 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. | Müsahibə, müzakirə, təqdimat, cütlük və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, https://www.youtube.com/watch?v=7H1sL-sLF7o | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | İnşa yazı | 3.1.3. | Az.d. 3.1.1. 3.1.2. 3.1.3. 3.1.4. X.d. 4.1.3. | Tədqiqat, fərdi iş | Dərslik, inşa yazı ilə bağlı materiallar | Tapşırıqvermə (tapşırıq), inşa |
| 28 | İnşa yazıların müzakirəsi və səhvlər üzərində iş | 2.2.1. 3.1.2. | Az.d. 3.1.1. 3.1.2. X.d. 4.1.3. | Müzakirə, müsahibə, təqdimat, bütün siniflə iş | Dərslik, inşa yazı ilə bağlı materiallar | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), şagirdin təqdimatı |
| | *Kiçik summativ qiymətləndirmə* | | | | | |

| **7. TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI** | | | | | | |
|---|---|---|---|---|---|---|
| 29 | A.Şaiq. “Köç”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. H.b. 1.2.1. 3.2.1. | Müsahibə, müzakirə, təqdimat, cütlük və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, http://edebiyyat.ucoz.com/index/0-10 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | A.Şaiq. “Köç”. Məzmun üzrə iş | 1.1.1. 1.1.3. 2.1.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. H.b. 1.2.1. 3.2.1 | Tədqiqat, təqdimat, müzakirə, cütlük, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, https://az.wikipedia.org/wiki/Abdulla_Şaiq | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 30 | A.Şaiq. “Köç”. Təhlili | 1.1.2. 1.2.1. 1.2.2. 1.2.3. 1.2.4. 2.2.1. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. H.b. 1.2.1. 3.2.1 | Müsahibə, müzakirə, təqdimat, cütlük şəklində iş, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri,https://az.wikipedia.org/wiki/Abdulla_Şaiq | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 30 | S.Vurğun. “Çinarın şikayəti”. Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.2. 2.2.1. | Az.d. 2.1.1. 2.2.2. X.d. 2.1.3. H.b. 1.2.1. | Əqli hücum, müsahibə, müzakirə, təqdimat, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, lüğətlər, http://edebiyyat.ucoz.com/index/0-10 az.wikipedia.org/wiki/Səməd_Vurğun. | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 31 | S.Vurğun. “Çinarın şikayəti”. Təhlili | 1.2.3. 1.2.4. 2.1.2. 2.2.1. 3.1.2. 3.1.3. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. H.b. 1.2.1. 3.2.1 | Müsahibə, müzakirə, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri. http://samadvurgun.com/az/qonaq.php | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | F.Qoca. “Şuşa”. Məzmun üzrə iş | 1.1.1. 1.1.5. 2.1.1. | Az.d. 2.1.1. 2.1.2. X.d. 1.1.2. 2.1.1. Az.t. 2.1.2. | Müsahibə, ikihissəli gündəlik, müzakirə, təqdimat, cütlük və kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, əsərin məzmununa uyğun şəkillər, lüğətlər, iş vərəqləri, http://edebiyyat.ucoz.com/index/0-10 | Oxu (mətn), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 32 | F.Qoca. “Şuşa”. Təhlili | 1.2.3. 1.2.4. 3.1.1. 3.1.2. 3.1.3. | Az.d. 1.2.4. 2.2.3. X.d. 2.1.2. Az.t. 2.1.2. | Müsahibə, müzakirə, fərdi iş, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, cədvəllər, https://az.wikipedia.org/wiki/Fikrət_Qoca | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| | Layihələr üzrə təqdimatlar | 2.1.1. 2.1.2. | Az.d. 1.2.1. 1.2.2. X.d. 2.1.2. 3.1.4. | Müsahibə, müzakirə, təqdimat, kiçik qruplarla iş | Dərslik, iş vərəqləri, layihə materialları | Şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), şagirdin təqdimatı |
| 33 | Layihələr üzrə təqdimatların müzakirəsi | 2.1.2. 2.2.1. | Az.d. 1.2.1. 1.2.2. X.d. 2.1.2. 3.1.4 | Müzakirə, problemin həlli, təqdimat, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq) |
| | Yekunlaşdırıcı dərs. (“Ədəbiyyat dərsləri bizə nə verdi” layihəsi üzrə) | 1.1.2. 2.1.1. 2.1.2. 2.2.1. | Az.d. 1.2.1. 1.2.2. X.d. 2.1.2. 3.1.4 | Müsahibə, müzakirə, təqdimat, kiçik qruplarla iş, bütün siniflə iş | Dərslik, iş vərəqləri, layihə materialları | Müşahidə (müşahidə vərəqləri), şifahi sual-cavab (şifahi nitq bacarıqları üzrə qeydiyyat vərəqi), tapşırıqvermə (tapşırıq), layihə (şagirdin təqdimatı) |
| 34 | *Kiçik summativ qiymətləndirmə* | | | | | |
| | *Böyük summativ qiymətləndirmə* | | | | | |

Az.d.– Azərbaycan dili, X.d.–Xarici dil, Az.t.– Azərbaycan tarixi, H.b.–Həyat bilgisi

## Fəndaxili inteqrasiya

Ədəbiyyat fənni öz mahiyyəti, təbiəti etibarilə inteqrativ səciyyə daşıyır. Belə ki, bədii ədəbiyyatın həyatdakı əhvalat və hadisələri, mühüm sosial-siyasi məsələləri, insan talelərini qarşılıqlı əlaqədə, obrazlı şəkildə əks etdirməsi artıq onun inteqrativlik xüsusiyyətinin ifadəsidir və bu, bilavasitə təlim prosesində də öz əksini tapmalıdır. Fəndaxili əlaqə imkanlarından səmərəli istifadə ədəbiyyat təliminə verilən müasir tələblərdən biridir. Fəndaxili əlaqə şagirdlərin ədəbi bilik və bacarıqlara dərindən yiyələnməsinə imkan yaradır. Bu yolla şagirdin beyninin lüzumsuz, ikinci dərəcəli faktlarla, əlaqəsiz biliklərlə yüklənməsinin qarşısı alınır.

Fəndaxili inteqrasiya öz əksini ilk növbədə **məzmun xəttinə aid olan alt standartların təlim prosesində bir-biri ilə əlaqəli reallaşdırılmasında (məzmun xətti daxilində əlaqə)** tapır. Məsələn, "Şifahi nitq" məzmun xətti üzrə alt standartlar (2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir; 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir; 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir.) bir-biri ilə üzvi surətdə əlaqəlidir, biri digərini məntiqi ardıcıllıqla davam və inkişaf etdirir.

Məzmun xətti üzrə alt standartların fəndaxili
əlaqələndirilməsinə aid nümunə

**1. Ədəbiyyat və həyat həqiqətləri**

**1.2. Bədii əsərin təhlili üzrə bacarıqlarını nümayiş etdirir.**

| | | | |
|---|---|---|---|
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |

Nümunədən göründüyü kimi, eyni bir məzmun xətti daxilində alt standartlar arasında sıx əlaqə vardır. Həmin inteqrasiya imkanları ədəbiyyat dərsliyi və metodik vəsaitdəki sual və tapşırıqlar sistemində öz əksini tapmışdır. Müəllim verilmiş nümunələrdən istifadə edərək hər məzmun xəttinin alt standartları üzrə işi əlaqəli həyata keçirməklə fəndaxili inteqrasiyanı reallaşdıra bilər.

Fəndaxili inteqrasiyanın digər mühüm yolu hər üç məzmun xətti üzrə standartların bir-biri ilə əlaqəli (məzmun xətləri arasında əlaqə) həyata keçirilməsidir.

**Məzmun xətləri üzrə alt standartların fəndaxili əlaqələndirilməsi**

| **1. Ədəbiyyat və həyat həqiqətləri** | **2. Şifahi nitq** | **3.Yazılı nitq** |
|---|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir.<br>3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.<br>3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. |

| | | |
|---|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.<br>3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir.<br>2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir.<br>2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir.<br>3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. |

**Bədii əsərlərin mövzu, problem, janr baxımından əlaqəli öyrənilməsi** fəndaxili inteqrasiyanın reallaşdırılmasının bilavasitə ədəbiyyat təlimi üçün səciyyəvi olan yollarından biridir. Dərslikdəki təlim materialları problem-mövzu prinsipi ilə yerləşdirilmişdir və planlaşdırma bu baxımdan fəndaxili əlaqələrin həyata keçirilməsi üçün əlverişli zəmin yaradır. Problem-mövzu prinsipi bu və ya digər bədii əsər üzrə bilik və bacarıqları digər əsərlərin tədrisi zamanı inkişaf etdirməyə, dərinləşdirməyə imkan verir. Bu, həm də eyni mövzuda olan bədii əsərlərin inteqrativ öyrənilməsi baxımından faydalıdır. Bədii əsərlərin öyrənilməsi imkanları bütün bölmələrdə özünü qabarıq göstərir. Məsələn, **"Şifahi xalq ədəbiyyatı inciləri"** bölməsinə daxil edilmiş əsərlərdə mövzu, problem, janr əlaqələrini görmək mümkündür. Həmin bölməyə "Ana maral", "Xalq öz vətənini necə tapdı" əfsanələri, "Yetim İbrahimin nağılı" və "Üç qardaş" nağılı daxildir. Bu əsərləri ilk növbədə şifahi xalq ədəbiyyatı nümunəsi olmaları, folklora xas olan xüsusiyyətləri əks etdirmələri birləşdirir. Məhz bu cəhət təlim prosesində yaradılan üzvi əlaqələrin təməlini təşkil edir. Eyni zamanda əfsanə və nağılın epik folklor nümunəsi olması, onlarda eyni ədəbi növün xüsusiyyətlərinin öz əksini tapması diqqət mərkəzində saxlanılmalıdır. Həm nağıllarda, həm də əfsanələrdə folklora xas olan mühüm bir cəhət – xeyirlə şərin mübarizəsi və nəticə etibarilə xeyirin qələbəsi problemi qabarıq şəkildə verilir. Müxtəlif xalqların

folklorunda bu xüsusiyyətlərin öz əksini necə tapması dərsdə fəndaxili əlaqələrin yaradılması yolu ilə daha dolğun şəkildə mənimsənilir.

Mövzu, problem, janr baxımından inteqrativliyin reallaşdırılması imkanları dərsliyin digər bölmələrində də diqqət mərkəzində saxlanılmışdır.

Ədəbiyyat təlimində fəndaxili inteqrasiyanın reallaşdırılması imkanlarından biri də yeni mövzuların şagirdlərin aşağı siniflərdə qazandıqları ədəbi bilik və bacarıqlar zəminində mənimsənilməsidir. Dərsliyin hazırlanmasında əsas götürülən tələblərdən biri də məhz bu olmuşdur.

### Fənlərarası inteqrasiya

Müasir dövrdə sürətlə artan informasiyanın qavranılması yaxın fənlər üzrə bilik və bacarıqların əlaqələndirilməsini, sintezini tələb edir. Ədəbiyyat dərslərində fənlərarası inteqrasiya imkanları genişdir. Şagirdlər fənlərarası inteqrasiya zəminində biliklərə kompleks şəkildə yiyələnir, onlarda mənəvi dəyərlər sistemi, dünyaya bütöv, tam, sistemli baxış formalaşdırır.

Təlim fənni kimi ədəbiyyatın incəsənətin digər növləri – musiqi, rəssamlıq, kino ilə əlaqələndirilməsi təbii və məntiqlidir. Eyni zamanda ədəbiyyat dərslərində öyrənilən mövzular Azərbaycan dili, xarici dil, Azərbaycan tarixi, həyat bilgisi, informatika, texnologiya fənləri ilə əlaqəlidir. İllik planlaşdırma nümunəsində göstərildiyi kimi (səh.36) fənlərarası inteqrasiya ilk növbədə müxtəlif fənlər üzrə bir-biri ilə səsləşən **alt standartların əlaqəli reallaşdırılmasına** əsaslanır. Bu, həm də özündə müxtəlif fənlər üzrə müvafiq mövzular, problemlər üzrə biliklərin də əlaqəli mənimsənilməsini ehtiva edir.

Dərslik və müəllim üçün metodik vəsait ədəbiyyat müəllimlərinin bu istiqamətdə yaradıcılıq və təşəbbüskarlığı üçün geniş imkanlar yaradır. Müəllim üçün metodik vəsaitdə təlimdə "qızıl qayda" adlandırılan əyanilik, mühüm tələb kimi qarşıya qoyulan informasiya-kommunikasiya vasitələrindən istifadə ilə bağlı tövsiyələr müəllimin dərsdə portret, illüstrasiya, şəkil, musiqi, bədii və sənədli filmlərdən parçaların nümayişi və s. məqsədyönlü istifadəsini nəzərdə tutur.

## ƏDƏBİYYAT FƏNNİ ÜZRƏ YENİ MƏKTƏBDAXİLİ QİYMƏTLƏNDİRMƏ

Ədəbiyyat fənni üzrə qiymətləndirmə Azərbaycan Respublikası Təhsil Nazirinin 2 sentyabr 2013-cü il tarixli, 792 nömrəli əmri ilə təsdiq edilmiş təlimata uyğun olaraq aparılır. Yeni məktəbdaxili qiymətləndirmə diaqnostik, formativ, summativ qiymətləndirmələrdən ibarətdir.

*Diaqnostik qiymətləndirmə* dərs ilinin, tədris vahidinin və dərsin əvvəlində təhsilalanların bilik və bacarıqlarının ilkin səviyyəsini müəyyənləşdirmək məqsədilə aparılır. Diaqnostik qiymətləndirmənin üsul və vasitələri fənn müəllimi tərəfindən müəyyənləşdirilir. Onun nəticələri rəsmi sənədlərdə qeyd olunmur, şagird haqqında müvafiq yazılı qeydlər məktəblinin öz portfoliosunda saxlanılır.

*Formativ qiymətləndirmə* rəsmi qiymətləndirmə deyil, onun məqsədi şagirdin təlim prosesində məzmun standartlarından irəli gələn bilik və bacarıqların mənimsənilməsinə yönəlmiş fəaliyyətini izləməkdən, bu zaman qarşıya çıxan problemləri müəyyən etməkdən və onları aradan qaldırmaqdan ibarətdir. Formativ qiymətləndirmə fənnin məzmun standartları üzrə təlim məqsədləri əsasında müəyyənləşdirilmiş qiymətləndirmə meyarlarına görə aparılır.

Müəllim şagirdin fəaliyyətinin nəticəsini *"Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə* rum rəqəmləri (I, II, III və IV) ilə, "Məktəbli kitabçası"nda isə sözlərlə yazır. "Müəllimin formativ qiymətləndirmə dəftəri"ndə rubriklərin (qiymətləndirmə səviyyələrinin) məzmunu və şagirdin formativ qiymətləndirilməsinə dair məlumatlar *sərbəst formada* aparılır. Müəllim yarımillərin sonunda "Müəllimin formativ qiymətləndirmə dəftəri" əsasında şagirdin yarımil ərzində fəaliyyətinin qısa təsvirini hazırlayır və portfolioda saxlayır.

*Summativ qiymətləndirmə* kiçik və böyük olmaqla iki formada aparılır. Summativ qiymətləndirmə rəsmi qiymətləndirmədir və nəticələri keçirildiyi tarixdə sinif jurnalında qeyd olunur. Kiçik summativ qiymətləndirmə vasitələri fənni tədris edən müəllim, böyük summativ qiymətləndirmə vasitələri isə təhsil müəssisəsi rəhbərliyinin təşkil etdiyi komissiya tərəfindən hazırlanır. Kiçik summativ qiymətləndirmə hər tədris vahidinin sonunda, altı həftədən gec olmayaraq müəllim tərəfindən keçirilir. Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır.

Şagirdlərin kiçik və böyük summativ qiymətləndirmələrinin nəticələri illik qiymətlərinin hesablanmasında nəzərə alınır. Kiçik və böyük summativ qiymətləndirmələrin keçirilmə vaxtı illik planlaşdırmada nəzərdə tutulur. Kiçik və böyük summativ qiymətləndirmə vasitələri qiymətləndirmə standartlarının dörd mürəkkəblik səviyyəsinə uyğun olaraq 1–4-cü səviyyələrdə (20%-i 1-ci, 30%-i 2-ci, 30%-i 3-cü və 20%-i 4-cü səviyyəyə aid olmaqla) hazırlanır.

Kiçik summativ qiymətləndirmə vasitələri (test, tapşırıq, yazı işləri və s.) fənni tədris edən müəllim tərəfindən hazırlanır.

Böyük summativ qiymətləndirmə yarımillərin sonunda təhsil müəssisəsinin rəhbərliyi tərəfindən yaradılan müvafiq komissiyanın nəzarəti ilə fənni tədris edən müəllim tərəfindən aparılır. Ona görə də metodik vəsaitdə böyük summativ qiymətləndirmə üçün testlərin nümunəsi verilməyib.

Şagirdin illik qiyməti aşağıdakı cədvələ uyğun hesablanılır:

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 2 | 2 | 2 |
| 2 | 3 | 3 |
| 2 | 4 | 3 |
| 2 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 3 | 2 | 2 |
| 3 | 3 | 3 |
| 3 | 4 | 4 |
| 3 | 5 | 4 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 4 | 2 | 2 |
| 4 | 3 | 3 |
| 4 | 4 | 4 |
| 4 | 5 | 5 |

| Y1 | Y2 | İllik |
|---|---|---|
| 5 | 2 | 2 |
| 5 | 3 | 4 |
| 5 | 4 | 4 |
| 5 | 5 | 5 |

Şagirdin qiyməti düzgün cavabların maksimum bala nisbəti ilə faiz göstəricisinə uyğun müəyyənləşdirilir:

| № | Şagirdin yerinə yetirdiyi tapşırıqların faizlə miqdarı | Şagirdin qiyməti |
|---|---|---|
| 1 | [0% - 40%] | 2 (qeyri-kafi) |
| 2 | (40% - 60%] | 3 (kafi) |
| 3 | (60% - 80%] | 4 (yaxşı) |
| 4 | (80% - 100%] | 5 (əla) |

Summativ qiymətləndirmədə iştirak etməyən şagirdlər üçün yeni, lakin sinif üçün istifadə olunan tapşırıqlarla eyni səviyyəli qiymətləndirmə vasitələri hazırlanır.

## V sinifdə ədəbiyyatdan formativ qiymətləndirmənin aparılmasına dair nümunə

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma, Münasibətbildirmə, Şərhetmə, İnşayazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırır. |
| Şeirin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirin məzmununa fərqli münasibət bildirməkdə. çətinlik çəkir. | Şeirin məzmununa kömək əsasında fərqli münasibət bildirir. | Şeirin məzmununa, əsasən, fərqli münasibət bildirir. | Şeirin məzmununa münasibət bildirir. |
| İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazır. |

Metodik vəsaitdə ümumtəhsil məktəblərində yeni qiymətləndirmə qaydalarına əsasən hər bölmənin sonunda kiçik summativ qiymətləndirmə vasitələrinin nümunələri verilmişdir. Müəllim bu nümunələr əsasında öz variantlarını da hazırlaya bilər.

Aşağıdakı izahlar və şərti işarələr dərslikdən istifadə edərkən səmərəli istiqamət verəcəkdir.



DƏRSLİKLƏ NECƏ İŞLƏMƏLİ?

**İzahlarla tanış olun.** Bu, yerinə yetirəcəyiniz tapşırıqlar, öyrənəcəyiniz mətnlər barədə sizdə aydın təsəvvür yaradacaqdır.

**Yada salın** – mövzu ilə bağlı bildiklərinizi xatırlatmağa, maraq və istəklərinizi ifadə etməyə istiqamətləndirəcəkdir.

**Düşünün** – ilkin fərziyyələr söyləməyə, araşdırmalar aparmağa yönəldəcəkdir.

**Oxuda aydınlaşdırın** – tanış olmayan sözlərin mənasını aydınlaşdırmaq, bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirmək üçün nəzərdə tutulmuşdur.

**Məzmun üzrə iş** – məzmunu necə mənimsədiyinizi aşkara çıxarmaq və dərinləşdirmək üçün nəzərdə tutulan suallardır.

**Təhlil üzrə iş** – əsərin ədəbiyyatımızda yeri, əhəmiyyəti, onunla bağlı tarixi faktlar və s. əks olunur.
Bu açıqlamalar əsərin bədii xüsusiyyətlərini, yazıçının sənətkarlığını anlamağa, öyrəndiklərinizi sonrakı mərhələlərdə tətbiq etməyə istiqamətləndirəcəkdir.

**Araşdırın, fikirləşin, cavab verin** – əsərin mövzusuna, ideyasına, qəhrəmanlarına münasibət bildirməyiniz üçün nəzərdə tutulan sual və tapşırıqlardır.

**Tətbiq, müzakirə, yaradıcı iş** – fərdi, eləcə də qrup şəklində tədqiqat aparmağınıza, yaradıcı işlərə qoşulmaqla bilik və bacarıqlarınızı tətbiq etməyə istiqamət verəcəkdir.

ƏHMƏD CAVAD
(1892-1937)

• Yüksək mədəniyyətli ziyalı olan Əhməd Cavad xalqımızın azadlığı uğrunda ardıcıl mübarizə aparmışdır. Doğma yurdumuzun səadəti və xoşbəxtliyi onu həmişə düşündürmüş, bu mövzuda bir-birindən gözəl əsərlər yaratmışdır.
*Bəkir Nəbiyev*

Yada salın
– Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə başlıca olaraq hansı məsələlərdən danışılır?

Düşünün
– Doğma yurda həsr olunmuş əsərlər üçün oxşar olan cəhətlər nə ola bilər?

Oxuda aydınlaşdırın
– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir və ifadə vasitələrini müəyyənləşdirin.

AZƏRBAYCAN! AZƏRBAYCAN!
*(ixtisarla)*

I dərs | Məzmun üzrə iş

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, rollar üzrə oxu və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Ölümlə üzbəüz qalan Qurbağa fəryad edərək nə deyir?
   b) Onun fəryadı İlana necə təsir edir? O, Qurbağaya nə deyir?
   c) Qurbağa fəryad etməsinin səbəbini necə izah edir?
2. Təmsil haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.

| Təmsildə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Şeirin təmsil janrında olduğunu əsaslandırın. Fikrinizi təsdiq edən misallar göstərin.
4. Kiçik qruplarda birləşərək bütün cavablarınızı dəqiqləşdirin.
5. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

Evdə iş

Mövzulardan birin seçib təqdimata hazırlaşın.
   a) "İlan və Qurbağa" təmsili ilə "Ana maral" əfsanəsinin oxşar və fərqli cəhətlərini nədə görürəm?
   b) Təmsilin məndə yaratdığı təəssürat.

II dərs | Təhlil üzrə iş

• **Əsərlə bağlı açıqlamalar.**
Bu təmsildə başlıca fikir İlan və Qurbağanın dialoqu – bir-biri ilə danışığı vasitəsilə çatdırılır. Əsərdə Qurbağanın ölümqabağı "qışqırması", "dad etməsi", "dağa-daşa səs salan" fəryadı təsirli bir dillə təsvir olunur. Qarşılaşdırmadan məharətlə istifadə edən şair Qurbağanın fəryadını İlanın gülümsəyərək dinləməsini təsvir etməklə onun zalımlığı barədə aydın təsəvvür yaradır. Lakin onları daha yaxşı tanıdan öz sözləridir. Həmin sözlərin necə seçildiyinə, yerli-yerində işlənib-işlənməməsinə diqqət edin. Bu, təmsildə ifadə olunmuş əsas fikri başa düşməyinizə komək edəcəkdir.

Araşdırın. Fikirləşin. Cavab verin

1. Qurbağanın ölümqabağı dedikləri və İlanın sualına cavabı onu necə səciyyələndirir?

3

Tətbiq. Müzakirə. Yaradıcı iş

Mövzulardan birin seçib işləyin.
   a) "İlan və Qurbağa"əsərinin mövzusunda nəsrlə yığcam təmsil yazın. İştirakçıların (məsələn, Canavar və Quzu) və məzmunun fərqli olmasına çalışın.
   b) "İlan və Qurbağa" təmsilinin sonluğunu necə görmək istərdim?" mövzusunda yığcam esse yazın.

**Bölməni yekunlaşdırarkən –** hər bölmənin sonunda təklif edilmiş suallar, tapşırıqlar qazandığınız bilik və bacarıqları özünüzün dəyərləndirməyiniz üçün nəzərdə tutulub.







**Qiymətləndirmə materialları –** bölmənin sonundakı oxu materialları kiçik summativ qiymətləndirmə üçün nəzərdə tutulmuşdur.

**Layihələr –** I və II yarımil ərzində fərdi, yaxud qruplarla yerinə yetirilməsi nəzərdə tutulur. Layihə mövzuları müstəqil seçilir. Layihələri işləyərkən dərslikdə verilmiş müvafiq materiallardan, yaxud digər mənbələrdən faydalana bilərsiniz. Bu layihələr bilik və bacarıqlarınızın tətbiqinə, yaradıcı təfəkkürünüzün inkişafına xidmət edir.

**• Unutmayın!**

**Dərslikdəki cədvəllərdə qeydlər etməyin.**

Həmin cədvəlləri dəftərinizdə və ya iş vərəqlərində çəkərək cavabları orada yazın.

## MÖVZULAR ÜZRƏ TƏLİM MATERİALLARI İLƏ İŞ TEXNOLOGİYASININ ŞƏRHİ

### *Mövzu:* GİRİŞ. BƏDİİ ƏDƏBİYYAT SÖZ SƏNƏTİDİR – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Bədii nümunələrlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibət bildirir. | Müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Müəllim fənlə tanışlığa "Ədəbiyyat" sözünün izahı ilə başlayır. Sonra dərslikdəki "Bədii ədəbiyyat söz sənətidir" mətninin oxusu (bu, fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə ola bilər) həyata keçirilir. Oxunun səmərəliliyini artırmaq üçün İNSERT metodundan istifadə faydalıdır.

Bunun üçün iş vərəqlərində müvafiq cədvəldən də istifadə etmək olar. Məsələn:

| √ (bilirəm) | – (aydın olmayan və ya ziddiyyətli məlumatdır) | + (yeni və maraqlı məlumatdır) | ! (bu barədə daha çox bilmək istərdim) |
|---|---|---|---|
| | | | |

Dərslikdə verilmiş mətnin vərəqə çıxarılmış surəti üzərində karandaşla işarələrin qoyulması oxunun sürətini artırmağa yardım edə bilər. Bu zaman oxuya başlamazdan əvvəl müəllim izah edir ki, surəti çıxarılmış vərəqdə mətnin uyğun hissələrində karandaşla şərti işarələr qoyulmalıdır; "√" işarəsi – *bilirəm*, "—" işarəsi *mənim üçün ziddiyyətlidir*, aydın deyil, "+" işarəsi – *mənim üçün yenidir* anlamını ifadə edir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərin istifadə etdikləri şərti işarələrdən doğan suallar da nəzərə alınmaqla yığcam müsahibə aparılır. Şagirdlər üçün aydın olmayan mətləblər şərh edilir, mətndəki fikrin başa düşülməsinə nail olunur. Bilmək istədikləri məlumatları əldə etmələri üçün şagirdlər müvafiq mənbələrə yönəldilir.

*Mətni hissələrlə də oxudub müzakirə təşkil etmək olar. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra müsahibə aparılır, ortaya çıxan suallar aydınlaşdırılır, mətndəki fikirlərin hərtərəfli başa düşülməsinə nail olunur.*

Mətnlə bağlı öyrənilmiş məlumatın tamlığı, sistemə salınması üçün müsahibədə dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə edilməsi məqsədəuyğundur.

Bütün bu işlərin həyata keçirilməsi tədqiqat sualının araşdırılmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *Rəssamlıq, teatr, kino və s. sənətlərdən fərqli olaraq, bədii ədəbiyyatın imkanlarının daha geniş olmasına səbəb nədir?*

Fərziyyələr dinlənilir və qeyd olunur. Cütlük şəklində iş forması seçilir. İşə başlamazdan əvvəl şagirdlər incəsənətin digər növləri barədə yığcam məlumatın əks olunduğu vərəqlər alırlar. Onlara, həmçinin digər fənlərdən (musiqi, təsviri incəsənət və s.) qazandıqları biliklərə müraciət etməyin əhəmiyyəti xatırladılır.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra cütlüklər kiçik qruplarda birləşib fikir mübadiləsi aparır. Bundan sonra kiçik qrupların liderlərinin məlumatı dinlənilir və müzakirə edilir. Müzakirədə şagirdlərin diqqəti ekran həyatı qazanmış bədii əsərlərə cəlb edilir. Kinodan fərqli olaraq, bədii əsərdə əhvalat və hadisələrin əhatəli təsvir edilməsi imkanı şagirdlər tərəfindən müstəqil izah olunur.

Həmin mərhələnin diskussiya səciyyəli olması faydalıdır. İstiqamətləndirici suallar əsasında çıxarılan nəticənin fərziyyələrlə, tədqiqat sualı ilə tutuşdurulmasına diqqət yetirilir.

*Digər mövzular kimi, "Bədii ədəbiyyat söz sənətidir" mövzusunu da fərqli variantlarda tədris etmək mümkün və faydalıdır. Nisbətən çox zəhmət və təchizat tələb edən variantlardan biri aşağıda şəkildə ola bilər.*

Müəllim "ədəbiyyat" sözünün mənası barədə yığcam məlumat verməklə şagirdlərdə yeni fənn barədə təsəvvür yaratmağa çalışır. Onlara dərslikdəki bölmələrin necə adlandırılmasına, "Dərsliyinizlə tanış olun" başlıqlı materiala nəzər salmağı təklif edir.

Ortaya çıxan suallara aydınlıq gətirilir. Əlavə edilir ki, dərsliklə tanışlıq sonrakı dərslərdə də davam etdiriləcəkdir.

Şagirdlərin iştirakı ilə tədqiqat sualı müəyyənləşdirilir:

***Tədqiqat sualı:*** *"Bədii ədəbiyyat həyat hadisələrini ətraflı əks etdirən söz sənətidir" fikrini doğru saymaq olarmı?*

Fərziyyələr dinlənilir, təkrara yol vermədən qeyd olunur.

Sinifdə kompüter və proyektordan istifadə etmək imkanı olan müəllimlər informasiya texnologiyalarından aşağıdakı kimi istifadə edə bilərlər: "Doğma təbiətimiz – Göygöl bədii ədəbiyyatda" sözləri ekrana gətirilir. Kadrarxası səs M.Arazın "Göygöl" şeirindən aşağıdakı bəndi çatdırır:

Bir səhər gördüm ki, durulub yatır,
Kəpəzin dibində burulub yatır;
Qovulan ceyrantək yorulub yatır,
Daş atdım, diksinib oyandı Göygöl.

Ardınca "Doğma təbiətimiz – Göygöl rəssamlıqda" sözləri ekrana verilir. Şagirdlər Göygölün ümumi mənzərəsini əks etdirən rəsm əsərini müşahidə edirlər. Görüntü ekrandan silinməmiş Göygölə həsr edilmiş mahnı səsləndirilir və kiçik bir parça dinlənilir.

Şagirdlər müəllimin təklifi ilə Göygölün timsalında təbiət mənzərələrinin **bədii ədəbiyyatda, rəssamlıq** və **musiqi** sənətində necə təqdim olunduğunu izah edirlər.

Şagirdlərin araşdırmaya cəlb olunması qazandıqları təsəvvürün dərinləşməsinə imkan yaradır. Onlara "Bədii ədəbiyyat söz sənətidir" mətni ilə yanaşı, incəsənətin digər növləri barədə məlumatın əks olunduğu materiallarla da tanış olmaq imkanı yaradılır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra qrupların təqdimatları dinlənilir və müzakirə edilir. Müəllimin istiqamətləndirici sualları əsasında çıxarılmış nəticənin şagirdlərin fərziyyələri və tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Şərhetmə

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Bədii nümunələrlə bağlı fikirlərinin aydın və ardıcıl şərh etməkdə çətinlik çəkir. | Bədii nümunələrlə bağlı fikirlərini müəllimin köməyi ilə şərh edir. | Bədii nümunələrlə bağlı fikirlərini, əsasən, aydın və ardıcıl şərh edir. | Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. |
| Müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Müzakirələrdə səsləndirilən fikirlərə kömək və suallar verməklə münasibət bildirir. | Müzakirələrdə səsləndirilən fikirlərə əksər hallarda münasibət bildirir. | Müzakirələrdə səsləndirilən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

# 1.

# ŞİFAHİ XALQ ƏDƏBİYYATI İNCİLƏRİ

*Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin bədii təsvir vasitələri (epitet, təşbeh) barədə dolğun təsəvvürü olmadığından əfsanənin tədrisində onlarla bağlı tələblər irəli sürülməmişdir. Şagirdlərin aşağı siniflərdə mənimsədikləri məlumata əsaslanan müəllim sinfin səviyyəsindən asılı olaraq, bu və ya digər dərəcədə məsələni xatırlada bilər.*

**Motivasiya, problemin qoyuluşu.** Bunu fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallara müraciət edilməsi ola bilər. Bu sualların əsasında aparılan müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** *Təbiətə, onun canlılarına qayğı nə üçün vacibdir?*

Fərqli fikirlər – fərziyyələr dinlənilir və qeyd olunur.

Müəllim əlavə edir ki, fərziyyələri yoxlamaq, hansının doğru olduğunu müəyyənləşdirmək üçün “Ana maral” əsəri yaxşı vasitə ola bilər. Bunun üçün həmin əsəri ətraflı öyrənmək və  araşdırma aparmaq faydalıdır.

**Tədqiqatın aparılması.** İlk növbədə, əfsanənin oxunması, məzmununun mənimsənilməsi həyata keçirilməlidir. Tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasının əhəmiyyəti əsərin oxusuna başlamazdan əvvəl izah olunur. Bu işin reallaşdırılması həm əsərin məzmununun qavranılması, həm də şagirdlərin söz ehtiyatının zənginləşməsi üçün vacibdir.

Şagirdlərə xatırladılır ki, bu cür sözlərin mənası dərsliyin sonunda verilmiş lüğətin, eləcə də lüğət kitablarının köməyi ilə aydınlaşdırıla bilər.

Mətnin oxunmasını müxtəlif variantlarda həyata keçirmək mümkündür: fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, zəncirvari oxu (ziqzaq), ikihissəli gündəlik və s.

Seçilmiş oxu növünün mahiyyəti, tətbiqi qaydaları nəzərə alınır. Məsələn, fasilələrlə oxu tətbiq edilərsə, hər fasilədə aparılan müsahibədə oxunmuş parçanın məzmununun, mənası lüğətlərin köməyi ilə aydınlaşdırılmış sözlərin necə qavranıldığı aşkara çıxarılır.

Oxunun hansı formada, necə təşkil edilməsindən asılı olmayaraq, baş qəhrəmanın – Nurəli kişinin keçirdiyi hislər, əfsanədəki mühüm hadisələr barədə aydın təsəvvürün qazanılmasına nail olunmalıdır. Bu, sonrakı mərhələlərdə aparılan işlərin səmərəliliyi üçün vacibdir.

Hansı oxu növünün tətbiqindən asılı olmayaraq, əsərin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün dərslikdəki suallara cavabların hazırlanması məqsədəuyğundur.

Əfsanənin məzmununa aid suallar və onlara cavabların hazırlanması isə qavramanın dərinləşməsində, məntiqi təfəkkürün inkişafında az rol oynamır. Bunun üçün dərslikdə cütlük şəklində iş forması tövsiyə olunmuşdur.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər bütün sualların cavabları ilə bağlı fikir mübadiləsi aparır və təqdimata hazırlaşırlar. Məhz bundan sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir, eləcə də müzakirədə şagirdlərin hər birinə öz fikrini sərbəst ifadə etmək imkanı yaradılır.

**I dərs** | **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Aşağıdakı suallara cavab hazırlayın:
   a) Nurəli kişi marala niyə güllə atmadı?
   b) Ovçu maralı necə xilas etdi?
   c) Nurəli kişinin xəstəlikdən sağalmasına səbəb nə oldu?
   d) Əsərdə əfsanəyə aid olan xüsusiyyətləri müəyyənləşdirin.
3. Parta yoldaşınızla birlikdə məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
4. Kiçik qruplarda birləşib, hazırladıqlarınız da daxil olmaqla, bütün sualların  cavablarını dəqiqləşdirin.
5. Çıxardığınız nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
6. Əfsanədən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin.

*Dərslik, səh. 15*

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Bu, həmin mərhələnin səmərəli keçməsinə səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təbiət nə qədər mükəmməl olsa da, insan qayğısına möhtacdır. Təbiətin, onda yaşayan canlıların qorunması həyatın davamı deməkdir.

Dərsdə vaxtdan qənaətlə istifadə əsərdən seçilmiş hissənin geniş formada nağıl edilməsi üzrə tapşırığın icrasına imkan verir. Müəllim dərslikdə verilmiş nümunə əsasında geniş nağıletmənin mahiyyəti barədə şagirdlərdə dolğun təsəvvür yaradır. Məhz bundan sonra şagirdlər əsərdən seçdikləri hissənin üzərində işləyirlər.

Əsərin məzmununun seçilmiş hissələr əsasında geniş nağıl edilməsi mətnin dərindən qavranılmasını təmin etməklə yanaşı, şagirdlərin şifahi nitqinin zənginləşməsinə də

səbəb olur. Əfsanənin səciyyəvi hissələrinin seçilməsi və adlandırılması, plan tərtibi (hansı formada olmasını müəllim təyin edir) şagirdlərin məntiqi təfəkkürünün, müstəqilliyinin, ümumiləşdirmə bacarığının inkişafına da şərait yaradır. Deməli, şifahi nitqlə bağlı işlərin yerinə yetirilməsi bir neçə cəhətdən faydalıdır: bu, əsərin məzmununun mənimsənilməsi işinin davamı və dərinləşdirilməsi kimi özünü göstərir; şagirdlər mənasını yeni öyrəndikləri sözlərdən geniş istifadə edirlər, bu, onların söz ehtiyatının artmasına, nitqlərinin zənginləşməsinə imkan yaradır; şagirdlərdə yaradıcı təfəkkürün, son nəticədə obrazlı düşüncənin formalaşmasına səbəb olur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Müəyyənləşdirmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Əfsnədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Əfsanədəki ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqlı sual ("İnsanın təbiətə, təbiətdəki canlılara qəddar münasibəti nə ilə nəticələnə bilər?") əsasında müsahibənin aparılması daha məqsədəuyğundur. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *Əfsanədə ifadə olunmuş başlıca fikir, sizcə, nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Tədqiqatın hansı formada aparılmasından asılı olmayaraq, dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmiş tapşırığa və "Əsərlə bağlı açıqlamalar" mətninə müraciət edilməsi vacibdir.

Kiçik qruplarda iş formasına üstünlük verən müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırıqdakı sualların hərəsini bir iş vərəqində əks etdirərək qruplara təqdim edir. Müəllim tapşırığa yaradıcı yanaşa bilər, ona əlavələr etmək, onda sadələşdirmə aparmaq mümkündür. Bu, müəllimin məqsədindən, sinfin səviyyəsindən və s. asılıdır.

Tapşırıqların məzmunu elədir ki, müxtəlif təlim metodlarının (beyin həmləsi, şaxələndirmə, karusel, müzakirə, diskussiya və s.) tətbiqinə geniş imkan yaranır.


II dərs | Təhlil üzrə iş

• **Əsərlə bağlı açıqlamalar.**
Möcüzəli hadisədən bəhs edən bu əfsanə maraqla oxunur. Onun maraqla oxunmasının bir mühüm səbəbi bədii gözəlliyidir. Bu gözəlliyi yaradan vasitələr isə çoxdur, rəngarəngdir. Onlardan biri **bədii sözdür**. Hər gün eşitdiyimiz adi sözlər bədii əsərdə fərqli mənalarda işlədilməklə bizdə güclü hislərin, duyğuların yaranmasına səbəb olur, bu sözlərin köməyi ilə təsirli, yaddaqalan səhnələr yaradılır.
Əfsanədə oxuyuruq: "Tüfəngi gözümün tuşuna qaldırdım, niyyətimi başa düşən maral yanıqlı bir mələrti ilə mənə yalvardı". Maralın mələrtisinin "yanıqlı" olması, onda yalvarışın duyulması bizi həyəcanlandırır, gözümüzün qarşısında canlanan mənzərəni unuda bilmirik... Əsərin üzərində müşahidələrinizi davam etdirin, onda bədii gözəlliyi yaradan vasitələri müəyyənləşdirməyə çalışın.

Araşdırın. Fikirləşin. Cavab verin

1. Nurəli kişi necə insandır, onun xarakterindəki başlıca cəhətlər, sizcə, hansılardır?
2. Əsərin maraqla oxunmasına səbəb, sizcə, nədir?
3. Aşağıdakı iki fikirdən hansını əfsanənin əsas ideyası saymaq olar?
   a) Əfsanədə ananın balasına böyük məhəbbəti ifadə olunmuşdur.
   b) Əfsanədə "yaxşılıq heç vaxt itmir" fikri ifadə edilmişdir.

Tətbiq. Müzakirə. Yaradıcı iş

"Ana maral" əfsanəsində gerçək hadisələrlə səsləşmələr varmı? Varsa, buna səbəb nədir?" mövzusunu müzakirə edin.

Evdə iş

Mövzulardan birini seçib təqdimata hazırlaşın.
a) Əfsanədə mənə daha çox təsir edən epizod hansıdır?
b) Əfsanəyə çəkilmiş illüstrasiyaya münasibətim.

*Dərslik, səh. 16*

Şagirdlər tapşırıqların icrasına başlamazdan əvvəl "Əsərlə bağlı açıqlamalar" mətni ilə ətraflı tanış olurlar, meydana çıxan suallara aydınlıq gətirilir.

*"Əsərlə bağlı açıqlamalar" mətnindən tədqiqat prosesində həmişə mənbə kimi istifadə olunması faydalıdır. Bu materiallar əsərin ideyasının, bədii xüsusiyyətlərinin qavranılması və dəyərləndirilməsi baxımından şagirdlərə əhəmiyyətli dərəcədə istiqamət verir.*

**Məlumat mübadiləsi** mərhələsində fəal dinləməyə, daha əhəmiyyətli olanların səsləndirilməsinə nail olunur. Birtərəfli, yanlış mülahizələr **məlumatın müzakirəsi** mərhələsində aradan qaldırılır, fikirlərin əlaqələndirilməsinə diqqət yetirilir. **Nəticə, ümumiləşdirmə** mərhələsində isə indiyə qədər bütün deyilənlərin ümumi ideya şəklinə salınması ön plana keçir. Bu mərhələdə müəllimin əvvəlcədən hazırladığı istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təbiətə, onun qoynunda yaşayanlara qayğı, diqqət insanların borcudur. Təbiət insanlara öz nemətlərini verməkdə səxavətlidir, insan da öz növbəsində təbiətə qayğı ilə yanaşmağa borcludur.

Dərslikdə "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş mövzu üzrə aparılan müzakirə əfsanə janrının xüsusiyyətlərinin başa düşülməsi, bədii ədəbiyyatda insana, onun taleyinə, və təsvir olunanlara münasibətinin açıqlanmasına geniş yer verildiyinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ədəbi qəhrəmanları xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Əfsanənin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanənin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Əfsanənin ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Əfsanənin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
*Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi, müzakirə edilməsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün əlavə məlumat.** *Epik əsərin ifadəli oxusu üzrə işin təşkili zamanı müəllim nəzərə almalıdır ki, bu oxu mətndəki təsvirlərin, təhkiyənin mahiyyətinin qavranılmasına, əsərin ideyasının, qəhrəmanlarının dərk edilməsinə, onlara əsaslandırılmış münasibət bildirilməsinə imkan yaradır.*

**Motivasiya.** Müəllim şagirdlərə əfsanədən aşağıdakı parçanı ifadəli oxumağı təklif edir.

– Daha günaha batmaq istəmirəm!.. Oğlum, Bəhruz, bundan sonra sənin qazancını yeməli olacağıq. Bir də əlimə tüfəng almaram. Meşədən elə utanıram, elə xəcalət çəkirəm ki, bir də ora dönməyə üzüm gəlməz. Sən isə, ay bala, çörəyi tüfəngdən yox, torpaqdan çıxartmalısan.

Bir neçə şagirdin ifası dinlənilir və müzakirə edilir. Aydınlaşdırılır ki, Nurəli kişinin keçirdiyi peşmançılıq və xəcalət hissi ifaların çoxunda əksini tapmamışdır. Müəllim sinfə müraciət edir:

– Sizcə, ifalarda Nurəli kişinin hisslərinin qabarıq çatdırılmamasına səbəb nədir?

Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** *Əsərin məzmununun təsirli çatdırılmasında ifadəli oxunun əhəmiyyəti nədir?*

**Tədqiqatın aparılması.** Müəllim sözlərin, ifadələrin orfoepiya qaydalarına uyğun oxunmasının vacib olduğunu xatırladır. Qeyd edir ki, əfsanənin mətnindəki cümlələri iki yerə bölmək olar:


III dərs | Əsərin ifadəli oxusu

**İfadəli oxuya hazırlaşın.**

1. Aşağıdakı mətni oxuyun və müzakirə edin.

   İfadəli oxunun ən mühüm şərti – əsərdəki sevinci, kədəri, həyəcanı... səslənən sözlə dinləyiciyə çatdırmaqdır. Yəni həyatda gördüklərinizi dostlarınıza, yoldaşlarınıza necə səmimi, inandırıcı danışırsınızsa, əsərdəki əhvalat və hadisələri də o qaydada ifadə etməlisiniz. Amma bu, asan deyil. Buna o vaxt nail ola bilərsiniz ki, əsərdəki əhvalat və hadisələr sizə təsir etsin, yəni sizi kədərləndirsin, sevindirsin, həyəcanlandırsın. Axı siz həyatda müşahidə etdiyiniz kədərli, yaxud fərəhli hadisə barədə danışanda qəmli olduğunuz və ya sevincli anlar yaşadığınız səsinizdən aydınca duyulur. Bax, əsərdəki hadisələr də sizə o cür təsir etməli, keçirdiyiniz hislər səsinizdə duyulmalıdır. Bunun üçün əsərdə təsvir olunanlar xəyalınızda canlanmalıdır, siz özünüzü həmin aləmdə hiss etməlisiniz. Deməli, əsəri dönə-dönə oxumalısınız, ondakı təsvirlərlə həyatda gördüklərinizin arasında oxşarlıqlar tapmalısınız.

2. İfadəli oxuda istifadə olunan şərti işarələri dərsliyin 199-cu səhifəsindən öyrənin.
3. Əfsanədən seçdiyiniz parçanı bir daha diqqətlə oxuyun. Fasilələrin, məntiqi vurğulu sözlərin yerini, səsinizin yüksəldiyi, aşağı düşdüyü məqamları müəyyənləşdirib şərti işarələrlə göstərin.

Nümunə

"[Kəntdə] məşhur ovçu kimi tanınan Nurəli kişi | meşədən çox pərişan qayıtdı. || Arvadı Fatimə, | oğlu Bəhruz | onu qarşılamağa çıxdılar. || Kişi | fikir dəryasına qərq olmuşdu.

4. İfaları dinləyib müzakirə edin.

*Dərslik, səh. 17*

*a) əhvalatı nağıl edən təhkiyəçinin (müəllifin) sözləri;*

*b) obrazların sözləri.*

Təhkiyəçinin sözləri aramla, nağılvarı oxunmalıdır. Obrazların – Nurəli kişinin, arvadı Fatimənin, oğlu Bəhruzun, həkimin sözləri isə onların ovqatına uyğun intonasiya ilə oxunmalıdır.

Şagirdlər müəllimin təklifi ilə dərslikdəki mətni oxuyurlar. Mətndəki fikirlər müzakirə edilir, meydana çıxan suallar aydınlaşdırılır.

Tədqiqat davam etdirilir. Şagirdlər kiçik qruplara bölünür. Onlara əsərdən aşağıdakı hissənin (qruplara fərqli hissələr də təklif edilə bilər) ifadəli oxusunu hazırlamaq tapşırılır:

"Kənddə məşhur ovçu kimi tanınan Nurəli kişi meşədən çox pərişan qayıtdı. Arvadı Fatimə, oğlu Bəhruz onu qarşılamağa çıxdılar. Kişi fikir dəryasına qərq olmuşdu. Fatimə bir addım irəli atıb ərinin çiynindən lüləsi aşağı sallanan tüfəngi götürmək istədi. Nurəli kişi ona mane oldu. Ağır addımlarla evin arxasına keçdi. Tüfəngi çiynindən aşırdı. Arvadının və oğlunun gözləri qabağında neçə il yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşa çaxdı".

Qrupların təqdimatı dinlənilir və müzakirə edilir. İfalardakı nöqsanlar aydınlaşdırılır.

Müəllim əlavə məlumat verərək qeyd edir ki, ifadəli oxu zamanı durğu işarələrinin işləndiyi məqamlarda fasilələr etmək zəruridir. Şagirdlərin diqqəti dərslikdə ifadəli oxu ilə bağlı şərti işarələrin əks etdirildiyi cədvələ yönəldilir, izahat verilir *(dərslik, səh. 199*). Məktəblilərin nəzərinə çatdırılır ki, əfsanənin oxusunda durğu işarələri ilə yanaşı, mətnin məzmununun tələb etdiyi məqamlarda da fasilələrin edilməsi vacibdir. Qeyd edilir ki, fasilə qısa, orta, uzun ola bilər. Qısa fasilədə I, orta fasilədə II, uzun fasilədə III işarəsi qoyulmalıdır.

Şagirdlərə ifadəli oxunun tələblərinə uyğun olaraq, məntiqi vurğu ilə bağlı məlumat verilir, cümlədə məntiqi vurğulu sözün müəyyənləşdirilməsi qaydası öyrədilir. Müəllimin tapşırığı ilə şagirdlər mətndən "Kənddə məşhur ovçu kimi tanınan Nurəli kişi meşədən çox pərişan qayıtdı" cümləsindən "Arvadının və oğlunun gözləri qabağında neçə il yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşa çaxdı" cümləsinədək olan parçanı səssiz oxuyurlar.

Şagirdlərə xatırladılır ki, əsərdəki bəzi sözlərin yazılışından fərqli tələffüz olunduğuna diqqət yetirsinlər, həmin sözləri müəyyənləşdirib düzgün tələffüz formasını qeyd etsinlər. Tədqiqat işində verilmiş mətnin üzərində fasilələrin, məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi, şərti işarələr qoyulması tapşırılır:

"[Kəntdə] məşhur ovçu kimi tanınan Nurəli kişi I meşədən çox <u>pərişan</u> qayıtdı. II Arvadı Fatimə, I oğlu Bəhruz I onu qarşılamağa çıxdılar. II Kişi I <u>fikir dəryasına</u> qərq olmuşdu. II Fatimə bir addım irəli atıb I ərinin [çiyninnən] lüləsi aşağı sallanan <u>tüfəngi</u> [götürməy] istədi. II Nurəli kişi <u>ona</u> mane oldu. II Ağır [addımlarnan] <u>evin arxasına</u> [keşdi] II. Tüfəngi [<u>çiyninnən</u>] aşırdı. Arvadının və oğlunun [gözdəri] qabağında neçə il [yoldaşdığ] etdiyi tüfəngin [lüləsinnən] tutub onu <u>daşa</u> çaxdı. III"

Müəllim ifaçılıq vəzifəsini müəyyənləşdirmək üçün şagirdlərə sualla müraciət edir: "Oxuduğunuz parçada dinləyiciyə hansı fikri çatdırmaq lazımdır?" Cavablar dinlənilir, "Nurəli kişinin ovdan pərişan, əsəbi qayıtdığını dinləyicilərə çatdırmaq" fikri üzərində

dayanılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, oxunmuş hissənin məzmununa uyğun olaraq, təhkiyəçinin sözləri aramla, nağılvarı, aşağı tonda oxunmalıdır.

Şagirdlərə əsərdən ikinci hissənin (“Daha günaha batmaq istəmirəm” cümləsindən “Ay kişi, sən ki ən böyük xeyirxahlıq eləmisən, day niyə qəm dəryasına batırsan?” cümləsinədək) səssiz oxusu tapşırılır. Oxu başa çatdıqdan sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Ovdan əsəbi, qanıqara qayıtmış Nurəli kişinin sözləri necə oxunmalıdır? Onun səsinin tonu necədir?

– Bəs arvadı Fatimənin, oğlu Bəhruzun sözləri necə oxunmalıdır?

Cavablarda Nurəli kişinin əvvəlcə əsəbi, yüksək tonda, sonra isə özünü ələ alıb nisbətən sakit tərzdə, peşman əhvali-ruhiyyədə, günahkarcasına danışdığı, Fatimə ilə Bəhruzun isə mülayim, canıyananlıqla söhbətə qoşulduğu qeyd edilir.

Müəllim şagirdlərin diqqətini ayrı-ayrı obrazların danışığında intonasiyanın dəyişdiyinə cəlb edir:

– Fatimənin “A kişi, tez ol, mətləb üstə gəl!” sözləri necə oxunmalıdır?

Müzakirə nəticəsində şagirdlərə aydın olur ki, bu cümlənin oxusunda Fatimənin səbirsizliyi, artıq həyəcanlanmağa başladığı çatdırılmalıdır. Odur ki həmin cümlə nisbətən yüksək tonda, həyəcanlı tərzdə deyilməlidir. Müəllim ifadəli oxu üçün nəzərdə tutulan mətni vərəqlərdə qruplara paylayır. Şagirdlər mətnlə tanış olur, ondakı hər parça üçün ifaçılıq vəzifəsini və oxuda intonasiyanın aldığı çalarları müəyyənləşdirir.

<table>
<tr><th>Fasilələrin, məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi</th><th>İfaçılıq vəzifəsinin müəyyənləşdirilməsi</th><th>Səsin tonu, oxuda aldığı çalar</th></tr>
<tr><td>– Daha günaha batmaq istəmirəm!.. ||| Oğlum, Bəhruz, bundan sonra | sənin qazancını yeməli olacağıq. || Bir də əlimə tüfəng almaram. || Meşədən elə utanıram, | elə xəcalət çəkirəm ki, | bir də ora dönməyə üzüm gəlməz. || Sən isə, | ay bala, | çörəyi tüfəngdən yox, | torpaqdan çıxartmalısan. ||</td><td>Nurəli kişinin həyəcanının, keçirdiyi peşmançılıq hissinin təsəvvür edilməsinə nail olmaq.</td><td>Əsəbi,<br>yüksək tonla,<br>peşmançılıq hissi ilə</td></tr>
<tr><td>– Atacan, | sənin qərarın səbəbsiz deyil, | sən hər saat fikrindən dönən adam deyilsən. ||</td><td>Oğlu Bəhruzun atasını sakitləşdirmək istəyini çatdırmaq.</td><td>Aramla,<br>mülayim,<br>qayğıkeşliklə</td></tr>
<tr><td>– Ay kişi, | sən ki ən böyük xeyirxahlıq eləmisən, | day niyə qəm dəryasına batırsan? ||</td><td>Arvadı Fatimənin Nurəli kişiyə canıyananlığını, onu düşdüyü əsəbi vəziyyətdən çıxarmaq, ürək-dirək vermək arzusunu çatdırmaq.</td><td>Hərarətlə,<br>canıyananlıqla,<br>səmimiyyətlə</td></tr>
</table>

Şagirdlərin ifaları dinlənilir, müzakirə olunur. Yaxşı planlaşdırılmış dərsdə əsərin bütövlükdə ifadəli oxusunu həyata keçirmək mümkün olur.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması**. Bu mərhələdə müzakirə zamanı deyilmiş fikirlər yekunlaşdırılaraq tədqiqat sualının cavabı dəqiqləşdirilir və fərziyyələrlə müqayisə edilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, əsərin məzmununu, ondakı başlıca fikirləri ifadəli oxu vasitəsi ilə təsirli, inandırıcı çatdırmaq mümkündür. Buna nail olmaq üçün ciddi hazırlıq işlərinin aparılması vacibdir.

Çıxarılmış nəticələr fərziyyələrlə müqayisə edilir, tədqiqat sualına gətirilən aydınlıq nəzərə çatdırılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Əfsanəni müəllimin köməyi ilə hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni, əsasən, hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* İNŞA YAZMAĞI ÖYRƏNİRİK – 1 saat

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir. | Əsərin məzmununa fərqli münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində inşa yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Yazılı nitq bacarıqlarının formalaşdırılması üzrə işlər şagirdin hazırlıq səviyyəsi, yaş xüsusiyyətləri nəzərə alınmaqla aparılır. Şifahi nitqdə olduğu kimi, yazılı nitqdə də yığcamlıq, az sözlə dərin mənalı fikir ifadə etmək mühüm məziyyət sayılır. Bu işlərin yerinə yetirilməsi zamanı şagirdlər orfoqrafiya, durğu işarələri, qrammatik qaydaları öyrənməklə üslubiyyat,

cümlə qurmaq, sözü məqamında işlətmək üzrə bacarıqlara yiyələnir. Lakin yazılı nitq mədəniyyəti şagirddən həm də həyati müşahidə, zəruri bilik, mütaliə tələb edir.

***Müəllim üçün əlavə məlumat.*** *İnşa şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsində ən faydalı vasitələrdəndir. "İnşa" sözü qurmaq, yaratmaq mənasında işlənir. Bu yazı növündə şagirdin müstəqil düşüncəsi, nitq bacarıqları, ədəbi inkişaf səviyyəsi daha qabarıq şəkildə üzə çıxır. Şagird ədəbi əsər, problem barədə təəssüratına, düşüncələrinə, şəxsi həyat təcrübəsinə, müşahidələrinə əsasən inşada fikir yürüdür.*

*İnşa yazılar, əsasən, iki növə ayrılır:*

*1. Ədəbi mövzuda inşa yazılar;*

*2. Şagirdin şəxsi təəssüratı üzrə inşalar (sərbəst mövzuda inşa).*

*V sinifdə bədii əsər, qəhrəman haqqında rəy-inşalara daha çox müraciət olunur. Şagird inşa yazıda əsər haqqında fikirlərini ifadə edir, ədəbi qəhrəmanın xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, onlara əsaslandırılmış münasibət bildirməyə səy göstərir.*

*Müşahidələr, təəssürat əsasında inşalar şagirdlərin yaşadığı mühit və ərazi ilə ("Kəndimizin təbiəti", "Yay tətilini necə keçirdim?", "Yurdumuza bahar gəlir" və s.) bağlı olur. Təsvir xarakterli belə inşaları şagird yaradıcılığının sadə növü hesab etmək olar. Bu inşalar şagirdlərdən daha çox müstəqillik və fəallıq tələb edir.*

*Məktəb təcrübəsində inşa ilə bağlı aşağıdakı mərhələlər özünü doğrultmuşdur:*

1. *İnşa üçün mövzunun müəyyənləşdirilməsi.*
2. *İnşa yazının planının hazırlanması (Plan mövzuya uyğun olmalı, əsas ideyanı əhatə etməlidir).*
3. *İnşa ilə bağlı material toplanılması, müşahidələrin təşkili və s.*
4. *İnşanın yazılması.*
5. *Səhvlər üzərində işin təşkili.*

*İnşa yazı bacarıqlarının aşılanması üzrə iş zamanı aşağıdakı cəhətlər nəzərə alınmalıdır:*

*– mövzuya maraq oyadılması;*

*– mövzunun düzgün başa düşülməsi;*

*– material seçilməsi (atalar sözləri, aforizmlər, şeir parçaları, qəzet, internet materialı və s.);*

*– mövzunun şagirdlərin öz fikir və düşüncələri ilə əlaqələndirilməsi;*

*– fikrin məntiqi ardıcıllıqla şərhi.*

İnşa yazı bacarıqlarının aşılanmasına həsr olunmuş dərsdə müəllim şagirdlərə aşağıdakı suallar üzrə tövsiyələr verir: "Girişdə nədən bəhs olunur? Əsas hissədə hansı məsələlər əhatə olunur? Söylənilən fikirlər nəticədə necə yekunlaşdırılır?"

Şagirdlər qruplara ayrılır, hər qrupa inşanın quruluşu ilə bağlı tapşırıq verilir. Şagirdlər onlara təqdim olunan əlavə materiallardan istifadə edərək inşanın quruluşu (planı) haqqında kiçik təqdimat hazırlayırlar.

*I qrupun tapşırığı:*

– İnşanın girişi necə yazılmalıdır?

*II qrupun tapşırığı:*

– Əsas hissədə nələr əhatə olunmalıdır?

*III qrupun tapşırığı:*

– Nəticə hansı məzmunda yazılmalıdır?

Qrupların təqdimatı dinlənilir və müzakirə olunur. Məktəblilərə inşa yazı bacarığını aşılamaq üçün onların maraqla oxuduğu "Damda yaşayan Karlson" əsərindən istifadə edilir. Əsərdən Karlsonla Balacanın dostluğundan bəhs edən bir parçanın oxusu təşkil olunur. Müəllim şagirdlərdə maraq doğuran digər mətnlərdən də istifadə edə bilər.

## ***Damda yaşayan Karlson***
*(A. Lindqren)*

*Şəhərdəki adi evlərdən birində bir ailə yaşayırdı. Bu ailə atadan, anadan və onların üç uşaqlarından – Bosse, Berta və Balacadan ibarət idi.*

*Balaca həmişə deyirdi:*

*– Mən heç də ən adi balaca deyiləm.*

*Ancaq bunu o, əlbəttə, düz demirdi. Axı yer üzündə yeddi yaşlı göygöz o qədər oğlan var ki! Onların da qulaqları kirli, şalvarlarının dizi cırıqdır.*

*Bossenin on beş yaşı var. O, futbol oyununda qapıda durmağı məktəbdə yazı taxtası qarşısında durmaqdan çox-çox üstün tutur.*

*Bertanın on dörd yaşı var, onun hörükləri başqa adi qızların hörüyünə bənzəyir.*

*Bu evdə yalnız damda yaşayan Karlson qeyri-adidir. Karlson balacaboy, bir qədər özündənrazı, tosqun adamdır, üstəlik, hələ uça da bilir. Əlbəttə, təyyarə və vertolyotda hamı uça bilər, Karlson isə özü uçur. Qarnındakı düyməsini basan kimi kürəyindəki məzəli mühərrik işə düşür. Mühərrik var gücü ilə fırlanmağa başlayanda Karlson havaya qalxıb uçmağa başlayır.*

*Damdakı kiçik evində Karlson çox rahat yaşayır. Bir dəfə bir bacatəmizləyən qəflətən Karlsonun evini gördü. O, təəccüblə öz-üzünə dedi:*

*– Qəribədir... Bu ev nədir belə? Ola bilməz! Damda da ev olar?*

*Sonra bacatəmizləyən bacaya girdi, ev də yadından çıxdı, bir daha bu evi xatırlamadı.*

*Karlsonla tanış olmağına Balaca çox sevindi. Onlar tanış olan gün Balacanın şalvarı cırılmışdı. Bunun üstündə anası onu danladı. Məktəbdən gec qayıtdığına görə atasının acığı tutdu, dedi:*

*– Küçələrdə veyillənirsən?!*

*Axı atası haradan biləydi ki, Balaca məktəbdən qayıdanda bir küçüyə rast gəlib. Küçük quyruğunu bulayıb elə bil deyirdi: “Məni özünlə apar”.*

*Ancaq bədbəxtlikdən, Balacanın nə anası, nə də atası küçük saxlamağa razılıq vermirdi.*

*Odur ki Balaca evə çox kədərli gəlmişdi. O, öz otağına çəkilib pəncərədən ulduzlara baxmağa başladı. Bu gün rast gəldiyi gözəl küçük yadından çıxmırdı.*

*Birdən Balaca pəncərənin qarşısında uçan kök bir kişi gördü. Bu, damda yaşayan Karlson idi.*

*Kişi damın üstündə bir neçə dövrə vurub sürətini azaltdı, pəncərəyə yaxınlaşdı. Dedi:*

*– Xoş gördük! Olarmı, bir anlıq bura qonum?*

*Balaca dedi:*

*– Buyurun. Nədir, yoxsa uçmaq çətindir?*

*Karlson qürurla dedi:*

*– Mənim üçün uçmaq çətin deyil. Mən dünyanın ən mahir uçanıyam.*

*Onlar, beləcə, tanış oldular.*

*Karlson Balacanın oyuncaq buxar maşınını görüb onu işə salmaq istədi. Ancaq onun qurduğu buxar maşınının fitilini yandıranda partlayış baş verdi. Maşın parçalanıb dağıldı.*

*Karlson sevinərək qışqırdı:*

*– Maşın partladı! Gör necə gurladı. Əla!*

*Balaca isə özünü itirib durmuşdu, onun gözləri yaşarmışdı.*

*Karlson bunu görüb ona təskinlik verdi:*

*– Mən ən yaxşı maşınımı sənə verərəm. Yuxarıda mənim çoxlu maşınım var.*

*Balaca çox sevindi. O dedi:*

*– Yaxşı ki, sən otağıma gəldin! Sən yenə də uçub gələcəksənmi?*

*– Sakit, bircə sən sakit ol! – deyərək Karlson qarnındakı düyməni basdı. Mühərrik işə düşdü. Karlson pəncərədən çölə uçdu.*

*– Balaca, əlvida! – deyə Karlson əlini yelləd ərək gözdən itdi.*

Əsərdən oxunmuş parçanın ideya-məzmunu barədə daha dolğun təsəvvür yaratmaq məqsədilə aşağıdakı suallar əsasında müsahibə aparılır:

1. Balaca kimdir? Məktəbdən qayıdanda onun başına hansı hadisə gəlmişdi?
2. Karlson harada yaşayır? O, başqalarından nə ilə fərqlənir?
3. Balaca Karlsonla necə tanış oldu?
4. Karlson oyuncaq maşını işə salanda nə baş verdi?
5. Karlson Balacanı necə sakitləşdirdi?
6. Onlar necə ayrıldılar?

Müəllimin istiqamətverici sualları əsasında inşanın planı tutulur:

1**. Giriş**. Damda yaşayan Karlsonla görüş.
2. **Əsas hissə.**
a) Karlsonun xarici görünüşü necədir?
b) Karlsonun sirri.
c) Balaca ilə Karlsonun dostlaşması.
3. **Nəticə**. İnsanın dostu olması çox yaxşıdır.

Növbəti mərhələdə qruplara inşanın ayrı-ayrı hissələrini yazmaq tapşırığı verilir. I qrup planın giriş, ikinci qrup əsas hissə, III qrup nəticə hissəsini yazır.

Hər bir qrupun təqdimatı ayrıca müzakirə olunur, zəruri düzəlişlər aparılır. Təqdim olunan işlər birləşdirilərək yekun inşa mətni hazırlanır. Müəllim görülən işlərin nəticəsini inşa üzərində izahat aparmaqla ümumiləşdirir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Münasibətbildirmə
Şərhetmə
İnşayazma

| I səviyyə | I səviyyə | II səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Nağılın məzmununa – əhvalat və hadisələrə fərqli münasibət bildirməkdə çətinlik çəkir. | Nağılın məzmununa – əhvalat və hadisələrə kömək əsasında fərqli münasibət bildirir. | Nağılın məzmununa – əhvalat və hadisələrə, əsasən, fərqli münasibət bildirir. | Nağılın məzmununa – əhvalat və hadisələrə fərqli münasibət bildirir. |
| İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazır. |

*Təlim nəticələrinin dərsdə reallaşdırılma səviyyəsindən asılı olaraq, ev tapşırıqlarını müəllim müstəqil müəyyənləşdirə bilər. Bu zaman şagirdlərin maraq və imkanları nəzərə alınır.*

## *“Esse yazmağı öyrənirik” mövzusunda dərsin təşkili üçün tövsiyələr*

Essedə (fransızca “essai” – cəhd etmək, özünü sınamaq, oçerk) müəllif bu və ya digər mövzu, problemlə bağlı şəxsi baxışlarını, hiss və düşüncələrini nəsr formasında qələmə alır. Məktəbdə tətbiq olunan esse şagirdlərin öyrənilən, müzakirə olunan məsələ, problem haqqında müstəqil fikirlərini, düşüncələrini əks etdirən yaradıcı yazı işidir. Bu baxımdan esse sərbəst mövzuda inşa yazılara çox bənzəyir. Bir sıra tədqiqatçılar məktəb essesi ilə inşa arasında ciddi fərq görmür, məhz buna görə də “esse-inşa” anlayışını işlədirlər. Şagirdin yaradıcı potensialını üzə çıxarmaq imkanları geniş olduğu üçün şəxsiyyətyönümlü təlimdə esseyə tez-tez müraciət edilir.

Həcmcə kiçik olan essedə məktəblilər problemə dair müstəqil fikirlərini şərh edir, mühakimələrini, hökmlərini daha qabarıq ifadə edirlər. Essedə şagirdin hisləri, duyğuları, təəssüratları, məsələyə orijinal baxışı əsas yer tutur. Məsələn, V sinifdə “Kimə əsl dost demək olar?” mövzusunda esse yazdırmaq olar. Bu mövzuda esse yazan şagird öz mövqeyini, problemə münasibətini sərbəst şəkildə əks etdirir.

Esse üçün mühüm cəhətlərdən biri müəllifin sərbəstliyinə geniş meydan verilməsidir. Essedə əsaslandırma olmadan da bir hadisədən, yaxud təsvirdən başqasına keçmək mümkündür. Bu, ardıcıllığın pozulmasına da səbəb ola bilər. Deməli, essedə inşada olduğu kimi, ciddi məntiqi ardıcıllığın gözlənilməsi vacib deyildir. Hiss və düşüncənin ifadəsində sərbəstlik özünü göstərdiyi kimi, nəticə hissəsində də sərbəstlik müşahidə olunur. Məsələn, essenin müəllifi yazısını sual cümləsi ilə bitirərək nəticə çıxarmağı oxucunun öhdəsinə buraxa bilər.

Essenin yazılması zamanı aşağıdakı məsələlər diqqət mərkəzində saxlanılır:

*1. Mövzuya münasibətin dəqiqləşdirilməsi.*

Şagird, ilk növbədə, mövzuya münasibətini, nədən və necə yazacağını dəqiqləşdirir. Esse üçün seçilmiş mövzuya hər şagird öz fərqli münasibətini əks etdirir. Bunun üçün

mövzu aydın dərk edilməli, onun əhəmiyyəti, nə üçün maraq doğurduğu aydınlaşdırılmalıdır. Mövzu ilə bağlı ayrıca vərəqdə ilkin qeydlər aparılır, yeni ideyalar əks etdirilir.

*2. Mövzunun mahiyyətinin aydınlaşdırılması.*

Mövzunun mahiyyəti aydınlaşdırılarkən yazıda işlədiləcək açar sözlər seçilir. Mövzunun əhatə edilməsi üçün aşağıdakı anlayışların diqqət mərkəzində saxlanılması vacibdir:

- müqayisə – oxşar və fərqli cəhətləri müəyyənləşdirmək;
- əsaslandırma – fikri, verilən qiyməti inandırıcı faktlarla əsaslandırmaq;
- dəqiqləşdirmə – sözün, ifadənin mənasını müəyyənləşdirmək;
- izah etmək – təsvir etmək, səciyyələndirmək, nağıl etmək;
- dəyərləndirmək – öz şəxsi mövqeyinə əsaslanmaqla qiymətləndirmək;
- şərh etmək – bu mövzunu nə üçün seçdiyini aydınlaşdırmaq və s.

Bu mərhələdə essenin mövzusu ilə bağlı məlumat toplanılır. Şagird müxtəlif mənbələrdən (kitab, qəzet, jurnal, radio, televiziya, internet, ünsiyyətdə olduğu insanlar və s.) əldə etdiyi məlumatları təhlil edir, qeydlər aparır.

*4. Planın hazırlanması.*

Esse üçün hazırlanan plan inşa üçün tərtib edilən plandan fərqlənir. Essedə giriş, əsas hissə, nəticə şərti xarakter daşıyır. Essedə birdən-birə əsas məsələyə keçmək mümkündür və çox vaxt belə də olur. Yaxud müəllif elə başlanğıcda problemlə bağlı öz qənaətini əks etdirə bilər. Bütün bunlarla yanaşı, məktəb essesində ciddi struktur dağınıqlığı məqbul sayılmır. Fikirlərin ifadəsində məntiq, qarşılıqlı əlaqənin müəyyən qədər gözlənilməsi yazının keyfiyyətinə müsbət təsir edir.

*5. Essenin yazılması.*

Hazırlıq mərhələsindən sonra essenin yazılmasına keçmək olar.

Essenin başlanğıcında mövzu ilə bağlı şəxsi təəssüratın əks etdirilməsi məqsədəuyğundur. Şəxsi fikirlərin ifadəsinə yazının bütün məqamlarında üstünlük verilir, nümunələrin gətirilməsi arxa plana keçir. Essedə fikrin sadə cümlələrlə ifadə olunmasına xüsusi diqqət yetirilir.

*6. Essenin dəyərləndirilməsi.*

Çatışmazlıqların aşkara çıxarılması üçün mətnin təkrar oxunması məqsədəuyğundur. Bu zaman şagird fikrin məntiqi ifadəsinə, üsluba diqqət yetirməli, lazım gələrsə, mətni yenidən yazmalıdır.

Yazı tamamlandıqdan sonra şagird öz işini aşağıdakı suallar əsasında dəyərləndirə bilər:

- Mövzu ilə bağlı təsəvvür yaradılıbmı?
- Fikirlər aydın ifadə olunubmu?
- Şəxsi mövqe aydın şərh edilibmi?
- Dil, üslub xətalarına yol verilibmi?

Təklif olunan tövsiyələrdən istifadə edərək esse yazılmasına hazırlıq dərsi də keçmək olar. Şagirdlərdə esse yazmaq bacarığı kurikulumun tələbləri əsas götürülməklə formalaşdırılır.

## *Mövzu:* XALQ ÖZ VƏTƏNİNİ NECƏ TAPDI
## (Şimali Amerika əfsanəsi) — 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Əfsanə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə həyata keçirilən iş fərqli məzmunda təşkil edilə bilər. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı sual ("Əfsanələr hansı mövzularda olur?) əsasında müsahibənin aparılmasıdır. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına səbəb olur.

***Tədqiqat sualı:*** *Mövzusu xalqın həyatı, taleyi ilə bağlı olan əfsanələrdə, sizcə, daha çox nədən danışılar?*

Fərziyyələr dinlənilir, qeydlər aparılır.

**Tədqiqatın aparılması.** İlk növbədə, əsərin oxusu (bu, fərqli şəkildə reallaşdırıla bilər) həyata keçirilir. Mətndə tanış olmayan sözlərin mənasının lüğətlərin köməyi ilə aydınlaşdırılmasının vacib olduğu şagirdlərə əvvəlcədən xatırladılır.

Oxunun növündən asılı olmayaraq, əsərin ideya-məzmunu barədə ilkin təsəvvürün formalaşması qayğısına qalmaq məqsədəuyğundur. Bu, təkcə əhvalat və hadisələrin qavranılmasına yox, xırda incəliklərə də (insanın öz vətənini itirməsinin səbəbi və s.) diqqət yetirilməsini tələb edir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki suallara cütlük şəklində cavab hazırlayırlar. Növbəti tapşırıq da (məzmuna aid suallar və onlara cavabın yazılması) cütlük şəklində iş formasının tətbiqi ilə yerinə yetirilir.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Birinci, İkinci və Üçüncü Dünyanın məhvinə səbəb nə oldu?
   b) Tayova insanlara nə məsləhət gördü?
   c) Cənuba gedən insanların başına hansı hadisələr gəldi?
   d) Dünyanı dolaşan insanlar axırda hansı həqiqəti başa düşdülər?
3. Əfsanənin məzmununa aid ikidən az olmayaraq sual və onlara cavab hazırlayın.
4. Kiçik qruplarda birləşərək bütün sualların cavablarını dəqiqləşdirin, gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
5. Əfsanədən seçdiyiniz hissəyə ad verin, məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

**Evdə iş**

Əfsanədən seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında geniş nağıl etməyi öyrənin.

*Dərslik, səh. 21*

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər hazırladıqları bütün cavabları dəqiqləşdirir, ümumiləşdirmə apararaq qrupun təqdimatına hazırlaşırlar.

**Məlumat mübadiləsi** mərhələsində əfsanənin məzmunu ilə əlaqədar qazanılmış məlumatın tamlığına, əlaqələndirilməsinə səy göstərilir. Müşahidə edilən nöqsanlar dərsin növbəti mərhələsində – **məlumatın müzakirəsində** aradan qaldırılır.

Səsləndirilmiş fikirlərin qruplaşdırılması, vahid məcraya salınması isə **nəticə, ümumiləşdirmə** mərhələsində həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, xalq həyatının, taleyinin əks olunduğu əfsanələrdə daha çox böyük çətinliklərin aradan qaldırılmasından, taleyüklü problemlərin həllindən danışılır.

Nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsinə xüsusi diqqət yetirilir.

Yaxşı təşkil olunmuş dərsdə növbəti tapşırığın (əfsanədən seçilmiş hissənin nağıl edilməsi) yerinə yetirilməsinə kifayət qədər vaxt qalır. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

İstfadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Əfsanə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Əfsanə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Əfsanə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Əfsanə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* XALQ ÖZ VƏTƏNİNİ NECƏ TAPDI
(Şimali Amerika əfsanəsi) — 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Əfsanədəki ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki “Düşünün” başlıqlı sual (Əfsanələrdə insana hansı münasibət daha geniş əks olunur?) əsasında müsahibənin aparılması məqsədəuyğundur. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *“Əfsanədə insanın gücünə, qüdrətinə böyük önəm verilir” fikrini doğru saymaq olarmı?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli məzmunda və formada təşkil oluna bilər. Lakin bütün hallarda dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına və “Əsərlə bağlı açıqlamalar” mətninə müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim əvvəlcədən iş vərəqləri hazırlayır, “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı sualları onlarda əks etdirərək qruplara təqdim edir. Tapşırığa müəllim yaradıcı yanaşır. Məqsədindən, sinfin səviyyəsindən və s. asılı olaraq, ona əlavələr edir, onda müəyyən dəyişiklik aparır və s.

İşin icrasını diqqətlə müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərə kömək edir.

**Məlumat mübadiləsi** mərhələsində qruplar bir-birinin işinin məzmunu ilə tanış olurlar. Təqdimatların fəal dinlənilməsi, çıxış edənlərə sual verilməsi, işgüzar mühitin yaradılması təmin edilir. Lakin cavablarda pərakəndəlik, qeyri-dəqiqlik müşahidə olunur. Bu, təbiidir, onların aradan qaldırılması sonrakı mərhələdə həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili.** Bu mərhələnin səmərəli keçməsi müəllimin bələdçilik fəaliyyətindən çox asılıdır. Onun əvvəlcədən istiqamətləndirici suallar hazırlaması faydalıdır. Eləcə də cavablara əlavələr edilməsi, birtərəfli mülahizələrin dəqiqləşdirilməsi, fikirlərin əlaqələndirilib sistemə salınması diqqət mərkəzində dayanır. Bütün bunlar növbəti mərhələnin səmərəli keçməsinə əhəmiyyətli dərəcədə təsir edir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində indiyə kimi səsləndirilmiş fikirlərin ümumi ideya halına salınması ön plana çəkilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki,

əfsanədə insan, onun həyatdakı mövqeyi əhəmiyyətli yer tutur. Həyatda yalnız bir varlıq – insan ən çətin hallarda belə öz gücünə, qüdrətinə arxalanmaqla çıxış yolu tapmağa qadirdir.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsi diqqət mərkəzində saxlanılır.

Dərslikdəki “Tətbiq. Müzakirə. Yaradıcı iş” başlıqlı tapşırıqların icrasına vaxt ayrılır. Başlıca məqsəd epitetlə bağlı məlumatın mənimsədilməsi və möhkəmləndirilməsi olur.

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

1. Sözlərin məcazi mənada işləndiyini bilirsiniz. Məsələn: yüngül çanta – yüngül xasiyyət, şirin meyvə – şirin söz.

Dilimizdə işlənən belə məcazi mənalı sözlərə – məcazlara aid nümunələr söyləyin, cümlədə işlədin və mənalarını müzakirə edin.

2. Bədii təsvir vasitələrinin – məcazın növlərindən biri *epitetdir*. Epitet yunanca “əlavə” deməkdir. Bədii əsərdə sözün mənasını qüvvətləndirmək, fikri qabarıq ifadə etmək üçün ona məcazi sözlər (sifətlər) artırılır. Məsələn, Hüseyn Arifin aşağıdakı misrasında “şirin” sözü “arzu” sözünə əlavə olunaraq epitet yaratmışdır:

Dağların sinəsində
Şirin arzular yatar.

Bu nümunədə “şirin” sözü həqiqi yox, məcazi mənada işlənmiş, fikri bədii cəhətdən qüvvətləndirmişdir.

3. Oxuduğunuz əfsanədə fərqləndirilmiş hissələrdə işlənmiş epitetlərin fikrin təsir gücünü necə artırdığını müzakirə edin.
4. Mətndə məqsədəuyğun saydığınız bir neçə sözə epitet artırın, baş verən dəyişikliyi izah etməyə çalışın.

*Dərslik, səh. 22*

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əfsanənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Əfsanənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Əfsanənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Əfsanənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

# *Mövzu:* YETİM İBRAHİMİN NAĞILI — 3 saat

## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Nağılda tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Müəllim şagirdləri tədqiqat sualının müəyyənləşdirilməsinə istiqamətləndirir:

– Haqsızlıqla üzləşən insanlar barədə eşitmisiniz. Aşağı siniflərdə tanış olduğunuz əsərlərdə də bu barədə oxumusunuz. Məsələn, öyrəndiyiniz əsərlərdən sizə məlumdur ki, bəziləri heç bir günahı olmayan insanların haqqını tapdalayır, öz acgözlükləri ucbatından onları çətinliklərlə üz-üzə qoyur...

Deyilənlərlə bağlı şagirdlərin fikirləri öyrənilir, yığcam müsahibə aparılır, nəticədə tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** *Sizcə, kimsəsiz bir gənc ona qarşı haqsızlıq edənlərlə hansı yolla mübarizə apara bilər?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.


I dərs | Məzmun üzrə iş

1. Əsərin birinci parçasını oxusundan (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
2. Kiçik qruplarda birləşərək cavablarınızı dəqiqləşdirin.
3. Çıxardığınız nəticələri təqdimat əsasında müzakirə edin.
4. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) İbrahim obrazında diqqətimi cəlb edən başlıca cəhətlər nə oldu?
   b) Nağılda daha maraqlı hesab etdiyim hadisə hansıdır?

*Dərslik, səh. 30*

Müəllim əlavə edir ki, fərziyyələri yoxlamaq, hansının doğru olduğunu aşkara çıxarmaq üçün “Yetim İbrahimin nağılı”nın ətraflı öyrənilməsi, araşdırılması məqsədəuyğundur.

**Tədqiqatın aparılması.** İlk növbədə nağılın oxusu, məzmununun mənimsənilməsi həyata keçirilir. Oxunu fərqli variantlarda təşkil etmək olar. Vaxta qənaət baxımından fərdi səssiz oxunun seçilməsi daha faydalıdır.

Oxuda yalnız hadisələrin qavranılması kifayət deyil; İbrahimin xarakteri, insanlara münasibəti barədə ilkin təsəvvürün formalaşmasına nail olmaq faydalıdır. Bu, diqqətli oxu, ən kiçik ştrixlərə belə həssas yanaşma tələb edir. Məsələn, nağılda bir cümlə ilə (“İbrahim çox ağıllı oğlan idi”) kiçik qəhrəman haqqında təsəvvür yaradılıb. Eləcə də ana-övlad münasibətlərindəki səmimilik, digər obrazların xarakteri barədəki fikirlər çox

yığcam şəkildə əks olunub. Bunların oxu prosesində aşkara çıxarılması və mənimsənilməsi sonrakı mərhələdə aparılan işlərin səmərəliliyinə ciddi təsir edir.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra mətnkənarı suallara cütlük şəklində cavab hazırlanır. Cavabları oxşar olan cütlüklər müəllimin təklifi ilə kiçik qruplarda birləşirlər. Qrup daxilində fikir mübadiləsi aparan şagirdlər bütün sualların cavablarını təhlil edir, dəqiqləşdirmələr aparırlar. **Məlumat mübadiləsi** mərhələsində qrupların təqdimatları dinlənilir. Bütün qruplar eyni suallar üzrə işlədikləri üçün bu mərhələdə şagirdlərdə yüksək fəallıq müşahidə olunur. Çox vaxt bu mərhələ **müzakirə** mərhələsi ilə qovuşur. Qeyri-dəqiq cavablar, birtərəfli mülahizələr aradan qaldırılır, şagirdlərin hər birinə fikrini sərbəst ifadə etmək imkanı yaradılır.

Aparılan iş yekunlaşdırıldıqdan (nağılın məzmunu bütövlükdə öyrənilmədiyindən dərsin **nəticə, ümumiləşdirmə** mərhələsinin tələbləri tam halda ikinci dərsdə reallaşdırılır) sonra şifahi təqdimatların hazırlanmasına vaxt ayrılır. Təqdimatlar üçün dərslikdə təklif edilmiş mövzular məzmunun daha dərindən qavranılması və təhlilə zəmin yaratması baxımından faydalıdır. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Təqdimatetmə istifadəetmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Nağılla bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Nağılla bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Nağılla bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* YETİM İBRAHİMİN NAĞILI — 3 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Nağılda tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Nağılı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi, yaxud müsahibə əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq meyarlara müraciət etməsi məqsədəuyğundur.

Nağılın məzmununun öyrənilməsi üzrə iş davam etdirilir. Evdə müstəqil oxunmuş parça müəllimin təklifi ilə bir daha nəzərdən keçirilir və cütlük şəklində iş forması tətbiq edilməklə məzmuna aid suallar tərtib edilir. Cavabları məzmunca oxşar olan cütlər kiçik qruplarda birləşirlər. Qrup daxilində həm sualların, həm də onlara hazırlanan cavabların müzakirəsi aparılır. Bu, cavabların dəqiqləşdirilməsi, təkmilləşdirilməsi və zənginləşdirilməsi baxımından faydalıdır. İşin sonunda qrup üzrə əsaslandırılmış təqdimat hazırlanmış olur. **Məlumat mübadiləsi** mərhələsində həmin təqdimatların dinlənilməsi həyata keçirilir. Təqdimatların fəal dinlənilməsi, meydana çıxan sualların aydınlaşdırılması həmin mərhələdə diqqət mərkəzində olur. Müşahidələr göstərir ki, bu qəbildən tapşırıqların icrasına həsr olunan dərslərdə **məlumat mübadiləsi və müzakirə** mərhələləri qovuşur. Bu, müəllimdən daha çevik olmağı tələb edir; o, təqdimatların fəal dinlənilməsinə, daha əhəmiyyətli olanların səsləndirilməsinə, yanlış fikirlərin müzakirə yolu ilə ardan qaldırılmasına nail olur.

**Nəticə, ümumiləşdirmə** mərhələsində indiyə qədər deyilmiş fikirlərin müqayisə edilməsi, qruplaşdırılması həyata keçirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, haqsızlıqla qarşılaşan hər kəs ağılla, təmkinlə hərəkət etməli, müdriklərin məsləhətinə qulaq asmalıdır.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə təklif edilmiş növbəti tapşırığın (nağıldan seçilmiş hissənin yığcam nağıl edilməsi) yerinə yetirilməsinə vaxt ayrılır. İlk növbədə, *yığcam nağıletmənin* mahiyyəti, tətbiqi qaydaları barədə izahat verilir, dərslikdəki nümunənin üzərində müşahidə təşkil edilir. Ardınca şagirdlər nağıldan seçdikləri hissəni hazırladıqları plan əsasında yığcam nağıletməyə hazırlaşırlar. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur. Öyrəndikləri yeni sözlərdən şagirdlərin necə istifadə etdiklərinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam nağıl etməkdə çətinlik çəkir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissə-nin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam nağıl edir. |
| Nağılla bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Nağılla bağlı şifahi təqdimatları müəlli-min köməyi ilə edir, öyrəndiyi yeni söz-lərdən nitqində qismən istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* YETİM İBRAHİMİN NAĞILI — 3 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Nağılı hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Nağıldakı ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək olar. Məsələn, dərslikdəki "Düşünün" başlıqlı sual (Nağıl qəhrəmanlarının çətin sınaqlardan üzüağ çıxmasına səbəb nə ola bilər?) əsasında yığcam müsahibə aparmaqla həm vaxta qənaət etmək, həm də maraqlı motivasiya qurmaq mümkündür. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *İbrahimi xalqın haqsızlığa qarşı mübarizə arzusunu həyata keçirən qəhrəman saymaq olarmı?*


III dərs Təhlil üzrə iş

• Əsərlə bağlı açıqlamalar.

Nağıllarda xalqın arzusu, istəyi ifadə olunur. Azad, firavan yaşamağı arzulayan xalq şər qüvvələrə, pisliklərə nifrət edir, özünə arxa, dayaq saydığı sevimli qəhrəmanını yaradır. Bu qəhrəman şər qüvvələrə, pisliklərə qarşı çıxır, mübarizə aparır. Müdrik qocalardan məsləhət, xalqdan güc, qüdrət alan bu qəhrəman zalımlara qalib gəlir, zülmə son qoyur.

Nağıllardakı əhvalat və hadisələr şirin, aydın, axıcı bir dillə çatdırılır. Məsələn, "biri varmış, biri yoxmuş", "gecəni gündüzə qatdı, gündüzü gecəyə", "az getdi, çox getdi, dərə-təpə, düz getdi" və s.

Nağılın üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən cəhətləri aydınlaşdırmağa çalışın.

Araşdırın. Fikirləşin. Cavab verin

1. Sizcə, İbrahimin xarakterindəki başlıca cəhətlər hansılardır? Niyə belə düşünürsünüz?
2. İbrahimin çətinliklərə, şər qüvvələrə üstün gəlməsinin səbəbi, sizcə, nədir?
3. Nağıldakı padşah, tacir (vəzir) surətlərinə necə münasibət bəsləyirsiniz? Onları birləşdirən cəhətlər varmı?
4. Nağılda ifadə olunmuş əsas fikir, sizcə, nədir?

*Dərslik, səh. 31*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Əsərin təhlilinə, ideyasının aydınlaşdırılmasına fərqli variantlarda olan işlərdən istifadə ilə nail olmaq mümkündür. Bütün hallarda dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmiş suallardan bəhrələnmək faydalıdır. Eləcə də dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət edilməsi vacibdir.

"Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallar fərqli iş formalarının seçilməsinə imkan verir. Məsələn, şagirdlər cütlük şəklində, yaxud kiçik qruplarda (suallar qrupların arasında bölüşdürülərək tapşırıq şəklində təqdim olunur) işləməklə araşdırma apara bilərlər. Yaxud vaxta qənaət etmək üçün bütün siniflə müsahibənin

aparılması da mümkündür. Bütün hallarda şagirdlərə düşünmək, araşdırma aparmaq üçün şərait yaradılmalıdır.

Yetim İbrahimin şəri təmsil edən qüvvələrlə (padşah, vəzir, div) müqayisəsinə xüsusi diqqət yetirilməlidir. Bunun üçün müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə etmək məqsədəuyğundur. Müzakirə zamanı İbrahimə yol göstərən qocanın, divin əlindən xilas edilmiş qızın xeyiri – xalqı təmsil etdiyi aydınlaşdırılmalıdır.

Tapşırıqlar icra edilərkən dərslikdəki mətnə ("Əsərlə bağlı açıqlamalar") yenidən müraciət edilməsinə ehtiyac yaranır. Həmin mətnə müraciət şagirdlərin əsər barədə fikirlərinin durulaşmasına, öz mövqelərini dəqiqləşdirmələrinə əlavə imkan yaradır.

**Məlumat mübadiləsi və müzakirə mərhələlərində** ilk növbədə, fəal dinləmə, şagirdlərin (qrupların) bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmaları təmin edilir. Müzakirədə fərqli, ziddiyyətli fikirlərin ("İbrahim padşahla taciri bağışlaya bilərdi; o, padşahla tacirə haqsız olduqlarını başa sala bilərdi"; "İbrahim tacirin iç üzünü açmaqla kifayətlənə bilərdi"; "İbrahim padşahla taciri cəzalandırmasaydı, onlar öz pis əməllərini davam etdirəcəkdi") səsləndirilməsinə təbii baxmaq lazımdır. Yanlış, birtərəfli fikirlərin aradan qaldırılmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Şagirdlər müəllimin təklifi ilə İbrahim obrazının təhlili ilə əlaqədar çıxardıqları nəticəni yada salırlar: İbrahim atasının ölümündən sonra onun sənətini davam etdirir, anasına arxa olur. O, xeyirxahdır, divdən qorxmayıb əsir qızı xilas etməklə, padşahla taciri cəzalandırmaqla şərə qarşı çıxdığını sübut edir... Deməli, İbrahim həyatda şər qüvvələrə qarşıdır, onlarla vuruşur. Nağıl yaradıcılarına görə, bütün şər qüvvələr və pisliklər yer üzündən silinməlidir. İnsanlara bəla gətirən bu qüvvələr kimliyindən asılı olmayaraq, yox edilməlidir. Padşahla tacir də şər qüvvələri təmsil etdikləri üçün insanların arasında yaşaya bilməzlər. Şərə, pisliyə qarşı mübarizə aparan İbrahim xalqın sevə-sevə yaratdığı, xeyiri təmsil edən qəhrəmandır, elə buna görə də şər qüvvələr – padşahla tacir onun əli ilə ağır cəzalandırılır.

Çıxarılmış nəticə ilə şagirdlərin fərziyyələrinin müqayisəsinə vaxt ayrılır.

Dərsdə vaxtdan qənaətlə istifadə edilməsi ifadəli oxu ilə bağlı tapşırığın yerinə yetirilməsinə imkan verir. Dərslikdəki tövsiyənin oxusunu təşkil edən müəllim yığcam müsahibə aparmaqla onun başa düşülməsinə nail olur. Nağıldan seçilmiş parçanın ayrı-ayrı şagirdlər tərəfindən ifadəli oxusunun dinlənilməsi, ifaların müzakirə edilməsi, tövsiyələr verilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Nağılı hadisələrin məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Nağılı müəllimin köməyi ilə hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Nağılı, əsasən, hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Nağılı hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |

| | | | |
|---|---|---|---|
| Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Nağılın ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Nağılın ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* ÜÇ QARDAŞ (özbək nağılı) — 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Nağılda tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Nağılı hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Ağılın üstünlüyünü nümayiş etdirən rəvayət, atalar sözü və məsəl, bədii əsərdən parça və s. xatırlatmaq və müsahibə aparmaqla motivasiya yaratmaq olar. Digər bir variant dərslikdəki "Yada salın" başlıqlı sual (Nağıllarda şər qüvvələri kimlər təmsil edir?") əsasında müsahibənin aparılması ola bilər. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** *Nağıl qəhrəmanları hansı şər qüvvələrə qarşı çıxmalı olurlar?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, sinifdə nağılın oxunması ilə başlanır. Oxunun növünün müəyyənləşdirilməsində müəllim sərbəstdir. Müəllim məqsədindən, sinfin səviyyəsindən, vaxt imkanlarından, eləcə də şagirdlərin istəyindən çıxış etməklə oxu növünü seçib hazırlıq işi apara bilər. Məsələn, fasilələrlə oxunu, yaxud proqnozlaşdırılmış oxunu seçən müəllim mətndə hansı parçaların oxusundan sonra fasilə ediləcəyini müəyyənləşdirir. Fasiləli oxu üçün hər parçaya aid suallar hazırlayır və s. Məzmunca maraqlı olan "Üç qardaş" şagirdləri ilk cümlələrdən cəlb edir. Deməli, oxunun hansı növünün tətbiqindən asılı olmayaraq, mətn üzərində diqqətin toplanması çətinlik törətməyəcək. Elə buna görə də oxuda nağılın məzmunundakı kiçik, lakin mühüm ştrixlərin (qardaşların bir-birinə münasibəti, diqqətli, həssas olmaları və s.) qavranılmasına əlverişli imkan yaranır.

> **I dərs** | **Məzmun üzrə iş**
>
> 1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s. şəkildə yerinə yetirə bilərsiniz).
> 2. Parta yoldaşınızla birlikdə mətnin kənarındakı suallara cavab hazırlayın.
> 3. Kiçik qruplarda birləşib, fikir mübadiləsi aparın, çıxardığınız nəticələri təqdimatlar əsasında müzkirə edin.
> 4. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

*Dərslik, səh. 39*

Dərslikdəki tövsiyə əsas götürülərsə, nağılın oxusundan sonra şagirdlər mətnkənarı suallara cütlük şəklində cavab hazırlayır, sonra kiçik qruplarda birləşərək fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə və zənginləşdirilməsinə imkan yaradır. Yalnız bundan sonra qruplar bir-birinin işinin məzmunu ilə təqdimatlar vasitəsi ilə tanış olurlar. Bu, dərsin **məlumat mübadiləsi** mərhələsi kimi qəbul edilə bilər. Sonrakı – **müzakirə** mərhələsində cavabların daha da təkmilləşdirilməsi, cilalanması həyata keçirilir. **Nəticə, ümumiləşdirmə** mərhələsində şagirdlər yüksək fəallıq nümayiş etdirirlər. Aparılmış işlər onlarda belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, nağıl qəhrəmanları heç də həmişə sehrli qüvvələrlə qarşılaşmır, şər qüvvələr adi insanlar da ola bilər...

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsi məqsədəuyğundur.

Məntiqi ardıcıllığın gözlənilməsi ilə mətnin bitkin hissələrə ayrılması şagirdlərdən diqqətli olmağı, qazanılmış bacarıqları tətbiq etməyi tələb edir. Məsələnin bu cəhəti, eləcə də müəyyənləşdirilmiş hissənin planının tərtib edilməsi müəllimin ciddi müşahidəsi ilə reallaşdırılır.

Şagirdlərin seçdikləri hissəni hazırladıqları plan əsasında geniş nağıl etmələrinə münasibət də fərqli ola bilər; çıxış edən şagirdlərə sualların verilməsi, əsərdən seçilmiş nü-

munələrin məqsədyönlü olub-olmamasına aydınlıq gətirilməsi, mənası yeni öyrənilmiş sözlərdə istifadə səviyyəsi və s. həmin mərhələyə müzakirə xarakteri verə bilər.

Seçilmiş hissənin həm geniş, həm də yığcam danışılmasına şərait yaradılması da mümkündür.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Təqdimatetmə istifadəetmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Nağılı hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Nağılı hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Nağılı hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Nağılı hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Nağılla bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Nağılla bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Nağılla bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Nağılla bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Nağılla bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* ÜÇ QARDAŞ (özbək nağılı) — 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Nağılın təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilmə səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələ fərqli məzmunda təşkil oluna bilər. Dərslikdəki "Düşünün" başlıqlı sual (Nağıl qəhrəmanlarını yenilməz edən cəhətlər hansılardır?) əsasında aparılan müsahibə tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *"Ən böyük var-dövlət ağıldır" atalar sözündə ifadə olunmuş fikir nağıldakı başlıca fikirlə səsləşirmi?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu mərhələdə işin hansı məzmunda təşkilindən asılı olmayaraq, dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət edilməsi məqsədəuyğundur. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallar qrup tapşırığının hazırlanması üçün daha əhəmiyyətlidir. Müəllimin həmin suallara yaradıcı yanaşaraq əlavələr etməsi mümkündür. Məsələn, birinci suala əlavələr etməklə qruplardan birinə aşağıdakı məzmunda tapşırığın təqdim olunması məqsədəuyğundur: "Övladlarına verdiyi məsləhət ata haqqında hansı təsəvvür yaradır? Onu uzaqgörən insan saymaq olarmı?"

Yaxud digər qrupun tapşırığını aşağıdakı şəkildə müəyyənləşdirmək mümkündür: "Qardaşların xasiyyətində, hərəkətlərində hansı cəhətlər xoşunuza gəldi? Onların xarakterində, sizcə, fərqli cəhətlər varmı?"

Qruplar üçün hazırlanmış iş vərəqlərində hansı metodun və priyomun daha səmərəli olduğunu qeyd etmək faydalıdır. Məsələn, birinci sualla əlaqədar şaxələndirmədən (klasterdən) istifadənin daha səmərəli olduğu göstərilə bilər.

İkinci qrupa müqayisə cədvəlindən, yaxud Venn diaqramından istifadə tövsiyə oluna bilər.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsi təmin olunur. Bu mərhələdə əsaslandırılmamış, birtərəfli fikirlərin səsləndirilməsinə təbii baxılmalıdır. Məhz buna görə də sualların verilməsinə məhdudiyyət qoyulmamalı, qruplar bir-bi-

rinin işi ilə ətraflı tanış olmalıdırlar. **Müzakirə** mərhələsində yanlış mülahizələrin aradan qaldırılması, fikirlərin əlaqələndirilməsi, müqayisə edilməsi, qruplaşdırılması həyata keçirilir. Bu, növbəti mərhələnin – **nəticə və ümumiləşdirmənin** səmərəli təşkilinə səbəb olur. Bu mərhələdə ümumi ideyanın müəyyənləşdirilməsinə, əsaslandırılmış nəticənin çıxarılmasına xüsusi diqqət yetirilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, elm, bilik öyrənməyə böyük həvəsi olan, həssas, diqqətli insanlar daim zənginləşir, inkişaf edirlər. Ağıl, kamal sahibi olan belə insanlar çətinliklərdən qorxmur, ən mürəkkəb məsələlərdən belə asanlıqla baş çıxarırlar. Ağıl, kamal insan üçün ən böyük, tükənməyən sərvətdir.

Çıxarılmış nəticənin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

*Bənzətmə* anlayışı ilə bağlı dərslikdə verilmiş məlumatın mənimsənilməsinə vaxt ayrılır. Müəllim, lazım gələrsə, əlavə izah verir. Qazanılmış məlumatın möhkəmləndirilməsində dərslikdə təklif edilmiş tapşırıq əhəmiyyətli rol oynayır. Tapşırıq fikrin təsir gücünün artmasında bənzətmənin rolunu başa düşməyə imkan yaradır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Nağıldakı qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Nağılın təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Nağılın təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Nağılın təsir gücünün artmasında bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu, əsasən, aydınlaşdırır. | Nağılın təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Nağılın ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Nağılın ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Nağılın ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Nağılla bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## BİRİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*“Pəri bulağı” əfsanəsi üzrə*
*aparıla bilər.*

### PƏRİ BULAĞI
(əfsanə)

Qarabağ elatında maldarlıqla məşğul olan, köçəri həyat keçirən bir kişi və onun Pəri adlı gözəl-göyçək bir qızı varmış. Bu qızın gözəlliyinə, ağlına hamı heyran imiş. Ata-anası onunla fəxr edər, ondan heç nəyi əsirgəməzmiş.

Ağır gün ağır xəstəlik gətirir. Çox cavanların arzusu gözündə qalır, vaxtsız-vədəsiz həyata göz yumurmuş. Pəridən də bu xəstəlik yan keçmir. O, günü-gündən özünü pis hiss edir, ağır xəstəliyə tutulur. Dərd içində olan ata-anası Pərini çox təbibə, çox loğmana göstərir, lakin heç kim gənc qızın dərdinə əlac tapa bilmir. Qız günü-gündən saralıb solur.

Bir müddət sonra havalar düzəlir, elat yaylağa köçməyə başlayır. Pərinin atası da xəstə qızının arabasını köçdən ayırmır. Onlar yaylağa gəlir, alaçıq qurub yaşamağa başlayırlar. Lakin buranın təbiəti nə qədər gözəl olsa da, yaylaqda da Pərinin vəziyyəti dəyişmir. O, özünü əvvəlki kimi zəif hiss edir, sağalmağa ümidi azalır.

*Dumanlı-çiskinli günlərin birində Pəri elatdan aralanır. Xeyli müddət yol gedir. Gözəl mənzərəli yerlərdən keçir, yorulur, dincəlmək üçün bir az oturur. Yorğunluğu çıxandan sonra yenidən yoluna davam edir.*

*Pəri çox gəzib, dolandıqdan sonra gözəl bir yerə gəlib çıxır. Burada hər şey ona xoş gəlir, turaclar, kəkliklər ondan qaçmır. Pəri hiss edir ki, aclıq onu əldən salır. Məcbur olub yabanı bitkilərdən yeməyə başlayır. Baldırğan, şehlik otu, quzuqulağı və yemlik yedikcə iştahı artır. Hətta su da içmək istəyir. Nə qədər boylanırsa, su tapmır. Bir az aşağı endikdə göz yaşı kimi dumduru, buztək soyuq suyu olan bir bulağın axdığını görür. Ətrafında bitmiş gözəl çiçəklər, baldırğanlar, qantəpərlər, şehlik otları, yemliklər bu bulağa olduqca gözəllik verirdi. Pəri bülbülün nəğməsinə heyranlıqla qulaq asır.*

*Pəri bulağa yaxınlaşıb şəffaf sudan doyunca içir. Birdən-birə özündə yüngüllük hiss edir. Pəri bir müddət həmin sudan içir və ətrafındakı bitkilərdən yeyir. Artıq Pəri tam sağalır.*

Əvvəlki xəstəlikdən əsər-əlamət qalmır. Pəri bulağın yanındakı çəmənlikdə yuxuya gedir. Bu zaman nurani bir qocanın yolu buradan düşür. O, uzaqdan bulağın başında bir qaraltı görür. Əvvəl gözlərinə inanmır. Yaxınlaşanda görür ki, bir qız bulağın üstə yatıb. Qoca qızı yuxudan oyadır və nə üçün burada tək-tənha yatdığını soruşur. Pəri başına gələni nurani qocaya danışır.

Qoca:

– Qızım, xəstəlik, ölüm-itim çoxalıb. Qəm-kədər meydanda at oynadır. Yuxuda görmüşəm ki, bu torpağın gülü-çiçəyi, dərman otları, sərin bulağının suyu xəstələrə həyat verir. Xeyli vaxtdır ki, çöllərə, meşələrə düşüb həmin yeri axtarıram. Səni həyata qaytaranları, sənə şəfa verənləri mənə göstər.

Bu sözləri eşidən Pəri yediyi dərman bitkilərinin adını söylədi, içdiyi suyu ona göstərdi. Bundan çox sevinən qoca Pəridən soruşdu:

– Qızım, de görüm, kimlərdənsən?

Pəri ata və anasının adını qocaya söylədi. Qoca dedi:

– Qızım, mən səni düz evinizə apararam.

Onlar Pərinin yaşadığı yerə üz tuturlar. Pərini axtaran ata-anası uzaqdan iki qaraltının onlara tərəf gəldiyini görürlər. Gələnlər yaxınlaşanda onlar gözlərinə inanmırlar. Gələn Pəri idi. Sevinclərindən yerə-göyə sığmayan valideynlər nurani qocaya dönə-dönə minnətdarlıq bildirirlər. Qızlarını götürüb sevinc içində obalarına qayıdırlar.

Pərinin sağalıb gəldiyini eşidən elat camaatı onlara gözaydınlığı verir. Bulağın suyu və şəfalı otların ağır xəstəlikləri sağaltması xəbəri tezliklə bütün el-obaya yayılır. Hər tərəfdən ağır xəstəliyə tutulmuş insanlar Pərinin yanına gəlib həmin yerin harada olduğunu öyrənirlər. Bulağın suyunu içən, şəfalı otlardan yeyən xəstələr tezliklə sağalır, el-oba qəmdən, kədərdən qurtulur. Elə o vaxtdan qədirbilən insanlar həmin bulağa "Pəri bulağı" dedilər.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Əfsanədə çərçivəyə alınmış hissəyə aid plan tərtib edin.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**2. Nurani qocanın xasiyyətindəki əsas cəhət hansıdır?**

A) əməksevərlik
B) qayğıkeşlik
C) cəsarətlilik
D) laqeydlik

**3. Hansı fikrin yanlış (Y) və ya doğru (D) olduğunu çərçivədə qeyd edin.**

– *Əsərdə təbiətin gözəlliyi təsvir olunur.* ☐

– *Əsərdəki qoca xeyirxah və mərhəmətlidir.* ☐

– *Pəri cəsarətli , qəhrəman qızdır.* ☐

– *Valideynləri Pəriyə laqeyd yanaşırlar.* ☐

**4. Əsərdə əfsanəyə xas olan xüsusiyyətləri yazın.**

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

______________________________________________

**5. Cümlələrdə hansı bədii təsvir vasitəsi işlənmişdir?**

| | |
|---|---|
| *Ağır gün ağır xəstəlik gətirər.* ⇨ | |
| *Bir az aşağı endikdə göz yaşı kimi dumduru, buztək soyuq suyu olan bir bulağın axdığını görür.* ⇨ | |

**6. Cümlədəki *şəffaf* sözünü hansı sözlə əvəz etmək olar?**

*Pəri bulağa yaxınlaşıb şəffaf sudan doyunca içir.*

___________________

**7. Hadisələrin ardıcıllığını tamamlayın.**

Pərinin xəstələnməsi ⇨ Obanın yaylağa köçməsi ⇨ Pərinin şəfalı bitkiləri tapması ⇨ ?

A) Pərinin yaylaqda gəzməyə çıxması
B) Pərinin valideynlərinə qovuşması
C) Nurani qocanın Pərini tapması
D) Pərinin bulağın yanında yuxuya getməsi

**8. Əsərdə bitkilərdən hansı məqsədlə söz açılır?**

________________________________________

**9. Pəri haqqında fikirlərdən hansı səhvdir?**

A) Gözəldir. B) Ağıllıdır.
C) Acıdildir. D) Xeyirxahdır.

**10. Bu əsərdən hansı nəticəyə gəldiniz?**

________________________________________
________________________________________
________________________________________

# 2.

# YURD SEVGİSİ,
# ANA MƏHƏBBƏTİ

*Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək olar. Rəmzi materiallardan (musiqi parçasının səsləndirilməsi, bədii nümunədən yığcam təsvirin oxusu, rəssamlıq əsərinin nümayiş etdirilməsi və s.) istifadə etməklə motivasiyanın yaradılması mümkündür. Dərslikdəki “Yada salın” başlıqlı sual (Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?) əsasında müsahibə aparmaqla da tədqiqat sualını müəyyənləşdirmək olar.

***Tədqiqat sualı:*** *Vətənə həsr olunmuş əsərlərdə oxucunu daha çox nə maraqlandırır?*

Şagirdlərin fikirləri – fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.
**Tədqiqatın aparılması.** Bədii oxu ustasının ifasında (müəllimin nümunəvi ifadəli oxusu ilə də əvəz oluna bilər) şeirin bir neçə bəndinin dinlənilməsi faydalıdır. Bu,

sinifdə əsərin məzmununa müvafiq ovqatın yaranmasına səbəb olur. Sonra əsərin oxusu həyata keçirilir. Bu, fərqli oxu formalarının tətbiqi ilə reallaşdırıla bilər. İdeya-məzmununa görə ədəbiyyatımızın ən yaxşı əsərlərindən olan bu şeirin incəliklərinin duyulmasına elə oxu prosesində nail olmaq vacibdir.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz).
2. Dörd qrupa bölünün, hər qrup iki bənd üzərində işləməklə, fikirlərinizi ikihissəli gündəlikdə yazın. Bunun üçün aşağıdakı cədvəldən istifadə edin.

| Əsərdə diqqətimizi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Gəldiyiniz nəticələri təqdimatlar əsasında müzakirə edin.
4. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) "Şeirdə vətənimiz haqqında yeni nə öyrəndim?" Öyrəndiyiniz yeni sözlərdən istifadə edin.
   b) "Şeirdə ən çox xoşladığım bəndlər hansılardır?" Seçiminizi əsaslandırın.

*Dərslik, səh. 46*

Bu, sonrakı mərhələlərdə aparılan işlər üçün əhəmiyyətlidir. Oxu prosesində tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər kiçik qruplarda birləşərək araşdırmalarını davam etdirirlər. Hər qrup iki bənd üzərində (fərqli də ola bilər) işləməklə fikirlərini ikihissəli gündəlikdə qeyd edir. Şagirdlərə izah olunur ki, onlar müstəqil aydınlaşdıra bilmədikləri məsələləri, izahına ehtiyac duyduqları sualları və s. ikihissəli gündəlikdə əks etdirə bilərlər. Bu, məlumat mübadiləsinin, müzakirənin canlı, maralı keçməsinə, əsərin dərindən mənimsənilməsinə səbəb olur. Qrupların əldə etdikləri nəticələr **məlumat mübadiləsi** mərhələsində təqdimatlar əsasında dinlənilir. Bu mərhələ belə məqamlarda çox vaxt **müzakirə** mərhələsi ilə qovuşur. Müzakirədə aydınlaşdırılmasın ehtiyac duyulan mətləblər, suallar diqqət mərkəzinə çəkilir. Fikirlər arasında əlaqələr yaradılır, ümumiləşdirmələrə səy göstərilir. Bütün bunlar **nəticə, ümumiləşdirmə** mərhələsinin səmərəli keçməsinə əhəmiyyətli təsir göstərir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, vətən mövzusunda yazılmış əsərlərdə oxucunu daha çox doğma yurdun əzəməti, gözəllikləri, tükənməz sərvəti, başlıcası isə ona insanların sonsuz məhəbbətinin ifadəsi maraqlandırır.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə təklif edilmiş təqdimat mövzuları şerin məzmunu üzrə qazanılmış məlumatın zənginləşməsinə, şagirdlərdə məntiqi təfəkkürün inkişafına əhəmiyyətli təsir edir. Səciyyəvi təqdimatların dinlənilib müzakirə edilməsinə, öyrənilmiş yeni sözlərdən necə istifadə edildiyinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Təqdimatetmə, istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Şeirlə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənilən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələni fərqli variantlarda təşkil etmək mümkün olsa da, dərslikdəki "Düşünün" başlıqlı sual (Doğma yurda həsr olunmuş əsərlər üçün oxşar cəhətlər nə ola bilər?) əsasında müsahibənin aparılması və tədqiqat sualının müəyyənləşdirilməsi vaxta qənaət baxımından daha məqsədəuyğundur.

***Tədqiqat sualı:*** *Ə.Cavadın "Azərbaycan! Azərbaycan!" şeirinin yüksək dəyərləndirilməsinə səbəb, sizcə, nədir?*

Şagirdlərin fikirləri – fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Tədqiqat sualının aydınlaşdırılması üçün fərqli təlim metodlarından, iş formalarından istifadə etmək mümkündür. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə olunması bütün hallar üçün məqsədəuyğundur. Onlara yaradıcı yanaşmaq mümkün və faydalıdır. Deməli, müəllim qarşıya qoyduğu məqsəddən, sinfin səviyyəsindən, seçdiyi standartlardan asılı olaraq,

həmin suallara əlavələr edə bilər. O, həmin suallarda müəyyən ixtisarlar aparmaqda da sərbəstdir.

Kiçik qruplarda iş formasını seçən müəllim sualları (hər qrupa bir sual ayırmaqla) iş vərəqlərində əks etdirərək şagirdlərə təqdim edir.

Şagirdlər müəllimin tövsiyəsi ilə "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət edirlər.

Qrupların işini müşahidə edən müəllim ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallarla şagirdlərə yardım edir.

**Məlumat mübadiləsi** mərhələsində qrup sözçülərinin təqdimatları dinlənilir. Fərqli düşünən qrup üzvlərinə öz fikirlərini bildirmələri üçün imkan yaradılır. Müəllim daha əhəmiyyətli məsələlərin üzərində dayanılması məqsədi ilə istiqamətləndirici suallardan istifadə edir. Qeyri-dəqiq, yanlış mülahizələr **müzakirə** mərhələsində diqqət mərkəzində olur. İrəli sürülmüş fikirlər məhz bu mərhələdə əlaqələndirilir, müqayisə edilir və qruplaşdırılır. **Nəticə, ümumiləşdirmə** mərhələsində isə indiyə qədər səsləndirilmiş fikirlər vahid ideya halına salınır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, həm məzmununa, həm də ideyasına görə Ə. Cavadın "Azərbaycan! Azərbaycan!" şeiri qələmə alındığı dövrdə, eləcə də bu gün maraqla oxunur və yüksək dəyərləndirilir. Vətənin əzəmətindən doğan qürur hissinin, gələcəyə inam və nikbinliyin parlaq əks olunduğu bu əsər öz dəyərini həmişə qoruyub saxlayacaqdır.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdəki "Tətbiq. Müzakirə.Yaradıcı iş" başlıqlı tapşırıqlar inteqrasiya imkanlarının reallaşdırılması baxımından maraqlıdır. Hazırlanmış təqdimatlardan bir neçəsinin dinlənilməsi və müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat
*Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

Əsərin ifadəli oxusuna həsr olunmuş dərsi fərqli variantlarda təşkil etmək olar. Variantlardan biri dərslikdə təklif olunmuş tövsiyə əsasında ola bilər. Müəllim ifadəli oxu ilə bağlı qazanılmış bilik və bacarıqların yada salınması məqsədi ilə yığcam müsahibə aparır. Ardınca dərslikdəki “Mətni oxuyun və müzakirə edin” başlıqlı mətnin fərdi oxusu həyata keçirilir. Mətnin neçə qavranıldığı müsahibə ilə aşkara çıxarılır. Müsahibədə müəllim əlavə məlumat da verə bilər. Şeirin ilk üç bəndi (sinfin səviyyəsindən asılı olaraq, bəndlərin sayı fərqli ola bilər) iş vərəqində, yaxud dəftərdə yazılır. Yazılmış mətnin sağ tərəfində qeydlər aparmaq üçün xeyli ağ yer saxlanılır. Bundan sonra şagirdlərin fərdi olaraq işləməsi məqsədəuyğundur. Onlar müəllimin təklifi ilə tonun yüksəldiyi və alçaldığı məqamları, fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirib mətnin üzərində şərti işarələrlə qeyd edirlər. Müəllim şərti işarələrdən istifadə edilməsi qaydalarının öyrənilməsinə xüsusi diqqət yetirir.

Bu prosesdə başlıca diqqət oxuda səsin aldığı fərqli çalarların müəyyənləşdirilməsinə və mətnin kənarında – misraların, bəndin qarşısında qeyd edilməsinə yönəldilməlidir. Bu, asan deyildir. Buna nail olmaq üçün uzunmüddətli gərgin iş aparılmalıdır. Lakin ifadəli oxu ilə bağlı ilk addımlardan bu işin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Şagirdlər tədricən anlamalıdırlar ki, əsərin duyulması, yaşanması həqiqi, inandırıcı, səmimi oxu üçün ən mühüm şərtdir. Bu işlərin yerinə yetirilməsi **tədqiqatın aparılması** kimi qəbul edilə bilər. İfaların dinlənilməsi və müzakirəsi daha ciddi qayğı tələb edir. Məqsəd çoxlu sayda ifanın dinlənilməsi olmamalıdır. Səciyyəvi ifaların dinlənilib əhatəli müzakirə edilməsi daha faydalıdır. Bu, uğurları və nöqsanları daha aydın müşahidə etməyə imkan verir.

Şeirin bədii oxu ustasının ifasında dinlənilməsi və müzakirə edilməsi də məqsədəuyğundur. Bu, şagirdlərə öz ifalarına daha tənqidi yanaşmaq imkanı yaradır. Öz ifalarını bədii oxu ustasının ifası ilə müqayisə etmək bacarığının şagirdlərdə yaradılması isə ifadəli oxu üzrə aparılan bütün işlərdə ön plana çəkilməlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma
Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeiri məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Şeiri müəllimin köməyi ilə məzmununa uyğun ifadəli oxuyur. | Şeiri, əsasən, məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Tudə. YAŞAYANLAR GÖRƏCƏKDİR — 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi ifadəli oxu üzrə təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələni fərqli variantlarda təşkil etmək olar. Məsələn, müəllim şagirdlərin tarix və digər fənlərdən mənimsədikləri biliklər əsasında Azərbaycanın keçmişi, ölkənin iki yerə parçalanması və bunun səbəbləri ilə bağlı yığcam müsahibə aparır. Müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** *Ölkənin iki yerə parçalanması hansı məzmunda bədii əsərlərin yazılmasına səbəb olmuşdur?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması.** İlk növbədə, şeirin oxusu həyata keçirilir. Bu, fərqli yollarla reallaşdırıla bilər. Bütün hallarda əsərdə əksini tapmış həsrət, kədər hissi, bunun səbəbləri barədə elə oxu prosesində şagirdlərdə aydın təsəvvürün yaranması faydalıdır. Bu, oxuda diqqətin mühüm ştrixlərin üzərinə yönəldilməsi, mətnaltı mənaların açıqlanması ilə mümkündür. Oxu prosesində bu cəhətə önəm verilməsi sonrakı mərhələlərdə aparılan işlərin səmərəliliyinə əhəmiyyətli təsir edir. Əsər oxunarkən tanış olmayan sözlərin mənasının, bədii təsvir vasitələrinin aydınlaşdırılmasının vacib olduğu xatırladılır. Oxunun necə, hansı səviyyədə təşkilindən asılı olmayaraq, qazanılmış təsəvvürün tamlığına nail olmaq məqsədi ilə müəyyən işin aparılmasına ehtiyac duyulur. Bunun üçün dərslikdəki suallara şagirdlərin cütlük şəklində cavab hazırlaması məqsədəuyğundur.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər fikir mübadiləsi apararaq cavablarını dəqiqləşdirir, zənginləşdirir və ümumiləşdirirlər.

**Məlumat mübadiləsi** mərhələsində qrupların bir-birinin işi ilə ətraflı tanış olmalarına şərait yaradılır. Fərqli, ziddiyyətli, pərakəndə cavablar sualların yaranmasına səbəb olur. Sualların verilməsinə şərait yaradılır, bu isə məlumat mübadiləsi mərhələsinin **məlumatın müzakirəsi** mərhələsi ilə qovuşmasına səbəb olur. Müzakirədə nöqsanların aradan qaldırılmasına, cavabların əlaqələndirilməsinə, ümumiləşdirilməsinə səy göstərilir. Bütün bunlar **nəticə, ümumiləşdirmə** mərhələsinin uğurlu olmasına müsbət təsir göstərir. İndiyə kimi söylənmiş fikirlərin vahid ideya şəklinə salınmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, doğma yurdun iki yerə parçalanması, qohum-qardaşın bir-birindən ayrı düşməsi nisgillə, həsrətlə yoğurulmuş onlarla sənət əsərinin yaranmasına səbəb olmuşdur. Lakin bu əsərlərdə qəzəb, hiddət də özünə yer tapmışdır. Vətənimizin taleyi ilə bağlı soyuqqanlılıqla hökm verən düşmənlər bu qəbildən əsərlərdə nifrətlə yad edilir.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Şeirlə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Tudə. YAŞAYANLAR GÖRƏCƏKDİR — 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

Təhlilə həsr olunmuş dərsi müxtəlif variantlarda təşkil etmək mümkündür. Onlardan biri aşağıdakı variantda ola bilər.

**Motivasiya, problemin qoyuluşu.** M. Şəhriyarın sözlərinə yazılmış "Aman ayrılıq" mahnısından bir parça səsləndirilir, sonra yığcam müsahibə aparılmaqla şagirdlərin təəssüratı, problemə münasibəti aşkara çıxarılır. Müsahibə tədqiqat sualının formalaşdırılması ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** *Şair Əli Tudənin bu mövzuda əsər yazmasının səbəbi, sizcə, nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Şagirdlər, ilk növbədə, dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətni ilə tanış olurlar. Heca vəzni ilə bağlı həmin mətndə verilmiş məlumatın müstəqil oxusundan sonra müsahibənin aparılması vacibdir. Bu mərhələdə ədəbiyyat nəzəriyyəsi üzrə materialın nümunələr əsasında şərhinə, öyrənilmiş materialın dərinləşdirilməsinə xüsusi diqqət yetirilir.

Əsərin təhlili üçün dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı suallardan istifadə olunması məqsədəuyğundur. Müəllim sinfin səviyyəsindən, qarşıya qoyduğu məqsəddən, seçdiyi standartdan çıxış edərək suallara əlavələr edə bilər. Eləcə də onlarda ixtisar etmək mümkündür.

İşin kiçik qruplarda təşkili həmin sualların (hər qrupa bir sual ayırmaqla) iş vərəqlərində əks olunmasını tələb edir.

Qrupların işini müşahidə edən müəllim, yeri gəldikcə onlara istiqamət verir, əsərdən nümunələrin gətirilməsinin, fikirlərin əsaslandırılmasının vacib olduğunu xatırladır.

İşin icrasına ayrılmış vaxt başa çatdıqdan sonra dərsin **məlumat mübadiləsi** mərhələsində təqdimatların dinlənilməsi həyata keçirilir. Qrupların bir-birinin işinin məzmunu ilə ətraflı tanış olmaları dərsin sonrakı mərhələlərinin səmərəli keçməsinə səbəb olur. Odur ki müəllim təqdimatların fəal dinlənilməsinə, suallar verilməsinə nail olur. Bu mərhələdə fikirlərin pərakəndəliyi, qədərincə əsaslandırılmaması və digər nöqsanlar müşahidə edilir. Bütün bunların aradan qaldırılması **məlumatın müzakirəsi** mərhələsində reallaşdırılır. Cavablar daha da dəqiqləşdirilir, əlaqələndirilir, sistemə salınır və ümumiləşdirmənin aparılmasına səy göstərilir. **Nəticə, ümumiləşdirmə** mərhələsində isə indiyə kimi səsləndirilmiş fikirlərin vahid ideya halına gətirilməsi və nəticələrin çıxarılması ön plana keçir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, digər sənətkarlar kimi Əli Tudə də vətənimizin iki yerə parçalanmasını, qardaşın-qardaşdan ayrı düşməsini qəbul edə bilmir. Vətənə sonsuz sevgi, onun mövcud vəziyyətinin doğurduğu nisgil bu mövzuda əsərlərin yazılmasının mühüm səbəblərindəndir.

---

**II dərs** | **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Şair parçalanmış Vətənin taleyindən kədərlə, nisgillə söz açır, “Yenə dərdim həddən aşdı, Dalğalandı ümman kimi” deyir. Vətən həsrəti, ayrılıq odu şairi kədərləndirir. Lakin əsərdə xalqımızın xoşbəxt gələcəyinə, Vətənimizin birliyinə dərin inam vardır. Şair inanır ki, həmvətənlərimiz o xoşbəxt günü – Vətənimizin bütövlüyünü görəcəklər.

Öyrəndiyiniz şeir *heca* vəznindədir. Bu, bizim doğma şeir ölçümüzdür. Bu vəzndə yazılmış şeirin bütün misralarında hecaların sayı bərabər olur. Misralarda hecaların sayı bərabər olduğu kimi, misraları təşkil edən **bölümlər** də hecaların sayı baxımından bərabər olmalıdır. Nümunədən göründüyü kimi, heca vəznində yazılmış bu şeirin bütün misraları 8 hecalı, bölümlər isə 4 hecalıdır.

Bir yaranmış (4) Azərbaycan, (4)
Ayırsa da (4) onu zaman. (4)
Görəcəkdir (4) hər yaşayan (4)
Bu ölkəni (4) bir can kimi. (4)

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Şair öz Vətənini necə görmək istəyir? Fikrinizi əsaslandırın.
2. Sizcə, şeirdə hansı ovqat daha güclüdür: kədər, yoxsa Vətənin bütövlüyünə inam? Fikrinizi əsaslandırın.
3. Bu əsər ikiyə bölünmüş Vətən haqqında biliklərinizə nə əlavə etdi?
4. Əsərin bədii təsir gücünün artmasında təsvir vasitələrinin rolunu aydınlaşdırın.
5. Əsərdəki başlıca fikir – ideya nədir?

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

Əsərin sizdə doğurduğu düşüncələri ifadə edən yığcam inşa yazın. İnşada əsərdəki ayrılıq həsrətini, kədər, təəssüf və inam hissini əks etdirən söz və ifadələrdən istifadə edin.

*Dərslik, səh. 51*

---

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Dərslikdə yığcam inşa yazının yerinə yetirilməsi ilə bağlı təklif olunmuş növbəti tapşırıq şagirdləri əsərin onlarda yaratdığı təəssüratı ifadə etməyə, mənasını yeni öyrəndikləri sözlərdən istifadəyə yönləndirir. Səciyyəvi nümunələrin oxunub müzakirə edilməsinə vaxt ayrılması faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |
| İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Tudə. YAŞAYANLAR GÖRƏCƏKDİR — 3 saat
## *Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Şeiri hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

Lirik əsər üzrə ifadəli oxunun təşkili zamanı unudulmamalıdır ki, bu oxu şeirdəki ovqatın, ahəngin, musiqililiyin, lirik qəhrəmanın düşüncələrinin, hiss və həyəcanının duyulmasına imkan yaradır.

Şagirdlər bu dərsə qədər artıq ifadəli oxu ilə bağlı müəyyən bacarıqlara yiyələnmiş olurlar. Onlar, həmçinin lirik şeirin oxusunda misradaxili, misrasonu fasilələrə əməl etməyin vacibliyi, məntiqi vurğulu sözlərin fərqləndirilməsi, səsin fərqli keyfiyyət qazanması və s. barədə məlumatlı olur.

*Dərs müxtəlif variantlarda təşkil oluna bilər. Burada verilən variant dərslikdəki tövsiyələrdən irəli gələn variantdan fərqlənir.*

Əsərin ideya-məzmunu, bədii xüsusiyyətləri ilə bağlı əvvəlki dərslərdə mənimsənilmiş biliklər müsahibə ilə xatırladılır. Bəzi sözlərin, ifadələrin (mehman, ümman, can) işlənmə məqamına görə məna çalarları bir daha aydınlaşdırılır. “Parçalanmış Ana torpaq”, “Lal sərhəd”, “Haray çəkir insan kimi”, “Dalğalandı ümman kimi” epitet və bənzətmələrin əsərin bədii təsir gücünün artmasında, müəllif niyyətinin qabarıq ifadəsində rolu aydınlaşdırılır. Bu, şagirdlərin lüğət ehtiyatının zənginləşdirilməsi, mənasını yeni öyrəndikləri söz və ifadələrdən müxtəlif situasiyalarda istifadə etmələri, həm də mənasını dəqiq bildikləri sözü məzmuna uyğun səs çaları ilə oxumaları baxımından əhəmiyyətlidir.

Məktəblilərin nəzərinə bir daha çatdırılır ki, oxuda durğu işarələrinin tələb etdiyi fasilələrə əməl olunmalıdır. Eləcə də mətnin məzmununa, heca vezninin tələblərinə əsasən fasilələr etmək zəruridir. Şeir 8 hecalıdır. Misraların həm birinci, həm də ikinci tərəfindəki bölüm 4 hecalıdır. Deməli, birinci bölümdən – 4 hecadan sonra fasilənin edilməsi vacibdir. Eləcə də ikinci bölümdən sonra – misranın sonunda fasilə edilir.

İfaçını ciddi düşündürən məsələlərdən biri oxuda dinləyiciyə nəyi çatdıracağını özü üçün müəyyənləşdirməsidir. Bu, *ifaçılıq vəzifəsi* adlanır. Şeirdə hər bənd üçün bu vəzifənin müəyyənləşdirilməsi əhəmiyyətlidir. Əsərin ideya-məzmununun mükəmməl mənimsənilməsi ifaçılıq vəzifəsinin müəyyənləşdirilməsi işini asanlaşdırır.

Şeirin ifadəli oxusuna hazırlıq müxtəlif iş formalarının tətbiqi ilə yerinə yetirilə bilər. Nəticənin aşağıdakı cədvəl şəklində formalaşdırılması məqsədəuyğundur.

| **Fasilələr, məntiqi vurğulu sözlər** | **İfaçılıq vəzifələri** | **Səsin tonu, oxuda aldığı çalar** |
|---|---|---|
| Qarabağın I yaylağını I<br>Meşə örtmüş I <u>duman kimi</u>. II<br>Mən gəzirəm I qucağını I<br>Bir vəfalı I <u>mehman kimi</u>. III | Şairin Qarabağın gözəl təbiətinə heyranlığını çatdırmaq | Səmimiyyətlə<br>Heyranlıqla<br>Hərarətlə |
| Parçalanmış I Ana torpaq I<br>Bu Qarabağ, I o Qaradağ. II<br>Lal sərhəddə I Araz ancaq I<br>Haray çəkir I insan kimi. III | Vətənin parçalanmasından doğan kədər hissini çatdırmaq | İttihamla<br>həyəcanla |
| Vətən qızı I gözü yaşlı, I<br>Dağlar uca, I yollar daşlı. II<br>Yenə dərdim I həddən aşdı, I<br>Dalğalandı ümman kimi. III | Xalqımızın ayrılıq dərdini, faciəsini çatdırmaq | Kədərlə<br>Təəssüflə<br>Həyəcanla |
| Bir yaranmış I Azərbaycan. I<br>Ayırsa da I onu zaman, II<br>Görəcəkdir I hər yaşayan I<br>Bu ölkəni I bir can kimi. III | Şairin Vətənin birliyinə qəti inamını çatdırmaq | İnamla<br>Təntənəli<br>Həyəcanla |

Şagird ifalarının ayrı-ayrılıqda dinlənilməsi və müzakirə edilməsi, ifaların bədii oxu ustasının ifası ilə müqayisə olunması həyata keçirilir.

Müəllim dərslikdə təklif olunmuş tövsiyəni əsas götürməklə də dərsi təşkil edə bilər. Bu variantı seçən müəllimin *ifaçılıq vəzifəsi* anlayışı barədə məlumat verməsi, praktik iş aparması məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeiri məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Şeiri müəllimin köməyi ilə məzmununa uyğun ifadəli oxuyur. | Şeiri, əsasən, məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* H.Arif. ANALAR — 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Rəmzi materiallardan (ana haqqında mahnının səsləndirilməsi, rəssamlıq əsərinin, filmdən fraqmentin nümayiş etdirilməsi və s.) istifadə etməklə motivasiyanın yaradılması məqsədəuyğundur. Dərslikdəki "Düşünün" başlıqlı sual

(Anaya həsr olunmuş əsərlərdə, sizcə, hansı məsələlərə daha çox önəm verilməlidir?) əsasında yığcam müsahibə aparmaqla da tədqiqat sualını müəyyənləşdirmək olar.

***Tədqiqat sualı:*** *Ana mövzusunda yazılmış əsərlərdə, sizcə, hansı hiss və düşüncələrə daha geniş yer verilər?*

Fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Bədii oxu ustasının ifasında şeirin bir neçə bəndinin dinlənilməsi məqsədəuyğundur. Bunu müəllimin ifadəli oxusu da əvəz edə bilər. Şeirin ideya-məzmununa müvafiq ovqatın yaranması oxuya marağı artırır. Oxu fərqli formalarda reallaşdırıla bilər, lakin bütün hallarda tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, təsvir vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Şeirdə ustalıqla yaradılmış cəfakeş ana obrazı barədə ilkin oxuda təsəvvürün qazanılması əhəmiyyətlidir. Əsərin maraqlı olması buna imkan verir. Elə ilk sözlərindən oxucunu cəlb edən əsərdə ananı müğənni, şair, bəstəkar adlandıran müəllif misradan-misraya, bənddən-bəndə onun dolğun obrazını yaratmağa nail olur. Ananın "bilə-bilə hər əzaba dözməsi", yuxunu, dincliyi unudub ağır işlərə qatlaşması ilk oxudaca şagirdlərdə parlaq təəssürat yaratmalıdır.

**I dərs** | **Məzmun üzrə iş**

1. Aşağıdakı suallara parta yoldaşınızla birlikdə cavab hazırlayın.
   a) "O gündən hey ölçüb-biçir analar" misrasında anaya xas olan hansı xüsusiyyətdən söz açılır?
   b) "Vaxt olur, qaldırıb ağını belə Şərbət əvəzinə içir analar" misralarında ifadə olunmuş fikri necə başa düşürsünüz?
   c) "Alnında zamanın açdığı qırış, Başına qar tökür, qar ələyir qış" misralarında hansı fikir ifadə olunmuşdur?
   d) Ana zəhmətinin ağırlığı, sizcə, hansı misralarda daha qabarıq əks olunub?
2. Şeir haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə qeyd edin.

| Şeirdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək hazırladığınız bütün cavabları müzakirə edin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

**Evdə iş**

Mövzulardan birini seçib işləyin.
   a) Ana haqqında mahnılardan birini dinləyib təəssüratınızı qısaca yazın, sinifdə müzakirəyə hazırlaşın.
   b) Şeirin iki bəndini nəsrə çevirib məzmununu geniş nağıl etməyə hazırlaşın. Həmin bəndləri seçməyinizin səbəbini izah edin.

*Dərslik, səh. 54*

Oxuya ayrılmış vaxt başa çatdıqdan sonra dərslikdəki tövsiyəyə uyğun olaraq, suallara cütlük şəklində cavabların hazırlanması təklif oluna bilər. Bunun ardınca şagirdlər şeir haqqındakı düşüncələrini ikihissəli gündəlikdə qeyd edirlər. Bu, cütlük şəklində iş formasının tətbiqi ilə həyata keçirilir. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər icra etdikləri bütün işlərin nəticələri ilə bağlı fikir mübadiləsi aparır, cavabları dəqiqləşdirir və təqdimata hazırlaşırlar.

**Məlumat mübadiləsi** mərhələsində qrupların bir-birinin işinin nəticəsi ilə tanış olmaları təmin edilir. Təqdimatlarda daha əhəmiyyətli olanların əhatə edilməsinə istiqamət verən müəllim şagirdlərin sual verməsinə, fikirlərini sərbəst ifadə etmələrinə imkan yaradır. Səsləndirilən fikirlərdə müəyyən nöqsanların olması təbii qarşılanmalıdır, bunlar tədricən və daha çox müzakirə prosesində aradan qaldırılır. **Məlumatın müzakirəsi** mərhələsində müəllimin istiqamətləndirici sualları cavabların əlaqələndirilməsinə, sistemə salınmasına əhəmiyyətli təsir göstərir. Bütün bunlar **nəticə, ümumiləşdirmə** mərhələsində işin səmərəli təşkilinə imkan yaradır. Məhz bu mərhələdə görülən bütün işlərə yekun vurulur, ümumiləşdirmə aparılır, nəticə çıxarılır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ana mövzusunda yazılmış əsərlərdə daha çox ananın bitib-tükənməyən əməyi, övladlarına sonsuz sevgisi və qayğısı, əzab-əziyyətlərə səbirlə dözməsi əksini tapır.

Nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma
Müəyyənləşdirmə
İstifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Şeirlə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* H.Arif. ANALAR — 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 – 1 səhifə həcmində inşa yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Vaxta qənaət baxımından şeirin məzmunundakı mühüm

cəhətləri xatırlatmağı tələb edən yığcam müsahibə aparmaq və son nəticədə tədqiqat sualının formalaşmasına nail olmaq mümkündür.

***Tədqiqat sualı:*** *"Şeirdə analara məxsus bütün gözəl cəhətləri özündə birləşdirən parlaq obraz yaradılmışdır" fikrini doğru saymaq olarmı?*

Fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə həyata keçirilə bilər. Bütün hallarda dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına müraciət edilməsi məqsədəuyğundur. Kiçik qruplarda iş formasını seçən müəllim tapşırıqdakı sualları iş vərəqlərində (hər qrupa bir sual ayırmaqla) əks etdirməklə şagirdlərə təqdim edir. "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı suallar şeirin ideyasının, eləcə də bədii xüsusiyyətlərinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir. Suallara yaradıcı yanaşmağı qarşısına məqsəd qoyan müəllim ona əlavələr edə bilər. Tədqiqat prosesində müəllim qrupların işini müşahidə edir, hər bir şagirdin fəaliyyətinin nədən ibarət olduğunu, verdiyi töhfənin əhəmiyyətini müəyyənləşdirir.

**Məlumat mübadiləsi** mərhələsində qrupların əldə etdikləri nəticələrin dinlənilməsi və bu barədə aydın təsəvvürün qazanılması həyata keçirilir. Təcrübədən məlumdur ki, bu mərhələdə suallarla yanaşı, mübahisələr də yaranır. Çox vaxt bunun üstündən keçmək olmur, mübahisənin elə yerindəcə həlli daha səmərəli olur, bu, **müzakirə** mərhələsi ilə qovuşmaya səbəb olur. Bunu təbii qəbul etmək lazımdır, sadəcə olaraq, digər qrupların təqdimatlarının dinlənilməsinin də vacib olduğu unudulmamalı, onlara vaxt ayrılmalıdır. Fikirlərə aydınlıq gətirilməsi, cavabların əlaqələndirilib sistemə salınması bu mərhələdə xüsusi diqqət yetirilən məsələlər olur. Yönləndirici suallardan istifadə edən müəllim icra edilən bütün işlərdə diqqəti tədqiqat sualının bu və digər baxımdan aydınlaşdırılmasına istiqamətləndirir. Bütün bunların dərsin **nəticə, ümumiləşdirmə** mərhələsində həyata keçirilən işlərin səmərəliliyinə əhəmiyyətli təsiri olur. Başqa sözlə, indiyə kimi deyilmiş bütün fikirlərin ümumiləşdirilib bir ideya şəklinə salınması işi xeyli asanlaşır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Hüseyn Arif analara məxsus gözəl keyfiyyətləri özündə birləşdirən parlaq, unudulmaz ana obrazı yaratmağa nail olmuşdur. Formalaşdırılmış ümumi ideya – şagirdlərin qənaəti tədqiqat sualı və fərziyyələrlə müqayisə edilir.

Dərsdə növbəti tapşırığın (yığcam inşa, yaxud essenin yazılması) yerinə yetirilməsinə vaxt ayrılır. Bu qəbildən yazıların yerinə yetirilməsi ilə bağlı dərslikdəki tövsiyəni xatırlamağı tələb edən qısa müsahibə (onun oxusu da həyata keçirilə bilər) aparıla bilər. Sonda yazılardan nümunələrin oxusu və müzakirəsi həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Şərhetmə
Esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| İnşa, esse yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## İKİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*"Ana ürəyi, dağ çiçəyi" əsəri üzrə*
*aparıla bilər.*

*Mikayıl Rzaquluzadə*

### ANA ÜRƏYİ, DAĞ ÇİÇƏYİ

(ixtisarla)

*El dədə-baba adətincə bayram edirdi.*

*Yurdun hər bucağından ox atan, at oynadan igid cavanlar, adlı-sanlı pəhləvanlar, saz çalıb, söz qoşan məşhur ozanlar axışıb gəlmişdilər. Allı-güllü geyinib bəzənmiş badamgözlü, şəkərsözlü qızlar və gəlinlər də yığışıb gəlmiş, çəmənlikdə gözəl bir məclis düzəltmişdilər. Ortada gömgöy otlarla atlaz kimi döşənmiş geniş bir meydan vardı.*

*Şeypurlar, nağaralar çalındı. Pəhləvanlar güləşdilər. Atlılar çapdı, keçdi, ozanlar deyişdilər... Bayramın sonu, ən maraqlı əyləncənin vaxtı yetişdi.*

*Xanın qaranlıq tövlədə doqquz ay bəslənmiş harın buğasını meydana çıxartdılar. Buğa bir buğa idi ki, buynuzunu daşa vursa, toza dönər, dırnağını qayaya vursa, od qopardı. Üç pəhləvan sağdan, üçü soldan buğanın buynuzundakı zənciri möhkəm tutmuşdu. Həmin buğa birdən nərildəyə-nərildəyə başını silkələdi, zəncirini qırıb meydana cumdu. Hamı dəhşətlə çığırdı və yerində donub qaldı. Gözü qızmış buğa meydanın qızlar, gəlinlər yerləşən hissəsində ala-bəzək rəngləri görüb düz ora cumurdu.*

Hamı, hətta silahlı keşikçilər də çaşıb özlərini itirmişdilər. Birdən on beş-on altı yaşlarında bir oğlan pələng çevikliyi ilə meydana atılıb düz buğanın üstünə cumdu, çatan kimi buynuzlarından yapışdı. Buğa fınxırıb dik ayağa qalxdı. Oğlanın ayaqları yerdən üzüldü və buğanın başı üstündən geri hoppandı. Buğa bir anda hərlənib ona sarı cumdu. Oğlan da onun hücumuna hazır idi.

Buğa yetişən kimi oğlan yenə onun buynuzlarından yapışdı. Buğa nərildəyib başını silkələyəndə oğlanın ayaqları yenə yerdən üzüldü və buğa boynunun qüvvəti ilə onu kənara atdı. Oğlan yenə yıxılmadı. Buğa güc gələndə oğlanın ayaqları topuğuna qədər torpağa batdı. Ancaq o, yerindən

tərpənmədi. Oğlan gördü ki, təkcə güclə buğanı yıxa bilməyəcəkdir. Burada tədbir də lazımdır. Öz-özünə dedi: "Damı dirək saxlar, mən niyə buna dirək olum?"

Oğlan birdən yumruğunu buğanın alnından çəkib, özü yana sıçradı. Buğa öz gücü ilə ağzı üstə yerə sərildi. Oğlan bir anda onun başından basdı və xəncərini çəkib boğazını kəsdi. Hər yandan alqış səsləri ucaldı. Meydana allı-güllü ipək yaylıqlar yağdırıldı.

Xanlar xanının buyruğu ilə hamı öz yerinə çəkildi. Oğlanı xanlar xanının hüzuruna çağırdılar. O, baş əyib durdu.

Xanlar xanı bu gözəl və igid oğlanı heyran-heyran süzdükdən sonra soruşdu:

– Sən kimsən, oğlan? Adın nədir?

Oğlan tamam bərkiməmiş cingiltili bir səslə cavab verdi:

– Mənə Dirsə xan oğlu deyərlər, xan sağ olsun, hələ adım yoxdur.

– Sən bu gün hünər göstərdin, ad almağa haqq qazandın, sağ ol, oğlan, var ol...

Belə deyib yanındakılara buyruq verdi:

– Dədə Qorqud gəlsin, bu oğlana ad qoysun!

Ozanlar ozanı Dədə Qorqud gəldi, sədəfli qopuzunu köksünə basıb, igidə belə ad qoydu:

El bəyəndi səni, oğlan, bəy olasan,
Mən demirəm, bu hünərlə tək olasan...
Qızlar qoydu çiçəklərdən başına tac,
Buğa yıxdın, mən adını qoydum – Buğac.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Hekayədə çərçivəyə alınmış hissənin planını tərtib edin.**

________________________________________________________

________________________________________________________

________________________________________________________

________________________________________________________

**2. Cümlələrdə hansı bədii təsvir vasitəsi işlənmişdir?**

| | | |
|---|---|---|
| *Ortada gömgöy otlarla atlaz kimi döşənmiş geniş bir meydan vardı.* | ⇨ | |
| *Allı-güllü geyinib bəzənmiş badamgözlü, şəkərsözlü qızlar və gəlinlər də yığışıb gəlmiş, çəmənlikdə gözəl bir məclis düzəltmişdilər.* | ⇨ | |

**3. Cümlədəki fikir ifadəli oxu zamanı hansı intonasiya ilə çatdırılmalıdır?**
*– Sən bu gün hünər göstərdin, ad almağa haqq qazandın, sağ ol, oğlan, var ol...*

A) Kədər B) Təəccüb C) Soyuqqanlı D) Təntənəli

**4. Hansı fikri Xanlar xanına aid etmək olar?**

A) Döyüşlərdə qəhrəmanlıq göstərir.
B) Zəhmətkeşdir.
C) Təbiəti sevir.
D) İgidləri dəyərləndirir.

**5. Buğac və Kişə aid fərqli cəhəti müəyyənləşdirin.**

A) Cəsarətlidir.
B) Ağıllıdır.
C) Fərasətlidir.
D) Xan nəslindəndir.

**6. Buğac haqqında fikirlərdən hansı səhvdir?**

A) Cəsarətlidir.
B) Adı igidliklə qazanıb.
C) Tədbirlidir.
D) Hiyləgərdir.

**7. Oğlana nə üçün adı Dədə Qorqud verdi?**

A) El ağsaqqalı olduğu üçün
B) Qoca olduğu üçün
C) Oğlanın qohumu olduğu üçün
D) Pəhləvan olduğu üçün

**8. Əsər hansı mövzuda yazılıb?**

A) əmək B) təbiət C) qəhrəmanlıq D) dostluq

**9. Əsərdən hansı nəticəni çıxarmaq olar?**

A) Ulu babalarımız gənclərin ağıllı və igid olmasına böyük önəm verirdilər.
B) El-oba bayram edəndə bütün cavanlara ad qoyurdular.
C) Güclü düşmənə qalib gəlmək üçün yalnız igidlik kifayət edər.
D) Düşmənə qalib gəlmək üçün birlik lazımdır.

**10. Çərçivədəki hissənin məzmununu yığcam yazın.**

________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________
________________________________________________________________________

# 3.

# MƏNƏVİ DƏYƏRLƏR, HƏMİŞƏYAŞAR HİKMƏTLƏR

*Mövzu:* Ə.Əlibəyli. İLAN VƏ QURBAĞA – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Təmsildə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir. | Təmsilin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Təmsillə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Rəmzi materiallardan, suallardan istifadə etməklə motivasiya yaratmaq olar. Eləcə də dərslikdəki “Yada salın” başlıqlı sual (Oxuduğunuz hansı təmsilləri xatırlayırsınız?) əsasında müsahibə aparmaqla tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

***Tədqiqat sualı:*** *“Nağıllarda olduğu kimi təmsillərin də əksəriyyətində xeyirlə şərin mübarizəsindən danışılır” fikrini doğru saymaq olarmı?*

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** İlk növbədə, əsərin oxusu həyata keçirilir. Dərslikdəki tövsiyədə qeyd olunduğu kimi, oxu müxtəlif formalarda (fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, rollar üzrə oxu və s.) yerinə yetirilə bilər. Əsərin kiçikhəcmli olması təsvir olunan hadisə barədə ilkin oxuda dolğun təsəvvürün qazanılmasına imkan verir. Bunu da nəzərə almaq lazımdır ki, öyrənilən təmsilin şagirdlərin təlim-tərbiyəsi baxımından əhəmiyyəti böyükdür. Odur ki müəllim şagirdlərdə təsvir olunan hadisənin mahiyyəti,

İlan və Qurbağa obrazlarının səciyyəsi barədə ilkin təsəvvürün yaranmasına nail olmalı, növbəti dərsdə aparılacaq təhlil üçün zəmin yaratmalıdır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra təmsilin məzmunu barədə qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün şagirdlərin dərslikdəki suallara cütlük şəklində cavab hazırlamaları faydalıdır.

Dərslikdəki növbəti tapşırıq (ikihissəli gündəliyin hazırlanması) təmsilin məzmunu ilə bağlı hər bir şagirdə mövqeyini, düşüncələrini sərbəst ifadə etmək imkanı verir.

Sonrakı tapşırığın da (əsərin janrının əsaslandırılması) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər hazırladıqları bütün cavablarla bağlı fikir mübadiləsi aparırlar. Bu, cavabların dəqiqləşdirilməsinə, zənginləşdirilməsinə şərait yaradır. Hər bir şagird öz əməyinin nəticəsindən ümumi işdə istifadə olunduğunu gördükdə sevinc hissi yaşayır. Qruplarda hazırlanmış təqdimatlar **məlumat mübadiləsi** mərhələsində dinlənilir. Mənası yeni öyrənilmiş sözlərdən təqdimatlarda və suallara verilən cavablarda necə istifadə olunduğuna diqqət yetirilir. Qrup daxilində fərqli fikirdə olanların dinlənilməsinə də vaxt ayrılır. Fərqli fikrin yaranmasının səbəbləri aydınlaşdırılır. Elə buna görə də əksər hallarda bu mərhələ **müzakirə** mərhələsi ilə qovuşur, yanlış, birtərəfli fikirlərin aradan qaldırılmasına, cavabların əlaqələndirilməsinə və sistemə salınmasına səy göstərilir. Buna xeyli dərəcədə nail olunması **nəticə, ümumiləşdirmə** mərhələsinin səmərəli keçməsinə səbəb olur. İndiyə qədər deyilmiş fikirlərin ümumi ideya şəklinə salınmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təmsillərdə nöqsanların, çatışmazlıqların tənqidi daha mühüm yer tutur. Bəzi hallarda isə bu nöqsan sahibləri şəri təmsil edən şər qüvvələr kimi də özünü göstərə bilir. Pisliyi özünə peşə edən, amansız İlan şər qüvvə sayıla bilər.

Çıxarılmış nəticənin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Təmsilin janr xüsusiyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkir. | Təmsilin janr xüsusiyyətlərini müəllimin köməyi ilə müəyyənləşdirir. | Təmsilin janr xüsusiyyətlərini, əsasən, müəyyənləşdirir. | Təmsilin janr xüsusiyyətlərini müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Təmsillə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Təmsillə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Təmsillə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Təmsillə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Əlibəyli. İLAN VƏ QURBAĞA – 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Təmsilin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün mövcud olan yolların hər birindən istifadə etmək mümkündür. Məsələn, rəmzi materiallar qismində rəssamlıq nümunələri, fotoşəkil, musiqi parçaları, bədii əsərdən epizod, hikmətli söz, məsəl, tapmaca və s. müraciət etmək olar. Digər bir yol suallardan istifadə ola bilər. İlan haqqında bir neçə atalar sözü (İlanın ağına da lənət, qarasına da; İlan qabığın dəyişər, xasiyyətin dəyişməz və s.) xatırlatmağı xahiş edən müəllim onlarda ifadə edilmiş fikirlərlə bağlı yığcam müsahibə aparır və tədqiqat sualının müəyyənləşdirilməsinə nail olur.

***Tədqiqat sualı:*** *Təmsillərdə İlan obrazının zalım, amansız yaradılmasına səbəb, sizcə, nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Bu mərhələni fərqli təlim metodları, iş formaları tətbiq etməklə təşkil etmək olar. Bütün hallarda dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət olunması, "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə edilməsi məqsədəuyğundur. Kiçik qruplarda iş forması seçilərsə, qrupların sayından asılı olaraq, sualları artırmaq (hər qrupa bir sual ayırmaqla) mümkündür. Qrup daxilində vəzifə bölgüsünün aparılmasına diqqət edən müəllim, ehtiyac yaranan məqamlarda istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərə kömək edir.

**Məlumat mübadiləsi və müzakirə** mərhələlərində qrupların təqdimatları əsasında onların işinin nəticələri ilə tanışlıq, cavablardakı nöqsanların aradan qaldırılması, fikir-

lərin əlaqələndirilməsi və qruplaşdırılması həyata keçirilir. Müzakirədə təmsildə haqsızlığın, ədalətsizliyin, qəddarlığın tənqid edilməsi barədə deyilənlərlə kifayətlənmək olmaz. Şagirdlərin diqqətinin təmsilin sonunda Qurbağanın dediyi sözlərə cəlb edilməsi məqsədəuyğundur. Çünki təmsildəki başlıca fikir həmin misralarda ifadə olunub. Qurbağanın dili ilə oxucuya belə bir fikir aşılanır ki, ədalətsiz, qəddar insanları hamı tanımalı, cəmiyyətin hər bir üzvü haqsızlığa qarşı çıxmalı, laqeydlik, biganəlik göstərməməlidir. Bu fikir **nəticə, ümumiləşdirmə** mərhələsində inkişaf etdirilərək ümumi ideya şəklinə salınır. Aparılmış işlər, müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, təmsillərdə İlan obrazı qəddarlığı, amansızlığı, zalımlığı ilə seçilir. Təmsillərdə İlan obrazı elə ilan təbiətinə uyğun hərəkət edir; namərdlik, əlinə fürsət düşən kimi sancmaq, zəhərləmək, məhv etmək onun adətidir. Təmsillərdə tülkü hiyləgərliyi, canavar acgözlüyü, qoyun avamlığı, ilan isə daha çox xəyanət və namərdliyi təmsil edir. Haqqı, ədaləti hər şeydən uca tutan insanların ən çox nifrət etdikləri də məhz bu iki cəhətdir. Deməli, təmsillərdə ilanın zalım, xəyanətkar, namərd obrazının yaradılmasının bir mühüm səbəbi də məhz budur.


**Tətbiq. Müzakirə. Yaradıcı iş**

Mövzulardan birin seçib işləyin.

a) "İlan və Qurbağa"əsərinin mövzusunda nəsrlə yığcam təmsil yazın. İştirakçıların (məsələn, Canavar və Quzu) və məzmunun fərqli olmasına çalışın.

b) "İlan və Qurbağa" təmsilinin sonluğunu necə görmək istərdim?" mövzusunda yığcam esse yazın.

*Dərslik, səh. 63*

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

Şagirdlərin yazılı nitqinin inkişaf etdirilməsi məqsədini güdən növbəti tapşırığın icrasına ayrılmış vaxt elan olunur. Hazırlanmış cavablardan bir neçəsinin dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma münasibətbildirmə

Esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Təmsilin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Təmsilin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Təmsilin ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Təmsilin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |
| Esse yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə esse yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə esse yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə esse yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* Ə.Əlibəyli. İLAN VƏ QURBAĞA – 3 saat
*Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticəsi |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Təmsili məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Təmsilin ifadəli oxusunda bu janrın özünəməxsusluğu nəzərə alınmalıdır. Məlumdur ki, alleqorik janr olan təmsildə insana xas olan xüsusiyyətlər heyvanlar, quşlar, bitkilər, cansız əşyalar üzərinə köçürülür. Ayrı-ayrı heyvanlar cəmiyyətdəki bu və ya digər insanı təmsil edir. Quzu və qoyun fağır, avam, qurd acgöz, tülkü hiyləgər, şir qoluzorluluğu təmsil edir. Bu isə, təbiidir ki, istər oxuya hazırlıq, istərsə də oxu prosesində diqqət mərkəzində saxlanılan mühüm cəhətlərdəndir.

Şagirdlər əvvəlki dərslərdə təhkiyədə nağılvarı çaların üstünlük təşkil etməsi, fasilə, məntiqi vurğu, səs tonunun yüksəlib-alçalması və s. barədə müəyyən bilik və bacarıqlar əldə etmişlər. Odur ki müəllim geniş izahat vermədən təmsildə müəllif təhkiyəsinin, obrazların nitqinin, dialoqların oxusu üzrə işin təşkilinə başlayır. Şagirdlərə aşağıdakı parçada ifaçılıq vəzifəsini, fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirmək təklif edilir.

[Günnərin] bir günündə |
Bir zalım İlan, ||
Bir Qurbağa tutmuşdu |
Göl [qırağınnan.] ||
Qışqırırdı Qurbağa, |
Hey dad edirdi. ||
Dağa-daşa səs salıb, |
Fəryad edirdi... ||

İkinci tapşırıq əsərdəki dialoqun bütövlükdə necə çatdırılmasının, bir sıra sözlərin tələffüz qaydalarının, məntiqi vurğulu sözlərin, fasilələrin yerinin, ifaçılıq vəzifəsinin müəyyənləşdirməsi ilə bağlı olur. Şagirdlərə izah edilir ki, İlanla Qurbağanın dialoqunun məzmunundan asılı olaraq, ifaçının səsindəki bütün dəyişikliklər (tonun yüksəlib-alçalması, səsin aldığı çalar və s.) müəyyənləşdirilməli, şərti işarələrlə göstərilməli və bütün bunların əsasında ifadəli oxu həyata keçirilməlidir.

Kiçik qrupların hamısının bu tapşırığın üzərində işləməsi üçün vaxt ayrılır.

İşin icrasına başlamazdan əvvəl İlan və Qurbağa obrazlarının xarakteri haqqında yığcam müsahibə aparmaqla əsərin məzmunu və təhlili üzrə qazanılmış biliklərin bir daha xatırladılması faydalı olar. Kişik qrupların işinin nəticəsi cədvəldə əks etdirilir.

| **Fasilələr, məntiqi vurğulu sözlər, bəzi sözlərin tələffüz qaydası** | **İfaçılıq vəzifələri** | **Oxuda səsin aldığı çalar** |
|---|---|---|
| – Zalım İlan canımı I<br>Alaca[ğ] indi! II<br>Balalarım, ah, yetim I<br>Qalaca[ğ] indi! II<br>Haray, I haray, I ay haray! II<br>Onun əlindən! II<br>Gözləyin özünüzü I<br>Pis əməlin[nən]. II | Qurbağanın yetim qalacaq balalarının taleyi üçün narahatlığının çatdırılması | Həyəcanla<br><br><br><br><br>Kəskin |
| Gülümsəyərə[y] İlan I<br>Dedi: – Ay axma[x], I<br>Çığırma[x]la əlim[nən] I<br>Olmaz qurtarma[x] ! II<br>Onsuz da yeyəcəyəm I<br>Səni, ay yazı[x], II<br>Nə üçün[dü] bu qədər I<br>Haray, qışqırı[x]? II | İlanın zalımlığını, öz qurbanına qarşı amansızlığını, qəddarlığını ifadə etmək | İstehza ilə<br><br><br>Kinayə ilə<br><br>Soyuqqanlılıqla |
| Qurbağa da İlana I<br>Dedi: – Ay cəlla[t], I<br>Xilas olma[ğ] üçün mən I<br>Etmirəm fərya[t]. II<br>Qoy məhv olsun I<br>Qəlbimin arzusu, I kamı. II<br>İs[d]əyim [budu] səni I<br>Tanısın hamı. II<br>Bilsin[nər] ki, I alça[x] san, I<br>Zalımsan yaman. II<br>Heç zaman əl çəkmirsən I<br>İlanlığın[nan] II<br>Əlində başqaları I<br>Getməsin bada. II<br>Heç kəs yaxın düşməsin<br>Sənə dünyada! III | Qurbağanın haray salmasının əsl səbəbini, İlana nifrətini çatdırmaq | Həyəcanla<br><br><br><br><br><br><br><br>Nifrətlə |

Qrupların təqdimatları – ayrı-ayrı ifalar dinlənilib müzakirə olunur.

*Bu dərsin bir variantı dərslikdəki tövsiyələr əsas götürülməklə təşkil edilə bilər. Bu halda təmsildəki dialoqun üzərində işin təşkili məqsədəuyğundur.*

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Münasibətbildirmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Təmsilin məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Təmsili müəllimin köməyi ilə məzmununa uyğun ifadəli oxuyur. | Təmsili, əsasən, məzmununa uyğun ifadəli oxuyur. | Təmsili məzmununa uyğun ifadəli oxuyur. |

| | | | |
|---|---|---|---|
| Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Təmsillə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* C.London. KİŞ HAQQINDA HEKAYƏT – 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılması üçün rəmzi materiallardan istifadəni qarşısına məqsəd qoyan müəllim C.Londonun əsərlərinin ekran həyatından (sərt qışla bağlı fraqmentlərdən), yazıçının əsərlərinə çəkilmiş maraqlı illüstrasiyalardan (qarlı gündə ova çıxmış qalın geyimli insanların təsvir olunduğu) və s. istifadə edə bilər. Müəllim şagirdlərin həyat təcrübəsinə, şəxsi təəssüratlarına əsaslanaraq yığcam müsahibə aparmaqla da tədqiqat sualının müəyyənləşdirilməsinə nail ola bilər. "Haqsızlıqla qarşılaşan insan hansı hislər keçirir? Belə hallarda özünün haqlı olduğunu sübut etmək üçün necə hərəkət etməlisən?" kimi suallardan istifadə ilə müsahibənin təşkili tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *Sənə haqsızlıq edənlər səninlə birlikdə çətin sınaqlara məruz qalan insanlardırsa, necə hərəkət etməlisən?*

Şagirdlərin fərziyyələri dinlənilir və təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Sinifdə hekayənin ilk üç parçasının oxusu həyata keçirilir. Oxu fərqli formalarda reallaşdırıla bilər. Əsərdə maraqlı hadisələrin bir-birini əvəz etməsi, gözlənilməz əhvalatların təsviri proqnozlaşdırılmış, yaxud zəncirvarı (ziqzaq)

oxudan istifadəyə əlverişli imkan yaradır. Seçilmiş oxunun mahiyyəti, tətbiqi qaydaları nəzərə alınır. Bu barədə şagirdlərin bildikləri yada salınır, onlara əlavə təlimat verilir. Oxunun hansı formada aparılmasından asılı olmayaraq, tanış olmayan sözlərin mənasının necə qavranıldığına diqqət yetirilir.

**I dərs** **Məzmun üzrə iş**

1. Əsərin ilk üç parçasının oxusundan (bunu fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz) sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   a) Kişin məşvərət zamanı çıxış etməsinə səbəb nə idi?
   b) Onun çıxışı necə qarşılandı?
   c) Kiş qəbilə üzvlərinə nə barədə xəbərdarlıq etdi?
   d) Kişin təkbaşına ova getmək qərarına adamlar necə münasibət bəslədilər?
   e) Şiddətli çovğunda Kişin ovdan qayıtmaması qəbilədəkilərə necə təsir etdi?
   f) Ovladığı ayıların ətini Kiş necə bölüşdürürdü?
   g) Qəbilə üzvləri Kişə və anasına yeni daxma tikməyə nə üçün razılıq verdilər?

*Dərslik, səh. 72*

Əsərin məzmununun bütövlükdə qavranılmasına, təsvir olunanlarla bağlı təsəvvürün tamlığına nail olmaq üçün dərslikdəki suallardan istifadə edilməsi məqsədəuyğundur. Bu, fərqli şəkillərdə həyata keçirilə bilər. Dərslikdəki tövsiyə (suallara cütlük şəklində cavabların hazırlanması) daha məqsədəuyğundur. Cavabların əsərdən seçilmiş nümunələrlə əsaslandırılması vacibdir. Bu, təkcə mətnin dərindən qavranılmasına yox, həm də şagirdlərdə məntiqi təfəkkürün inkişafına əhəmiyyətli təsir göstərir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər cavablarını dəqiqləşdirir və zənginləşdirirlər. Ümumiləşdirilmiş cavablar qrup təqdimatının hazırlanmasına imkan verir.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsi, çıxarılmış nəticələrlə tanışlıq ön plana keçir. Fikirlərin qədərincə əsaslandırılmaması, birtərəfli mülahizələrin eşidilməsi bu mərhələdə tez-tez müşahidə olunur. Bunların aradan qaldırılması **məlumatın müzakirəsi** mərhələsində reallaşdırılır. Müzakirənin səmərəli keçməsi müəllimin istiqamətləndirici suallarından xeyli dərəcədə asılıdır. Şagirdlərin diqqəti əsərdə təsvir olunan şimal xalqlarının adət-ənənələrinin, çətin həyat tərzinin, məişətinin təsvirinə yönəldilə bilər. Bütün bunlar təsəvvürün konkretləşməsində əhəmiyyətli rol oynayır.

Aparılan iş yekunlaşdırıldıqdan (hekayənin məzmunu bütövlükdə öyrənilmədiyindən dərsin **nəticə, ümumiləşdirmə** mərhələsinin tələbləri tam halda ikinci dərsdə reallaşdırılır) sonra dərslikdə təklif edilmiş növbəti tapşırığın (hekayədən seçilmiş hissənin nağıl edilməsi) icrasına vaxt ayrılır. Bu tapşırıq  mətnin dərindən qavranılmasını təmin etməklə yanaşı, şifahi nitqin zənginləşməsinə, yeni öyrənilmiş sözlərdən istifadə bacarığının inkişafına da  əhəmiyyətli təsir edir.

Seçilmiş hissənin məzmununun plan əsasında yığcam nağıl edilməsi, çıxışlara münasibət bildirilməsi, qısa müzakirə aparılması faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam nağıl edir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

## *Mövzu:* C.London. KİŞ HAQQINDA HEKAYƏT – 3 saat
## *İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

### Dərsin gedişi

Əsərdən evdə oxunmuş parçaların məzmununun ilkin qavranılma səviyyəsi, tanış olmayan sözlərin necə mənimsənilməsi yığcam müsahibə ilə müəyyənləşdirilə bilər.

Hekayənin məzmununun öyrənilməsi üzrə iş davam etdirilir. Əsərin evdə oxunmuş parçaları müəllimin təklifi ilə bir daha nəzərdən keçirilir. Sonra cütlük şəklində iş forması tətbiq edilməklə həmin parçaların məzmununa aid suallar və onlara cavab yazılır. Cavabları məzmunca yaxın olan şagirdlərin kiçik qruplarda birləşərək fikir mübadiləsi və müzakirə aparması məqsədəuyğundur. Bu prosesdə məzmunla bağlı dərslikdəki sualların müzakirəyə cəlb edilməsi faydalıdır. Qrup daxilində aparılan fikir mübadiləsi və müzakirə təqdimatların ərsəyə gəlməsi ilə yekunlaşır. Təqdimat əsasında aparılan **məlumat mübadiləsi** qrupların bir-birinin işi ilə tanış olmalarına imkan verir. Sözçülərin (təqdimat edənlərin) daha əhəmiyyətli məsələlərin üzərində dayanmalarına,

digər qrupların suallarına ətraflı cavab vermələrinə diqqət yetirilir. Müşahidə edilən çatışmazlıqların aradan qaldırılması **məlumatın müzakirəsi** mərhələsində diqqət mərkəzində saxlanılır. Müzakirədə diskussiya, fikirlərin sərbəst ifadə edilməsi üçün şərait yaradılır. Müəllim cavabların tədqiqat sualının aydınlaşdırılmasına yönləndirilməsinə istiqamət verir. Növbəti mərhələnin uğuru müzakirənin səmərəli keçməsindən xeyli dərəcədə asılıdır.

**Nəticə, ümumiləşdirmə** mərhələsində indiyə kimi deyilənlərin ümumiləşdirilməsinə, ümumi ideya şəklinə salınmasına, nəticənin çıxarılmasına nail olunur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, insan ətrafındakılardan – eyni şəraitdə yaşadığı, çətinlikləri birlikdə qarşıladığı adamlardan haqsızlıq görəndə özünün haqlı olduğunu əməlləri ilə sübut etməyə çalışmalıdır.

Məzmunun mənimsənilməsi üzrə işin tərkib hissəsi kimi dərslikdə təklif edilmiş növbəti tapşırıq (məzmunun geniş nağıl edilməsi) məzmunun dərindən qavranılması, şifahi nitqin və yaradıcı təfəkkürün inkişafı baxımından faydalıdır. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra bir neçə təqdimatın dinlənilməsi və müzakirəsi həyata keçirilir. Öyrənilmiş yeni sözlərdən necə istifadə olunmasına diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

*Mövzu:* C.London. KİŞ HAQQINDA HEKAYƏT – 3 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | Hekayəni janr baxımından nağıl və ya əfsanə ilə müqayisə edir. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Təhlil dərsinin bu mərhələsini fərqli variantlarda təşkil etmək olar. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqlı ("İnsan bütün yaş dövrlərində ləyaqətini qorumağı bacarmalıdır" fikrinə necə münasibət bəsləyirsiniz?) sual əsasında müzakirə aparmaq və tədqiqat sualını müəyyənləşdirmək mümkündür.

***Tədqiqat sualı:*** *Əsərin qəhrəmanının – Kişin öz sözünün üstündə durması, ləyaqət, hörmət sahibi olması nəyin sayəsində mümkün olur?*

Şagirdlərin fərziyyələri dinlənilir və qeyd olunur.

**Tədqiqatın aparılması.** Tədqiqatın hansı formada aparılmasından asılı olmayaraq, "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət edilməsi məqsədəuyğundur. Kiçik qruplarda iş forması seçilərsə, "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı suallar iş vərəqlərində (hər qrupa bir sual ayırmaqla) əks etdirilərək şagirdlərə təqdim edilir. Bütövlükdə bu tapşırıq tədqiqat sualının aydınlaşdırılması üçün əhəmiyyətlidir. Kiçik qrupların hər birinin icra etdiyi tapşırığın mahiyyəti və məqsədi barədə aydın təsəvvürü olmalıdır. Bunun üçün müəllimin tədqiqatöncəsi təlimatı faydalıdır. Məsələn, birinci sual Kiş obrazının böyük sarsıntı keçirdiyini, günlərlə qəlbində yığılıb qalanları dilə gətirib-gətirməməklə bağlı tərəddüdlərini, haqsızlıqla, ədalətsizliklə barışa bilməməsini aydınlaşdırmağı tələb edir. Sual şagirdlərin bu obraza münasibət bildirmələrini mühüm tələb kimi irəli sürür

İkinci sual şagirdləri fərqli fikirlər söyləməyə sövq edir. Bu sual üzrə diskussiyanın aparılması (şaxələndirmə də tətbiq oluna bilər) Kiş obrazının dərindən qavranılması üçün zəmin yaradır.

Müəllim bu sualla bağlı iş zamanı Kiş surətinin qəbilənin digər üzvləri ilə müqayisəsinə də yer ayıra bilər. Bu məqsədlə Venn diaqramından istifadə məqsədəuyğundur.

Üçüncü sual üzrə diskussiyanın təşkili daha faydalıdır. Kiş ağılla, düşüncə və səbirlə haqlı olduğunu insanlara sübut edir.

Dördüncü sualın aydınlaşdırılmasında fərqli metod və priyomlardan istifadə oluna bilər. Diskussiyanın tətbiqi daha əhəmiyyətlidir. Kiş mərdliyi, igidliyi, ədalətli və səxavətli olması ilə ad-san çıxarmış atasına layiq övladdır.

Müəllimin bu məzmunda apardığı iş şagird tədqiqatının səmərəliliyinə əhəmiyyətli dərəcədə təsir edir.

**Məlumat mübadiləsi** mərhələsində təqdimatların fəal dinlənilməsi, ortaya çıxan sualların cavablandırılması diqqət mərkəzində saxlanılır. Təcrübə göstərir ki, suallar çox vaxt mübahisə ilə müşayiət olunur. Bu, istər-istəməz **müzakirə** mərhələsi ilə məlumat mübadiləsi mərhələsinin qovuşmasına gətirib çıxarır. Müzakirə zamanı diqqət Kişin qəbilənin digər üzvləri ilə mübahisəsinin səbəblərinin aydınlaşdırılmasına, onun öz mövqeyini qəbiləyə, tədricən də olsa, qəbul etdirməsinə yönəldilir. Müzakirə prosesində meydana çıxan suallar buna imkan verir: Necə oldu ki, ilk baxışda çıxılmaz görünən vəziyyətdə Kiş uğur qazana bildi? Kişin qəbilə üzvlərinə münasibətində hansı məqamlar diqqəti daha çox cəlb edir? Kişin hərəkətləri qəbilədəki münasibətlərə necə təsir etdi? Kişin adının unudulmamasının, nəsildən-nəslə ötürülməsinin səbəbi nə idi? Bu suallar üzrə diskussiya baş qəhrəmanın – Kişin xarakterik xüsusiyyətlərini, fəaliyyət motivlərini, nəticə etibarilə əsərdəki başlıca fikri aydınlaşdırmaq baxımından əhəmiyyətlidir.

Əvvəlki mərhələlərdə işin səmərəli təşkili **nəticə, ümumiləşdirmə** mərhələsində tutarlı nəticələrin çıxarılmasına şərait yaradır. Səsləndirilmiş fikirlərin ümumi ideya şəklinə salınmasında müəllimin istiqamətləndirici sualları əhəmiyyətli rol oynayır. Şagirdlərdə tədricən belə bir qənaət möhkəmlənir ki, əsərin qəhrəmanının – Kişin ədalətli, ləyaqətli bir insan kimi yetişməsində onun şəxsi keyfiyyətləri mühüm rol oynayır. Bir çox cəhətlərinə görə atasına bənzəyən Kiş haqsızlığa dözmür, amma düşünülməmiş addım da atmır. Qarşısına qoyduğu məqsədə çatmaq üçün səbirlə, təmkinlə, başlıcası isə, düşüncə və ağılla hərəkət edir. Hamının yerini bilən Kiş əməksevər və ədalətli olduğu üçün insanların hörmətini qazanır, ləyaqətli başçı olur.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Dərslikdə təklif edilmiş mövzunun (Ayıları ovladığı üçün Kişi günahlandırmaq olarmı?) müzakirəsinə vaxt ayrılır. Şagirdlərin fərqli mənbələrdən nümunələr gətirmələrinə, fikirlərini sərbəst ifadə etmələrinə şərait yaradılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Müqayisəetmə

Aydınlaşdırma əsaslandırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni janr baxımından nağıl və əfsanə ilə müqayisə etməkdə çətinlik çəkir. | Hekayəni janr baxımından nağıl və əfsanə ilə müəllimin köməyi ilə müqayisə edir. | Hekayəni janr baxımından nağıl və əfsanə ilə, əsasən, müqayisə edir. | Hekayəni janr baxımından nağıl və əfsanə ilə müqayisə edir. |
| Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Hekayənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetiriləcəyini şagirdlərə xatırladır.

# ÜÇÜNCÜ BÖLMƏ ÜZRƏ
# KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*“Hər kəsin yerişi var” təmsili üzrə*
*aparıla bilər.*

*Hikmət Ziya*
## HƏR KƏSİN YERİŞİ VAR

Bir Tısbağa Dovşana
Söylədi yana-yana:
– Sən nə yaman qaçırsan?
Lap elə bil uçursan!
Gəl dost olaq bu gündən,
Mənə də öyrət bunu.
İnan ki, təriflərəm
Səni ömrüm uzunu.
Dovşan dedi: – Əzizim,
Bu xəyala düşmə sən!
Bu addımla, yerişlə
Məgər qaça bilərsən?!
İnad etdi Tısbağa:
– Yox, mən də qaçacağam,
Öyrətmirsən, öyrətmə.
Lap quştək uçacağam.
Deyə o, bir tərəfdən
Üzüaşağı endi.
– Qaçma, yavaş! – söyləyib,
Dovşan xeyli deyindi.

Amma sözə baxmayıb
Tısbağa yumbalandı.
Dəyib daşa, kəsəyə,
Bir anda parçalandı.
Dovşan vurdu dizinə:
“Sənə demədim yavaş?!
Hər kəsin öz yerişi
Var, a Tısbağa qardaş!”

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Təmsilin məzmununa aid plan tərtib edin.**

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

______________________________________________________________

**2. Aşağıdakı parçada hansı bədii təsvir vasitəsi işlənmişdir?**

Yox, mən də qaçacağam,
Öyrətmirsən, öyrətmə.
Lap quştək uçacağam.

**3. Əsəri siz necə adlandırardınız?**

______________________________________________________________

**4. Altından xətt çəkilmiş sözü sinonimi ilə əvəz edin.**

*Amma sözə baxmayıb Tısbağa <u>yumbalandı.</u>*

**5. Hansı atalar sözü Tısbağanın başına gələn hadisəyə uyğundur?**

A) Çətin günün ömrü az olar.
B) Sonrakı peşmançılıq fayda verməz.
C) Dost dar gündə tanınar.
D) Dostunu mənə göstər, deyim, sən kimsən?

**6. Aşağıdakılardan hansı Tısbağanın xasiyyətinə uyğundur?**

A) Təvazökar, sadə
B) Sözə baxmayan, inadkar
C) Qorxmaz, igid
D) Mehriban, vəfalı

**7. Dovşanın Tısbağaya məsləhətinə münasibət bildirin:**

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

**8. Aşağıdakı parçanı ifadəli oxuyarkən səsdə hansı çalar yaranar?**

Yox, mən də qaçacağam,
Öyrətmirsən, öyrətmə.
Lap quştək uçacağam.

A) Sevinc
B) Təəssüf
C) Lovğalıq
D) Təəccüb

**9. Əsərin ideyası hansı misralarda əks olunub?**

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

**10. Əsərin sonluğunu fərqli təsvir edin.**

______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________
______________________________________________________________

# 4.

# MÜHARİBƏ VƏ İNSAN HAQQI

*Mövzu:* X.R.Ulutürk. OĞUL HƏSRƏTİ — 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə həyata keçirilən iş fərqli məzmunda təşkil edilə bilər. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallar əsasında müsahibənin aparılmasıdır. Müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın digər variantı internetdən istifadə ilə (http://edebiyyat.ucoz.com) "Oğul həsrəti" şeirinin xalq artisti İlham Əsgərovun ifasında dinlənilməsi və müzakirəsi ola bilər.

***Tədqiqat sualı:*** *Şair ata şəhid oğlundan bəhs edən əsərində hansı düşüncələrindən söz aça bilər?*

Fərziyyələr dinlənilir, lövhədə qeydlər edilir.

**Tədqiqatın aparılması.** Şeirin oxusu (fərdi səssiz oxu və ya səsli oxunun dinlənilməsi və s.) həyata keçirilir. Oxudan sonra cütlüklər sual və tapşırıqlar üzərində işləyir, təqdimat hazırlayırlar.

Birinci sualla bağlı cavablarda (Şeir kimə müraciətlə yazılıb?) şairin oğlu, erməni işğalçılarla döyüşlərdə qəhrəmancasına həlak olmuş Təbriz Xəlilbəyli haqqında şagirdlərin məlumatlarının üzə çıxarılması diqqət mərkəzində saxlanılmalıdır. Müəllim istiqamətləndirici suallar, tövsiyələr vasitəsilə sual və tapşırıqlara dolğun cavabların hazırlanmasına, şagirdlərin hər birinin fəallığına nail olmalıdır. Əsər haqqındakı düşüncələrin fərdi olaraq ikihissəli gündəlikdə yazılması üzrə iş təşkil edilir.

Şagirdlər kiçik qruplarda birləşərək cavabları dəqiqləşdirir, təqdimat hazırlayır, fikir mübadiləsi və müzakirəyə hazırlaşırlar.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində "Doğrudanmı səni tapdı Ölüm, Təbrizim, Təbrizim!", "Həsrətinə nə cür dözüm" misralarında övladını itirmiş atanın qəlbində tüğyan edən kədər, sarsıntı hislərinin təbiiliyinin, üçüncü bənddə bədii təsvir vasitəsi – bənzətmədən istifadə ilə (çiçəklərə bürünmüş oğul məzarının gülzara bənzədilməsi) şəhid ruhuna xalqımızın ehtiramının öz əksini tapması qeyd olunur.

Müzakirədə "Yerdə qalmaz bu qan, sözsüz" misrasına diqqət çəkilir. Düşməndən qisas alınacağına, erməni işğalçılarının ədalət divanına çəkiləcəyinə şairin inam hissi açıqlanır.

Təqdimatların hazırlanması ilə bağlı növbəti tapşırıq (Əsərdən şəhidlərimiz haqqında yeni nə öyrəndim? Öyrəndiyiniz yeni sözlərdən istifadə edin ; Şeirdə atanın kədərini və qürur hissini daha təsirli ifadə edən misralar hansılardır? Seçiminizi əsaslandırın) məzmunun mənimsənilməsi üzrə işin davamı, eləcə də şagirdlərdə müstəqil düşüncənin inkişafı baxımından faydalıdır. Təqdimatların müzakirəsi zamanı şagirdlərin öz mülahizələrini şeirdən və həyatdan nümunələr gətirməklə əsaslandırmalarına, öz təəssüratlarını yeni öyrəndikləri sözlərdən istifadə ilə çatdırmalarına diqqət yetirilir.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlərin şeirin məzmunu ilə bağlı söylədiyi fikirlər yekunlaşdırılır. Bu məqsədlə təkrar və ümumiləşdirmə səciyyəli suallardan istifadə etmək məqsədəuyğundur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şair əsəri oğlu Təbrizə həsr etsə də, şeirdə əslində Vətənimizin bütün şəhid övladlarına ehtiram, məhəbbət hissi ifadə olunmuşdur. Şair xalqımızın qəhrəman övladlarından qürur hissi ilə söz açır, onların xatirəsinin həmişə əziz tutulacağına inamını ifadə edir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Müəyyənləşdirmə
Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Şeirdə bədii təsvir vasitəsini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitəsini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitəsini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitəsini müəyyənləşdirir. |
| Şeirlə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* X.R.Ulutürk. OĞUL HƏSRƏTİ — 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitəsinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqlı sual (Şəhidlik zirvəsinə qalxmaq üçün insanda hansı keyfiyyətlərin olması zəruridir?) əsasında müsahibənin aparılması məqsədəuyğundur. Müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır.

Motivasiyanın digər variantı internetdən istifadə ilə (https://www.youtube. com/ watch?v=ziMpiILj4E8) Xəlil Rza haqqında videofilmə baxış və ya “Oğlum Təbrizə” şeirinin (https://www.youtube.com/ watch?v =4y9KFbgg _Mo) Xəlil Rzanın ifasında dinlənilməsi və müzakirəsi ola bilər.

***Tədqiqat sualı:*** *Şəhid oğlu haqqında əsər yazmaqda şairin niyyəti nə olmuşdur?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli məzmunda və formada təşkil oluna bilər. Lakin bütün hallarda dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına və “Əsərlə bağlı açıqlamalar” mətninə müraciət edilməsi məqsədəuyğundur.

“Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı suallardan ibarət iş vərəqləri kiçik qruplara paylanılır. Sual və tapşırıqlar üzrə iş zamanı kiçik qruplar daxilində iş bölgüsü aparılmasına, şagirdlərin hamısının təqdimatın hazırlanmasında fəal iştirak etməsinə diqqət yetirilir. Müəllim istiqamətləndirici suallar, tövsiyələrlə araşdırmanı yönləndirir.

**II dərs** **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Şeirdə şair atanın Vətən uğrunda döyüşlərdə şəhid olmuş oğlu Təbriz Xəlilbəyli haqqında düşüncələri, kədər, iftixar qarışıq kövrək hisləri əks olunub. Əsərlərində həmişə vətənpərvərliyi, qəhrəmanlığı tərənnüm etmiş sənətkar bu şeirində də oğlu Təbrizin timsalında ana yurdumuzu qoruyan, bu yolda canını qurban verən igidlərimiz haqqında ürək sözlərini ifadə edir, torpaqlarımızın işğaldan azad olunacağına, düşməndən intiqam alınacağına inamını əks etdirir.

Əsərin üzərində müşahidələrinizi davam etdirin, şairin Vətənimizin müdafiəçiləri, torpaqlarımıza göz dikmiş xain qonşularımız haqqındakı fikirlərinə əsaslandırılmış münasibət bildirməyə çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Şeir sizdə hansı hislər oyatdı? Fikrinizi misallarla əsaslandırın.
2. Şairin kədərini daha qabarıq ifadə edən sözlər, misralar hansılardır? Niyə belə düşünürsünüz?
3. Ata şəhid oğlunu nə üçün “bəxtəvər”, “üzüağ” adlandırır?
4. Kremlin və daşnakların adını çəkməkdə şairin məqsədi nədir?
5. Əsər Təbrizin Vətənə və düşmənə münasibəti barədə sizdə hansı təsəvvür yaratdı? Nə üçün?
6. Şeirdə iki Təbrizdən söz açılmasının səbəbi, sizcə, nədir?

*Dərslik, səh. 80*

Bu tapşırıqların icrasında şagirdlərin digər mənbələrdən də (tarix, coğrafiya fənləri, televiziya, internet və s.) qazandıqları biliklərdən istifadə edərək Vətənimizin bir parçası olan Təbriz və Xocalı şəhərləri, işğal altında qalan yurd yerlərimiz, Azərbaycan torpaqlarının düşməndən azad olunması uğrunda döyüşlərdə qəhrəmanlıq göstərmiş həmvətənlərimiz haqqında müstəqil fikir söyləmələri, tədqiqatçılıq bacarıqlarını inkişaf etdirmələri diqqət mərkəzində saxlanılır.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində qrupların təqdimatları diqqətlə dinlənilir, müzakirə aparılır. Təqdimatlarda mülahizələrin əsərdən və həyatdan nümunələr gətirməklə əsaslandırılmasına, yeni öyrənilmiş sözlərdən istifadə edilməsinə diqqət yetirilir. Əsərdəki fikirlər əsasında Təbrizi vətənpərvər, qəhrəman bir gənc kimi səciyyələndirən cəhətlərin müəyyənləşdirilməsinə, bədii təsvir vasitəsi – bənzətmənin (məzar – gülzar) rolunun aydınlaşdırılması diqqət mərkəzində saxlanılır. Əsərin ideyası – şairin bu əsəri yazmaqda başlıca niyyəti müəyyənləşdirilir.

Dərslikdəki “Tətbiq. Müzakirə. Yaradıcı iş” başlığı altında verilmiş ifadəli oxu ilə bağlı tapşırığın icrasına vaxt ayrılır.

**Nəticə, ümumiləşdirmə** mərhələsində qeyd edilir ki, bu şeirdə şairin vətəndaş mövqeyi bir daha üzə çıxır. X.Rza oğlu Təbrizin timsalında xalqımızın müqəddəs Vətən müharibəsində bütün şəhid olmuş övladlarına ehtiramını bildirir. Şairin qəlbində oğul itkisindən doğan kədərlə yanaşı, bu gənc şəhidin mərdliyindən, qəhrəmanlığından doğan qürur hissi də yaşayır. Şair sanki oxucuya müraciət edərək dostu-düşməni yaxşı tanımağa, ana torpağı öz qanı ilə suvarmış igidləri unutmamağa səsləyir.

Bu mərhələyə Ulu Öndər Heydər Əliyevin aşağıdakı fikri ilə yekun vurulur: “Xəlil Rzanın Azərbaycan xalqı qarşısında xidmətləri əvəzsizdir. Onlar heç vaxt unudulmayacaq”.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma
Aydınlaşdırma
Əsaslandırma
Münasibətbildirmə
Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeiri məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Şeiri müəllimin köməyi ilə məzmununa uyğun ifadəli oxuyur. | Şeiri, əsasən, məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, müna-sibətini, əsasən, əsaslandırır. | Şeirin ideyasını aydınlaşdırır, müna-sibətini əsaslandırır. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| Şeirlə bağlı müzaki-rələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* M.İbrahimbəyov. PÜSTƏ AĞACI – 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərslikdəki “Yada salın” başlıqlı sualların əsasında yığcam müsahibə aparmaqla motivasiya yaratmaq və sonda tədqiqat sualını müəyyənləşdirmək mümkündür. Bu, vaxta qənaət baxımından faydalıdır.

***Tədqiqat sualı:*** *“Bədii əsərlərin kiçik qəhrəmanlarının həyat hadisələrinə, yaşlıların əməllərinə qiymət vermələrinə haqq qazandırmaq olmaz” fikrini doğru saymaq mümkündürmü?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** İlk növbədə, hekayənin birinci parçasının oxusu həyata keçirilir. Oxu fərqli formalarda təşkil oluna bilər. Bütün hallarda tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasına diqqət yetirilir. Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər mətnkənarı suallara cütlük şəklində cavab hazırlayırlar. Suallar elə tərtib edilmişdir ki, yalnız məzmunun dərindən qavranılmasına yox, həm də təsvir olunanlara ilkin münasibətin yaranmasına əhəmiyyətli təsir göstərir. Bu suallar şagirdləri mətnə yenidən, həm də daha diqqətlə müraciət etməyə, faktların, əhvalatların, ümumiyyətlə, baş verənlərin hamısının üzərində düşünməyə sövq edir. Təcrübə göstərir ki, cütlük şəklində işləyən şagirdlərin arasında bu və ya digər sualın cavabı ilə bağlı mübahisə də yaranır. Buna təbii baxmaq lazımdır. Bu mübahisələr sonrakı mərhələlərdə də özünü göstərir, onların aradan qaldırılmasına tədricən, müzakirə yolu ilə nail olunur. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər hazırladıqları cavabları müqayisə edir, konkretləşdirir və zənginləşdirirlər. Bu, qrup üzrə ümumiləşdirilmiş təqdimatın hazırlanmasına imkan verir.

Dərsin **məlumat mübadiləsi** mərhələsində qrup təqdimatlarının fəal dinlənilməsi, qrupların bir-birinin işinin nəticəsi ilə tanış olmaları həyata keçirilir. Təcrübədən məlumdur ki, mətnkənarı suallara (onlar, əsasən, yarımaçıq suallardan ibarətdir) hazırlanan cavablar məzmunca bir-birindən fərqlənir. Qrupdaxili fikir mübadiləsi və

müzakirə aparılmasına baxmayaraq, əsaslandırılmış fikirlərlə yanaşı, subyektiv, birtərəfli mülahizələr daha çox eşidilir. Bunun başlıca səbəbi cavabların bütövlükdə ilkin qavramanın nəticəsini əks etdirməsidir. Deməli, məlumat mübadiləsi mərhələsində nöqsanların aşkara çıxarılması, əslində, müzakirənin necə, hansı məzmunda aparılmasına istiqamət verir. Beləliklə, dərsin **müzakirə** mərhələsində nöqsanların aradan qaldırılması, cavabların əlaqələndirilərək sistemə salınması diqqət mərkəzində saxlanılır.

Aparılmış işə müəllimin sualları əsasında yekun vurulduqdan (nəticə, ümumiləşdirmə mərhələsinin tələbləri məzmun üzrə iş tamamlandıqda – ikinci dərsdə həyata keçirilir) sonra oxunmuş parçadan seçilmiş hissənin məzmununa aid plan tərtib edilir. Şagirdlər həmin plan əsasında hissənin məzmununu geniş nağıletməyə hazırlaşırlar. Bir neçə təqdimatın dinlənilib müzakirə edilməsi məqsədəuyğundur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Təqdimatetmə, istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam, geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam, geniş nağıl edir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* M.İbrahimbəyov. PÜSTƏ AĞACI – 3 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir. | Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Birinci dərsdə aparılmış tədqiqatın davamı olaraq şagirdlər müəllimin təklifi ilə hekayənin evdə oxunmuş ikinci parçasının məzmununa aid suallar və onlara cavab yazırlar. Bunun üçün cütlük şəklində iş formasının seçilməsi məqsədəuyğundur. Dərslikdə sualların sayının üçdən az olmaması təklif edilir, lakin sinfin səviyyəsindən, müəllimin məqsədindən asılı olaraq, onların sayını çoxaltmaq da mümkündür. İşin gedişini diqqətlə müşahidə edən müəllim şagirdlərin qapalı suallara daha çox meyl etməsinin qarşısını alır. Bu məqsədlə onların diqqətini hekayənin birinci parçası üçün müəyyənləşdirilmiş suallara bir daha cəlb etmək faydalıdır, yaxud ikinci parça ilə bağlı bir neçə yarımaçıq sual səsləndirməklə bu nümunələrin üzərində düşünmələrini təmin etmək məqsədəuyğundur.

Cütlüklərin sualları dəyişməklə cavab hazırlamaları artıq məktəb təcrübəsində müşahidə edilən maraqlı iş növlərindəndir. Bu, suallara digər şagirdlərin tənqidi yanaşmalarını təmin edir.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər sualları və onlara hazırlanmış cavabları müzakirə edir, dəqiqləşdirmə apararaq nöqsanları aradan qaldırmağa çalışırlar. Qrupdaxili müzakirə təqdimatların hazırlanması ilə başa çatır. Təqdimatların dinlənilməsi, qrupların bir-birinin işinin məzmunu ilə tanış olmaları **məlumat mübadiləsi** mərhələsində həyata keçirilir. Məktəb təcrübəsindən məlumdur ki, qrup daxilində fikir mübadiləsinin, müzakirənin aparılmasına baxmayaraq, qruplararası məlumat mübadiləsi mərhələsində birtərəfli, dayaz mülahizələr heç də az eşidilmir. Bu, müəyyən sualların da yaranmasına səbəb olur. Qrup sözçülərinin digər qrupların səsləndirdikləri suallara cavab verməsi təmin edilir. Daha çox mübahisəyə səbəb olan və nöqsanlı sayılan suallara dərsin **müzakirə** mərhələsində xüsusi diqqət yetirilir. Bu baxımdan, qonşu qadın obrazı ilə bağlı əvvəlki mərhələdə səsləndirilmiş fikirlərin üzərində daha ciddi dayanılır. Əsərin kiçik

qəhrəmanları hadisələrin (məsələn, müharibəyə münasibətdə olduğu kimi) mahiyyətini, eləcə də yaşlıların (məsələn, qonşu qadının) xarakter və əməllərini başa düşməkdə çətinlik çəkir və buna görə də səhv nəticələr çıxarırlar. Müəllimin yönləndirici sualları məhz bu cəhətlərin ortaya çıxarılmasına və doğru olanların müəyyənləşdirilməsinə şərait yaratmalıdır. Müzakirə boyu cavabların tədqiqat sualı ilə əlaqələndirilməsinə, ona aydınlıq gətirməsinə istiqamət verilir. Sonrakı – **nəticə, ümumiləşdirmə** mərhələsində indiyə kimi səsləndirilmiş fikirlərin ümumi ideya şəklinə salınmasına, əsaslandırılmış nəticənin çıxarılmasına nail olunur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, həyatda olduğu kimi, bədii əsərlərdə də balacalar eşitdikləri, gördükləri hadisələr, müşahidə etdikləri, ünsiyyətdə olduqları yaşlılar barədə öz fikirlərini bildirirlər. Onların fikirləri yanlış, bəsit, əsaslandırılmamış da ola bilər, lakin bunu onlara qadağan etmək olmaz. Belə bir qadağa, əslində, mümkün olmadığı kimi, doğru da olmazdı. Yaşlılar kimi, balacalar da gördüklərinə, müşahidə etdiklərinə, eləcə də ünsiyyətdə olduqları insanlara münasibət bildirməkdə, dəyər verməkdə sərbəstdirlər, bu, onların haqqıdır. Bu, onların inkişafı, təcrübələrinin artması üçün mühüm zəmin rolunu oynayır. Yol verdikləri səhvləri böyüklərlə ünsiyyət qurmaqla, eləcə də təcrübələri artdıqca aradan qaldıra bilərlər.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdəki "Bilik və bacarıqlarınızı tətbiq edin" başlıqlı tapşırıqların yerinə yetirilməsi çox vaxt tələb etmir. Birinci tapşırıq (yığcam əhvalatın yazılaraq hekayəyə əlavə edilməsi) şagirdlərdə yaradıcı və məntiqi təfəkkürün inkişafı üçün faydalıdır. İkinci tapşırıq (əsərdən seçilmiş cümlələrə bədii təsvir vasitələrinin əlavə edilməsi və ilk variantla müqayisənin aparılması) nəzəri anlayışlarla bağlı biliklərin tətbiqi və nəticəsinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir. Üçüncü tapşırıq da (əsərin hekayə janrında olduğunun əsaslandırılması) ədəbiyyat nəzəriyyəsi üzrə qazanılmış biliyin tətbiqi məqsədini güdür və bu baxımdan əhəmiyyətlidir.

Tapşırığın icrasına ayrılmış vaxt başa çatdıqdan sonra təqdimatların dinlənilib müzakirə edilməsi məqsədəuyğundur. Müzakirədə müsahibədən istifadə edən müəllim şagird işlərinin səviyyəsi barədə aydın təsəvvür qazanır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Müəyyənləşdirmə
Şərhetmə
Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayənin janr xüsusiyyətlərini müəllimin köməyi ilə müəyyənləşdirir. | Hekayənin janr xüsusiyyətlərini, əsasən, müəyyənləşdirir. | Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* M.İbrahimbəyov. PÜSTƏ AĞACI – 3 saat
## *Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir. | Hekayənin məzmununa fərqli münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində inşa, esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiya fərqli yollarla yaradıla bilər. Müharibə mövzusunda çəkilmiş bədii filmdən uşaq həyatının əks olunduğu fraqment nümayiş etdirilməklə motivasiya yaratmaq mümkündür. Yaxud bədii əsərdən müvafiq epizodun oxunması, musiqi parçasının səsləndirilməsi və s. rəmzi materiallardan istifadə ilə motivasiyanı yaratmaq və tədqiqat sualını müəyyənləşdirmək olar.

Dərslikdəki "Düşünün" başlıqlı sual (Uşaqlığı müharibə dövrünə düşənlər, sizcə, başqalarından fərqlənirmi?) əsasında yığcam müsahibə aparmaqla da motivasiya yaratmaq və tədqiqat sualını formalaşdırmaq mümkündür.

***Tədqiqat sualı:*** *"Müharibə uşaqların xarakterində, bir-birinə, başqalarına münasibətlərində ciddi dəyişiklik yaradır" fikrini doğru saymaq olarmı?*

Şagirdlərin fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**III dərs** **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Oxuduğunuz əsərlərin çoxunda uşaqların bir-biri ilə dostluğundan, məktəb həyatından, adi əyləncələrindən danışılır. “Püstə ağacı” hekayəsi onlardan fərqlənir. Əsərdə təsvir olunan uşaqlar müharibənin dəhşətini anlamırlar, bu barədə təsəvvürləri yoxdur. Amma müharibə haqqındakı danışıqlar onların düşüncəsinə güclü təsir edib. Elə buna görə də həyatlarını müharibə qaydalarına uyğun qurmağa çalışırlar. Bu isə oyundan, əyləncədən o tərəfə keçmir. Lakin uşaqların düşüncəsində, həyatında ciddi dəyişiklik yaranır. Hekayənin üzərində müşahidələrinizi, araşdırmalarınızı davam etdirməklə bunun əsl səbəbini aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Hekayə xoşunuza gəldimi? Fikrinizi əsaslandırın.
2. Əsərdə təsvir olunan uşaq dünyası sizi cəlb etdimi? Səbəbini izah edin.
3. Sizcə, qonşu qadının xarakterindəki başlıca xüsusiyyətlər hansılardır? Fikrinizi nümunələrlə əsaslandırın.
4. Hekayəni nağıldan fərqləndirən başlıca xüsusiyyətləri müəyyənləşdirin. Fikrinizi əsaslandırın.

*Dərslik, səh. 88*

**Tədqiqatın aparılması.** İşin hansı formada təşkilindən asılı olmayaraq, dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına və “Əsərlə bağlı açıqlamalar” mətninə müraciət edilməsi faydalıdır. Kiçik qruplarda iş formasını seçən müəllim tapşırıqdakı sualları (hər qrupa bir sual ayırmaqla) şagirdlərə təqdim edir. Qrupların sayı sualların sayından çox olarsa, iki qrupa eyni sual təqdim etmək olar. Yaxud müəllim tapşırığa yeni sual əlavə edə bilər.

“Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığı elə tərtib edilmişdir ki, tədqiqat sualına aydınlıq gətirilməsinə geniş imkan açır. Məhz buna görə də qrup üzvləri onlara təqdim olunmuş sualın əsas tələbinin və məqsədinin nədən ibarət olduğunu əvvəlcədən aydın təsəvvür etməlidir. Deməli, tədqiqat başlanmazdan əvvəl qrupun istəyindən asılı olaraq, müəllimin təlimatlandırma aparması şagirdlərin səmərəli fəaliyyəti üçün əhəmiyyətlidir. Məsələn, birinci sual, əslində, əsərin mövzusuna, məzmununa, obrazlarına, onda qaldırılmış başlıca problemə və əsas ideyaya münasibət bildirilməsini, qiymət verilməsini tələb edir. Bu cavab nümunələrlə əsaslandırılmış fikirlərin söylənilməsi, tutarlı nəticələrin önə çəkilməsi ilə səciyyələnir. Yaxud ikinci sual hekayədə təsvir olunan uşaq dünyasının fərqli, bir az da qeyri-adi olduğunu aydınlaşdırmaq məqsədini güdür. Bu dünyanın uşaqları böyüklər kimi düşünür, yaxud düşünməyə çalışır, gördüklərinə, müşahidə etdiklərinə dərhal münasibət bildirir, qiymət verirlər. Onların arasında güclü birliyin, dostluq və səmimiyyətin yaranmasında yaşadıqları zəmanənin, görüb - hiss etdiklərinin də təsiri az olmamışdır. Bu dünyanın mehriban və yaşlarına görə çox bilən sakinləri – uşaqlar səhv etməkdən, yanlış nəticə çıxarmaqdan xali deyillər. Tapşırıqdakı üçüncü sual (Qonşu qadın sizdə hansı hiss və düşüncə yaratdı?) bu cəhətin açıqlanması məqsədini güdür və tədqiqat sualının aydınlaşdırılmasında əhəmiyyətli rol oynayır. Bütün bunlar barədə şagirdlərdə təsəvvürün yaradılması istiqamətləndirici suallar vasitəsi ilə də mümkündür.

Dərsin **məlumat mübadiləsi** mərhələsində sualların başlıca tələbi, məqsədi ilə bağlı əldə edilmiş nəticələrin səsləndirilməsinə önəm verilir. Buna nail olmaq üçün müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Qrup sözçülərinin daha əhəmiyyətli olanların üzərində dayanması qrupların bütövlükdə tapşırığın məqsədi barədə aydın təsəvvür qazanmalarına imkan yaradır. Nöqsanların, çatışmazlıqların aradan qaldırılmasına **müzakirə** mərhələsində nail olunur. Bu və ya digər sualla bağlı subyektiv fikirlərə, xüsusən qonşu qadın obrazına münasibətdə müşahidə olunan birtərəfli mülahizələrə diqqəti cəlb edən müəllim nöqsanları şagirdlərin müstəqil olaraq düzəltmələrinə səy göstərir. Səsləndirilmiş fikirlərin əlaqələndirilib ümumi ideya şəklinə salınması dərsin növbəti – **nəticə, ümumiləşdirmə** mərhələsində həyata keçirilir. Apardıqları araşdırmalar, müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaətin möhkəmlənməsinə səbəb olur ki, müharibə insanların xarakterində, davranış və əməllərində, başqalarına münasibətlərində ciddi

dəyişikliyin yaranmasına səbəb olur. Bu özünü balacalarda da göstərir. Müharibə uşaqların həyatına yalnız “dava-dava” oyunu kimi daxil olmur. Onların arasında güclü səmimiyyət, dostluq, birlik yaranır. Uşaqlar sanki yaşlarından tez böyüyürlər, bir-birinin qayğısına qalır, insanlara, müşahidə etdikləri həyat hadisələrinə həssas və diqqətcil olur, onlara dəyər verməyə çalışırlar.

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Hekayənin öyrənilməsinin səmərəli təşkili yığcam inşa və essenin yazılması üzrə növbəti tapşırığın qısa vaxt ərzində yerinə yetirilməsinə imkan verir. İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra təqdimatların dinlənilməsi və müzakirəsi həyata keçirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Müqayisəetmə

Aydınlaşdırma, münasibətbildirmə

Şərhetmə

İnşayazma, esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri qismən müəyyənləşdirir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri, əsasən, müəyyənləşdirir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |
| Hekayədəki qəhrə-manların xarakterin-dəki başlıca xüsusiy-yətləri aydınlaşdır-maqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayədəki qəhrə-manların xarakte-rindəki başlıca xüsu-siyyətləri qismən aydınlaşdırır, müna-sibətini əsaslandırmır. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, müna-sibətini əsaslandırır. |
| Hekayənin mövzu-sunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildir-məkdə çətinlik çəkir. | Hekayənin möv-zusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzu-sunu və ideyasını ay-dınlaşdırır, əksər hallarda münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayənin məzmu-nuna fərqli mü-nasibət bildirməkdə. çətinlik çəkir. | Hekayənin məzmu-nuna kömək əsasın-da fərqli münasibət bildirir. | Hekayənin məzmununa, əsasən, fərqli münasibət bildirir. | Hekayənin. məzmununa fərqli münasibət bildirir. |

| | | | |
|---|---|---|---|
| İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa, esse yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* E.Hüseynbəyli. FİRUZƏ QAŞLI XƏNCƏR – 3 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bunu fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallara müraciət edilməsi ola bilər. Qarabağ müharibəsi ilə bağlı oxunmuş əsərlər, baxılmış filmlər üzrə müsahibə aparmaq mümkündür. Məsələn, internet materiallarından istifadə edərək (https://www.youtube.com/watch?v=jl1iSUaCUQ0) Xocalı soyqırımından bəhs edən kadrları nümayiş etdirmək məqsədəuyğundur. Müsahibə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir.

***Tədqiqat sualı:*** *Düşmən mühasirəsində qalan ana öz körpəsini necə xilas edə bilər?*

Fərqli fikirlər – fərziyyələr dinlənilir və lövhədə qeyd olunur.

Müəllim tədqiqat sualı ilə əlaqədar hekayədən 1-3-cü parçaları diqqətlə oxumağın, orada təsvir olunanlara münasibət bildirməyin, mətnkənarı suallara cütlük şəklində cavab hazırlamağın məqsədəuyğunluğunu qeyd edir.

**Tədqiqatın aparılması.** Oxuya hazırlıqdan sonra hekayədən parçaların oxunması, məzmununun mənimsənilməsindən əvvəl tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasının əhəmiyyəti qeyd edilir.

Şagirdlərin nəzərinə çatdırılır ki, əvvəl öyrənilmiş əsərlərdə olduğu kimi, bu hekayədə də tanış olmayan sözlərin mənasının aydınlaşdırılması həm əsərin məzmununun qavranılması, həm də söz ehtiyatının zənginləşdirilməsi baxımından faydalıdır.

Mətnin məzmununu öyrənilməsində fasilələrlə oxu tətbiq edilə bilər. Oxu fərqli şəkillərdə də (səssiz oxu, proqnozlaşdırılmış oxu və s.) aparıla bilər. Əsərin ilk üç parçasının oxusundan sonra mətnkənarı suallara cütlük şəklində cavab hazırlanır. Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər hazırladıqları cavabları dəqiqləşdirir və zənginləşdirirlər.

Baş qəhrəmanın – Zeynəbin keçirdiyi sarsıntını, düşmənin amansızlığını əks etdirən səhnələrin elə ilk oxuda başa düşülüb qavranılmasına nail olmaq faydalıdır. Bu, sonrakı mərhələlərdə aparılan işlərin səmərəliliyi üçün vacibdir.

Təqdimata hazırlıq prosesində şagirdlərin qrupdaxili fəallığına nəzarət edilir, ehtiyac yaranan məqamlarda zəruri tövsiyələr verilir.

**Məlumat mübadiləsi və müzakirəsi** zamanı kiçik qrupların təqdimatlarının fəal dinlənilməsinə nail olunur, sərbəst fikir mübadiləsinə şərait yaradılır. Müəllim şagirdlərin əsərin qəhrəmanının hərəkətləri ilə bağlı mülahizələrini əsaslandırmalarına diqqət yetirir.

Əsərin məzmununun seçilmiş hissələr əsasında yığcam nağıl edilməsi (hekayənin məzmununun mənimsədilməsi üzrə iş davam etdiriləcəyi üçün nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması mərhələsinin tələbləri tam halda növbəti dərsdə həyata keçirilir) mətnin dərindən qavranılmasını təmin edir, şagirdlərin şifahi nitqinin zənginləşməsinə imkan yaradır. Hekayənin səciyyəvi hissələrinin seçilməsi və adlandırılması, plan tərtibi şagirdlərin məntiqi təfəkkürünün, fikri az sözlə, lakonik çatdırmaq bacarığının inkişafına da şərait yaradır. Bu məsələnin əhəmiyyətini nəzərə alaraq müəllimin şagirdlərə bir daha yığcam nağıletmə ilə bağlı tələbləri xatırlatması faydalıdır. Öyrəndikləri yeni sözlərdən cavablarında istifadə etməyin vavib olması bir daha şagirdlərin diqqətinə çatdırılır.

Mövzulardan birini seçib təqdimata hazırlaşmaq tapşırığı (Xəncəri yadigar verərkən nənənin dediyi “yaman gündə yarağın olar” sözləri məndə hansı düşüncələr yaratdı?; Ermənilərin günahsız insanları qətlə yetirməsinin səbəbini nədə görürəm) şagirdlərin əsərdə təsvir olunanlara münasibət bildirməsi, düzgün qənaət hasil etməsi, təqdimat hazırlamaq, çıxış etmək bacarığının inkişafı baxımından əhəmiyyətlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam nağıl edir. |
| Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* E.Hüseynbəyli. FİRUZƏ QAŞLI XƏNCƏR – 3 saat
## *İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 1.1.4. Şifahi və yazılı ədəbiyyat nümunələrini (əfsanə, nağıl, təmsil, hekayə) janrlarına görə fərqləndirir. | Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

## Dərsin gedişi

Əsərdən evdə oxunmuş hissənin məzmununun ilkin qavranılma səviyyəsi, tanış olmayan sözlərin necə mənimsənilməsi yığcam müsahibə ilə aşkara çıxarıla bilər.

**Tədqiqat aparılması** məqsədilə hekayənin məzmununun öyrənilməsi üzrə iş davam etdirilərək evdə müstəqil oxunmuş parçalar (4, 5) bir daha nəzərdən keçirilir. Cütlüklər mətnkənarı suallara cavab hazırlayır, oxunmuş parçaların məzmunu üzrə suallar tərtib edirlər.

Müəllimin təklifi ilə kişik qruplarda birləşən şagirdlər hazırladıqları bütün cavabları müzakirə edir, dəqiqləşdirmə və ümumiləşdirmə aparırlar. Bu, qrup üzrə təqdimatın hazırlanmasına imkan yaradır.

**II dərs** | **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə mətnkənarı suallara cavab hazırlayın.
3. Həmin parçaların məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın.
4. Kiçik qruplarda birləşərək tərtib etdikləriniz də daxil olmaqla bütün sualların cavabını müzakirə edib dəqiqləşdirin.
5. Əsərdə işlənmiş bədii təsvir vasitələrinin növünü dəqiqləşdirib cədvəldə qeyd edin.

| Əsərdə işlənmiş bədii təsvir vasitələri | Onların növü |
|---|---|
| | |

6. Bu əsərin hekayə janrında olduğunu nümunələrlə əsaslandırın.
7. Yerinə yetirdiyiniz bütün işlərlə bağlı gəldiyiniz nəticələr barədə təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.
8. Əsəri hissələrə ayırın, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.

*Dərslik, səh. 98*

**Məlumat mübadiləsi və müzakirəsi mərhələsində** kiçik qrupların təqdimatları dinlənilir, əldə edilmiş nəticələr üzrə fikir mübadiləsindən sonra müzakirə aparılır.

Müzakirə zamanı əsərdəki ayrı-ayrı cümlələrdə (“Qisas qiyamətə qalmaz”, “Bu murdar qanı yumaq, ondan xilas olmaq lazımdır” və s.) ifadə olunmuş fikirlərin aydınlaşdırılmasına diqqət yetirmək məqsədəuyğundur.

Əsərdə işlədilmiş bədii təsvir vasitələri ilə bağlı sualın (“Uşağın lalə yanağı solmuş, rəngi pambıq kimi ağarmışdı” cümləsində hansı bədii təsvir vasitələri işlənilib?) cavablandırılması zamanı epitet və bənzətmə ilə bağlı nəzəri biliklərin xatırladılmasına ehtiyac hiss olunur. Nəzəri bilikləri tətbiq edən şagirdlər “lalə yanaq” ifadəsinin epitet, “rəngi pambıq kimi ağarmışdı” ifadəsində isə bənzətmə işlənildiyini qeyd edir, cavablarını əsaslandırırlar. Əsərin hekayə olduğunu göstərən xüsusiyyətlərin müəyyənləşdirilməsi şagirdlərin janrla bağlı biliklərini tətbiq etmələrini nəzərdə tutur. Müzakirə zamanı şagirdlərin müstəqillik və fəallığı, öz mülahizələrini əsərdən və həyatdan nümunələrlə əsaslandırmaları diqqətdə saxlanılır.

Əsərin hissələrə ayrılması, birinin məzmununun hazırlanmış plan əsasında geniş nağıl edilməsi ilə bağlı tapşırıq şagirdlərin hekayənin məzmununu dərindən mənimsəməsinə, şifahi nitq bacarıqlarını **yaradıcı tətbiq etmələrinə** imkan yaradır. Bu zaman şagirdlər hekayədəki ayrı-ayrı söz və ifadələrdən, cümlələrdən istifadə etməklə yanaşı, öz əlavələrini də edir, bu yolla fəal lüğət ehtiyatlarını və nitqlərini zənginləşdirirlər.

**Nəticə, ümumiləşdirmə** mərhələsində indiyə kimi deyilmiş fikirlərin yekunlaşdırılması, bir ideya şəklində ifadə edilməsi diqqət mərkəzində dayanır. Əvvəlki mərhələlərdə olduğu kimi, bu mərhələdə də şagirdlərin müstəqilliyi təmin edilir, nəticə çıxarılmasında və ümumiləşdirmə aparılmasında fəal iştirakı təmin olunur. Şagirdlərdə tədricən belə bir qənaət möhkəmlənir ki, düşmən nə qədər çox, güclü və amansız olsa da, körpəsinin xilası yolunda heç bir ananı yolundan döndərə bilməz. Heç bir çətinlik – şaxta, boran, təhlükəli uzun yol körpəsini sinəsinə sıxan ananı yolundan saxlaya bilməz. Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsi üzrə iş də şagirdlərin fəal iştirakı ilə aparılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Hissələrəayırma plan tərtibetmə nağıletmə
Müəyyənləşdirmə
Yeni sözlərdən istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayənin janr xüsusiyyətlərini müəllimin köməyi ilə müəyyənləşdirir. | Hekayənin janr xüsusiyyətlərini, əsasən, müəyyənləşdirir. | Hekayənin janr xüsusiyyətlərini müəyyənləşdirir. |
| Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* E.Hüseynbəyli. FİRUZƏ QAŞLI XƏNCƏR – 3 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir. | Hekayənin məzmununa fərqli münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində yığcam esse yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqlı sual (Müharibədə dinc əhaliyə – qocalara, qadınlara, uşaqlara, xəstələrə, silahsız əsgərlərə münasibət necə olmalıdır?) əsasında müsahibənin aparılması məqsədəuyğundur. Müəllim müharibə zamanı dinc əhalinin (qocaların, qadınların, uşaqların, xəstələrin, silahsız insanların) hüquqlarını qoruyan Cenevrə Konvensiyalarının olduğunu xatırlada bilər. Həmin Konvensiyaya görə, dinc əhalinin öldürülməsi, işgəncələrə məruz qalması müharibə cinayəti hesab olunur.

Motivasiya yaradılmasının digər variantı internetdən istifadə ilə "Xocalını unutma!" sənədli filmindən bir parçanın nümayiş etdirilməsi ola bilər. Müsahibə tədqiqat sualının formalaşmasına zəmin yaradır.

***Tədqiqat sualı.*** *Xocalıda dinc əhalinin başına gələn faciəli hadisələri təsvir etməkdə yazıçının niyyəti nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli məzmunda və formada təşkil oluna bilər. Lakin bütün hallarda dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərlə bağlı açıqlamalar" mətninə müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim əvvəlcədən iş vərəqləri hazırlayır, "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı sualları onlarda əks etdirərək qruplara təqdim edir. 1-ci və 2-ci suallar (Baş qəhrəmanın – Zeynəbin yaddaqalan

obrazını yaratmağa yazıçı necə nail olmuşdur? Zeynəb hansı xüsusiyyətlərinə görə oxucunun rəğbətini qazanır?) şagirdləri standartın tələbinə uyğun olaraq, obrazın xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmağa, əsaslandırılmış münasibət bildirməyə istiqamətləndirir.

Düşmən obrazlarını səciyyələndirən başlıca cəhətləri aydınlaşdırmağı nəzərdə tutan sualla əlaqədar, şagirdlərin öz mülahizələrini əsərdən və həyatdan nümunələrlə əsaslandırmalarına diqqət yetirilir.

Müzakirə əsərin mövzusunun müəyyənləşdirilməsi, ideya-bədii xüsusiyyətlərinin təhlili, bədii təsvir vasitələrinin fikrin təsir gücünün artırılmasında rolunun aydınlaşdırılması ilə davam etdirilir.

Müəllim dərslikdəki sual və tapşırıqlara müəyyən əlavələr etməkdə, yaxud onlarda ixtisar aparmaqda sərbəstdir. O, bələdçi kimi kiçik qruplara tövsiyələr verir, onun hər bir üzvünün fəaliyyətini istiqamətləndirir. Qrupun bütün üzvlərinin sual və tapşırıqlar üzrə cavabların hazırlanmasında fəallıq göstərməsi diqqət mərkəzində saxlanılır.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində qrup təqdimatları dinlənilir, suallar vasitəsilə dəqiqləşdirmələr aparılır. Müzakirə zamanı Zeynəbi səciyyələndirən başlıca cəhətlər – çətin vəziyyətdə özünü itirməməsi, bir ana kimi fədakarlıq göstərib körpəsinin xilası üçün yollar axtarması, tədbirli tərpənib yadigar xəncəri özü ilə götürməsi qeyd edilir. Müzakirədə belə bir məsələ xüsusi qabardılır ki, güclü, hiyləgər düşmənlə qarşılaşan Zeynəb xalqımıza xas olan nəcib, mərd xüsusiyyətləri ilə seçilir və bunları ən çətin məqamlarda belə qoruyub saxlayır.

Şagirdlər əsərdəki düşmən obrazlarına münasibət bildirir, erməni xisləti üçün səciyyəvi olan cəhətlər – namərdlik, ikiüzlülük, qəddarlıq açıqlanır.

Dərslikdəki “Tətbiq. Müzakirə. Yaradıcı iş” başlıqlı tapşırığın icrasına vaxt ayrılır. Şagirdlərin təqdimatları seçmə yolla dinlənilir və müzakirə edilir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, yazıçı əsərdə təsvir olunan hadisə ilə oxucunu ayıq-sayıq olmağa, qarı düşmənin dost olmadığını unutmamağa səsləyir, Xocalı faciəsinin qurbanlarının qisasının alınacağına, torpaqlarımızın işğaldan azad olunacağına inam aşılayır. Nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsi diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Müqayisəetmə
Aydınlaşdırma
Münasibətbildirmə
Təqdimatetmə
Şərhetmə
Esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri qismən müəyyənləşdirir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri, əsasən, müəyyənləşdirir. | Hekayəni nağıldan fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətlərini aydınlaşdırır, münasibətini qismən əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini, əsasən, əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Əsərin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Əsərin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Əsərin mövzusunu və ideyasını aydınlaşdırır, münasibətini əksər hallarda əsaslandırır. | Əsərin mövzusunu və ideyasını aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Hekayənin məzmununa fərqli münasibət bildirməkdə. çətinlik çəkir. | Hekayənin məzmununa kömək əsasında fərqli münasibət bildirir. | Hekayənin məzmununa, əsasən, fərqli münasibət bildirir. | Hekayənin məzmununa münasibət bildirir. |
| Essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | Essenin mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | Essenin mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | Essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| Yığcam esse yazmaqda çətinlik çəkir. | Yığcam esse yazmağa qismən nail olur. | Yığcam esse yazmağa, əsasən, nail olur. | Yığcam esse yazır. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## DÖRDÜNCÜ BÖLMƏ ÜZRƏ
## KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*"Şəhidlər" əsəri üzrə*
*aparıla bilər.*

*Bəxtiyar Vahabzadə*
**Şəhidlər**

Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla
Vətən göylərinə çəkdi şəhidlər.

Zalım öyünməsin zülümləriylə,
Min bir böhtanıyla, min bir şəriylə.
Həqiqət uğrunda olümləriylə
Ölümü kamına çəkdi şəhidlər.

O şənbə gecəsi, o qətl günü,
Mümkünə döndərdik çox namümkünü,
Xalqın qəlbindəki qorxu, hürkünü,
O gecə dağıdıb sökdü şəhidlər.

Tarixi yaşadıb diləyimizdə,
Bir yumruğa döndük o gecə biz də,
Yıxıb köləliyi ürəyimizdə,
Cəsarət mülkünü tikdi şəhidlər.

Onlar susdurulan haqqı dindirər,
Qaraca torpağı qiymətləndirər,
Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər.

Bilirik, bu bəla nə ilkdi, nə son,
Ölürkən uğrunda bu ana yurdun,
Quzu cildindəki o qoca qurdun,
Doğru, düz şəklini çəkdi şəhidlər.

İnsan insan olur öz hünəriylə,
Millət millət olur xeyri, şəriylə,
Torpağın bağrına cəsədləriylə,
Azadlıq toxumu əkdi şəhidlər.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

### I VARİANT

**1. Şeirdə şəhidləri daha qabarıq səciyyələndirən söz və ifadələri yazın. Seçiminizi əsaslandırın.**

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

**2. Misraları oxuyarkən səsdə hansı çalar yaranmalıdır?**

*Tarixi yaşadıb diləyimizdə,*
*Bir yumruğa döndük o gecə biz də,*
*Yıxıb köləliyi ürəyimizdə,*
*Cəsarət mülkünü tikdi şəhidlər.*

☐ Sevinc
☐ Nifrət
☐ Mərhəmət
☐ Qürur

**3. Əsər hansı mövzuda yazılmışdır?**

☐ Əmək
☐ Vətənpərvərlik
☐ Sülh
☐ Müharibə

**4. “**Donan vicdanları qeyrətləndirər,
Axı el qeyrəti çəkdi şəhidlər” **misralarında hansı fikir ifadə olunmuşdur?**

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

**5. “**Quzu cildindəki o qoca qurdun,
Doğru, düz şəklini çəkdi şəhidlər” **misralarında şair nə demək istəyir?**

____________________________________________________________
____________________________________________________________
____________________________________________________________
____________________________________________________________

**6. “Şəhidlər” şeiri mövzu, ideya baxımından hansı əsərlə daha çox səsləşir?**

A) H.Arif “Analar”
B) “Yetim İbrahimin nağılı”
C) C.London “Kiş haqqında hekayət”
D) X.Rza “Oğul həsrəti”

**7. Şeirin məzmunundan çıxış edərək “şəhid” sözünün mənasını izah edin.**

______________________________________________

______________________________________________

______________________________________________

**8. Şeirdə “qatil”, “zalım” dedikdə kim nəzərdə tutulur? Nə üçün?**

______________________________________________

______________________________________________

______________________________________________

**9. Şeirdəki başlıca fikir hansıdır?**

A) Vətənin azadlığı uğrunda şəhid olanlar heç vaxt unudulmamalıdır.
B) Vətənimizin güclü ordusu olmalıdır.
C) Yurdumuza göz dikənlər çoxdur.
D) Biz öz Vətənimizi sevirik.

**10. Bənddəki fikirlər sizdə hansı düşüncələr yaratdı? Fikrinizi qısaca yazın.**

*İnsan insan olur öz hünəriylə,*
*Millət millət olur xeyri, şəriylə,*
*Torpağın bağrına cəsədləriylə,*
*Azadlıq toxumu əkdi şəhidlər.*

______________________________________________

______________________________________________

______________________________________________

## II VARİANT

“ Şəhidlər” şeiri üzrə kiçik summativ qiymətləndirmə vasitəsi kimi aşağıdakı mövzulardan biri üzrə inşa yazı da aparmaq mümkündür.

1. Şəhidlərin qəhrəmanlığı unudulmayacaq.
2. Şəhidlərimizlə fəxr edirik.
3. Şəhidlərin qəhrəmanlıq yolunu Mübarizlər davam etdirir.

# 5.

# UŞAQ DÜNYASI, UŞAQ TALEYİ

*Mövzu:* Ə.Cəmil. CAN NƏNƏ, BİR NAĞIL DE! — 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bunu fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri dərslikdəki “Yada salın” başlıqlı suallara (Uşaqların həyatını, düşüncələrini, arzularını geniş əks etdirən hansı əsərləri oxumusunuz?
Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?) müraciət edilməsi ola bilər. Babanın, nənənin nəvəyə münasibəti, həyan olması barədə şagirdlərin oxuduqlarını, şəxsi təəssüratlarını xatırlamağa sövq edən suallar əsasında müsahibə aparmaqla şeirin məzmununun qavranılmasına zəmin yaradıla bilər. Müsahibədə şagirdlərin müharibə dövrünün uşaqlarının həyatından bəhs edən “Şərikli çörək” filmi üzrə təəssüratlarından da istifadə etmək olar.

Motivasiya yaradılmasının bir variantı da internetdən istifadə etməklə “Can nənə, bir nağıl de” əsərinin bədii oxu ustasının ifasında (http://edebiyyat.ucoz.com/index/0-10) dinlənilməsi və ya uşaqların ifasında şeirin səhnələşdirilmiş variantına (https://www.youtube.com/watch?v=CFt6pfs04Y4) baxış ola bilər.

Bu istiqamətdə aparılan müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

***Tədqiqat sualı:*** *Atası cəbhədə, düşmənlə döyüşdə olan uşaq hansı hiss və arzularla yaşayar?*

Fərqli fikirlər – fərziyyələr dinlənilir, ümumiləşdirilərək lövhədə qeyd olunur.

Müəllim fərziyyələrin yoxlanması üçün əsəri diqqətlə oxumağın, məzmununu dərindən mənimsəməyin vacib olduğunu qeyd edir.

**Tədqiqatın aparılması.** Şagirdlərə əsəri oxuyarkən tanış olmayan sözlərin mənasının lüğətin köməyi ilə aydınlaşdırılmasının zəruri olduğu xatırladılır. Müəllim yeni öyrənilmiş sözlərdən əsərin məzmunu və təhlili ilə bağlı təqdimatlarda istifadə edilməsini diqqət mərkəzində saxlayır.

Şeirin məzmununun öyrənilməsinə ikihissəli gündəliyin tətbiqi ilə başlamaq mümkündür. Mətnin oxunmasını digər variantlarda da həyata keçirmək mümkündür: fasilələrlə oxu, proqnozlaşdırılmış oxu, zəncirvari oxu (ziqzaq) və s.

**I dərs** | **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkillərdə həyata keçirə bilərsiniz) , sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın:
   a) Qarlı qış gecəsində hamı yatdığı halda nəvənin gözlərinə niyə yuxu getmir?
   b) Sizcə, uşaq nə üçün nənəsindən nağıl danışmasını xahiş edir? O, bu nağıllardan nə gözləyir?
   c) “Axı, nənə, heç demirsən atam haçan gələcək,

İndi onu səngərdə bəs üşütmürmü qar, külək?” misralarında hansı fikir ifadə olunmuşdur?

   d) Nənə öz nəvəsinə necə ürək-dirək verir?
   e) Nənənin arzuları uşaqda hansı hansı hiss və düşüncələr yaradır?
   ə) Nənənin öz nəvəsinə məhəbbəti, qayğıkeşliyi hansı misralarda daha qabarıq əks olunub?
2. Şeir haqqındakı düşüncələrinizi ikihissəli gündəlikdə fərdi olaraq yazın.

| Şeirdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək hazırladığınız bütün cavabları müzakirə edin.
4. Təqdimatlar əsasında fikir mübadiləsi və müzakirə aparın.

*Dərslik, səh. 104*

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şeirin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün cütlüklər məzmun üzrə suallar üzərində düşünür, cavab axtarırlar. Əsərin məzmunu üzrə iş kiçik qruplarda davam etdirilir. Şagirdlər kiçik qrup daxilində suallarla bağlı fikir mübadiləsi aparır, cavab hazırlayır və təqdimata hazırlaşırlar. Nəzərə almaq lazımdır ki, bu mövzu şagirdlərə müəyyən dərəcədə tanışdır. Onların bir qisminin atası, qardaşı hazırda döyüşən orduda, cəbhədə düşmənlə döyüşlərdədir. Onlar müharibə haqqında filmlərə baxmışlar. Məktəbdə xalqımızın qəhrəman oğullarına həsr olunmuş silsilə tədbirlər keçirilir. Təqdimata hazırlaşarkən və müzakirə zamanı şagirdlərin bu müşahidələrindən, təəssüratlarından istifadə edilməli, bu məsələlər diqqət mərkəzində saxlanılmalıdır.

**Məlumat mübadiləsi və müzakirəsi mərhələsində** təqdimatlar dinlənilir, müzakirədə fərqli fikirlərin meydana çıxmasına, hökmlərin əsaslandırılmasına, mənası yeni öyrənilmiş sözlərdən geniş istifadə edilməsinə, əsərin məzmunu üzrə dolğun təsəvvür yaradılmasına diqqət yetirilir.

Müzakirə zamanı arxa cəbhədəkilərin insanların, anaların, övladların arzu və düşüncələri, nənənin hansı nəsihətləri ilə yadda qalması, nənə ilə ünsiyyətin nəvəyə nə verməsi, bədii təsvir vasitəsinin müəyyənləşdirilməsi ilə bağlı məsələlər diqqət mərkəzində saxlanılır. Şagirdlərin əsərdə işlənmiş bənzətmə ilə (Qar yağırmı? – Elə yağır... sazaq qılınctək kəsir...) bağlı mülahizələri dinlənilir. Şagirdlərin ikihissəli gündəlikdə apardığı qeydlərə münasibət bildirilir, yönləndirici suallar vasitəsilə dəqiqləşdirmələr aparılır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** zamanı şagirdlər belə bir nəticəyə gəlirlər ki, şeirdə müharibə dövrünün ab-havası duyulur. Nənənin və nəvənin cəbhədəki əzizləri ilə bağlı ümidləri, arzuları canlı, təbii bir dillə ifadə edilir. Nəvənin

soyuq, şaxtalı qış gecəsində cəbhədəki atasını düşünməsi, narahatlığı, nənənin onu xoş arzularla ümidləndirməsi müharibə dövrünün insanlarının ovqatı ilə bağlı həyat həqiqətləridir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitəsini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitəsini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitəsini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitəsini müəyyənləşdirir. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Cəmil. CAN NƏNƏ, BİR NAĞIL DE! — 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Fikrin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir. | Şeirin məzmununa fərqli münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5- 1 səhifə səhifə həcmində inşa yazır. |

**Dərsin gedişi**

Ev tapşırığının – "Əsərin sonluğunu necə görmək istərdim" mövzusunda inşa yazının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqlı sual (Müharibə vaxtı arxa cəbhədəki insanlar: babalar, nənələr, nəvələr hansı ümid və arzularla yaşayır?) əsasında müsahibənin aparılması məqsədəuyğundur. Müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** *Müharibə dövründə arxa cəbhədəki insanlardan – nənə və nəvədən söz açmaqda şairin niyyəti nə ola bilər?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli məzmunda və formada təşkil oluna bilər. Lakin bütün hallarda dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığına və "Əsərlə bağlı açıqlamalar" mətninə müraciət edilməsi məqsədəuyğundur.

"Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı suallardan ibarət iş vərəqləri kiçik qruplara paylanır. Tədqiqat prosesində şagirdlərin təhlil bacarıqlarını geniş tətbiq etmələrinə, mövqelərini əsərdən, həyatdan nümunələrlə əsaslandırılmalarına xüsusi diqqət yetirilir. Ehtiyac duyulduqda şagirdlərin fəaliyyəti suallar, tövsiyələr vasitəsilə düzgün məcraya yönləndirilir. Qrupun bütün üzvləri arasında iş bölgüsünə, hamının ümumi işə öz töhfəsini verməsinə diqqət yetirilir.

**Məlumat mübadiləsi** mərhələsində qruplar bir-birinin işinin məzmunu ilə tanış olurlar. Təqdimatlarda əsərin ideyası ilə bağlı mühüm fikirləri ifadə edən misraların izahına diqqət yetirilir, fəal dinləmə, çıxış edənlərə sual verilməsi, işgüzar mühitin yaradılması təmin edilir. Lakin cavablarda pərakəndəlik, qeyri-dəqiqlik müşahidə olunur. Bu çatışmazlığın aradan qaldırılması sonrakı mərhələdə həyata keçirilir.

**Məlumatın müzakirəsi və təşkili.** Cavabların dəqiqləşdirilməsi, əlaqələndirilməsi və sistemə salınması bu mərhələdə başlıca məqsəd olur. Bunun uğurlu həlli müəllimin istiqamətləndirici suallarından xeyli dərəcədə asılıdır. Bu sualların əvvəlcədən hazırlanmsı məqsədəuyğundur.

Əsərin ideyasının başa düşülməsi baxımından əhəmiyyətli olan məsələnin – nənə və nəvə obrazları üçün səciyyəvi cəhətlərin aydınlaşdırılması, onlara əsaslandırılmış oxucu-şagird münasibətinin bildirilməsi müzakirə zamanı diqqət mərkəzində saxlanılır.

**Nəticə, ümumiləşdirmə** mərhələsində qeyd edilir ki, şair bu əsəri real həyat hadisələri əsasında yazmışdır. Əsərdə nənə və nəvənin düşüncələri, arzuları poetik bir dillə əks etdirilir. Əsərdə mühüm bir məsələyə – arxa cəbhədəki insanların hiss və düşüncələrinə yer verilmişdir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, müharibədə yalnız döyüşən əsgər və zabitlər deyil, onların ata-anaları, övladları da əziyyətlərə qatlaşır, məhrumiyyətlərə düçar olurlar. Arxa cəbhədəki uşaqlar ümidlə yaşayır, onların ən böyük arzusu Vətəni düşməndən qoruyan atalarının müharibədən sağ-salamat geri dönməsidir.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsi diqqət mərkəzində saxlanılır.

Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqların icrasına vaxt ayrılır. Əsərə illüstrasiya çəkilməsini tələb edən birinci tapşırıq onun ideya-məzmununun necə qavranıldığını aşkara çıxarmaq baxımından əhəmiyyətlidir.

İkinci tapşırıq incəsənətin digər növündə – musiqi əsərində yaradılmış döyüşçü obrazının başa düşülməsi, dəyərləndirilməsi baxımından faydalıdır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Şərhetmə
İnşayazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bənzətmənin rolunu aydınlaşdırır. |
| Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Şeirin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Şeirin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirin məzmununa fərqli münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin məzmununa kömək əsasında fərqli münasibət bildirir. | Şeirin məzmununa, əsasən, fərqli münasibət bildirir. | Şeirin məzmununa münasibət bildirir. |
| İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* M.Tven. FƏRASƏTLİ OĞLAN — 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Əsəri hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Əsərlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi – "Can nənə, bir nağıl de" şeirindən bir parçanın ifadəli oxusu ilə bağlı təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələdə həyata keçirilən iş fərqli məzmunda təşkil edilə bilər. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallar (Dəcəl, səmimi, eyni zamanda cəsarətli uşaqlar haqqında hansı əsərləri oxumusunuz? Bu əsərlərin qəhrəmanlarında diqqətinizi cəlb edən hansı cəhətlər olub?) əsasında müsahibənin aparılmasıdır. Müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır.

***Tədqiqat sualı:*** *Dəcəl, özündən zəif olanları incidən uşaqlar başqalarının rəğbətini qazana bilərmi?*

Fərziyyələr dinlənilir, qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Mətnin oxusunu təşkil edən müəllim oxunun növünü – fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, fasilələrlə oxu və s. müəyyənləşdirir. Şagirdlərin şifahi nitqinin inkişafı baxımından səsli oxunu seçmək olar. Mətnin kənarındakı suallara cavab hazırlanması, əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazılması cütlük şəklində yerinə yetirilir.

Cütlük şəklində işləyən şagirdlər sonra kiçik qruplarda birləşib, hazırladıqları bütün cavabları müzakirə edir, təqdimata hazırlaşırlar.

**I dərs** | **Məzmun üzrə iş**

1. Əsəri oxuyun (bunu fərqli şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə mətnkənarı suallara cavab hazırlayın.
2. Parta yoldaşınızla birlikdə əsərin məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab yazın.
3. Kiçik qruplarda birləşib, tərtib etdikləriniz də daxil olmaqla bütün sualların cavabı ilə bağlı fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.
5. Əsəri hissələrə ayırıb ad verin, birinin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin.

*Dərslik, səh. 113*

**Məlumat mübadiləsi və müzakirəsi zamanı** kiçik qrupların qazanılmış biliklər üzrə təqdimatları dinlənilir, müzakirə aparılır. Müəllim bu mərhələdə hər qrupun gəldiyi nəticəni şərh etməsinə, əsaslandırmasına, şagirdlərin sual verməyə həvəsləndirilməsinə, məsələyə münasi-

bətdə fərqli yanaşmaların üzə çıxarılmasına diqqət yetirməlidir. İşin nəticəsi təqdimatlar əsasında müzakirə edilir. Əsərdən oxunmuş parçalardan müəyyənləşdirilmiş hissəyə ad verilməsinə, məzmununun hazırlanmış plan əsasında geniş nağıl edilməsinə vaxt ayrılır. Ayrı-ayrı şagirdlərin nağıletmənin tələblərinə necə əməl etdiyi müzakirə olunur, tövsiyələr verilir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində müzakirə zamanı söylənilmiş fikirlər yekunlaşdırılaraq ortaq məxrəcə gəlinir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Tomun macəralarından söz açmaqla yazıçı uşaqları həyatda gözüaçıq olmağa səsləyir. Tom qarşılaşdığı çətinlikləri özünəməxsus çıxış yolu tapmaqla dəf edir. O, öz yaşıdlarını inandırır ki, barını ağartmaq çox məsuliyyətli işdir. O bu işi yalnız müəyyən hədiyyə müqabilində başqalarına güzəştə gedə bilər.

Nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsinə xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Plan tərtibetmə nağıletmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən müəllimin köməyi ilə aydınlaşdırır. | Əsərdə tanış olmayan sözlərin mətnə uyğun mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Əsərdən bitkin hissə seçir, plan tərtib etməkdə, geniş nağıletmədə çətinlik çəkir. | Əsərdən bitkin hissə seçir, planı müəllimin köməyi ilə tərtib edir, geniş nağıletmədə qeyri-dəqiqliyə yol verir. | Əsərdən bitkin hissə seçir, plan tərtib edir, geniş nağıletməni, əsasən, yerinə yetirir. | Əsərdən bitkin, səciyyəvi hissə seçir, plan tərtib edir, geniş nağıletməni dəqiqliklə yerinə yetirir. |
| Əsərlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh etməkdə çətinlik çəkir. | Əsərlə bağlı fikirlərini müəllimin köməyi ilə mətndən nümunələr gətirməklə şərh edir. | Əsərlə bağlı fikirlərini mətndən əksər hallarda müvafiq nümunələr gətirməklə şərh edir. | Əsərlə bağlı fikirlərini mətndən ardıcıl olaraq müvafiq nümunələr gətirməklə şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* M.Tven. FƏRASƏTLİ OĞLAN — 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Hekayədəki qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Əsərin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Əsərlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əsərlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının hansı səviyyədə yerinə yetirilməsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki “Düşünün” başlıqlı sual (Uşağın dəcəlliyindən doğan bütün hərəkətlərinə haqq qazandırmaq olarmı?) əsasında müsahibənin aparılması məqsədəuyğundur. Müsahibə tədqiqat sualının formalaşmasına zəmin yaradır.

***Tədqiqat sualı:*** *Əsərdə uşaq həyatının müxtəlif məqamlarını təsvir etməkdə yazıçının niyyəti nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd edilir.

**Tədqiqatın aparılması.** Bu, fərqli məzmunda və formada təşkil oluna bilər. Lakin bütün hallarda dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığına və “Əsərlə bağlı açıqlamalar” mətninə müraciət edilməsi məqsədəuyğundur.

Kiçik qruplarda iş formasını seçən müəllim əvvəlcədən iş vərəqləri hazırlayır, “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığındakı sualları onlarda əks etdirərək qruplara təqdim edir. Müəllim tapşırığa yaradıcı yanaşaraq qarşıya qoyulan məqsəddən, qrupların hazırlıq səviyyəsindən və s. asılı olaraq, onlarda dəyişiklik apara bilər.

Kiçik qrupların fəaliyyətini müşahidə edən müəllim suallara cavabların yazılmasında, təqdimatların hazırlanmasında bütün şagirdlərin səmərəli işləməsinə istiqamətləndirici suallardan istifadə etməklə nail ola bilər.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində qruplar təqdimatları diqqətlə dinləyir, çıxış edənlərə suallar verir. Müəllimin əvvəlcədən hazırlanmış istiqamətləndirici suallardan istifadə etməsi, şagirdlərin cavablara zəruri əlavələr etməsi, mülahizələrini əsaslandırmaları faydalıdır. Müzakirə zamanı Tomun xasiyyətindəki, davranışındakı mühüm cəhətlər – zirəkliyi, öz yaşıdlarını təsir altına salmaq bacarığı, xalasının sözünə qulaq asmaması, vəziyyətdən tez çıxış yolu tapması, qardaşı Sidlə yola getməməsi, yumor hissinə malik olması və s. barədə fikirlərə münasibət bildirilir.

Əsərin mövzu və ideyası ilə bağlı mülahizələr dinlənilərək yazıçının uşaq həyatına dərindən bələd olması, uşaqların bir-biri ilə və yaşlılarla qarşılıqlı münasibətlərinin xarakteri, uşağın böyüməsində, həyati bacarıqlar əldə etməsində rolu barədə fikirlərin əsaslandırılmasına diqqət yetirilir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində indiyə kimi səsləndirilmiş fikirlərin ümumi ideya halına salınması ön plana çəkilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, Tomun timsalında yazıçı uşaq təbiətindəki diribaşlıq, fərasətlilik, çətinliyin öhdəsindən gəlmək kimi xüsusiyyətlərdən söz açır. Tomun oxucuların sevimlisinə çevrilməsində məhz bu xüsusiyyətlər mühüm rol oynayır.

Nəticələrin fərziyyələrlə müqayisə edilməsi, tədqiqat sualı ilə əlaqəsi diqqət mərkəzində saxlanılır.

**II dərs** | **Təhlil üzrə iş**

- **Əsərlə bağlı açıqlamalar.**

"Tom Soyerin macəraları" dünyada ən çox oxunan əsərlərdəndir. Onu həm böyüklər, həm də uşaqlar maraqla oxuyur.

Tomun Polli xalaya, Sidə, həmyaşıdlarına münasibəti müxtəlif səhnələrdə aydın görünür. Xasiyyətindəki bir çox cəhətlər Tomu yaşıdlarından fərqləndirir. Həmin cəhətləri aydınlaşdırmağa çalışın.

Əsər üzərində müşahidələrinizi davam etdirin, Tomun balaca oxucuların sevimli qəhrəmanı olmasının səbəbi barədə düşünün.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Tomun xarakterindəki başlıca cəhətlər hansılardır? Suala cavab verərkən əsərdən gətirdiyiniz nümunələrdən istifadə edin.
2. "Polli xala Tomla amansız rəftar edir" fikrinə necə münasibət bəsləyirsiniz?
3. Tomla Sidi bir-birindən fərqləndirən cəhətlər hansılardır? Venn diaqramından istifadə edin.
4. Bədii təsvir vasitələrinin əsərin təsir gücünün artmasındakı rolunu aydınlaşdırın.
5. Hekayə hansı mövzuda yazılıb?
6. Əsərdin əsas ideyası, sizcə, nədir?

**Tətbiq. Müzakirə. Yaradıcı iş**

**Mövzulardan birini seçib şifahi təqdimata hazırlaşın.**
1. Tom nə üçün uşaqların sevimli qəhrəmanıdır?
2. Əsərə çəkilmiş illüstrasiyaya diqqət yetirin. Tom, Polli xala və uşaqların şəkli təsəvvürlərinizə uyğundurmu? Nə üçün?

*Dərslik, səh. 51*

Dərslikdəki "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlıqlı tapşırıqların icrasına vaxt ayrılır. Müəllim "Tom Soyerin macəraları" əsərinin uşaqlar tərəfindən maraqla oxunduğunu, Tomun uşaqların sevimli qəhrəmanı olduğunu xatırladaraq bunun səbəbini aydınlaşdırmağı və müzakirə etməyi təklif edir. Müzakirə zamanı şagirdlərin öz mülahizələrin əsərdən nümunələrlə əsaslandırmalarına diqqət yetirilir. İkinci tapşırıq üzrə iş şagirdlərin əsərə çəkilmiş illüstrasiyaya münasibət bildirilməsini, mülahizələrin əsaslandırılmasını nəzərdə tutur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Təqdimetmə
İstifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayənin qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayənin qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Hekayənin qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayənin qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |

| | | | |
|---|---|---|---|
| Hekayənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

# 6.

# ƏMƏYƏ MƏHƏBBƏT, ZƏHMƏTƏ ÇAĞIRIŞ

*Mövzu:* N.Gəncəvi. KƏRPİCKƏSƏN KİŞİNİN DASTANI – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii əsərlərdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.1.2. Bədii əsərlərlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla (təqdimatların müzakirəsi, yığcam sorğu və s.) müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərdə yeni mövzuya maraq oyadılması məqsədilə dərslikdəki "Yada salın" başlıqlı suallardan (İnsanların əməyə fərqli münasibətini əks etdirən hansı əsərləri oxumusunuz? Həmin əsərlərdə əmək və əməkçi insanla bağlı hansı fikirlər diqqətinizi daha çox çəkib? ) istifadə məqsədəuyğundur. Bu suallar üzrə aparılan müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.

*Motivasiyanın yaradılmasının bir variantı aşağıdakı məzmunda ola bilər. İnternetdən istifadə edərək "Nizami Gəncəvi" filmindən bir fraqmentin nümayiş etdirilməsi (*https://www.youtube.com/watch?v=Oa74DS4X8tw*) və müsahibə ola bilər.*

***Tədqiqat sualı.*** *Qoca bir kişinin kərpic kəsməklə məşğul olmasının səbəbi nə ola bilər?*

Fərziyyələr dinlənilir və ümumiləşdirilərək lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Tədqiqat sinifdə əsərin oxunması ilə başlanır. Müəllim qarşısına qoyduğu məqsəddən, şagirdlərin maraq və bələdlik səviyyəsindən çıxış edərək oxunu fərqli formalarda təşkil edə bilər. Bütün hallarda tanış olmayan sözlərin müəyyənləşdirilməsi və mənasının aydınlaşdırılmasına diqqət yetirilir.

Əsərin oxusu zamanı dərslikdəki tapşırıqların yerinə yetirilməsinin zəruriliyi şagirdlərin diqqətinə çatdırılır.

Əsərin məzmunu üzrə suallara cavab hazırlanmasını və mətn üzrə suallar tərtib edilməsi tapşırığını şagirdlər cütlük şəklində yerinə yetirilir. Sonra şagirdlər kiçik qruplarda birləşib, hazırladıqları cavabı müzakirə edir, təqdimat hazırlayırlar.

**Məlumat mübadiləsi və müzakirəsi zamanı** kiçik qrupların qazanılmış biliklər üzrə təqdimatları dinlənilir, müzakirə aparılır. Müəllim bu mərhələdə hər qrupun gəldiyi nəticəni şərh etməsinə, əsaslandırmasına, şagirdlərin sual verməyə həvəsləndirilməsinə, məsələyə münasibətdə fərqli yanaşmaların üzə çıxarılmasına diqqət yetirməlidir. Göründüyü kimi, sənətkar burada təzadlı bir vəziyyət yaradır. Təqdimatlarda qeyd edilir ki, adətən, dünyagörmüş qocalar cavanlara nəsihət verər, onları səhv addımdan çəkindirər. Bu əsərdə isə əksinədir, cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. Lakin Nizami hekayədə cavan oğlanı tam mənfi planda təsvir etmir, onun gələcəyinə ümidlə baxır. Kərpickəsən kişinin sözlərini dinləyən gənc onun dediklərinin həqiqət olduğunu anlayır. Öz hərəkətindən utanan cavan oğlan səhvini başa düşüb sarsılır, göz yaşları içində qocanı tərk edir.

Müzakirə zamanı şagirdlər müəllimin tapşırığı ilə hekayə janrı üzrə biliklərini bir daha hafizədə canlandırır. Qeyd edilir ki, "Kərpickəsən kişinin dastanı" bitkin bir süjetə malik olduğu, bir əhvalat nağıl edildiyi üçün nəzmlə yazılmış epik əsərdir, mənzum hekayədir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsinin səmərəli keçməsi üçün müəllimin istiqamətləndirici suallardan istifadə etməsi faydalıdır. Şagirdlərdə belə bir qənaət yaranır ki, şair sadə insanlar içərisindən seçilmiş qəhrəmanlarını, əməkçi insanları yüksək ləyaqət sahibi, şəxsiyyət kimi təqdim edir. Şairin fikrincə, bu sadə insanlar cəmiyyətin təməli, maddi və mənəvi nemətlərin yaradıcısı, həyatda bolluq və firavanlıq mənbəyidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

İstifadəetmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mətnə uyğun mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə dəqiq aydınlaşdırır. |

| | | | |
|---|---|---|---|
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Hekayə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* N.Gəncəvi. KƏRPİCKƏSƏN KİŞİNİN DASTANI – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Hekayənin qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatlar, müzakirə əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Buna fərqli yollarla nail olmaq mümkündür. Dərslikdə "Düşünün" başlığı altında verilmiş sualdan istifadə edilməsi məqsədəuyğundur: İnsanların əməyə fərqli münasibət bəsləmələrinə səbəb, sizcə, nədir?

Şagirdlərin mülahizələri dinlənilir, lövhədə qeyd edilir. Müsahibə nəticəsində tədqiqat sualı formalaşdırılır.

*Motivasiya yaradılmasının bir yolu əmək haqqında atalar sözlərinin müzakirəsi və ya S.Vurğunun öz ifasında Nizami haqqında yazdığı şeirin səsləndirilməsi (*https://www.youtube.com/watch?v=mJKZY_OrgTA*) ola bilər.*

***Tədqiqat sualı.*** *Əsərdə kərpickəsən qoca ilə cavan oğlanı qarşılaşdırmaqda şairin məqsədi nədir?*

> **II dərs** **Təhlil üzrə iş**
>
> • **Əsərlə bağlı açıqlamalar.**
>
> Bu əsər həmişə oxucuların marağına səbəb olub. Adətən, dünyagörmüş qocalar cavanlara nəsihət verər, onları səhv hərəkətlərdən çəkindirər. Şeirdə isə əksinədir, cavan oğlan qocaya ağıl vermək, yol göstərmək fikrinə düşür. Lakin qocanın cavabı cavan oğlanı öz hərəkəti barədə düşünməyə sövq edir.
>
> Əsərin üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən və oxucunu düşündürən cəhətləri aydınlaşdırmağa çalışın.
>
> **Araşdırın. Fikirləşin. Cavab verin**
>
> 1. Kərpickəsən kişinin xarakterindəki başlıca cəhətlər hansılardır? Fikrinizi əsərdən seçdiyiniz nümunələrlə əsaslandırın.
> 2. Cavan oğlanın qoca kişiyə dediyi sözlər onun xasiyyətindəki hansı cəhətləri göstərir? Fikrinizi əsaslandırın.
> 3. Gəncə sərt cavab verən qocanı haqlı saymaq olarmı? Onun cavabındakı hansı fikir sizə daha maraqlı göründü?
> 4. Qocaya və cavan oğlana necə münasibət bəsləyirsiniz? Fikrinizi misallarla əsaslandırın.
> 5. Hekayə hansı mövzuda yazılıb, sizcə, onun əsas ideyası nədir?
>
> **Tətbiq. Müzakirə. Yaradıcı iş**
>
> “Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı” əsərindəki ideya bu gün əhəmiyyətlidirmi?” mövzusunu müzakirə edin.

*Dərslik, səh. 118*

**Tədqiqatın aparılması.** İşin hansı formada təşkilindən asılı olmayaraq, dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” və “Əsərlə bağlı açıqlamalar” mətninə mənbə kimi müraciət olunması məqsədəuyğundur. Müəllim şagirdlərə “Əsərlə bağlı açıqlamalar” mətnini oxumağı və növbəti tapşırıqları yerinə yetirərkən ondakı fikirlərdən faydalanmağı tapşırır.

Tədqiqat kiçik qruplarda davam etdirilir. Tədqiqatın aparılması üçün “Araşdırın. Fikirləşin. Cavab verin” tapşırığı üzrə sual və tapşırıqlar yazılmış iş vərəqləri kiçik qruplara paylanılır. Şagirdlərin qrup daxilində fəaliyyətinə müəllimin nəzarəti, zəruri hallarda istiqamətləndirici sualları və tövsiyələri ayrılmış vaxt ərzində təqdimatın hazırlanmasına müsbət təsir göstərir. Şagirdlərə qoca kərpickəsənlə cavan oğlanı səciyyələndirmək üçün Venn diaqramından, *əmək* sözü ilə bağlı söz assosiasiyasından istifadə etmək tövsiyə olunur.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində kiçik qrupların təqdimatları dinlənilir. Təqdimatlarla bağlı suallar verilir, fikir mübadiləsi, müzakirə aparılır. Kərpickəsən qoca obrazının təhlili zamanı qeyd edilir ki, o öz əməlləri ilə hörmət qazanmış, hamının gözündə uca mövqeyə malik bir insandır. Bir zəhmət adamı kimi onun müstəqil dünyagörüşü, həyata baxışı, ağlı, fərasəti vardır.

Kərpickəsən qoca, ilk növbədə, xalqın nümayəndəsi, sadə insandır. Bacarıq, əməyə bağlılıq, halallıq, ləyaqət bu qəhrəmanı səciyyələndirən əsas keyfiyyətlərdir. Nizami məhz bu sadə insan obrazını təcrübəsiz cavan oğlanla qarşılaşdırır, onun əqidə, təfəkkür, mənəvi saflıq baxımından qat-qat üstün olduğunu göstərir. Müdrik qoca ona ağıl öyrədən, acı sözlərlə tənbeh edən cahil cavanın sözlərini səbirlə dinləyir, öz cavabında məqsədinin heç kəsə əl açmadan halal əməklə dolanmaq, ləyaqətlə yaşamaq olduğunu söyləyir.

Müzakirələrdə cavan oğlana da münasibət bildirilir. Qeyd edilir ki, şair cavan oğlanın gələcəyinə ümidlə baxır. Onun qocanı peşmançılıq hissi ilə tərk etdiyini təsvir etməklə öz səhvini başa düşdüyünü göstərir.

Əsərin mövzusu, ideyası ilə bağlı qoyulan suallar müzakirə edilir, söylənilən fikirlər, qənaətlər yekunlaşdırılır.

Qazanılmış biliklərin tətbiqi məqsədilə dərslikdəki “Tətbiq. Müzakirə. Yaradıcı iş” başlıqlı tapşırıqdan istifadə olunur. “Nizami Gəncəvinin “Kərpickəsən kişinin dastanı” əsərindəki ideya bu gün əhəmiyyətlidirmi?” mövzusu müzakirə edilir. Müzakirə zamanı şagirdlərin sərbəst fikir mübadiləsi diqqət mərkəzində saxlanılır.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlər əsər barədə fikirlərini, yazıçının əməyə məhəbbət, əməkçi insana hörmət hislərinin hekayədə öz əksini necə tapması barədə mülahizələrini ümumiləşdirir, yekun qənaətə gəlirlər. Qeyd edilir ki, biz şairin

əsərlərində əkinçi, bağban, kərpickəsən, qarı, dəllək, qulluqçu, çoban, rəssam, memar və başqa insanların bədii obrazını görürük. Bu surətlər sənətkarın öz xalqına, onun sadə nümayəndələrinə olan rəğbət və ehtiramının bədii ifadəsidir. Həmin obrazlar şairə öz humanist ideyalarını daha qabarıq şəkildə ifadə etməyə imkan verir. Nizaminin qəhrəmanı – kərpickəsən qoca ləyaqətli insandır, halallığı hər şeydən üstün tutan şəxsiyyətdir. Şairin fikrincə, sadə insanlar cəmiyyətin təməli, maddi və mənəvi nemətlərin yaradıcısı, həyatda bolluq və firavanlıq mənbəyidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Təqdimatetmə
İstifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ədəbi qəhrəmanları xarakterindəki başlıca xüsusiyyət-ləri aydınlaşdır-maqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətlərini aydınlaşdırır, münasibətini qismən əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiy-yətləri aydınlaşdırır, münasibətini, əsasən, əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, müna-sibətini əsaslandırır. |
| Hekayənin mövzu-sunu və ideyasını aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayənin mövzu-sunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzu-sunu və ideyasını aydınlaşdırır, müna-sibətini, əsasən, əsaslandırır. | Hekayənin mövzu-sunu və ideyasını aydınlaşdırır, müna-sibətini əsaslandırır. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nit-qində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şi-fahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nit-qində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* S.Rəhimov. QARA TORPAQ VƏ SARI QIZIL – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli ədəbi nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri rəmzi materiallardan istifadə ola bilər. Məsələn, şagirdlərin diqqəti "İşləməyən dişləməz", "İstəyirsən bal-çörək, al əlinə bel-kürək", "İşləyən inci taxar, işləməyən yandan baxar", "Zəhmət çəkməyən bal yeməz" atalar sözlərinə cəlb edilir. Onlarda ifadə olunmuş fikirlərə yığcam müsahibə ilə aydınlıq gətirilir, sonda tədqiqat sualı formalaşdırılmış olur.

***Tədqiqat sualı:*** *Zəhmətə, əməyə qatlaşmayan adamın taleyi, sizcə, necə olar?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması:** İlk növbədə, əsərin oxusu həyata keçirilir. Bu, fərdi səssiz oxu, səsli oxunun dinlənilməsi, fasilələrlə oxu, proqnozlaşdırılmış oxu və s. tətbiq edilməklə reallaşdırıla bilər. Həyat materialı ilə zəngin olan hekayənin məzmunu oxuda ən xırda incəliklərə belə diqqətlə yanaşılmasını tələb edir. Məsələn, Qurban kişinin ağır zəhməti ilə bağlı təsvirlərin mənimsənilməsi nə qədər vacibdirsə, onun düşüncələri barədə deyilənlərin qavranılması da bir o qədər əhəmiyyətlidir. Bu, həm obrazın başa düşülüb qiymətləndirilməsinə, həm də əsərin ideyasının ətraflı aydınlaşdırılmasına imkan yaradır. Eləcə də qardaşların xarakteri, atalarına münasibətləri barədə oxuda ilkin təsəvvürün qazanılması təhlilin səmərəliliyi üçün faydalıdır.

Oxunun hansı formada təşkilindən asılı olmayaraq tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, təsvir və ifadə vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır. Vaxta qənaət baxımından dərslikdəki tövsiyənin əsas götürülməsi daha məqsədəuyğundur. Yəni əsərin oxusundan sonra şagirdlərə dərslikdəki suallara cütlük şəklində cavab hazırlamaq təklif olunur. Sonrakı tapşırığın da (məzmuna aid sualların tərtib edilməsi) cütlük şəklində yerinə yetirilməsi məqsədəuyğundur. Müəllimin təklifi

ilə kiçik qruplarda birləşən şagirdlər icra etdilkəri bütün işlərlə bağlı fikir mübadiləsi aparır, cavablarını dəqiqləşdirir və zənginləşdirirlər. Nəticədə hər qrupun ayrıca təqdimatı hazırlanmış olur. Məhz bu təqdimatların əsasında **məlumat mübadiləsi** aparılır. Təcrübədən məlumdur ki, bu mərhələdə səsləndirilən fikirlərdə xeyli çatışmazlıqlar olur. Bu, xüsusən Qurban kişi obrazı ilə bağlı mülahizələrdə, müstəqil müəyyənləşdirilmiş suallarda və onlara hazırlanan cavablarda özünü göstərir. Bütün bunların aradan qaldırılmasına **müzakirə** mərhələsində xüsusi diqqət yetirilir. Bu mərhələdə, həmçinin cavabların əlaqələndirilməsi, müqayisə edilməsi, əhəmiyyətli olanların müəyyənləşdirilməsi ön plana çəkilir. **Nəticə, ümumiləşdirmə** mərhələsində isə indiyə kimi səsləndirilmiş fikirlərin ümumi ideya şəklinə salınması, nəticələrin çıxarılması məqsədə çevrilir. Aparılmış işlər, müəllimin istiqamətləndirici sualları şagirdlərdə belə bir qənaəti möhkəmləndirir ki, zəhmətkeş insan həmişə alnıaçıq, üzüağ olur, əməyi ona mənəvi zövq verir, maddi cəhətdən onu təmin edir. Əməyə xor baxan, zəhmətdən uzaq olanlar həmişə başqasına möhtac olur, ehtiyac içində yaşayırlar. Belələri öz əməklərindən zövq ala bilmədikləri kimi, başqasının da əməyinə layiqincə qiymət verə bilmirlər.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisəsinə diqqət yetirilir.

Dərslikdə təklif edilmiş növbəti tapşırığın (əsərdən seçilmiş hissənin məzmununun geniş nağıl edilməsi) yerinə yetirilməsinə vaxt ayrılır. Bir neçə təqdimatın dinlənilməsi və müzakirəsi məqsədəuyğundur. Şagirdlərin yeni öyrəndikləri sözlərdən necə istifadə etdikləri, geniş nağıletmənin tələblərini hansı səviyyədə yerinə yetirdikləri müzakirədə diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Müəyyənləşdirmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam, geniş nağıl edir. |
| Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* S.Rəhimov. QARA TORPAQ VƏ SARI QIZIL – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | Hekayəni əfsanədən fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Variantlardan biri aşağıdakı məzmunda ola bilər.Venn diaqramından istifadə etməklə hekayə ilə nağılın müqayisəsi aparılır. Müəllim qeyd edir ki, nağıllarda insanlar öz istəklərinə çox vaxt sehrli qüvvələrin köməyi ilə çatır, real həyatı əks etdirən hekayələrdə isə insan öz məqsədinə ağlı, zəhməti, əməyi sayəsində nail olur.

Oxuduqları hekayədə bir çox mətləblərə aydınlıq gətirməyin zəruri olduğunu xatırladan müəllim şagirdləri tədqiqat sualının formalaşdırılmasına cəlb edir:

***Tədqiqat sualı:*** *Sizcə, əməyin insan həyatında hansı üstünlükləri hekayədə daha qabarıq əks olunub?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Tədqiqat sualının araşdırılması fərqli variantlarda həyata keçirilə bilər. Bütün hallarda dərslikdəki “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı suallardan istifadə faydalıdır. “Əsərlə bağlı açıqlamalar” mətninə hələ tədqiqata başlamazdan əvvəl mənbə kimi müraciət edilməsi vacibdir.

Araşdırmanın kiçik qruplarda aparılmasını planlaşdıran müəllim “Araşdırın. Fikirləşin. Cavab verin” başlıqlı tapşırığın suallarından istifadə edir. Həmin suallara əlavələr etmək, onlarda ixtisar aparmaq müəllimin məqsədindən asılıdır.

Qruplara təqdim olunan iş vərəqlərində tapşırıqların icrası üçün istiqamət (metodların seçilməsi və s. barədə) verilir. Məsələn, birinci sualın üzərində işləyən qrupun şaxələndirmədən istifadə etməsi məqsədəuyğundur. İşin sonunda qrup üzvləri müzakirə, diskussiya aparmaqla hazırladıqları cavabı tamamlayır.

İkinci sual üzərində işləyən qrupun müzakirədən, diskussiyadan daha geniş istifadə etməsi faydalıdır.

Üçüncü və dördüncü suallar müqayisə priyomundan istifadəni zəruri edir. Əldə olunmuş nəticələrin müqayisə cədvəlində və ya Venn diaqramında əks etdirilməsi məqsədəuyğundur.

Beşinci və altıncı sualların məzmunu müzakirəyə, diskussiyaya daha çox üstünlük verilməsini tələb edir.

Qrupların işini müşahidə edən müəllim ehtiyac yaranan hallarda istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərə kömək edir.

**II dərs** | **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Yazıçı öz qəhrəmanlarını oxuculara hərtərəfli tanıda bilir. Onların düşüncələri, danışıqları bir-birinə bənzəmir.

Hekayəni maraqlı edən yalnız əhvalatların, hadisələrin cəlbedici olması deyil. Yazıçının həssaslıqla seçib işlətdiyi sözlər, təsvir vasitələri əsərin bədii təsir gücünü birə-beş artırır, oxucu hekayədən ayrıla bilmir. Hekayədəki “özünü oda-közə vurmaq”, “dəyirman çarxı kimi ağır işlərin altında fırlanmaq”, “daşdan çörək çıxarmaq” kimi ifadələr Qurban kişinin ağır zəhməti barədə aydın təsəvvür yaradır. Əsərin üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən cəhətləri aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Qurban kişinin xarakterindəki başlıca cəhətlər hansılardır? Suala cavab verərkən əsərdən gətirdiyiniz nümunələrdən istifadə edin.
2. Onu övladları ilə yumşaq rəftar etməkdə qınamaq olarmı? Nə üçün?
3. Qardaşlar xasiyyətlərindəki hansı cəhətlərə görə bir-birinə bənzəyirlər?
4. Qardaşların xarakterində fərqli cəhətlər varmı? Fikrinizi əsərdən seçdiyiniz misallarla əsaslandırın.
5. Təsvir vasitələrinin əsərin bədii təsir gücünün artmasındakı rolunu aydınlaşdırın. Fikrinizi nümunələrlə əsaslandırın.
5. Hekayə, sizcə, əfsanələrdən hansı xüsusiyyətlərinə görə fərqlənir? Venn diaqramından istifadə edin.
6. Hekayə hansı mövzuda yazılıb, onun əsas ideyası nədir?

*Dərslik, səh. 125*

**Məlumat mübadiləsi** mərhələsində qruplar təqdimatlar əsasında bir-birinin işinin nəticəsi ilə tanış olurlar. Müəllim fəal dinləməyə, daha əhəmiyyətli olanların səsləndirilməsinə nail olur. İstər sözçülərin, istərsə də digər çıxış edənlərin bədii mətndən nümunələr göstərmələrinə, fikirlərini əsaslandırmalarına xüsusi diqqət yetirilir. Birtərəfli mülahizələr, cavablardakı pərakəndəlik **məlumatın müzakirəsi** mərhələsində aradan qaldırılır. Təcrübədən məlumdur ki, şagirdlər Qurban kişi obrazının təhlilinə böyük maraq göstərirlər. Onun öz övladları ilə təmkinli rəftarının səbəbini aydınlaşdırmaqda çətinlik çəkən bəzi şagirdlər mübahisə edir, fərqli fikirlərlə dözümlü münasibət göstərə bilmirlər. Qardaşların müqayisəsində də fikir ayrılığı müşahidə olunur. Onların xarakterlərindəki oxşar cəhətlərin müəyyənləşdirilməsində çətinlik çəkməyən şagirdlər fərqli cəhətlərin aydınlaşdırılmasında müəllimin istiqamətləndirici suallarına ehtiyac duyurlar. Ümumiyyətlə, bu mərhələdə müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Belə sualların **nəticə, ümumiləşdirmə** mərhələsində də tətbiq edilməsi faydalıdır. Məsələn, bu mərhələdə: Qardaşları aclıqdan, rüsvayçılıqdan xilas edən nə oldu? İşləməkdən əlləri “üç dəfə suluqlayan, sonra dəmir kimi bərkiyən” qardaşların sonrakı həyatlarını qürurla yaşayacaqlarına inanmaq olarmı? Nə üçün belə düşünürsünüz? kimi suallardan istifadə olunması tutarlı nəticələrin çıxarılmasına imkan yaradır. Beləliklə, şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, hekayədə təsvir olunan qardaşların əməyə, zəhmətə

qatlaşmaları onları rüsvayçılıqdan, hətta məhv olmaq təhlükəsindən xilas etdi. Hekayə belə bir nəticə çıxarmağa əsas verir ki, insanın yaşaması, həyatını qurması və davam etdirməsi üçün əməkdən, zəhmətdən üstün, etibarlı heç nə yoxdur.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş tapşırıq hekayə ilə nağılın janr xüsusiyyətlərinin daha dərindən başa düşülməsinə və konkret faktlarla izahına imkan yaradır. Çıxış edənlərin hər birinə fikrini sərbəst ifadə etmək imkanı yaradılır, müzakirənin diskussiya xarakterli olmasına səy göstərilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Müqayisəetmə

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni əfsanədən fərqləndirən xüsusiyyətləri müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayəni əfsanədən fərqləndirən xüsusiyyətləri qismən müəyyənləşdirir. | Hekayəni əfsanədən fərqləndirən xüsusiyyətləri, əsasən, müəyyənləşdirir. | Hekayəni fərqləndirən xüsusiyyətləri müəyyənləşdirir. |
| Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Hekayənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## BEŞİNCİ VƏ ALTINCI BÖLMƏLƏR ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*"Qabarlı əllər" hekayəsi*
*üzrə aparıla bilər*

*Zahid Xəlil*

### QABARLI ƏLLƏR

(hekayə)

O, uzun çəkən ayrılıqdan sonra doğma kəndlərinə qayıdırdı. Evlərinin qapısı bağlı idi. Qonşudan – Cəfər kişidən anasının bir ay əvvəl rəhmətə getdiyini eşidəndə gözləri doldu. Bir müddət susdu, gözləri yol çəkdi. Öz-özünə danışırmış kimi:

– Deməк, belə. Özümü vaxtında çatdıra bilmədim, – dedi.

Cəfər kişi:

– Səni çox gözlədi, ay oğul, – dedi, – düzdür, bilirdi ki, uzaqdasan, yad yerlərdəsən, gəlib-getmək imkanın yoxdur.

O, indi anası haqqında danışmağa, dərdini bölüşməyə bir ehtiyac duyurdu:

– Mən tələbə olanda işə düzəlmək fikrinə düşmüşdüm. Anamın min əziyyətlə qazandığı bir tikə çörəyə daha ortaq olmaq istəmirdim. Lakin anam işləməyimə razı olmadı. Sonradan eşitdim ki, anam mənə kömək etmək üçün özünü oda-közə vurar, gecə-gündüz tarlada çalışar, ən ağır işlərin qulpundan yapışarmış.

İnstitutu qurtaran kimi məni bir neçə illiyə xarici ölkəyə işləməyə göndərdilər. Bu illər ərzində anamı bir gün də unutmadım. Neçə dəfə ona dəyməkdən ötrü icazə almaq istədim, amma mühüm dövlət tapşırığını yerinə yetirdiyim üçün icazə vermədilər. Onu hər gün xatırlayırdım. Ən çox da ilboyu tarlada kətmən vurmaqdan, alaq eləməkdən cadar-cadar olmuş qabarlı əlləri yadıma düşürdü. Yadımdadır, evdə yeməyə heç nə yox idi, ac yatmışdım. Səhərə az qalmış yuxudan oyandım. Anam kirkirə ilə buğda unu çəkirdi. O, üz-gözündən axan tər damcılarını yaylığının ucu ilə silir və can-dildən kirkirənin ağır daşını fırladırdı.

Professor ağır-ağır sözünə davam etdi:

– Anam kirkirəni bir anlıq saxlayıb mənə baxdı. "Bir az da döz, yatmağa çalış. Səhər sənə çörək bişirəcəyəm" – dedi. Onun yanında bir topa buğda başağı var idi. Başa düşdüm ki, anam aclığıma dözməyərək gecə ikən tək-

tənha kənddən aralı təzəcə biçilmiş taxıl zəmisinə gedib, sahənin kənarına tökülmüş başaqları ay işığında bir-bir toplayıb. Yorğun olsa da, yatmayıb, mənə çörək bişirmək üçün indi həmin başaqları üyüdürdü.

Kirkirənin yanındaca yerə çökdüm. Anam, adəti üzrə, əllərini saçlarımda, üzümdə gəzdirdi. İşləməkdən kobudlaşmış əllərinə, qabarlı barmaqlarına baxdım... Qəhər məni boğdu.

Cəfər kişi onu ovundurmaq üçün nə isə şirin söz demək, canıyananlıq etmək istədi. Professor isə öz aləmində idi. Xəyal onu yenidən keçmişə – uşaqlıq illərinə aparmışdı. Atası dünyasını dəyişəndə onun hələ heç yeddi yaşı tamam olmamışdı… Bir az böyüyəndən sonra çöl işlərində anasına kömək etdiyi günlər də yadına düşdü.

Professor aramla danışmağa başladı:

– Evimizdə un olanda anamın təndirdə bişirdiyi çörəyin ətri qonşunun da həyətinə yayılardı. O, təzəcə təndirdən çıxmış, qızarmış isti çörəyi əlimi yandırmamaq üçün bir parçaya büküb qoltuğuma vurar, qonşularımıza – nənə ilə Vəsiləyə pay göndərərdi.

Cəfər kişi onları bir qəbiristanlığa gətirdi. Professor qara mərmər üzərində qabarlı əlləri ilə kirkirə çəkən anasının şəklini görəndə donub qaldı. O, nə qədər çalışdısa, göz yaşlarını saxlaya bilmədi, pıçıltı ilə:

– Məni bağışla, ana, – dedi, – çox gecikdim, borcumu verə bilmədim.

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Aşağıdakı hissəyə hansı atalar sözü uyğundur?**

*Evimizdə un olanda anamın təndirdə bişirdiyi çörəyin ətri qonşunun da həyatinə yayılardı. O, təzəcə təndirdən çıxmış, qızarmış isti çörəyi əlimi yandırmamaq üçün bir parçaya büküb qoltuğuma vurar, nənə ilə Vəsiləyə pay göndərərdi. Nənə zorla eşidiləcək səslə anama, mənə xeyir-dua etməkdən yorulmazdı.*

A) Ac özünü qılınca çapar.
B) Yaxın qonşu uzaq qohumdan da irəlidir.
C) İş insanın cövhəridir.
D) Qonşu qonşuya baxar, canını oda yaxar.

**2. Verilən parçada ananın hansı xüsusiyyəti əks olunub?**

A) əməksevərliyi
B) ciddiliyi
C) sadəliyi
D) xeyirxahlığı

**3. Aşağıdakı hissənin məzmununa aid plan tərtib edin.**

*Səhərə az qalmış yuxudan oyandım. Anam kirkirə ilə buğda unu çəkirdi. O, üz-gözündən axan tər damcılarını yaylığının ucu ilə silir və can-dildən kirkirənin ağır daşını firladırdı.*

*Professor ağır-ağır sözünə davam etdi:*

*– Anam kirkirəni bir anlıq saxlayıb mənə baxdı. "Bir az da döz, yatmağa çalış. Səhər sənə çörək bişirəcəyəm" – dedi. Onun yanında bir topa buğda başağı var idi. Başa düşdüm ki, anam aclığıma dözməyərək gecə ikən tək-tənha kənddən aralı təzəcə biçilmiş taxıl zəmisinə gedib, sahənin kənarına tökülmüş başaqları ay işığında bir-bir toplayıb. Yorğun olsa da, yatmayıb, mənə çörək bişirmək üçün indi həmin başaqları üyüdürdü.*

**4. Hansı cümlədə epitet işlənmişdir?**

A) Ananın kədərli gözləri uzaqlara dikilmişdi.
B) Mən anamın nə qədər gözəl olduğunu elə bil o gecə gördüm.
C) Cəfər kişi nə isə şirin söz demək, canıyananlıq etmək istədi.
D) Xəyal onu keçmişə – uşaqlıq illərinə aparmışdı.

**5. "Kirkirə" sözünün mənası hansı variantda düzgün verilmişdir? Həmin sözü cümlədə işlədin.**

A) un kisəsi;
B) əl dəyirmanı;
C) ələk;
D) təndir.

**6. Əsərdəki ana surəti hansı xüsusiyyətinə görə kərpickəsən kişiyə bənzəyir?**

A) vətənə məhəbbət
B) təbiətə qayğı
C) qəhrəmanlıq
D) zəhmətə bağlılıq

**7. Cümlənin ifadəli oxusunda səsdə hansı çalar yaranar?**

"Bir az da döz, yatmağa çalış. Səhər sənə çörək bişirəcəyəm".

A) mehribanlıqla
B) sevinclə
C) kədərlə
D) təəccüblə

**8. Ananın hansı xüsusiyyətləri professorun həyatında daha əhəmiyyətli rol oynayıb?**

1) əməksevərliyi
2) xeyirxahlığı
3) təbiətə məhəbbəti
4) vətənpərvərliyi

☐ (1,4)
☐ (2,3)
☐ (1,2)
☐ (2,4)

**9. Əsərin sonluğunu fərqli şəkildə təsvir edin.**

____________________________________________
____________________________________________
____________________________________________

**10. Əsərdə təsvir olunan hadisə haqqında fikirlərinizi yığcam yazın.**

____________________________________________
____________________________________________
____________________________________________
____________________________________________

# 7.

# TƏBİƏTİN GÖZƏLLİYİ, TƏBİƏTƏ QAYĞI

*Mövzu:* A.Şaiq. KÖÇ – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii əsərlərdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında yığcam nağıl edir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli ədəbi nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri dərslikdəki “Yada salın” başlıqlı suallar üzrə (Vətənimizin bənzərsiz təbiəti, nadir heyvan və quşlar aləmi barədə hansı əsərləri oxumusunuz? Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?) müsahibə ola bilər. Müsahibə nəticəsində tədqiqat sualı müəyyənləşdirilir.

*Motivasiyanın digər yolu internetdən istifadə edərək Azərbaycan Respublikasının Prezidenti yanında Azərbaycan Gənclər Fondu tərəfindən keçirilən (https://www.youtube.com/watch?v=uwmyYgbH1n4) "Ən Yaxşı Sosial Çarx" müsabiqəsinin qaliblərinin çəkdiyi videoya baxış ola bilər. Videoçarxa yığcam müsahibə ilə aydınlıq gətirilir, tədqiqat sualı formalaşdırılır.*

***Tədqiqat sualı:*** *Yaylaq həyatından bəhs edən əsərdə təbiətlə bağlı hansı fikirlər öz əksini tapa bilər?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması:** İlk növbədə, əsərdən birinci və ikinci parçanın fərdi oxusu həyata keçirilir. Əsərin məzmunu ilə tanışlıq məqsədilə internetdən istifadə edərək (http://edebiyyat.ucoz.com/index/0-10) hekayədən birinci və ikinci parçanın bədii oxu ustasının ifasında dinlənilməsi də mümkündür.

Əsərin məzmunu ilə tanışlıq oxunun müxtəlif növlərindən istifadə ilə reallaşdırıla bilər. Oxunun hansı formada təşkilindən asılı olmayaraq, tanış olmayan sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır. Şagirdlər hekayədə işlənmiş *alaçıq* sözünün mənasını aydınlaşdırırlar. Qeyd edilir ki, alaçıq anlayışını ifadə etmək üçün dilimizdə *çadır, dəyə* sözləri də işlədilir.

Vaxta qənaət baxımından dərslikdəki tövsiyənin əsas götürülməsi daha məqsədəuyğundur.

Əsərin oxusundan sonra şagirdlər cütlük şəklində hekayədən oxunmuş parçanın məzmunu ilə bağlı sual və tapşırıqlar üzrə araşdırma aparır. Sonra kiçik qruplarda fikir mübadiləsi aparılır, cavablar dəqiqləşdirilir, təqdimat hazırlanır.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində təqdimatlar dinlənilir və müzakirə olunur. Qeyd edilir ki, əsərdəki hadisələr şəhərdən kəndə qonaq gəlmiş uşağın dili ilə təsvir olunur. Müəllim şagirdlərə istiqamətləndirici suallar verərək (Əsərdəki uşağın ailəsi araba ilə hara gedirdi? Uşağın sevincinə səbəb nə idi? Vətənimizin gözəllikləri haqqında hansı fikirlər diqqətinizi daha çox cəlb etdi? Yaylaqdakılar şəhərdən gələn qonaqları necə qarşıladılar? Uşaq ilk günlər yaylaqdakıların yanında özünü necə hiss edirdi?) müzakirənin daha məzmunlu keçməsinə zəmin yaradır.

Müzakirə zamanı şagirdlərin diqqəti əsərdəki mühüm məqamlara yönəldilir. Məsələn, hekayədə rəssamın çəkdiyi rəsm əsərini xatırladan təbiət təsvirləri ("Azərbaycan!.. Doğma vətənimin gözəl təbiəti var. Səhərlərə məxsus olan nəsimdən arabir yarpaqlar qımıldanır, təpələrə, çöllərə xalı kimi döşənmiş lətif, yumşaq otlar, çiçəklər dəniz kimi dalğalanır, yaşıl yarpaqlar arasına sığınmış quşcuğazlar səs-səsə verib ötüşürdü. Göz işlədikcə açıqlıq, yaşıllıq, dərəlik, təpəlik, irəlilədikcə qarşımızda bir-birindən daha gözəl təbiət, daha canlı lövhələr açılır. İri, kələ-kötür, ətəkləri qaratikan kolları ilə döşənmiş dağlar arasından yuxarı qalxdıqca təbiət və hava başqalaşır, insan ürəkdolusu nəfəs alır. Yumşaq otların, əlvan çiçəklərin, dağ nanələrinin gözəl qoxusundan insan bihuş olurdu.) üzərində xüsusi dayanmaq, şagirdlərin təsvir olunan mənzərələrə münasibətini öyrənmək çox əhəmiyyətlidir. Şagirdlərdə yazıçının obrazlı dillə əks etdirdiyi belə təbiət təsvirləri vasitəsilə oxucunu doğma təbiətin gözəlliyini duymağa, onun qədrini bilməyə səsləməsi qənaəti yaradılır.

Əsərdən seçilmiş hissənin məzmununun tutulmuş plan əsasında yığcam nağıl edilməsi tapşırığının icrasından sonra bir neçə təqdimat dinlənilir, müzakirə edilir. Şagirdlərin yeni öyrəndikləri sözlərdən necə istifadə etməsi, yığcam nağıletmənin tələblərinə əməl etmələri müzakirədə diqqət mərkəzində saxlanılır.

Növbəti tapşırıq mövzulardan birinin – (a) Kərim babanın danışdığı hadisələrdən hansı məndə daha güclü təəssürat yaratdı? Nə üçün? b) Hekayədə təbiətin ğözəlliyi ilə

bağlı hansı fikirlər diqqətimi daha çox cəlb etdi? seçilib təqdimat hazırlanmasını nəzərdə tutur.

Təqdimatlar seçmə yolla dinlənilir, müzakirə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Təqdimatetmə istifadəetmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu yığcam nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən yığcam nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam nağıl edir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* A.Şaiq. KÖÇ – 3 saat
*İkinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii əsərlərdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi – hekayənin evdə müstəqil oxunmuş parçalarının (3-cü, 4-cü parçalar) məzmununun və tanış olmayan sözlərin mənasının necə qavranıldığı təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

Evdə oxunmuş parçalara aid sualların aydınlaşdırılması üzrə işə ayrılan vaxt elan olunur. Birinci dərsdə aparılmış tədqiqatın davamı olaraq şagirdlərə parta yoldaşları ilə evdə oxunmuş parçaları bir daha nəzərdən keçirmək, hekayənin məzmununa aid üçdən az olmayaraq sual tərtib etmək və onlara cavab hazırlamaq tapşırığı verilir.

Sonra suallar və cavablar kiçik qruplarda müzakirə edilir, təqdimat hazırlanır.

**II dərs** **Məzmun üzrə iş**

1. Evdə oxuduğunuz parçaları bir daha nəzərdən keçirin.
2. Parta yoldaşınızla birlikdə onların məzmununa aid üçdən az olmayaraq sual və onlara cavab hazırlayın.
3. Kiçik qruplarda birləşib, sualları və cavabları müzakirə edin.
4. Çıxardığınız nəticələr barədə təqdimatlar etməklə müzakirəni genişləndirin.
5. Oxuduğunuz parçadan seçdiyiniz hissənin məzmununu hazırladığınız plan əsasında geniş nağıl edin. Öyrəndiyiniz yeni sözlərdən istifadə etməyi unutmayın.
6. Mövzulardan birini seçib təqdimata hazırlaşın.
   a) Bu əsərdə hekayə janrına xas olan hansı xüsusiyyətlər var?
   b) Əsərdə oxuduqlarım təbiət haqqında bildiklərimə nə əlavə etdi?

*Dərslik, səh. 139*

Müstəqil oxunmuş parçalarda mühüm məqamlara, təsvirlərə və s. müzakirə zamanı şagirdlərin münasibətinin ön plana çəkilməsi, sonrakı mərhələlər üçün vacib olanların aydınlaşdırılması zəruridir.

Tədqiqata ayrılmış vaxt başa çatdıqdan sonra dəqiqləşdirilmiş cavablar kiçik qrupların təqdimatları əsasında müzakirə edilir.

Bu zaman qrupların bir-birinin təqdimatına tənqidi münasibəti, suallar verməsi, rəy mübadiləsi məqsədəuyğundur. Müəllim şagirdlərin fikirlərini əsaslandırmaq üçün əsərin mətnindən nümunələr gətirmələrinə diqqət yetirməlidir.

Dərslikdəki şifahi təqdimat hazırlanması ilə bağlı tapşırığın (Bu əsərdə hekayə janrına xas olan hansı xüsusiyyətlər var? Əsərdən oxuduqlarım təbiət haqqında biliklərimə nə əlavə etdi?) icrasına vaxt ayrılır. Tapşırıq fərdi yerinə yetirilsə də, sonda dinləmələr əsasında müzakirə keçirilir. Bu, bütün şagirdlərin tapşırığa hansı səviyyədə cavab hazırladıqlarını müəyyənləşdirməyə şərait yaradır.

Hekayənin məzmununun bütövlükdə mənimsənilməsi **nəticə çıxarılması və ümumiləşdirmə aparılmasına** imkan verir. Həmin mərhələdə şagirdlərin yüksək fəallıq göstərmələri üçün istiqamətləndirici suallardan istifadə etmək faydalıdır. Şagirdlərdə belə bir qənaət yaradılır ki, sadə adamların həyat tərzinin, təbiətə münasibətinin təsviri dərin məna kəsb edir. Yaylaqda – təbiətin qoynunda yaşayan bu insanların xoşbəxtliyinin sirri də onların əməyə, təbiətə, ətrafdakı insanlara münasibəti ilə bağlıdır.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma plan tərtibetmə nağıletmə

Təqdimatetmə istifadəetmə

| **I səviyyə** | **II səviyyə** | **III səviyyə** | **IV səviyyə** |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* A.Şaiq. KÖÇ – 3 saat
*Üçüncü saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii əsərləri hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Hekayəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| 1.2.1. Şifahi və yazılı ədəbiyyat nümunələrini müqayisə edir. | Hekayənin nağılla oxşar xüsusiyyətlərini müəyyənləşdirir. |
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Dərslikdəki "Düşünün" başlıqlı sual üzrə (İnsanın təbiətə qayğı və sevgisi nə üçün lazımdır?) müsahibə aparılması məqsədəuyğundur. Variantlardan biri söz assosiasiyasından istifadə etməklə şagirdlərin *təbiət* sözü ilə məna, məzmun baxımından səsləşən sözləri, terminləri qeyd etməsidir.

Motivasiyanın digər yolu təbiət mövzusunda şəkillərin, rəsm əsərlərinin, Azərbaycanın "Qırmızı kitab"a düşmüş heyvan və quşlarının şəkillərinə baxış, kiçik müzakirə ola bilər. Bu məqsədlə internetdəki (Google, You Tube) təbiətlə bağlı zəngin videomateriallardan da istifadə etmək və təbiətə münasibətlə bağlı rəy mübadiləsi aparmaq məqsədəuyğundur.

Oxuduqları hekayədə bir çox mətləblərə aydınlıq gətirməyin zəruri olduğunu xatırladan müəllim şagirdləri tədqiqat sualının formalaşdırılmasına cəlb edir:

***Tədqiqat sualı:*** Kərim baba ilə şəhərli oğlanın təbiətə münasibətini geniş əks etdirməkdə yazıçının məqsədi nədir?

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Tədqiqat sualının araşdırılması fərqli variantlarda həyata keçirilə bilər. Bütün hallarda dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə faydalıdır. "Əsərlə bağlı açıqlamalar" mətninə hələ tədqiqata başlamazdan əvvəl mənbə kimi müraciət edilməsi vacibdir.

Müəllim məsləhət bilərsə, həmin suallara əlavələr edə və ya müəyyən ixtisar apara bilər. Bu, müəllimin qarşıya qoyduğu məqsəddən, sinfin hazırlıq səviyyəsindən asılıdır.

Qruplara təqdim olunan iş vərəqlərində suallara cavab hazırlanması üçün istiqamət (təqdimatın hazırlanması, metodların seçilməsi və s. barədə) verilir. Sualların məzmunu müzakirəyə, diskussiyaya daha çox üstünlük verilməsini tələb edir. Qrupların işini müşahidə edən müəllim tövsiyə verməklə, istiqamətləndirici suallardan istifadə etməklə onların fəaliyyətini düzgün məcraya yönəldə bilər.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində təqdimat və diskussiya metodlarından istifadə edilir. Əvvəlcə kiçik qrupların təqdimatları dinlənilir. Qrupun cavablarını təqdim edən sözçülərin, istərsə də digər çıxış edənlərin öz mülahizələrini əsərin mətnindən, eləcə də həyatdan nümunələr göstərməklə əsaslandırmalarına xüsusi diqqət yetirilir.

Müzakirə zamanı qeyd edilir ki, hekayədə sadə əmək adamlarının yaşayış tərzi, yurdumuzun təbiətinin gözəllikləri təsvir olunur. Şəhərdən yaylağa qonaq gəlmiş uşaq Kərim babanın timsalında kəndlilərin təbiətə, heyvanlara, quşlara münasibətindən çox şey öyrənir, özü üçün ciddi nəticələr çıxarır.

Müzakirədə Kərim baba və ilk dəfə yaylağa gəlmiş şəhərli oğlanın xarakterinə xas olan cəhətlər təhlil edilir. Hekayədə fikrin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırılması üzrə iş təşkil edilir. Müəllimin bu tapşırığın icrası zamanı müvafiq cədvəldən istifadə etməyin zəruriliyini xatırlatması məqsədəuyğundur.

Hekayənin nağıllarla oxşar xüsusiyyətlərinin müəyyənləşdirilməsi ilə bağlı sualla əlaqədar hər iki əsərin nəsr nümunəsi olması, hadisənin epik təhkiyə əsasında əks etdirilməsi qeyd edilir.

Əsərin təbiət mövzusunda yazıldığını qeyd edən şagirdlər hekayədə başlıca olaraq, doğma yurda, onun təbiətinə məhəbbət hissinin ifadə olunduğunu qeyd edirlər. Belə bir fikir formalaşdırılır ki, Vətəni sevmək, ilk növbədə, onun sadə insanlarına dəyər vermək, təbii sərvətlərinin qədrini bilmək deməkdir.

**Nəticə, ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə qənaət yaradılır ki, Kərim baba hekayədə xalq müdrikliyini, aqil babalarımızı təmsil edir. Zəngin həyat təcrübəsinə malik Kərim baba öz kiçik qonağına heyvanların, quşların həyatından maraqlı söhbətlər edərək həyat dərsləri verir, uzun illərin həyat təcrübəsini yeni nəslə ötürməyi özünə borc bilir.

Qeyd edilir ki, əsər uşağın yaylaq həyatı ilə bağlı təəssüratlarını əks etdirir. Yazıçı həyatı dərk etməyə çalışan uşağın müşahidələri əsasında sadə insanların öz vətəninə, onun təbiətinə vurğunluğundan, ətrafdakılarla səmimi ünsiyyətindən, müdrikliyindən söz açır. Kərim babanın söhbətləri, nəsihətləri şəhərli oğlanın insanlara, təbiətə baxışında dönüş yaradır, onu öz hərəkətlərində məsuliyyətli olmağa sövq edir.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə "İfadəli oxuya hazırlaşın" başlıqlı tapşırığın fərdi yerinə yetirilməsi üzrə iş təşkil edilir.

Şagirdlər müəllimin tapşırığı ilə hekayədən Kərim babanın Qızılla bağlı danışdığı sonuncu əhvalatı bir daha səssiz oxuyurlar. Həmin hissədə Qızılın sürüyə daraşmış qurdlarla boğuşması, onları öldürməsi təsvir olunur. Bu əhvalatı danışarkən Kərim babanın səsindəki həyəcanın ifaçının da səsində aydın duyulmasının və şərti işarələrdən istifadə edilməsinin zəruriliyi diqqətə çatdırılır. Həmin parçanın ifadəli oxusuna hazırlıq üçün vaxt ayrılır.

Tapşırığın icrasına ayrılmış vaxt başa çatdıqdan sonra ifalar seçmə yolla dinlənilir, müzakirə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Müqayisəetmə

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayəni hadisələrin məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Hekayəni müəllimin köməyi ilə hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Hekayəni, əsasən, hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Hekayəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| Hekayənin nağılla oxşar xüsusiyyətlərini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayənin nağılla oxşar xüsusiyyətlərini qismən müəyyənləşdirir. | Hekayənin nağılla oxşar xüsusiyyətlərini, əsasən, müəyyənləşdirir. | Hekayənin nağılla oxşar xüsusiyyətlərini müəyyənləşdirir. |
| Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Hekayənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, əksər hallarda münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* S.Vurğun. ÇİNARIN ŞİKAYƏTİ – 2 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii əsərlərdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli ədəbi nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini mətndən nümunələr gətirməklə şərh edir. | Fikirlərini şeirdən nümunələr göstərməklə şərh edir. |
| 2.2.1. Müzakirələrdə ədalətlilik və obyektivlik nümayiş etdirir. | Fərqli fikirlərə ədalətli, obyektiv münasibət nümayiş etdirir. |

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi fərqli yollarla (sorğu, təqdimatlar və s.) müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu, fərqli vasitələrdən istifadə ilə həyata keçirilə bilər. Bunun üçün dərslikdəki suallardan (İnsanın təbiətə münasibətindən bəhs edən hansı əsərləri oxumusunuz? Bu əsərlərdə diqqətinizi daha çox çəkən nə olub?) istifadə faydalıdır. Əvvəl öyrənilmiş əsərlərin, mövzu üzrə qazanılmış biliklərin xatırlanması, yığcam müsahibə yeni mövzu ilə əlaqə yaratmağa, şagirdlərin diqqətini öyrəniləcək əsərə istiqamətləndirməyə imkan verir. Fikir mübadiləsi prosesində şagirdlər tədqiqat sualının müəyyənləşdirilməsinə cəlb olunur.

*Motivasiyanın yaradılmasının digər bir yolu internetdən istifadə edərək "Səməd Vurğunun ev muzeyi" filmindən bir fraqmentə baxış (https://www.youtube.com/watch?v =rmdYfLlJPcc) və müsahibə ola bilər.*

***Tədqiqat sualı.*** *Sizcə, çinarın şikayətindən bəhs edən əsərdə sənətkarın hansı düşüncələri əks oluna bilər?*

Fərziyyələr dinlənilir və ümumiləşdirilərək lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması.** Şeirin məzmununun öyrənilməsi üzrə iş oxunun fərqli növlərindən istifadə ilə həyata keçirilə bilər. Oxunun hansı növünün seçilməsindən asılı olmayaraq, şagirdlərə əsəri oxuyarkən tanış olmayan sözlərin


I dərs | Məzmun üzrə iş

1. Şeiri oxuyun (bunu fərdi səssiz oxu səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın:
   a) "Mən bu yer üzünə gələndən bəri, Olmuş budaqlarım hava səngəri" misralarındakı fikri necə başa düşürsünüz?
   b) "Kötüyüm dünyanın sirrilə dolu, Dolanmış başıma karvanlar yolu" misralarında hansı fikir ifadə olunub?
   c) "Bax, ayrılmamışam öz kötüyümdən! Qəhrəman bir elin timsalıyam mən..." misralarındakı fikri necə izah edərsiniz?
   ç) "Bəzən də kükrəyib əsəndə külək Coşur varlığımda polad bir ürək" misralarında ifadə olunmuş fikri necə aydınlaşdırarsınız?
   d) "Bizdə təbiətə zülm edənlərin Nə insan duyğusu, nə də haqqı var!" misralarındakı fikri aydınlaşdırın.
2. Əsər barədəki düşüncələrinizi ikihissəli gündəlikdə yazın. Cədvəldən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Əsərdəki bədii təsvir vasitələrinin növünü dəqiqləşdirin.

| Əsərdən seçilmiş nümunələr | Bədii təsvir vasitəsinin növü |
|---|---|
| Ağır səfərlərə çıxan bir nəfər | |
| Coşur varlığımda polad bir ürək | |
| Örtmüşəm üstünü çadırlar kimi. | |

4. Kiçik qruplarda birləşərək yerinə yetirdiyiniz bütün işlər barədə fikir mübadiləsi aparın.
5. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

*Dərslik, səh. 143*

mənasının lüğətin köməyi ilə aydınlaşdırılmasının zəruri olduğu xatırladılır. Məzmun üzrə sualların cavablandırılması, tapşırıqların icrası cütlük şəklində yerinə yetirilir.

Müəllim şeirin məzmununun mənimsədilməsi üzrə iş apararkən hər bir misranın ifadə etdiyi mənanın açılmasına xüsusi diqqət yetirməlidir. Əsərin məzmunu üzrə iş dərslikdə verilən suallarla məhdudlaşmamalıdır. Müəllim qarşıya qoyduğu məqsəddən, şagirdlərin hazırlıq səviyyəsindən çıxış edərək dərslikdəki tövsiyələrə yaradıcı yanaşmalı, dəqiqləşdirmələr aparmalı, özünün tərtib etdiyi sual və tapşırıq nümunələrindən də istifadəyə diqqət yetirməlidir.

Tədqiqat zamanı şagirdlər yalnız əsərin məzmununu, təsvir olunan hadisənin mahiyyətini başa düşməyə deyil, həm də çinarın söylədiklərinə müstəqil münasibət bildirməyə və əsaslandırmağa istiqamətləndirməlidir. Müəllim bu məqsədlə yönləndirici sual və tövsiyələrlə şagirdləri əsərdə təsvir olunanları öz həyat təcrübələri, müşahidələri ilə əlaqələndirməyə sövq etməlidir.

İkihissəli gündəlikdən istifadə ilə bağlı tapşırığın icrası zamanı şagirdlərin diqqəti şeirdə çinarın şikayətinin nümunəsində təbiətin qorunmasının vacibliyinin sənətkar tərəfindən həssaslıqla təsvirinə yönəldilməlidir.

Şeirin dili aydın, ahəngdar, axıcıdır. Əsərin estetik mahiyyətini şagirdlərə çatdırmaq üçün bu cəhətə də diqqət yetirilməlidir. Bu məqsədlə əsərdəki yığcam, sərrast işlədilmiş ifadələrin, cədvəldən istifadə edilərək bədii təsvir vasitələrinin növünün müəyyənləşdirilməsi üzrə də iş aparılır.

Şagirdlər kiçik qruplarda birləşərək fikir mübadiləsi aparır, təqdimat hazırlayırlar.

**Məlumat mübadiləsi və müzakirəsi** mərhələsində kiçik qrupların sözçülərinin təqdimatları dinlənilir və müzakirə edilir. Hər qrupun sözçüsünün təqdimatından sonra qrupun digər üzvlərindən əlavə qeydləri, fikirləri olub-olmadığı soruşulur. Digər qrupların verdiyi suallar cavablandırılır. Şagirdlərin təbiətin gözəlliyinin təsviri, bu gözəlliyi qorumağın zəruriliyi barədə fikirlərinin şeirdən və həyatdan nümunələr gətirməklə əsaslandırmalarına, öz təəssüratlarını mənasını yeni öyrəndikləri sözlərdən istifadə ilə çatdırmalarına diqqət yetirilir.

**"Tətbiq. Müzakirə. Yaradıcı iş"**lə bağlı tapşırıq ("İnsan təbiətdən səxavət gözləməməli, istədiyini ondan almalıdır" fikrini doğru saymaq olarmı?) fərdi olaraq yerinə yetirilir. Bir neçə təqdimat dinlənilir və müzakirə əsnasında onlara münasibət bildirilir.

**Nəticə və ümumiləşdirmə** mərhələsində şairin çinarın şikayətindən söz açmaqla bəşəriyyəti düşündürən bir məsələyə laqeyd qalmadığı, təsvir olunanlardan hamının nəticə çıxarmasının vacibliyi qeyd olunur. Əsərdəki təbiəti qorumaqla bağlı fikirlər hamını düşündürməli, təbiəti qorumağa, hər ağacın, yaşıllığın qədrini bilməyə sövq etməlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Müəyyənləşdirmə
Şərhetmə
Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mətnə uyğun mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə dəqiq aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* S.Vurğun. ÇİNARIN ŞİKAYƏTİ – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.1.2. Bədii əsərlərlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın (essenin) mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində yığcam inşa (esse) yazır. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi seçmə yolla təqdimatlar, müzakirə əsasında müəyyənləşdirilir.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Dərslikdəki "Düşünün" başlıqlı sual üzrə ("Təbiətdə faydasız heç bir şey yoxdur" fikrini doğru saymaq olarmı? Nə üçün?) müsahibə aparılması məqsədəuyğundur. Motivasiyanın digər yolu söz assosiasiyasından istifadə etməklə şagirdlərin *təbiət* sözü ilə məna, məzmun baxımından səsləşən sözləri, terminləri qeyd etməsidir. *Motivasiyanın yaradılmasının bir variantı da aşağıdakı məzmunda ola bilər. Ulu Öndər Heydər Əliyevin "Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız. Təbiətə zərər vuranlar, təbiəti çirkləndirənlər, korlayanlar cəmiyyətimizin, hamımızın düşmənidir. ...Hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o, nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir..." sözləri diqqətə çatdırılır, sonra şagirdlərə müraciət edilir: Ulu Öndərin bu sözləri sizdə hansı hislər, düşüncələr oyatdı?*

Müzakirə tədqiqat sualının formalaşdırılmasına imkan yaradır.

***Tədqiqat sualı**. Sizcə, təbiəti qorumaq üçün insan hansı keyfiyyətlərə malik olmalıdır?*

Fərziyyələr dinlənilir və lövhədə qeyd olunur.

**Tədqiqatın aparılması** məqsədilə dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninə mənbə kimi müraciət olunması, "Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə edilməsi məqsədəuyğundur.

Müəllimin dərsdə əsərin təhlili ilə bağlı görüləcək işlər barədə izahatından sonra şagirdlər "Əsərlə bağlı açıqlamalar" mətni ilə tanış olurlar.

Kiçik qruplar "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı sual və tapşırıqları müzakirə edir, təqdimat hazırlamaq məqsədilə araşdırma aparırlar. Müəllim təqdimatlarda sual və tapşırıqlarla bağlı hansı interaktiv metodlardan istifadə olunacağı ilə bağlı tövsiyələr verir.

Çinar sözü ilə bağlı söz assosiasiyasından istifadənin mümkünlüyü qeyd olunur. Çinar, mühəndis, şair obrazlarına xas olan cəhətləri aydınlaşdırmaq üçün əsərdən nümunələr gətirilməsinə diqqət yetirilir.

4-cü sual – təbiətlə bağlı problemlərin müəyyənləşdirilməsi şaxələndirmə metodundan istifadə vasitəsilə mümkündür. 5-ci sual ("Beşini basdırsan, biri qalar, bir kötüklü ağacı qorusan, 5-6 pöhrə verəcək" fikrinə münasibət bildirin. Mövqeyinizi nümunələrlə əsaslandırın.) diskussiya tələb edir.

"Əsərdəki bədii təsvir vasitələrinin fikrin təsir gücünün artırılmasında rolunu aydınlaşdırın" tapşırığı şeirdə işlənmiş epitet və bənzətmənin rolu ilə bağlı müzakirəyə yol açır.

Sual və tapşırıqlar kiçik qrupların əsərin ideyasını – müəllif niyyətini düzgün müəyyənləşdirməsi ilə yanaşı, öz fikirlərini əsərdən nümunələr gətirməklə əsaslandırmalarını nəzərdə tutur.

**Məlumat mübadiləsi və müzakirəsi** zamanı kiçik qrupların təqdimatları dinlənilir. Qeyd edilir ki, şeirdə dərin məna, ciddi ümumiləşdirmə olduğundan onun təhlili xüsusi diqqət tələb edir. Şeirdə vətənpərvər, təbiət vurğunu olan şairin həyəcanı, narahat ürək çırpıntıları hiss olunur. Əsərdə təbiətə qayğıkeş münasibət bəsləmək, onu qorumağın zəruriliyi motivi güclü olduğundan oxucu da bu problemə laqeyd qala bilmir. Şairin

əsərdə irəli sürdüyü ideya – təbiəti qorumağın, ona qəsd edənlərə qarşı mübarizə aparmağın zəruriliyi, bunun hər bir insanın borcu olması fikri əsərdən və həyatdan nümunələr gətirməklə əsaslandırılır.

Sərbəst fikir mübadiləsi, fərqli fikirlərin müzakirəsi vasitəsilə əsərin mövzusunun, bədii xüsusiyyətlərinin, ideyasının aydınlaşdırılmasına, onlara münasibət bildirilməsinə şərait yaradılır.

Əsərdəki təbiətə münasibət problemi ilə bağlı bir neçə inşa (esse) seçmə yolla dinlənilir və müzakirə edilir.

Müzakirə zamanı söylənilən fikirlər **nəticə və ümumiləşdirmə** mərhələsində şagirdlərin fəallıq və müstəqilliyi şəraitində yekunlaşdırılır, dərsin əvvəlindəki fikir və fərziyyələrlə müqayisə əsasında tədqiqat sualı ilə bağlı nəticə çıxarılır. Qeyd edilir ki, bu şeir həcmcə kiçik nəzm əsəridir, lakin dərin məzmuna malikdir. Əsərdə doğma yurdumuzun təbiətinin gözəlliklərinin qorunması problemi qaldırılır və bu iş insanlıq, vətəndaşlıq borcu hesab edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma
Münasibətbildirmə
Şərhetmə
İnşayazma
(Esseyazma)

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdır-maqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təs-vir vasitələrinin ro-lunu suallar vermək-lə, müəllimin kömə-yi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin) rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildir-məkdə çətinlik çəkir. | Şeirin ideyasını ay-dınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əsasən, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Şeirlə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Şeirlə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |
| Şeirlə bağlı müzaki-rələrdə söylənən fi-kirlərə münasibət bil-dirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzaki-rələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzaki-rələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzaki-rələrdə söylənən fikirlərə münasibət bildirir. |

| | | | |
|---|---|---|---|
| İnşanın (essenin) mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın (essenin) mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın (essenin) mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın (essenin) mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa (esse) yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa (esse) yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa (esse) yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa (esse) yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* F.Qoca. ŞUŞA – 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla nail olmaq mümkündür. Məsələn, rəmzi material kimi Şuşa şəhərinin ümumi mənzərəsini əks etdirən şəkil nümayiş etdirməklə, yaxud Şuşa haqqında mahnılardan birini səsləndirməklə müsahibə aparmaq və tədqiqat sualını müəyyənləşdirmək olar. Yaxud suallardan (Dərslikdəki "Yada salın" başlıqlı suallara da müraciət etmək məqsədəuyğundur) istifadə ilə motivasiyanı yaratmaq və tədqiqat sualının formalaşdırılmasına nail olmaq mümkündür.

***Tədqiqat sualı:*** *Qarabağın təbiətinin, xüsusən Şuşa şəhərinin yazıçı və şairlərin diqqətini daha çox çəkməsinə səbəb, sizcə, nədir?*

Şagirdlərin fərziyyələri dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Bu, ilk növbədə, əsərin oxusunu tələb edir. Oxu isə fərqli şəkillərdə həyata keçirilə bilər. Oxunun hansı formada təşkilindən asılı olmayaraq, yeni

sözlərin mənasının aydınlaşdırılması, bədii təsvir vasitələrinin müəyyənləşdirilməsi diqqət mərkəzində saxlanılır.

Oxuya ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər dərslikdəki suallara cütlük şəklində cavab hazırlayırlar. Suallar elə tərtib edilmişdir ki, şagirdləri düşünməyə, misralardakı mətnaltı mənaları aydınlaşdırmağa istiqamətləndirir. Cavablarla bağlı yazılı qeydlərin aparılması faydalıdır.

Dərslikdəki növbəti tapşırığın (əsər barədəki düşüncələrin ikihissəli gündəlikdə yazılması) fərdi olaraq yerinə yetirilməsi məqsədəuyğundur. Bu, şeirin məzmununu hər bir şagirdin hansı səviyyədə qavradığını aşkara çıxarmaq, onların çətinlik çəkdikləri, yaxud tərəddüd etdikləri məqamları müəyyənləşdirmək baxımından faydalıdır. İkihissəli gündəlikdəki şagird qeydləri müəllimə sonrakı işini hansı məzmunda qurması barədə istiqamət verir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra şagirdlər müəllimin təklifi ilə kiçik qruplarda birləşib yerinə yetirdikləri bütün işlərlə bağlı fikir mübadiləsi aparırlar. Bu, cavabları əsaslı şəkildə zənginləşdirməyə, konkretləşdirməyə və ümumiləşdirməyə imkan yaradır.

**Məlumat mübadiləsi.** İcra olunmuş tapşırıqların məzmunu elədir ki, təqdimatların dinlənilməsi prosesində yalnız məlumat mübadiləsi ilə məhdudlaşmaq mümkün olmur. Tez-tez sualların yaranması onlara cavab verilməsini zəruri edir, bu isə davamlı mübahisəyə, doğru olanın müəyyənləşdirilməsi cəhdinə səbəb olur. İstər-istəməz məlumat mübadiləsi **müzakirə** mərhələsi ilə qovuşmuş olur. Belə hallarda mübahisəyə və müzakirəyə səmərəli istiqamət verilməsi, digər qrupların təqdimatlarına imkan yaradılması müəllimin işinin əsasında dayanır. Müzakirədə qrup sözçüləri ilə yanaşı, qrupun digər üzvlərinin də fikir söyləməsinə imkan yaradılır. Cavablar əlaqələndirilir və tədqiqat sualına aydınlıq gətirilməsinə isiqamətləndirilir. Bütün bunlar dərsin **nəticə, ümumiləşdirmə** mərhələsinin səmərəli keçməsinə əlverişli imkan yaradır. Bu mərhələdə başlıca diqqət indiyə kimi deyilənlərin ümumiləşdirilməsi və əsaslandırılmış nəticələrin çıxarılmasına yönəldilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, ölkəmizin gözəl guşələrindən olan Qarabağ, onun mərkəzi şəhəri olan Şuşa təbiətinin gözəlliyi, cəlbedici mənzərələri ilə hamını valeh edir. Bu yerlərə yolu düşən söz ustaları – şair və yazıçılar öz heyranlıqlarını bədii əsərlərində yaddaqalan parlaq bədii lövhələrlə əks etdirirlər.

**I dərs** **Məzmun üzrə iş**

1. Şeiri oxuyun (bunu fərdi səssiz oxu səsli oxunun dinlənilməsi və s. şəkildə yerinə yetirə bilərsiniz), sonra parta yoldaşınızla birlikdə aşağıdakı suallara cavab hazırlayın.
   d) "Daşaltı çayına yol vermək üçün, Dağ öz ətəyini yığıb altına" misralarındakı fikri necə başa düşürsünüz?
   e) "Qıy səsi" özünü atır qayadan, Başqa qayalara dəyir qayıdır" misralarında hansı fikir ifadə olunub?
   f) "Günəş Simurq kimi qalxır dərədən, Qulaq as, daşlar da dil açıbdır, dil" misralarındakı fikri necə izah edərsiniz?
   g) "Şuşa, ucalmısan boz buludlara,Vətən torpağının heykəlisən sən" misralarında ifadə olunmuş fikri necə aydınlaşdırarsınız?
2. Əsər barədəki düşüncələrinizi fərdi olaraq ikihissəli gündəlikdə yazın. Cədvəldən istifadə edin.

| Əsərdə diqqətimi daha çox cəlb edənlər | Bunun səbəbi |
|---|---|
| | |

3. Kiçik qruplarda birləşərək yerinə yetirdiyiniz işlər barədə fikir mübadiləsi aparın.
4. Çıxardığınız nəticələri təqdimatlar əsasında müzakirə edin.

*Dərslik, səh. 146*

Çıxarılmış nəticələrin fərziyyələrlə və tədqiqat sualı ilə müqayisəsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Şeirlə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* F.Qoca. ŞUŞA – 2 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 3.1.1. Bədii nümunələrin məzmununa (əhvalat və hadisələrə, sonluğa) fərqli münasibət bildirir. | Şeirin məzmununa fərqli münasibət bildirir. |
| 3.1.2. Mövzu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| 3.1.3. 0,5–1 səhifə həcmində inşa, esse yazır. | 0,5 səhifə həcmində inşa, esse yazır. |

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Motivasiyanın yaradılmasına fərqli yollarla (rəmzi materiallardan istifadə, sualların tətbiqi və s.) nail olmaq mümkündür. Vaxta qənaət baxımından dərslikdəki “Düşünün” başlıqlı sual (Bədii ədəbyyatda, incəsənət

əsərlərində təbiət mövzusuna tez-tez müraciət edilməsinə səbəb, sizcə, nədir?) əsasında yığcam müsahibə aparmaqla tədqiqat sualını müəyyənləşdirmək faydalıdır.

***Tədqiqat sualı:*** *Qarabağın, Şuşanın timsalında doğma təbiətin gözəlliyi şeirdə uğurla ifadə olunubmu?*

Şagirdlərin fərziyyələri dinlənilir və qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Bunu fərqli təlim metodlarının, iş formalarının tətbiqi ilə təşkil etmək mümkündür. Lakin bütün hallarda dərslikdəki "Əsərlə bağlı açıqlamalar" mətninə və "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığa müraciət edilməsi vacibdir. Şagirdlər araşdırmanı cütlük şəklində, yaxud kiçik qruplarda apara bilərlər. "Araşdırın. Fikirləşin. Cavab verin" tapşırığındakı suallar iş vərəqlərində şagirdlərə təqdim edilir. Cütlük şəklində iş forması seçilərsə, eyni bir sual bir neçə cütlüyə təqdim olunur. Hər kiçik qrup bir sual üzərində işləyir. Qrupların sayı sualların sayından çox olarsa, müəllim əlavə sual müəyyənləşdirə bilər. Yaxud bir sualın iki qrupa təqdim edilməsi də mümkündür.

Suallar elə tərtib edilmişdir ki, hər biri tədqiqat sualının aydınlaşdırılmasına əhəmiyyətli töhfə verir. Eləcə də hər biri bədii əsərdən nümunələrin göstərilməsini tələb edir. Şagirdlərin işini müşahidə edən müəllim bunların necə nəzərə alındığına diqqət yetirir, lazım gələrsə, istiqamətləndirici suallardan istifadə etməklə onlara kömək edir. Tədqiqata ayrılan vaxt başa çatdıqdan sonra təqdimatlar əsasında məlumat mübadiləsi aparılır.

**Məlumat mübadiləsi.** Müəllim daha əhəmiyyətli olanların səsləndirilməsinə, sözçülüyə yol verilməməsinə çalışır. Elə bu mərhələdəcə əsərdən göstərilən nümunələrin dəqiq olmasına (bunu sonrakı mərhələyə saxlamağa ehtiyac yoxdur) diqqət yetirilir, meydana çıxan suallara cavab verilməsi təmin edilir. Məktəb təcrübəsi göstərir ki, məlumat mübadiləsi mərhələsində çox vaxt təqdimat edən qrupun işinə digər qrupların düzəliş etmək istəyi güclü olur. Məqamına düşən bu cür düzəlişlərin deyilməsinə və nəzərə alınmasına imkan yaratmaq məqsədəuyğundur. Məsələn, tapşırıqdakı üçüncü sual (fikrin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunun aydınlaşdırılması ilə bağlı) şagirdlərdən gərgin iş, boyük zəhmət tələb edir. Bu qəbildən suallar çox vaxt ciddi mübahisəyə, diskussiyaya səbəb olur. Məlumat mübadiləsi mərhələsində digər qruplar daha çox həmin sualla bağlı iradlarını və düzəlişlərini bildirirlər. Əgər bu düzəlişlər və iradlar obyektiv səciyyəlidirsə, elə yerindəcə nəzərə alınması vacibdir. Lakin unudulmamalıdır ki, dərsin bu mərhələsində diqqət mərkəzində saxlanılmalı olan ən mühüm məsələ qrupların bir-birinin işinin nəticəsi ilə ətraflı tanış olmalarının təmin edilməsidir.

**Müzakirə** mərhələsində cavablardakı nöqsanların aradan qaldırılması, pərakəndə fikirlərin sistemə salınaraq bir araya gətirilməsi ön plana keçir. Mülahizələrin nümunələrlə təsdiq edilməsi, mübahisəli məsələlərə aydınlıq gətirilməsi müəllimin istiqamətləndirici suallarının köməyi ilə həyata keçirilir. Bütün bunlar nəticə, ümumiləşdirmə mərhələsində ümumi ideya şəklinə düşmüş fikrin formalaşdırılmasına, obyektiv nəticələrin çıxarılmasına imkan yaradır. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, şair uğurla seçdiyi sözlərin, obrazlı deyimlərin, məcazların köməyi ilə doğma təbiətimizin füsunkar gözəlliyini əks etdirməyə nail olmuşdur. Əsərdə yaradılmış təkrarsız bədii lövhələr Qarabağın, Şuşanın təbii mənzərələri barədə aydın təsəvvür yaradır, oxucunun gözləri önündən çəkilmir.

Çıxarılmış nəticələrin fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilməsinə diqqət yetirilir.

Aparılmış bütün işlər dərslikdə təklif olunmuş inşa və esse mövzularının qısa bir vaxtda yerinə yetirilməsinə imkan verir. Hər iki yazının yığcam olacağını elan edən müəllim inşanın yazılması üçün digər fənlərdən qazanılmış məlumatlardan istifadə edilməsinin əhəmiyyətini xatırladır.

Səciyyəvi nümunələrdən bir neçəsinin oxunub müzakirə edilməsinə vaxt ayrılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Münasibətbildirmə

Şərhetmə

İnşayazma esseyazma

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əsasən, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirin məzmununa fərqli münasibət bildirməkdə. çətinlik çəkir. | Şeirin məzmununa kömək əsasında fərqli münasibət bildirir. | Şeirin məzmununa, əsasən, fərqli münasibət bildirir. | Şeirin məzmununa fərqli münasibət bildirir. |
| İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh etməkdə çətinlik çəkir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini qismən məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini, əsasən, məntiqi ardıcıllıqla şərh edir. | İnşanın, essenin mövzusu ilə əlaqədar fikirlərini məntiqi ardıcıllıqla şərh edir. |
| İnşa, esse yazmaqda çətinlik çəkir. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa qismən nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazmağa, əsasən, nail olur. | Müəyyən edilmiş həcmdə inşa, esse yazır. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

# YEDDİNCİ BÖLMƏ ÜZRƏ KİÇİK SUMMATİV QİYMƏTLƏNDİRMƏ

*Qiymətləndirmə*
*"Ceyran" şeiri üzrə*
*aparıla bilər.*

*Səməd Vurğun*
**CEYRAN**

Yerdən ayağını quş kimi üzüb,
Yay kimi dartılıb, ox kimi süzüb,
Yenə öz sürünü nizamla düzüb,
Baş alıb gedirsən hayana, ceyran?

Əzəldən meylini salıb çöllərə,
Bəxtini tapşırdın bizim ellərə.
O qara gözlərin düşdü dillərə,
Dişlərin oxşayır mərcana, ceyran!

Bir məsəl qalmışdır ata-babadan:
Uçarda turacdır, qaçarda ceyran.
Bir mən deyiləm ki hüsnünə heyran,
Şöhrətin yayılıb hər yana, ceyran!

Elə ki son bahar min büsat qurur,
Kolları, kosları yıxıb uçurur,
Sıxlaşıb bir yerdə baş-başa durur,
Düşəndə çovğuna, borana ceyran.

On addım kənarda yatmayır təkə,
Gəzinir oylağa baş çəkə-çəkə.
Gələn qaraltıdır, yoxsa təhlükə?
Bir özünə baxır, bir ona ceyran.

Ovçu, insaf eylə, keçmə bu düzdən,
O çöllər qızını ayırma bizdən,
Qoyma ağrı keçə ürəyimizdən,
Qıyma öz qanına boyana ceyran,
Nə gözəl yaraşır Muğana ceyran!..

## QİYMƏTLƏNDİRMƏ ÜÇÜN TÖVSİYƏ OLUNAN SUAL VƏ TAPŞIRIQLAR

**1. Bənddə hansı bədii təsvir vasitəsi işlənmişdir?**

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartılıb, ox kimi süzüb,*
*Yenə öz sürünü nizamla düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?*

**2. Şeir parçasını oxuyarkən səsdə hansı çalar yaranmalıdır?**

*Ovçu, insaf eylə, keçmə bu düzdən,*
*O çöllər qızını ayırma bizdən,*
*Qoyma ağrı keçə ürəyimizdən,*
*Qıyma öz qanına boyana ceyran,*
*Nə gözəl yaraşır Muğana ceyran!...*

☐ Fərəh ☐ Sevinc ☐ Xahiş ☐ Kədər

**3. Əsər hansı mövzuda yazılmışdır?**

A) Əmək
B) Təbiət
C) Vətənpərvərlik
D) Qəhrəmanlıq

**4. "Uçarda turacdır, qaçarda ceyran" misrasında hansı fikir ifadə olunmuşdur?**

A) Ceyranın və turacın gözəlliyi;
B) Turacın sürətli uçuşu, ceyranın iti qaçışı;
C) Turacın ceyrandan cəld olması;
D) Ceyranın turacdan cəld olması.

**5. Şair nə üçün ovçunun ceyrana güllə atmasını istəmir?**

**6. "Ceyran" şeiri nadir heyvanlara mərhəmət baxımından hansı əsərlə daha çox səsləşir?**

A) "Kiş haqqında hekayət"
B) "Yetim İbrahimin nağılı"
C) "Ana maral"
D) "İlan və Qurbağa"

**7. Ovçuya müraciəti şairin hansı cəhətini göstərir?**

A) Təvazökarlığını
B) Ovçuluğa həvəsini
C) Əməksevərliyini
D) Təbiətə qayğısını

**8. Şeirdəki bədii təsvir vasitəsi hansı məqsədlə işlədilmişdir?**

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartılıb, ox kimi süzüb,*
*Yenə öz sürünü nizamla düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?*

A) Ceyranın xüsusiyyətləri, qaçışı haqqında daha aydın təsəvvür yaratmaq üçün;
B) Ceyranın görünüşünü təsvir etmək üçün;
C) Ceyranın sayının azaldığını bildirmək üçün;
D) Ceyranın ovlanması səhnəsini təsvir etmək üçün.

**9. Şeirdəki başlıca fikir nədir?**

A) Təbiətdəki nadir heyvanları qorumaq lazımdır.
B) Ceyran öz gözəlliyi ilə insanı heyran edir.
C) Yurdumuzun təbiəti gözəldir.
D) Ceyran bütün heyvanlardan yaraşıqlıdır.

**10. Bənddəki fikirlərə əlavə olaraq siz ovçuya daha nə demək istərdiniz? Fikirlərinizi bir neçə cümlə ilə ifadə edin.**

*Ovçu, insaf eylə, keçmə bu düzdən,*
*O çöllər qızını ayırma bizdən,*
*Qoyma ağrı keçə ürəyimizdən,*
*Qıyma öz qanına boyana ceyran,*
*Nə gözəl yaraşır Muğana ceyran!..*

______________________________________________

______________________________________________

______________________________________________

GÜNDƏLİK PLANLAŞDIRMAYA AİD

# NÜMUNƏLƏR

*Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 2.1.2. Bədii nümunələrlə bağlı fikirlərini aydın və ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi
**İş forması**: fərdi iş, bütün siniflə birgə iş
**Metod və priyomlar:** əqli hücum, müsahibə, fasilələrlə oxu, təqdimat
**Təchizat:** dərslik, nağılın məzmununa uyğun şəkillər, lüğətlər

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün əlavə məlumat.** *Şagirdlərin bədii təsvir vasitələri (epitet, təşbeh) barədə dolğun təsəvvürü olmadığından əfsanənin tədrisində onlarla bağlı tələblər irəli sürülməmişdir. Şagirdlərin aşağı siniflərdə mənimsədikləri məlumata əsaslanan müəllim, sinfin səviyyəsindən asılı olaraq, bu və ya digər dərəcədə məsələni xatırlada bilər.*

**Motivasiya, problemin qoyuluşu.** Bunu fərqli variantlarda təşkil etmək mümkündür. Bunlardan biri dərslikdəki "Yada salın" başlıqlı suallara müraciət edilməsi ola bilər. Bu sualların əsasında aparılan müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşır.


ANA MARAL
(Əfsanə)

Yada salın
– Öyrəndiyiniz hansı əfsanələri xatırlayırsınız?
– Əfsanələrin nağıllarla oxşar və fərqli cəhətləri hansılardır?

Düşünün
– İnsanın təbiətə, təbiətdəki canlılara qəddar münasibəti nə ilə nəticələnər?

Oxuda aydınlaşdırın
– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.

*Dərslik, səh. 12*

***Tədqiqat sualı:*** *Təbiətə, onun canlılarına qayğı nə üçün vacibdir?*

Fərqli fikirlər – fərziyyələr dinlənilir və qeyd olunur.

Müəllim əlavə edir ki, fərziyyələri yoxlamaq, hansının doğru olduğunu müəyyənləşdirmək üçün “Ana maral” əsəri yaxşı vasitə ola bilər. Bunun üçün həmin əsəri ətraflı öyrənmək və araşdırma aparmaq faydalıdır.

**Tədqiqatın aparılması.** Tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasının əhəmiyyəti əsərin oxusuna başlamazdan əvvəl izah olunur. Bu işin həyata keçirilməsi həm əsərin məzmununun qavranılması, həm də şagirdlərin söz ehtiyatının zənginləşməsi üçün faydalıdır.

Şagirdlərə xatırladılır ki, bu cür sözlərin mənası dərsliyin sonunda verilmiş lüğətin, eləcə də lüğət kitablarının köməyi ilə aydınlaşdırıla bilər.

Oxunu fərqli variantlarda təşkil etmək olar. Fasilələrlə oxunu tətbiq etməyi planlaşdıran müəllim onun tətbiqi qaydaları barədə (məktəblilər bu oxu ilə aşağı siniflərdə tanış olurlar) şagirdlərdə aydın təsəvvür yaradır. Fasilələrin ediləcəyi məqamlar əvvəlcədən elan olunur.

*Birinci fasilə:* “A kişi, tez ol, mətləb üstə gəl!” cümləsində.

*İkinci fasilə:* “Aradan bir az keçəndən sonra Nurəli kişi fikirdən xəstəliyə düşdü” cümləsində.

*Üçüncü fasilə:* Əfsanənin sonunda.

Oxunmuş hissənin məzmununun və yeni sözlərin necə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə hər fasilədən sonra müsahibə aparılır. Bu, məzmunun dərindən öyrənilməsinə, şagirdlərin daha diqqətli olmasına əhəmiyyətli dərəcədə təsir edir.

Oxuda yalnız əhvalat və hadisələrin qavranılması ilə məhdudlaşmaq olmaz. Qəhrəmanın xarakterindəki mühüm cəhətlər, əfsanənin bədii gözəlliyi barədə ilkin təsəvvürün qazanılması vacibdir. Bu, sözə, bütövlükdə mətnə həssas, diqqətli münasibətin nəticəsində mümkün olur. Məhz buna görə də əfsanədəki kiçik, lakin məna yükü böyük olan məqamlara diqqətin cəlb olunması vacibdir. Bu, əsərin öyrənilməsinin sonrakı mərhələlərində aparılan işin səmərəliliyinə ciddi təsir edir.

Əsərin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün dərslikdəki suallardan da istifadə etmək məqsədəuyğundur.

Müəllimin təklifi ilə kiçik qruplarda birləşən şagirdlər bütün sualların cavabları ilə bağlı fikir mübadiləsi aparır və təqdimata hazırlaşırlar. Məhz bundan sonra təqdimatlar əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. Təqdimatların fəal dinlənilməsi təmin edilir, eləcə də müzakirədə şagirdlərin hər birinə öz fikrini sərbəst ifadə etmək imkanı yaradılır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması** mərhələsində müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Bu, həmin mərhələnin səmərəli keçməsinə səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, təbiət nə qədər mükəmməl olsa da, insan qayğısına möhtacdır. Təbiətin, onda yaşayan canlıların qorunması həyatın davamı deməkdir.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə olunur.

Dərsdə vaxtdan qənaətlə istifadə əsərdən seçilmiş hissənin geniş formada nağıl edilməsi üzrə tapşırığın icrasına imkan verir. Müəllim dərslikdə verilmiş nümunə əsasında geniş nağıletmənin mahiyyəti barədə şagirdlərdə dolğun təsəvvür yaradır. Şagirdlər müəllimin təklifi ilə əfsanədən hissələr seçib ad verirlər. Məsələn:

1. Nurəli kişinin ovdan dönməsi.
2. Ovçunun ana maralı xilas etməsi.
3. Nurəli kişinin ölüm yatağına düşməsi.

Seçilmiş hissələrin məzmununa aid plan (hansı formada olmasını müəllim təyin edir) tərtib edilir. Əsərin məzmununun seçilmiş hissələr əsasında geniş nağıl edilməsi mətnin dərindən qavranılmasını təmin etməklə yanaşı, şagirdlərin şifahi nitqinin zənginləşməsinə də səbəb olur. Əfsanənin səciyyəvi hissələrinin seçilməsi, adlandırılması və plan tərtibi şagirdlərin məntiqi təfəkkürünün, müstəqilliyinin, ümumiləşdirmə bacarığının inkişafına da şərait yaradır. Deməli, şifahi nitqlə bağlı işlərin yerinə yetirilməsi bir neçə cəhətdən faydalıdır: bu, əsərin məzmununun mənimsənilməsi işinin davamı və dərinləşdirilməsi kimi özünü göstərir; şagirdlər mənasını yeni öyrəndikləri sözlərdən geniş istifadə edirlər, bu, onların söz ehtiyatının artmasına, nitqlərinin zənginləşməsinə imkan yaradır;  şagirdlərdə yaradıcı təfəkkürün, son nəticədə obrazlı düşüncənin formalaşmasına səbəb olur.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Hissələrəayırma, plan tərtibetmə, nağıletmə

Müəyyənləşdirmə

Şərhetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Əfsanədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, geniş nağıl edir. | Əfsanəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu geniş nağıl edir. |
| Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh etməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı fikirlərini qismən aydın, ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini, əsasən, aydın, ardıcıl şərh edir. | Əfsanə ilə bağlı fikirlərini aydın, ardıcıl şərh edir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Əfsanədəki ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Əfsanənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, şaxələndirmə (klaster), debat, diskussiya, müzakirə.
**Təchizat**: dərslik, iş vərəqləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi müxtəlif yollarla (təqdimatların dinlənilməsi və müzakirəsi, müsahibə və s.) müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu** mərhələsi fərqli variantlarda təşkil edilə bilər. Vaxta qənaət baxımından dərslikdəki "Düşünün" başlıqla sual ("İnsanın təbiətə, təbiətdəki canlılara qəddar münasibəti nə ilə nəticələnə bilər?") əsasında müsahibənin aparılması daha məqsədəuyğundur. Müsahibə tədricən tədqiqat sualının formalaşmasına imkan yaradır.

***Tədqiqat sualı:*** *Əfsanədə ifadə olunmuş başlıca fikir, sizcə, nədir?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeyd olunur.

**Tədqiqatın aparılması.** Tədqiqatın hansı formada aparılmasından asılı olmayaraq, dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlığı altında verilmiş tapşırığa və "Əsərlə bağlı açıqlamalar" mətninə müraciət edilməsi vacibdir.

Bütün siniflə birgə iş formasına üstünlük verən müəllim şagirdlərin diqqətini "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın birinci sualına yönəldir. Sualın cavabı fərqli yollarla aydınlaşdırıla bilər. Şaxələndirmə (klaster) şagirdləri daha çox cəlb edir. Hansı yolun seçilməsindən asılı olmayaraq, iki cəhət diqqət mərkəzində saxlanılır. Birincisi, söylənmiş fikirlər əfsanədən gətirilən nümunələrlə əsaslandırılmalıdır. İkincisi, bu obrazın əsərin ideyasının açılmasındakı rol (balası üçün təlaş keçirən maralı xeyirxah ovçunun xilas etməsi) açıqlanmalıdır.

> **Araşdırın. Fikirləşin. Cavab verin**
> 1. Nurəli kişi necə insandır, onun xarakterindəki başlıca cəhətlər, sizcə, hansılardır?
> 2. Əsərin maraqla oxunmasına səbəb, sizcə, nədir?
> 3. Aşağıdakı iki fikirdən hansını əfsanənin əsas ideyası saymaq olar?
>    a) Əfsanədə ananın balasına böyük məhəbbəti ifadə olunmuşdur.
>    b) Əfsanədə "yaxşılıq heç vaxt itmir" fikri ifadə edilmişdir.
>
> **Tətbiq. Müzakirə. Yaradıcı iş**
>
> "Ana maral" əfsanəsində gerçək hadisələrlə səsləşmələr varmı? Varsa, buna səbəb nədir?" mövzusunu müzakirə edin.

*Dərslik, səh. 16*

Tapşırıqdakı ikinci sual tədqiqat sualının aydınlaşdırılmasında daha əhəmiyyətlidir, birbaşa onunla əlaqədardır. Bu sualın aydınlaşdırılması ilə bağlı işi fərqli şəkildə qurmaq olar. Daha məqsədəuyğun

olanı diskussiyanın təşkilidir. Adətən, həmin sualla əlaqədar sinifdə fikir haçalanır. Bu, diskussiya üçün səmərəli zəmin yaradır.

Diskussiyanın debat şəklində təşkil edilməsi faydalıdır. Birinci və ikinci fikirlərin tərəfdarları ayrılır və iki qrup yaranır. Hər iki qrup mövqeyini əsaslandırmaq üçün müzakirəyə hazırlaşır. Diskussiyaya hazırlıq mərhələsində şagirdlərin "Əsərlə bağlı açıqlamalar" mətnini oxumalarına şərait yaradılır.

Problemə münasibətlərinə görə iki qrupa ayrılan şagirdlərə öz mövqelərini sərbəst, lakin müəyyən vaxt çərçivəsində ifadə etmək imkanı yaradılır. Müzakirədə o fikirlər yüksək dəyərləndirilir ki, onlar mətndən seçilmiş nümunələrlə əsaslandırılır. Birinci qrupun üzvləri mövqelərini belə əsaslandırırlar ki¸ təbiətin, heyvanlar aləminin öz "qanunları" var, heyvanlar balalarını müstəqil yaşamağa hazırlayır, onlara uzun müddət qayğı göstərir.

İkinci qrupun üzvləri isə əfsanədəki başlıca ideyanın "yaxşılıq itmir" fikrinə söykəndiyini əsərdən gətirdikləri nümunələrlə sübut etməyə çalışır.

Üçüncü qrup (münsiflər) hansı qrupun mövqeyini qəbul edirsə, bu qərarını əsaslandırır.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması**. Bu mərhələdə diskussiya zamanı deyilmiş fikirlər yekunlaşdırılaraq tədqiqat sualının cavabı dəqiqləşdirilir və fərziyyələrlə müqayisə edilir.

Nəticənin çıxarılması mərhələsinin daha səmərəli olması üçün müəllim istiqamətləndirici suallardan istifadə edə bilər.

*Məsələn:*

1. *Əsərin əfsanə janrında olduğunu necə sübut edə bilərsiniz?*
2. *Əfsanə nə üçün "Ana maral" adlandırılmışdır?*
3. *Maralı ölümdən xilas edən ovçu bu yaxşılığın əvəzini gözləyirdimi?*
4. *Maralın Nurəli kişini ölümdən xilas etməsi sizə hansı atalar sözlərini xatırladır?*

Dərslikdə "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş mövzu üzrə aparılan müzakirə əfsanə janrının xüsusiyyətlərinin başa düşülməsi, bədii ədəbiyyatda insana, onun taleyinə və təsvir olunanlara münasibətinin açıqlanmasına geniş yer verildiyinin aydınlaşdırılması baxımından əhəmiyyətlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Ədəbi qəhrəmanları xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |

| | | | |
|---|---|---|---|
| Əfsanənin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanənin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Əfsanənin ideyasını aydınlaşdırır, əsasən, münasibət bildirir. | Əfsanənin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* ANA MARAL (əfsanə) – 3 saat
## *Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin tipi:** deduktiv
**İş forması:** fərdi iş, kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** diskussiya, problemin həlli, ifadəli oxu.
**Təchizat**: dərslik, iş vərəqləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirə edilməsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Müəllim üçün əlavə məlumat.** *Epik əsərin ifadəli oxusu üzrə işin təşkili zamanı müəllim nəzərə almalıdır ki, bu oxu mətndəki təsvirlərin, təhkiyənin mahiyyətinin qavranılmasına, əsərin ideyasının, qəhrəmanlarının dərk edilməsinə, onlara əsaslandırılmış münasibət bildirilməsinə imkan yaradır.*

**Motivasiya.** Müəllim şagirdlərə əfsanədən aşağıdakı parçanı ifadəli oxumağı təklif edir.

– Daha günaha batmaq istəmirəm!.. Oğlum, Bəhruz, bundan sonra sənin qazancını yeməli olacağıq. Bir də əlimə tüfəng almaram. Meşədən elə utanıram, elə xəcalət çəkirəm ki, bir də ora dönməyə üzüm gəlməz. Sən isə, ay bala, çörəyi tüfəngdən yox, torpaqdan çıxartmalısan.

Bir neçə şagirdin ifası dinlənilir və müzakirə edilir. Aydınlaşdırılır ki, Nurəli kişinin keçirdiyi peşmançılıq və xəcalət hissi ifaların çoxunda əksini tapmamışdır. Müəllim sinfə müraciət edir:

– Sizcə, ifalarda Nurəli kişinin hislərinin qabarıq çatdırılmamasına səbəb nədir?

Müsahibə tədricən tədqiqat sualının müəyyənləşdirilməsinə imkan yaradır.

***Tədqiqat sualı:*** *Əsərin məzmununun təsirli çatdırılmasında ifadəli oxunun əhəmiyyəti nədir?*

**Tədqiqatın aparılması.** Müəllim sözlərin, ifadələrin orfoepiya qaydalarına uyğun oxunmasının vacib olduğunu xatırladır. Qeyd edir ki, əfsanənin mətnindəki cümlələri iki yerə bölmək olar:

*a) əhvalatı nağıl edən təhkiyəçinin (müəllifin) sözləri;*

*b) obrazların sözləri.*

Təhkiyəçinin sözləri aramla, nağılvarı oxunmalıdır. Obrazların – Nurəli kişinin, arvadı Fatimənin, oğlu Bəhruzun, həkimin sözləri isə onların ovqatına uyğun intonasiya ilə oxunmalıdır.

Şagirdlər müəllimin təklifi ilə dərslikdəki mətni oxuyurlar.

Mətndəki fikirlər müzakirə edilir, meydana çıxan suallar aydınlaşdırılır.

Tədqiqat davam etdirilir. Şagirdlər kiçik qruplara bölünür. Onlara əsərdən aşağıdakı hissənin (qruplara fərqli hissələr də təklif edilə bilər) ifadəli oxusunu hazırlamaq tapşırılır:

"Kənddə məşhur ovçu kimi tanınan Nurəli kişi meşədən çox pərişan qayıtdı. Arvadı Fatimə, oğlu Bəhruz onu qarşılamağa çıxdılar. Kişi fikir dəryasına qərq olmuşdu. Fatimə bir addım irəli atıb ərinin çiynindən lüləsi aşağı sallanan tüfəngi götürmək istədi. Nurəli kişi ona mane oldu. Ağır addımlarla evin arxasına keçdi. Tüfəngi çiynindən aşırdı. Arvadının və oğlunun gözləri qabağında neçə il yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşa çaxdı".

Qrupların təqdimatı dinlənilir və müzakirə edilir. İfalardakı nöqsanlar aydınlaşdırılır.

Müəllim əlavə məlumat verərək qeyd edir ki, ifadəli oxu zamanı durğu işarələrinin işləndiyi məqamlarda fasilələr etmək zəruridir. Şagirdlərin diqqəti dərslikdə ifadəli oxu ilə bağlı şərti işarələrin əks etdirildiyi cədvələ yönəldilir, izahat verilir *(dərslik, səh. 199*). Məktəblilərin nəzərinə çatdırılır ki, əfsanənin oxusunda durğu işarələri ilə yanaşı, mətnin məzmununun tələb etdiyi məqamlarda da fasilələrin edilməsi vacibdir. Qeyd edilir ki, fasilə qısa, orta, uzun ola bilər. Qısa fasilədə I, orta fasilədə II, uzun fasilədə III işarəsi qoyulmalıdır.

Şagirdlərə ifadəli oxunun tələblərinə uyğun olaraq, məntiqi vurğu ilə bağlı məlumat verilir, cümlədə məntiqi vurğulu sözün müəyyənləşdirilməsi qaydası öyrədilir. Müəllimin tapşırığı ilə şagirdlər mətndən "Kənddə məşhur ovçu kimi tanınan Nurəli kişi meşədən çox pərişan qayıtdı" cümləsindən "Arvadının və oğlunun gözləri qabağında neçə il yoldaşlıq etdiyi tüfəngin lüləsindən tutub onu daşa çaxdı" cümləsinədək olan parçanı səssiz oxuyurlar.

Şagirdlərə xatırladılır ki, əsərdəki bəzi sözlərin yazılışından fərqli tələffüz olunduğuna diqqət yetirsinlər, həmin sözləri müəyyənləşdirib düzgün tələffüz formasını qeyd etsinlər. Tədqiqat işində verilmiş mətnin üzərində fasilələrin, məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi, şərti işarələr qoyulması tapşırılır:

“[Kəntdə] məşhur ovçu kimi tanınan Nurəli kişi | meşədən çox pərişan qayıtdı. || Arvadı Fatimə, | oğlu Bəhruz | onu qarşılamağa çıxdılar. || Kişi | fikir dəryasına qərq olmuşdu. || Fatimə bir addım irəli atıb | ərinin [çiyninnən] lüləsi aşağı sallanan tüfəngi [götürməy] istədi. || Nurəli kişi ona mane oldu. || Ağır [addımlarnan] evin arxasına [keşdi] ||. Tüfəngi [çiyninnən] aşırdı. Arvadının və oğlunun [gözdəri] qabağında neçə il [yoldaşdığ] etdiyi tüfəngin [lüləsinnən] tutub onu daşa çaxdı. |||”

Müəllim ifaçılıq vəzifəsini müəyyənləşdirmək üçün şagirdlərə sualla müraciət edir: “Oxuduğunuz parçada dinləyiciyə hansı fikri çatdırmaq lazımdır?” Cavablar dinlənilir, “Nurəli kişinin ovdan pərişan, əsəbi qayıtdığını dinləyicilərə çatdırmaq” fikri üzərində dayanılır. Müzakirədə belə bir nəticə çıxarılır ki, oxunmuş hissənin məzmununa uyğun olaraq, təhkiyəçinin sözləri aramla, nağılvarı, aşağı tonda oxunmalıdır.

Şagirdlərə əsərdən ikinci hissənin (“– Daha günaha batmaq istəmirəm” cümləsindən “Ay kişi, sən ki ən böyük xeyirxahlıq eləmisən, day niyə qəm dəryasına batırsan?” cümləsinədək) səssiz oxusu tapşırılır. Oxu başa çatdıqdan sonra müəllim şagirdlərə suallarla müraciət edir:

– Ovdan əsəbi, qanıqara qayıtmış Nurəli kişinin sözləri necə oxunmalıdır? Onun səsinin tonu necədir?

– Bəs arvadı Fatimənin, oğlu Bəhruzun sözləri necə oxunmalıdır?

Cavablarda Nurəli kişinin əvvəlcə əsəbi, yüksək tonda, sonra isə özünü ələ alıb nisbətən sakit tərzdə, peşman əhvali-ruhiyyədə, günahkarcasına danışdığı, Fatimə ilə Bəhruzun isə mülayim, canıyananlıqla söhbətə qoşulduğu qeyd edilir.

Müəllim şagirdlərin diqqətini ayrı-ayrı obrazların danışığında intonasiyanın dəyişdiyinə cəlb edir:

– Fatimənin “A kişi, tez ol, mətləb üstə gəl!” sözləri necə oxunmalıdır?

Müzakirə nəticəsində şagirdlərə aydın olur ki, bu cümlənin oxusunda Fatimənin səbirsizliyi, artıq həyəcanlanmağa başladığı çatdırılmalıdır. Odur ki həmin cümlə nisbətən yüksək tonda, həyəcanlı tərzdə deyilməlidir. Müəllim ifadəli oxu üçün nəzərdə tutulan mətni vərəqlərdə qruplara paylayır. Şagirdlər mətnlə tanış olur, ondakı hər parçanın ifaçılıq vəzifəsini və oxuda intonasiyanın aldığı çalarları müəyyənləşdirirlər.

<table>
<tr><th>Fasilələrin, məntiqi vurğulu sözlərin müəyyənləşdirilməsi</th><th>İfaçılıq vəzifəsinin müəyyənləşdirilməsi</th><th>Səsin tonu, oxuda aldığı çalar</th></tr>
<tr><td>– Daha günaha batmaq istəmirəm!.. ||| Oğlum, Bəhruz, bundan sonra | sənin qazancını yeməli olacağıq. || Bir də əlimə tüfəng almaram. || Meşədən elə utanıram, | elə xəcalət çəkirəm ki, | bir də ora dönməyə üzüm gəlməz. || Sən isə, | ay bala, | çörəyi tüfəngdən yox, | torpaqdan çıxartmalısan. ||</td><td>Nurəli kişinin həyəcanının, keçirdiyi peşmançılıq hissinin təsəvvür edilməsinə nail olmaq.</td><td>Əsəbi,<br>yüksək tonla,<br>peşmançılıq hissi ilə</td></tr>
</table>

| | | |
|---|---|---|
| – Atacan, \| sənin qərarın <u>səbəbsiz</u> deyil, \| sən <u>hər saat fikrindən dönən</u> adam deyilsən. \|\| | Oğlu Bəhruzun atasını sakitləşdirmək istəyini çatdırmaq. | Aramla, mülayim, qayğıkeşliklə |
| – Ay kişi, \| sən ki ən böyük xeyirxahlıq eləmisən, \| day niyə <u>qəm dəryasına</u> batırsan? \|\| | Arvadı Fatimənin Nurəli kişiyə canıya-nanlığını, onu düşdüyü əsəbi vəziyyətdən çıxarmaq, ürək-dirək vermək arzusunu çatdırmaq. | Hərarətlə, canıyananlıqla, səmimiyyətlə |

Şagirdlərin ifaları dinlənilir, müzakirə olunur. Əsərin bütövlükdə ifadəli oxusu həyata keçirilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması**. Bu mərhələdə müzakirə zamanı deyilmiş fikirlər yekunlaşdırılaraq tədqiqat sualının cavabı dəqiqləşdirilir və fərziyyələrlə müqayisə edilir. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, əsərin məzmununu, ondakı başlıca fikirləri ifadəli oxu vasitəsi ilə təsirli, inandırıcı çatdırmaq mümkündür. Buna nail olmaq üçün ciddi hazırlıq işlərinin aparılması vacibdir.

Çıxarılmış nəticələr fərziyyələrlə müqayisə edilir, tədqiqat sualına gətirilən aydınlıq nəzərə çatdırılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Əfsanəni müəllimin köməyi ilə hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni, əsasən, hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Əfsanəni hadisələrin məzmununa uyğun ifadəli oxuyur. |
| Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Əfsanə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat

*Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.

**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.

**Metod və priyomlar:** əqli hücum, müsahibə, ikihissəli gündəlik.

**Təchizat**: dərslik, iş vərəqləri, bədii oxu ustasının ifasını dinləmək üçün vasitə (maqnitofon, kompüter), lüğətlər.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək olar. Rəmzi materiallardan (musiqi parçasının səsləndirilməsi, bədii nümunədən yığcam təsvirin oxusu, rəssamlıq əsərinin nümayiş etdirilməsi və s.) istifadə etməklə motivasiyanın yaradılması mümkündür. Dərslikdəki "Yada salın" başlıqlı sual (Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?) əsasında müsahibə aparmaqla da tədqiqat sualını müəyyənləşdirmək olar.

**Yada salın**

– Vətənimizə – Azərbaycana həsr olunmuş hansı əsərləri xatırlayırsınız?
– Bu əsərlərdə başlıca olaraq, hansı məsələlərdən danışılır?

**Düşünün**

– Doğma yurda həsr olunmuş əsərlər üçün oxşar olan cəhətlər nə ola bilər?

**Oxuda aydınlaşdırın**

– Əsərdə tanış olmayan sözlərin mənasını lüğətlərin, sorğu kitablarının köməyi ilə aydınlaşdırın.
– Əsərdəki bədii təsvir vasitələrini müəyyənləşdirin.

*Dərslik, səh. 44*

***Tədqiqat sualı:*** *Vətənə həsr olunmuş əsərlərdə oxucunu daha çox nə maraqlandırır?*

Şagirdlərin fikirləri – fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Bədii oxu ustasının ifasında (müəllimin nümunəvi ifadəli oxusu ilə də əvəz oluna bilər) şeirin bir neçə bəndinin dinlənilməsi faydalıdır. Bu, sinifdə əsərin məzmununa müvafiq ovqatın yaranmasına səbəb olur. Sonra əsərin oxusu həyata keçirilir. Bu, fərqli oxu formalarının tətbiqi ilə reallaşdırıla bilər. *İkihissəli*

*gündəliyə* üstünlük verən müəllim onun tətbiqi qaydalarını müsahibə ilə xatırladır. Verilmiş nümunənin şagirdlərə nümayiş etdirilməsi faydalıdır.

| *Əsərdə diqqətimi daha çox cəlb edənlər* | *Bunun səbəbi* |
|---|---|
| Dağlarının başı qarlı,<br>Sinəsi yaşıl ormanlı,<br>Dərələrin şirin barlı,<br>Azərbaycan! Azərbaycan! | *Gözlərimin önündə gözəl mənzərələr canlanır.* |
| Durnagözlü bulaqların,<br>Cənnət kimi yaylaqların,<br>Geniş-geniş oymaqların,<br>Azərbaycan! Azərbaycan! | *Maraqlı epitet, bənzətmə işlədilib.* |

İkihissəli gündəlik üzrə fərdi olaraq işləyən şagirdlər tanış olmayan sözlərin mənasının aydınlaşdırılmasını, bədii təsvir vasitələrinin müəyyənləşdirilməsini diqqət mərkəzində saxlayırlar. Şagirdlərə izah olunur ki, onlar müstəqil aydınlaşdıra bilmədikləri məsələləri, izahına ehtiyac duyduqları sualları və s. ikihissəli gündəlikdə əks etdirə bilərlər. Zərurət yaranan məqamlarda müəllim istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərə kömək edir.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra şagirdlərin cütlük şəklində fikir mübadiləsi aparmalarına imkan yaradılır. Sonra təqdimatlar (hər bir şagirdin ayrılıqda təqdimat etməsinə imkan yaradıla bilər) əsasında **məlumat mübadiləsi və müzakirə** aparılır. **Nəticə, ümumiləşdirmə** mərhələsində şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, vətən mövzusunda yazılmış əsərlərdə oxucunu daha çox doğma yurdun əzəməti, gözəllikləri, tükənməz sərvəti, başlıcası isə ona insanların sonsuz məhəbbətinin ifadəsi maraqlandırır.

Çıxarılmış nəticələr fərziyyələrlə və tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə təklif edilmiş təqdimat mövzuları üzrə şagirdlərin fərdi müstəqil işi təşkil olunur. Bu, əvvəlki mərhələlərdə aparılan işin davamı kimi özünü göstərir və təhlilin səmərəliliyində əhəmiyyətli rol oynayır. Səciyyəvi təqdimatların dinlənilib müzakirə edilməsinə, öyrənilmiş yeni sözlərdən necə istifadə olunduğuna xüsusi diqqət yetirilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Müəyyənləşdirmə

Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Şeirdə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Şeirdə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Şeirdə bədii təsvir vasitələrini müəyyənləşdirir. |

| | | | |
|---|---|---|---|
| Şeirlə bağlı şifahi təqdimatlar etmək-də, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Şeirlə bağlı şifahi təqdimatları müəlli-min köməyi ilə edir, öyrəndiyi yeni söz-lərdən nitqində qismən istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Şeirlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat
## *İkinci saat:* **Təhlil üzrə iş**

| **Standartlar** | **Təlim nəticələri** |
|---|---|
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, problemin həlli.
**Təchizat**: dərslik, iş vərəqləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Bu mərhələni fərqli variantlarda təşkil etmək mümkün olsa da, dərslikdəki "Düşünün" başlıqlı sual (Doğma yurda həsr olunmuş əsərlər üçün oxşar cəhətlər nə ola bilər?) əsasında müsahibənin aparılması və tədqiqat sualının müəyyənləşdirilməsi vaxta qənaət baxımından daha məqsədəuyğundur.

***Tədqiqat sualı:*** *Ə. Cavadın "Azərbaycan! Azərbaycan!" şeirinin yüksək dəyərləndi-rilməsinə səbəb, sizcə, nədir?*

Şagirdlərin fikirləri – fərziyyələri dinlənilir, təkrara yol verilmədən qeydlər aparılır.

**Tədqiqatın aparılması.** Tədqiqat sualının aydınlaşdırılması üçün fərqli təlim metodlarından, iş formalarından istifadə etmək mümkündür. Dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə olunması bütün hallar üçün məqsədəuyğundur. Kiçik qruplarda iş forması seçilərsə, şagirdlər məlum üsullardan birinin tətbiqi ilə qruplara bölünür. Hər qrupa iş vərəqi təqdim olunur. Tapşırığın icrası üçün ayrılan vaxt elan edilir. Hər qrupun və qrup üzvlərinin fəaliyyətini müşahidə edən

müəllim ehtiyac yarananda şagirdlərə istiqamət (suallarla, fərqli nümunələr nümayiş etdirməklə, qazanılmış bilikləri xatırlatmaqla və s.) verir.

İş vərəqləri fərqli məzmunda hazırlana bilər.

**I qrup**

*Dərsliyinizdəki "Əsərlə bağlı açıqlamalar" mətnini oxuyun, tapşırığa cavab hazırlayarkən öyrəndiklərinizdən istifadə edin.*

**Tapşırıq**:
1. Şeirin, demək olar, bütün bəndlərində Azərbaycan təbiətinin gözəllikləri xatırladılır. Bunun səbəbini necə izah edərsiniz?
2. "Əsərin əsas ideyası doğma təbiətin gözəlliyinə diqqəti cəlb etməkdir" fikrini doğru saymaq olarmı? Fikrinizi əsaslandırın.

**II qrup**

*Dərsliyinizdəki "Əsərlə bağlı açıqlamalar" mətnini oxuyun, tapşırığa cavab hazırlayarkən öyrəndiklərinizdən istifadə edin.*

**Tapşırıq:**
1. Ölkəmizin zəngin təbii sərvəti, nemətləri şeirdə bircə-bircə sadalanır. Şair bunu nə məqsədlə edir, onun niyyəti nədir?
2. "Əsərin əsas ideyası vətənimizin zəngin təbii sərvəti, nemətləri barədə təsəvvür yaratmaqdır" fikrini doğru saymaq olarmı? Fikrinizi əsaslandırın.

**III qrup**

*Dərsliyinizdəki "Əsərlə bağlı açıqlamalar" mətnini oxuyun, tapşırığa cavab hazırlayarkən öyrəndiklərinizdən istifadə edin.*

**Tapşırıq:**
1. "Qorxun yoxdur, düşmanın var" misrasındakı fikrə görə şairə haqq qazandırmaq olarmı?
2. "Əsərin əsas ideyası diqqəti ölkəmizin qüdrətli olmasına cəlb etməkdir" fikrini doğru saymaq olarmı? Fikrinizi əsaslandırın.

**IV qrup**

*Dərsliyinizdəki "Əsərlə bağlı açıqlamalar" mətnini oxuyun, tapşırığa cavab hazırlayarkən öyrəndiklərinizdən istifadə edin.*

**Tapşırıq:**
1. "Əsərin əsas ideyası vətənə sonsuz məhəbbətin ifadəsidir" fikrini doğru saymaq olarmı? Fikrinizi əsaslandırın.
2. Bu fikri doğru sayırsınızsa, şairin buna necə, hansı bədii təsvir vasitələrinin köməyi ilə nail olduğunu aydınlaşdırın.

İşin icrasına ayrılan vaxt başa çatdıqdan sonra qazanılmış məlumatın mübadiləsi həyata keçirilir. Hər qrupun bir üzvü – lideri öz işlərinin nəticələrini şərh edir. Çıxış edənlərə digər qrupların üzvləri suallar verir, cavabla razılaşmadıqda əlavələr edir, öz mövqelərini əsaslandırmağa çalışırlar. Bu mərhələ **məlumatın müzakirəsi** mərhələsi ilə qovuşur. Müzakirədə cavablardakı nöqsanların aradan qaldırılmasına, fikirlərin əlaqələndirilməsinə xüsusi önəm verilir.

**Nəticənin çıxarılması, ümumiləşdirmənin aparılması.** Müzakirə başa çatdıqdan sonra qrup işlərinin nəticələri ümumiləşdirilir. Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Şeirin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Şeirin ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Şeirin ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, əsasən, münasibət bildirir. | Şeirin ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki “Evdə iş” başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* Ə.Cavad. AZƏRBAYCAN! AZƏRBAYCAN! — 3 saat
## *Üçüncü saat:* **Əsərin ifadəli oxusu**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.2. Heca vəznli şeirləri, sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hadisələrin məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

## Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarına müraciət etməsi məqsədəuyğundur.



III dərs | Əsərin ifadəli oxusu

1. Aşağıdakı mətni oxuyun və müzakirə edin.
   Əsər məzmunundan asılı olaraq, bəzən uca, yaxud aşağı səslə, sürətlə və ya aramla oxunur. Eləcə də səs fərqli çalar – sevinc, fərəh, yaxud kədər, qəzəb və s. qazanır. Oxuda fasilələr edilir; şeirdə misra daxilində, misraların sonunda fasilələrin edilməsi vacibdir. Mənanın açılmasında əhəmiyyətli olan sözlər səslə (fərqli tələffüz edilməklə) diqqətlə çatdırılır.
   Bütün bunlar əsərdəki fikrin və ovqatın dinləyicilərə çatdırılmasında mühüm rol oynayır.
   İfadəli oxuya hazırlaşarkən mətnin üzərində şərti işarələrin qoyulması ifaçının işini xeyli asanlaşdırır.
   Aşağıdakı nümunə bu deyilənlər barədə aydın təsəvvür qazanmağınıza kömək edəcəkdir.



2. Şeirin ilk üç bəndini dəftərinizə köçürün, şərti işarələrdən istifadə etməklə ifadəli oxuya hazırlaşın.
3. İfaları dinləyib müzakirə edin.
4. Öz ifanızı bədii oxu ustasının ifası ilə (www.bakineshr.az) müqayisə edin.

*Dərslik, səh. 47*

Əsərin ifadəli oxusuna həsr olunmuş dərsi fərqli variantlarda təşkil etmək olar. Variantlardan biri dərslikdə təklif olunmuş tövsiyə əsasında ola bilər. Müəllim ifadəli oxu ilə bağlı qazanılmış bilik və bacarıqları xatırlatmaq məqsədi ilə yığcam müsahibə aparır. Ardınca dərslikdəki “Mətni oxuyun və müzakirə edin” başlıqlı mətnin fərdi oxusu həyata keçirilir. Mətnin necə qavranıldığı müsahibə ilə aşkara çıxarılır. Müsahibədə müəllim əlavə məlumat da verə bilər. Şeirin ilk üç bəndi (sinfin səviyyəsindən asılı olaraq bəndlərin sayı fərqli ola bilər) iş vərəqində, yaxud dəftərdə yazılır. Yazılmış mətnin sağ tərəfində qeydlər aparmaq üçün xeyli ağ yer saxlanılır. Bundan sonra şagirdlərin fərdi olaraq işləməsi məqsədəuyğundur. Onlar müəllimin təklifi ilə tonun yüksəldiyi və alçaldığı məqamları, fasilələrin yerini, məntiqi vurğulu sözləri müəyyənləşdirib mətnin üzərində şərti işarələrlə qeyd edirlər. Müəllim şərti işarələrdən istifadə edilməsi qaydalarının öyrənilməsinə xüsusi diqqət yetirir.

Bu prosesdə başlıca diqqət oxuda səsin aldığı fərqli çalarların müəyyənləşdirilməsinə və mətnin kənarında – misraların, bəndin qarşısında qeyd edilməsinə yönəldilməlidir. Bu, asan deyildir. Buna nail olmaq üçün uzunmüddətli gərgin iş aparılmalıdır. Lakin ifadəli oxu ilə bağlı ilk addımlardan bu işin həyata keçirilməsi diqqət mərkəzində saxlanılmalıdır. Şagirdlər tədricən anlamalıdırlar ki, əsərin duyulması, yaşanması həqiqi, inandırıcı, səmimi oxu üçün ən mühüm şərtdir. Bu işlərin yerinə yetirilməsi **tədqiqatın aparılması** kimi qəbul edilə bilər. İfaların dinlənilməsi və müzakirəsi daha ciddi qayğı tələb edir. Məqsəd çoxlu sayda ifanın dinlənilməsi olmamalıdır. Səciyyəvi ifaların dinlənilib əhatəli müzakirə edilməsi daha faydalıdır. Bu, uğurları və nöqsanları daha aydın müşahidə etməyə imkan verir.

Şeirin bədii oxu ustasının ifasında dinlənilməsi və müzakirə edilməsi də məqsədəuyğundur. Bu, şagirdlərə öz ifalarına daha tənqidi yanaşmaq imkanı yaradır. Öz ifalarını bədii oxu ustasının ifası ilə müqayisə etmək bacarığının şagirdlərdə yaradılması isə ifadəli oxu üzrə aparılan bütün işlərdə ön plana çəkilməlidir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

İfadəlioxuma

Münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Şeiri məzmununa uyğun ifadəli oxumaqda çətinlik çəkir. | Şeiri müəllimin köməyi ilə məzmununa uyğun ifadəli oxuyur. | Şeiri, əsasən, məzmununa uyğun ifadəli oxuyur. | Şeiri məzmununa uyğun ifadəli oxuyur. |
| Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Şeirlə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

## *Mövzu:* S.Rəhimov. QARA TORPAQ VƏ SARI QIZIL – 2 saat
## *Birinci saat:* **Əsərin məzmunu üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.1.1. Heca vəznli şeirlərdə və sadə süjetli bədii nümunələrdə (əfsanə, nağıl, təmsil, hekayə) tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| 1.1.3. Sadə süjetli bədii nümunələri (əfsanə, nağıl, təmsil, hekayə) hissələrə ayırır, plan tərtib edir, məzmununu müxtəlif formalarda (yığcam və geniş) nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin məzmununu hazırladığı plan əsasında geniş nağıl edir. |
| 1.1.5. Heca vəznli şeirlərdə, sadə süjetli bədii nümunələrdə bədii təsvir vasitələrini (epitet, təşbeh) müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| 2.1.1. Bədii nümunələrlə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** fərdi iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** əqli hücum, müsahibə, müzakirə.
**Təchizat**: dərslik, əsərin məzmununa uyğun şəkillər.

### Dərsin gedişi

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi əsasında müəyyənləşdirilə bilər. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Şagirdlərin diqqəti "İşləməyən dişləməz", "İstəyirsən bal-çörək, al əlinə bel-kürək", "İşləyən inci taxar, işləməyən yandan baxar", "Zəhmət çəkməyən bal yeməz" atalar sözlərinə cəlb edilir. Onlarda ifadə olunmuş fikrə

münasibət bildirilir. Yığcam müsahibə tədqiqat sualının müəyyənləşdirilməsi ilə yekunlaşdırılır.

***Tədqiqat sualı:*** *Zəhmətə, əməyə qatlaşmayan adamın taleyi, sizcə, necə olar?*

Fərziyyələr dinlənilir, təkrara yol vermədən qeydlər aparılır.

**Müəllim üçün əlavə məlumat.** *Oxunun təşkili müxtəlif variantlarda ola bilər. Proqnozlaşdırılmış oxu daha çox vaxt tələb edir. Onu tətbiq edən müəllim unutmamalıdır ki, hekayənin böyük bir parçasının evdə oxunması lazım gələcəkdir. Fasilələrlə oxunu tətbiq etməklə əsərin bütövlükdə sinifdə oxunması mümkündür.*

**Tədqiqatın aparılması:** İlk növbədə, əsərin oxusu həyata keçirilir. Fasilələrlə oxu seçilərsə, fasilə ediləcək məqamlar əvvəlcədən elan edilir.

*Birinci fasilə:* "Ancaq Qurban qeyrətinə boğulub, dost-düşmən qabağında min məşəqqətlə daşdan çörək çıxarıb gətirsə də, bir gün damın ortasında uzanıb qaldı, od-ocaq söndü, tüstü kəsildi" cümləsində.

*İkinci fasilə:* "Qurbandan səs-səmir gəlmədi" cümləsində.

*Üçüncü fasilə:* "Uzun deyişmədən, bir-birinə ağır sözlər deyəndən sonra onlar mərəyi də satıb, beş manat aldılar" cümləsində.

*Dördüncü fasilə:* Hekayənin sonunda.

Həyat materialı ilə zəngin olan hekayənin məzmunu oxuda ən xırda incəliklərə belə diqqətlə yanaşılmasını tələb edir. Məsələn, Qurban kişinin ağır zəhməti ilə bağlı təsvirlərin mənimsənilməsi nə qədər vacibdirsə, onun düşüncələri barədə deyilənlərin qavranılması da bir o qədər əhəmiyyətlidir. Bu, həm obrazın başa düşülüb qiymətləndirilməsinə, həm də əsərin ideyasının ətraflı aydınlaşdırılmasına imkan yaradır. Eləcə də qardaşların xarakteri, atalarına münasibətləri barədə oxuda ilkin təsəvvürün qazanılması təhlilin səmərəliliyi üçün faydalıdır.

Oxunmuş hissənin məzmununun, tanış olmayan sözlərin mənasının və bədii təsvir vasitələrinin necə mənimsənildiyini aşkara çıxarmaq məqsədilə hər fasilədən sonra müsahibə aparılır.

Əsərin məzmunu ilə bağlı qazanılmış təsəvvürün tamlığına nail olmaq üçün dərslikdəki suallara cavabların hazırlanması məqsədəuyğundur. Müəllim məqsədindən, oxunun hansı səviyyədə aparılmasından və s. asılı olaraq, suallara əlavələr edə bilər.

Fasilələrdə aparılan müsahibədə **məlumat mübadiləsi** həyata keçirilmiş olur. Bu, müzakirənin keçirilməsi üçün kifayət edir. Müzakirədə məzmunla bağlı qazanılmış məlumatın zənginləşdirilməsi, yanlış mülahizələrin aradan qaldırılması diqqət mərkəzində saxlanılır. Bütün bunlar **nəticə, ümumiləşdirmə** mərhələsinin səmərəli keçməsinə səbəb olur. Şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, zəhmətə, əməyə xor baxan insan həyatın adi sınaqlarından belə çıxa bilməz, başqalarına möhtac olar, ömrü boyu ehtiyac içində yaşayar.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə təklif edilmiş növbəti tapşırığın (əsərdən seçilmiş hissənin məzmununun geniş nağıl edilməsi) yerinə yetirilməsinə vaxt ayrılır. Bir neçə təqdimatın dinlənilməsi və müzakirəsi məqsədəuyğundur. Şagirdlərin yeni öyrəndikləri sözlərdən necə istifadə etdikləri, geniş nağıletmənin tələblərini hansı səviyyədə yerinə yetirdikləri müzakirədə diqqət mərkəzində saxlanılır.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*
Aydınlaşdırma
Hissələrəayırma plan tərtibetmə nağıletmə
Müəyyənləşdirmə
Təqdimatetmə istifadəetmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən suallar verməklə və kömək əsasında aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən, əsasən, aydınlaşdırır. | Hekayədə tanış olmayan sözlərin mənasını lüğətlərdən istifadə etməklə aydınlaşdırır. |
| Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib etməkdə, məzmununu geniş nağıl etməkdə çətinlik çəkir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını suallar verməklə və kömək əsasında tərtib edir, məzmununu qismən geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu, əsasən, yığcam, geniş nağıl edir. | Hekayəni hissələrə ayırır, seçdiyi hissənin planını tərtib edir, məzmununu yığcam, geniş nağıl edir. |
| Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirməkdə çətinlik çəkir. | Hekayədə bədii təsvir vasitələrini suallar verməklə və kömək əsasında müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini, əsasən, müəyyənləşdirir. | Hekayədə bədii təsvir vasitələrini müəyyənləşdirir. |
| Hekayə ilə bağlı şifahi təqdimatlar etməkdə, öyrəndiyi yeni sözlərdən nitqində istifadədə çətinlik çəkir. | Hekayə ilə bağlı şifahi təqdimatları müəllimin köməyi ilə edir, öyrəndiyi yeni sözlərdən nitqində qismən istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində, əsasən, istifadə edir. | Hekayə ilə bağlı şifahi təqdimatlar edir, öyrəndiyi yeni sözlərdən nitqində istifadə edir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

*Mövzu:* S.Rəhimov. QARA TORPAQ VƏ SARI QIZIL – 2 saat
*İkinci saat:* **Təhlil üzrə iş**

| Standartlar | Təlim nəticələri |
|---|---|
| 1.2.2. Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, əsaslandırılmış münasibət bildirir. | Ədəbi qəhrəmanların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| 1.2.3. Şifahi və yazılı ədəbiyyat nümunələrində bədii təsvir vasitələrinin (epitet, təşbeh) rolunu aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| 1.2.4. Bədii nümunələrin mövzu və ideyasını aydınlaşdırır, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| 2.2.1. Müzakirələrdə söylənilən fikirlərə münasibətini bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

**Dərsin tipi:** induktiv, bədii əsərin öyrənilməsi.
**İş forması:** kiçik qruplarda iş, bütün siniflə birgə iş.
**Metod və priyomlar:** şaxələndirmə, Venn diaqramı, diskussiya.
**Təchizat**: dərslik, iş vərəqləri.

**Dərsin gedişi**

Ev tapşırığının yerinə yetirilməsi səviyyəsi təqdimatların dinlənilməsi və müzakirəsi ilə müəyyənləşdirilir. Müəllimin müvafiq qiymətləndirmə meyarlarına müraciət etməsi məqsədəuyğundur.

**Motivasiya, problemin qoyuluşu.** Dərsin bu mərhələsini fərqli variantlarda təşkil etmək mümkündür. Variantlardan biri aşağıdakı məzmunda ola bilər. Venn diaqramından istifadə etməklə hekayə ilə nağılın müqayisəsi aparılır. Müəllim qeyd edir ki, nağıllarda insanlar öz istəklərinə çox vaxt sehrli qüvvələrin köməyi ilə çatır, real həyatı əks etdirən hekayələrdə isə insan öz məqsədinə ağlı, zəhməti, əməyi sayəsində nail olur.

Oxuduqları hekayədə bir çox mətləblərə aydınlıq gətirməyin zəruri olduğunu xatırladan müəllim şagirdləri tədqiqat sualının formalaşdırılmasına cəlb edir:

***Tədqiqat sualı:*** *Sizcə, əməyin insan həyatında hansı üstünlükləri hekayədə daha qabarıq əks olunub?*

Fərziyyələr dinlənilir, təkrara yol verilmədən qeydlər edilir.

**Tədqiqatın aparılması.** Tədqiqat sualının araşdırılması fərqli variantlarda həyata keçirilə bilər. Bütün hallarda dərslikdəki "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı suallardan istifadə

**II dərs** **Təhlil üzrə iş**

• **Əsərlə bağlı açıqlamalar.**

Yazıçı öz qəhrəmanlarını oxuculara hərtərəfli tanıda bilir. Onların düşüncələri, danışıqları bir-birinə bənzəmir.

Hekayəni maraqlı edən yalnız əhvalatların, hadisələrin cəlbedici olması deyil. Yazıçının həssaslıqla seçib işlətdiyi sözlər, təsvir vasitələri əsərin bədii təsir gücünü birə-beş artırır, oxucu hekayədən ayrıla bilmir. Hekayədəki "özünü oda-közə vurmaq", "dəyirman çarxı kimi ağır işlərin altında fırlanmaq", "daşdan çörək çıxarmaq" kimi ifadələr Qurban kişinin ağır zəhməti barədə aydın təsəvvür yaradır. Əsərin üzərində müşahidələrinizi davam etdirin, onu maraqlı edən cəhətləri aydınlaşdırmağa çalışın.

**Araşdırın. Fikirləşin. Cavab verin**

1. Qurban kişinin xarakterindəki başlıca cəhətlər hansılardır? Suala cavab verərkən əsərdən gətirdiyiniz nümunələrdən istifadə edin.
2. Onu övladları ilə yumşaq rəftar etməkdə qınamaq olarmı? Nə üçün?
3. Qardaşlar xasiyyətlərindəki hansı cəhətlərə görə bir-birinə bənzəyirlər?
4. Qardaşların xarakterində fərqli cəhətlər varmı? Fikrinizi əsərdən seçdiyiniz misallarla əsaslandırın.
5. Təsvir vasitələrinin əsərin bədii təsir gücünün artmasındakı rolunu aydınlaşdırın. Fikrinizi nümunələrlə əsaslandırın.
5. Hekayə, sizcə, əfsanələrdən hansı xüsusiyyətlərinə görə fərqlənir? Venn diaqramından istifadə edin.
6. Hekayə hansı mövzuda yazılıb, onun əsas ideyası nədir?

*Dərslik, səh. 125*

faydalıdır. "Əsərlə bağlı açıqlamalar" mətninə hələ tədqiqata başlamazdan əvvəl mənbə kimi müraciət edilməsi vacibdir.

Araşdırmanın kiçik qruplarda aparılmasını planlaşdıran müəllim "Araşdırın. Fikirləşin. Cavab verin" başlıqlı tapşırığın suallarından istifadə edir. Həmin suallara əlavələr etmək, onlarda ixtisar aparmaq müəllimin məqsədindən asılıdır.

Qruplara təqdim olunan iş vərəqlərində tapşırıqların icrası üçün istiqamət (metodların seçilməsi və s. barədə) verilir. Məsələn, birinci sualın üzərində işləyən qrupun şaxələndirmədən istifadə etməsi məqsədəuyğundur. İşin sonunda qrup müzakirə, diskussiya aparmaqla hazırladığı cavabı tamamlayır.

İkinci sual üzərində işləyən qrupun müzakirədən, diskussiyadan daha geniş istifadə etməsi faydalıdır.

Üçüncü və dördüncü suallar müqayisə priyomundan istifadəni zəruri edir. Əldə olunmuş nəticələrin müqayisə cədvəlində və ya Venn diaqramında əks etdirilməsi məqsədəuyğundur.

Beşinci və altıncı sualların məzmunu müzakirəyə, diskussiyaya daha çox üstünlük verilməsini tələb edir.

Qrupların işini müşahidə edən müəllim ehtiyac yaranan hallarda istiqamətləndirici suallardan istifadə etməklə şagirdlərə kömək edir.

**Məlumat mübadiləsi** mərhələsində qruplar təqdimatlar əsasında bir-birinin işinin nəticəsi ilə tanış olurlar. Müəllim fəal dinləməyə, daha əhəmiyyətli olanların səsləndirilməsinə nail olur. İstər sözçülərin, istərsə də digər çıxış edənlərin bədii mətndən nümunələr göstərmələrinə, fikirlərini əsaslandırmalarına xüsusi diqqət yetirilir. Birtərəfli mülahizələr, cavablardakı pərakəndəlik **məlumatın müzakirəsi** mərhələsində aradan qaldırılır. Təcrübədən məlumdur ki, şagirdlər Qurban kişi obrazının təhlilinə böyük maraq göstərirlər. Onun öz övladları ilə təmkinli rəftarının səbəbini aydınlaşdırmaqda çətinlik çəkən bəzi şagirdlər mübahisə edir, fərqli fikirlərlə dözümlü münasibət göstərə bilmirlər. Qardaşların müqayisəsində də fikir ayrılığı müşahidə olunur. Onların xarakterlərindəki oxşar cəhətlərin müəyyənləşdirilməsində çətinlik çəkməyən şagirdlər fərqli cəhətlərin aydınlaşdırılmasında müəllimin istiqamətləndirici suallarına ehtiyac duyurlar. Ümumiyyətlə, bu mərhələdə müəllimin istiqamətləndirici suallardan istifadə etməsi məqsədəuyğundur. Belə sualların **nəticə, ümumiləşdirmə** mərhələsində də tətbiq edilməsi faydalıdır. Məsələn, bu mərhələdə: Qardaşları aclıqdan, rüsvayçılıqdan xilas edən nə oldu? İşləməkdən əlləri "üç dəfə suluqlayan, sonra dəmir kimi bərkiyən" qardaşların sonrakı həyatlarını qürurla yaşayacaqlarına inanmaq olarmı? Nə üçün belə düşünürsünüz? – kimi suallardan istifadə olunması tutarlı nəticələrin çıxarılmasına imkan yaradır. Beləliklə, şagirdlərdə belə bir qənaət möhkəmlənir ki, hekayədə təsvir olunan qardaşların əməyə, zəhmətə qatlaşmaları onları rüsvayçılıqdan, hətta məhv olmaq təhlükəsindən xilas etdi. Hekayə belə bir nəticə çıxarmağa əsas verir ki, insanın yaşaması, həyatını qurması və davam etdirməsi üçün əməkdən, zəhmətdən üstün, etibarlı heç nə yoxdur.

Çıxarılmış nəticələr fərziyyələrlə, tədqiqat sualı ilə müqayisə edilir.

Dərslikdə "Tətbiq. Müzakirə. Yaradıcı iş" başlığı altında verilmiş tapşırıq hekayə ilə nağılın janr xüsusiyyətlərinin daha dərindən başa düşülməsinə və konkret faktlarla izahına imkan yaradır. Çıxış edənlərin hər birinə fikrini sərbəst ifadə etmək imkanı yaradılır, müzakirənin diskussiya xarakterli olmasına səy göstərilir.

**Qiymətləndirmə.** Formativ qiymətləndirməni müəyyənləşdirilmiş meyarlar əsasında aparmaq məqsədəuyğundur.

*Qiymətləndirmə meyarları:*

Aydınlaşdırma münasibətbildirmə

| I səviyyə | II səviyyə | III səviyyə | IV səviyyə |
|---|---|---|---|
| Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaqda, münasibətini əsaslandırmaqda çətinlik çəkir. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri qismən aydınlaşdırır, münasibətini əsaslandırmır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri, əsasən, aydınlaşdırır, münasibətini əsaslandırır. | Hekayə qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır, münasibətini əsaslandırır. |
| Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırmaqda çətinlik çəkir. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu suallar verməklə, müəllimin köməyi ilə aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu, əsasən, aydınlaşdırır. | Hekayənin təsir gücünün artmasında bədii təsvir vasitələrinin rolunu aydınlaşdırır. |
| Hekayənin mövzusunu və ideyasını aydınlaşdırmaqda, münasibət bildirməkdə çətinlik çəkir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, suallar və müəllimin köməyi ilə münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, əsasən, münasibət bildirir. | Hekayənin mövzusunu və ideyasını aydınlaşdırır, münasibət bildirir. |
| Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirməkdə çətinlik çəkir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə qismən münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə, əsasən, münasibət bildirir. | Hekayə ilə bağlı müzakirələrdə söylənən fikirlərə münasibət bildirir. |

Müəllim dərslikdəki "Evdə iş" başlıqlı tapşırığın evdə yerinə yetirilməsini şagirdlərə xatırladır.

# I YARIMİL ÜZRƏ LAYİHƏLƏR

## I LAYİHƏ

Mövzu: **Nağıl qəhrəmanları ilə görüş** (esse müsabiqəsi)

Məqsəd:
1. Nağıl qəhrəmanlarının xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırmaq.
2. Nağılların məzmununa fərqli münasibət bildirmək.

Tapşırıq: Təsəvvür edin ki, sizin kosmik gəminiz "Arzular" planetinin Nağıllar ölkəsinə düşüb.

Yazdığınız essedə aşağıdakı məsələlərə toxuna bilərsiniz:
1. Orada görüşmək istədiyim nağıl qəhrəmanı.
2. Bu ölkədəki insanlarda görmək istədiyim müsbət cəhətlər.
3. Nağıl qəhrəmanlarına Vətənimin bu günü haqqında demək istədiklərim.
4. Vətənimə gətirmək istədiyim nağıl qəhrəmanı.

## II LAYİHƏ

Mövzu: **"Nağıllar aləmində"** (tamaşa-viktorina)

Məqsəd:
1. Nağılların məzmununu mənimsəmək.
2. Nağılları təhlil etmək bacarığını formalaşdırmaq.

Tapşırıq:
1. Kiçik parçanın dinlənilməsi əsasında nağılın adının və qısa məzmununun xatırladılması.
2. Surətlərdən birinin adının çəkilməsi ilə nağılın adının və qısa məzmununun xatırladılması.
3. Nümayiş etdirilən şəklə, yaxud şəkillərə əsasən nağılın adının və qısa məzmununun xatırladılması.
4. Adı çəkilən nağıl qəhrəmanının digər nağıllardakı qəhrəmanlarla oxşar cəhətlərinin xatırladılması.
5. Qaliblərin seçilməsi qaydalarının müəyyənləşdirilməsi.
6. Aparıcıların sayının müəyyənləşdirilməsi və çıxışları üçün mətnlərin hazırlanması.
7. Tamaşa-viktorinanın proqramının hazırlanması.

## III LAYİHƏ

Mövzu: **"Doğma yurdum Azərbaycan"** (musiqili - ədəbi kompozisiya)

Məqsəd:
1. Əsərlərin məzmununu mənimsədiyini nümayiş etdirmək.
2. Şifahi nitq bacarıqlarını nümayiş etdirmək.

Tapşırıq:
1. Ssenari yazılır.
2. Bədii əsərlər seçilir.
3. Musiqi əsərləri müəyyənləşdirilir.
4. Bədii əsərləri ifadəli oxuyacaq şagirdlər seçilir.
5. Musiqi əsərlərinin ifaçıları müəyyənləşdirilir.
6. Kompozisiyanın tərtibatı ilə məşğul olacaq qrup müəyyənləşdirilir.

## IV LAYİHƏ

Mövzu: **Ana mövzusunda yazılmış əsərlərin ifadəli oxusu üzrə müsabiqə**

Məqsəd:
1. Əsərin ifadəli oxusunda nitq texnikasının tələblərinə əməl etmək.
2. Şifahi təqdimatlarda bədii əsərlərdən seçdiyi nümunələrdən istifadə etmək.

Tapşırıq:
1. Bədii əsərlər seçilir.
2. Bədii əsərlərin hansı formada (fərdi, cütlük və ya qrup halında) ifa ediləcəyi müəyyənləşdirilir.
3. Müsabiqənin şərtləri müəyyənləşdirilir.

# II YARIMİL ÜZRƏ LAYİHƏLƏR

## I LAYİHƏ

Mövzu: **" Bədii ədəbiyyatda hikmətli fikirlər" toplusunun hazırlanması**

Məqsəd: Müxtəlif mövzulara aid hikmətli fikirləri məntiqi ardıcıllıqla şərh etmək.

Tapşırıq:
1. Materialların (şeirlərin, nəsr əsərlərindən parçaların, şəkil və illüstrasiyaların) seçilməsi.
2. Materiallara şərhlərin yazılması.
3. Tərtibat işləri.
4. Toplunun əlyazma və elektron variantının hazırlanması.

## II LAYİHƏ

Mövzu: **"Şəhidlər unudulmur"** (ədəbi-bədii gecə)

Məqsəd:
1. Şeir və hekayələri məzmununa uyğun ifadəli oxumaq.
2. Şifahi təqdimatlarda bədii əsərlərdən seçdiyi nümunələrdən istifadə etmək.

Tapşırıq:
1. Bədii əsərlərin (şeirlər və nəsr əsərlərindən parçaların) seçilməsi.
2. Bədii əsərləri ifadəli oxu bacarığına malik iştirakçıların müəyyənləşdirilməsi.
3. İfa üçün müvafiq əsərlərin müəyyənləşdirilməsi.
4. İfaları müşayiət edəcək musiqi parçalarının seçilməsi.
5. Aparıcıların müəyyənləşdirilməsi.
6. Proqramın hazırlanması.

## III LAYİHƏ

Mövzu: **"Dünya uşaqların gözü ilə"** (tamaşa-viktorina)

Məqsəd:
1. Sadə süjetli əsərlərdəki təsvirləri məzmununa uyğun ifadəli oxumaq.
2. Mövzu ilə bağlı fikirləri məntiqi ardıcıllıqla şərh etmək.

Tapşırıq:
1. Uşaq əsərlərindən seçilmiş parçaların səhnələşdirilməsi.
2. Şeirlərin və nəsr əsərlərindən parçaların ifadəli oxunması.
3. Qaliblərin seçilməsi qaydalarının müəyyənləşdirilməsi.
4. Aparıcıların sayının müəyyənləşdirilməsi və çıxışları üçün mətnlərin hazırlanması.
5. Tamaşa-viktorinanın proqramının hazırlanması.

## IV LAYİHƏ

Mövzu: **"Doğma təbiətimiz"** (bədii əsərlərin ifadəli oxusu üzrə müsabiqə)

Məqsəd:
1. Təbiət mövzusunda əsərləri məzmununa uyğun ifadəli oxumaq.
2. İfadəli oxuda nitq texnikasının tələblərinə əməl etmək.

Tapşırıq:
1. Bədii əsərlərin seçilməsi, oxu xüsusiyyətlərinin aydınlaşdırılması.
2. Müsabiqənin şərtlərinin müəyyənləşdirilməsi.
3. Münsiflər heyətinin yaradılması.
4. Qaliblərin mükafatlandırılması qaydalarının müəyyənləşdirilməsi.

## V LAYİHƏ (yekunlaşdırıcı)

Mövzu: **"Ədəbiyyat dərsləri bizə nə verdi"** mövzusunda dəyirmi masa

Təqribi plan:
1. Məruzəçilərin müəyyən edilməsi.
2. Müzakirə üçün sualların müəyyən edilməsi.
3. İl ərzində aşağıdakı xüsusiyyətlərinə görə fərqlənən şagirdlərin rəğbətləndirilməsi:
   – ən yaxşı ifadəli oxu nümunələri;
   – ilin fərqlənən inşa yazıları;
   – əsər üzrə ən yaxşı illüstrasiyalar;
   – ilin ən yaxşı tədqiqat işləri;
   – ilin ən yaxşı təqdimatları.
4. 6-cı sinifdə ədəbiyyat dərslərinin daha da maraqlı təşkili üçün təkliflərin müzakirəsi.
5. Mütaliə və fərdi yay layihələri üçün tapşırıqların verilməsi.

**Mənbələr**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. "Azərbaycan müəllimi" qəzeti. 25 oktyabr 2013. N 41 (8558). Azərbaycan Respublikasının Təhsil Qanunu. Bakı, 2009.
2. Azərbaycan Respublikasında ümumi təhsilin milli kurikulumu. Bakı, 2006.
3. Azərbaycan Respublikasında ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası.// Kurikulum, 2009, № 2.
4. Azərbaycan Respublikasının Təhsil naziri M.Cabbarovun Ümumtəhsil məktəb şagirdlərinin mütaliə vərdişlərinin təkmilləşdirilməsi və onlarda mütaliə mədəniyyətinin formalaşdırılması ilə bağlı tədbirlər barədə əmri. (№1279. 16 dekabr 2014-cü il) http://edu.gov.az/az/page/81/9763.
5. Azərbaycan Respublikasının Təhsil naziri M.Cabbarov. Müəllimlik bir missiyadır. "Azərbaycan müəllimi" qəzeti. 15 avqust 2014-cü il.
6. Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi: müasir baxış və konseptual yanaşmalar.// Azərbaycan məktəbi, 2007. № 4. 2005.
7. Ağayev Ə.Ə. Təlim prosesi: ənənə və müasirlik. Bakı: Adiloğlu. 2006.
8. Aslanov Y.Y. Ədəbiyyat tədrisi: Ənənə və müasirlik. Bakı: APU-nun nəşri, 2011.
9. Bəylərov E.B. Formativ qiymətləndirmə.// Kurikulum, 2011, № 3.
10. Ədəbiyyat fənn kurikulumu. http://www/kurikulum/az/images/kurikulumTam edebiyyat.pdf)
11. Əlizadə Ə. Yeni pedaqoji texnologiyalar: bəzi psixoloji və pedaqoji məsələlər. //Kurikulum, 2008, № 1, s.71-78.
12. Əliyev P.B. Ümumtəhsil məktəblərində poetikanın tədrisinin nəzəri və praktik problemləri. (Şeir nümunələri əsasında.) Bakı: Nurlan, 2000.
13. Ərəb–fars sözləri lüğəti. I-II cild. Bakı: Şərq-Qərb, 2005.
14. İnsan hüquqlarının tədrisi. Metodik vəsait. Bakı: Norveç Qaçqınlar Şurasının nəşri. 2003.
15. Kərimov Y.Ş. Təlim metodları. Bakı: RS Poliqraf, 2010.
16. Quliyev Ə.Q., Hüseynoğlu S., Həsənli B.A. Ədəbiyyat fənnindən metodik vəsait. Bakı, 2003.
17. Mikayılov Ş.A., Bəkirova A.M. Ümumtəhsil məktəblərinin V–XI siniflərində ədəbiyyatın tədrisi metodikası. Bakı, Naksuana, 2008.
18. Hacıyeva T.İ. Məktəbdaxili qiymətləndirmədə istifadə olunan üsul və vasitələrin aparılması qaydaları haqqında. // Kurikulum, 2010, № 4.
19. Həsənli B.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: Müəllim, 2011.
20. Həsənli B.A, Hüseynova İ. Azərbaycan məktəblərində beynəlxalq humanitar hüquq üzrə biliklərin öyrədilməsi. Bakı: Beynəlxalq Qızıl Xaç Komitəsinin nəşri, 2006.
21. Həsənli B., Abdullazadə N. İfadəli oxu. Bakı: Müəllim, 2015.
22. Hüseynoğlu S. Ədəbiyyat dərslərində yeni texnologiyalar: fəal/interaktiv təlim. Bakı, 2009.
23. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU-nun nəşri, 2009.
24. Hüseynoğlu S. Ədəbiyyat dərslərində şagirdlərin şifahi nitqinin inkişaf etdirilməsi. Azərbaycan dili və ədəbiyyat tədrisi, 2008, N 1, s.55-62.
25. Veysova Z.A. Fəal/interaktiv təlim. Bakı, 2007.
26. Yusifov F.A. Ədəbiyyatın tədrisi metodikası. Bakı: ADPU-nun nəşri. 2010.

Həsənov Bilal Ağabala oğlu
Əliyev Soltan Hüseyn oğlu
Səfərova Əminə Əli qızı
Quliyev Əsgər Qədir oğlu

**Ədəbiyyat – 5.**
*Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün*
*“Ədəbiyyat” fənni üzrə müəllim üçün metodik vəsait.*

---

Bakı, “Bakınəşr” – 2016
e-poçt: bn@bakineshr.az

Nəşriyyat redaktoru: K.Abbasova
Texniki redaktor: Z.İsayev
Kompüter tərtibatçısı: P.Məmmədov
Korrektor: A.Məsimov

Qarnituru: məktəb və arial.
Kağız formatı: 70x100$^{1}/_{16}$. Ofset kağızı. Ofset çapı.
Fiziki çap vərəqi 13.
Tirajı: 4000. Pulsuz.
“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.

Pulsuz

MÜƏLLİM ÜÇÜN METODİK VƏSAİT

# 5

# Ədəbiyyat